# İLAHİYYAT ELMLƏRİ VƏ İSLAM MAARİFİ

**Müəllif: Ustad Cəfər Sübhani Təbrizli**
**Tərcüməçi: Mirzə Rəsul İsmayılzadə**

**AZƏRBAYCANIN QUMDAKI MƏDƏNİYYƏT OCAĞI**

**Ustad Cəfər Sübhani Təbrizli**

# İLAHİYYAT ELMLƏRİ VƏ İSLAM MAARİFİ

**Azərbaycanın Mədəniyyət ocağı**

**Qum şəhəri**

**Kitabın adı:**........................ İlahiyyat elmləri və islam maarifi
**Müəllif:**................................................ Cəfər Sübhani Təbrizli
**Tərcüməçi:**...................................... Mirzə Rəsul İsmayılzadə
**Nəşr edən:**............ Azərbaycanın Qumdakı Mədəniyyət ocağı
**Çap tarixi:**....................................... 1994 miladi / 1371 şəmsi
**Tiraj:**........................................................................... 5000
**Mətbəə:**........................................................ Əlhadi mətbəəsi

## ÖN SÖZ

Sizə təqdim olunan Ayətullah Cəfər Sübhani Təbrizli həzrətlərinin fars dilində «İlahiyyat elmləri və islam maarifi» adında yazdığı kitabdır ki, islam ideologiyası sahəsində aiddir. Bu kitabda islam dünyagörüşü aydın şəkildə izah edilmişdir. Müəllif bir çox məsələlərə toxunaraq, islam dünyagörüşü bir realist dünyagörüşü kimi təqdim edir. Yeri gəldikdə materializmın əsaslarını və başqa idealoqiyaları tənqid edir, materializmə yönəlmənin əsas səbəblərini də göstərir.

İslam ideologiyasını və tövhid dünyagörüşünü mənimsəmək bu kitabı ciddiyyət və tam diqqətlə oxuyub öyrənməyi tələb edir. Və beləliklə oxucu bir realist dünyagörüşünə malik olur. Kitabda imanın müsbət cəhətlərindən, allahşünaslığın sübutu yollarından, tövhiddən, tövhidin sübutlarından və materializmə yönəlişin əsas səbəblərindən bəhs olunmuşdur. Bu mövzular birlikdə islam mətnlərində ilahiyyat və maarif adlanır. Bu səbəbə görə də kitab «İlahiyyat elmləri və islam maarifi» adlanmışdır.

Aydındır ki, ilahiyyat elmlərinin və islam maarifinin zənginliyini təkcə bir kitabda izah etmək mümkün deyildir. Bu kitabda ilahiyyat elmləri müəyyən miqdarda izah edilmişdir. Müəllif çox çalışmışdır ki, hər bir mövzunu konkret şəkildə və lazımi misallarla izah etsin. İslam dininin prinsipləri adlanan tövhid, ədl, nübüvvət, imamət və məadı sıra ilə ayrı-ayrı fəsillərdə və hər birisini 20 dərsdə bəyan etmişdir. Nübüvvət bəhsini isə iki hissəyə bölmüşdür. Biri «Allah və peyğəmbər» başlığı altında, digər isə «Allah və islam peyğəmbəri» başlığı altında bəhs edilmişdir.

Demək kitab aşağıdakı altı fəsildən ibarətdir:

1. Allah və yaradılış sistemi.
2. Allah və onun cəlal və cəmal sifətləri.
3. Allah və peyğəmbərlər.
4. Allah və islam peyğəmbəri.
5. Allah və imamət.
6. Allah və məad.

Burada müəllifin tərcümeyi-halına işarə etməyi də lazım bildik.

Kitabın müəllifi Təbrizli Ayətullah Cəfər Sübhani Təbrizli günəş ili 1308-ci ildə Təbriz şəhərində anadan olmuşdur. O, 1325-ci ildən Qum şəhərinin dini hövzəsində şəriət dərslərini Ayətullah Hüccət Kühkəməri, Ayətullah Bürucirdi və İmam Xomeyni (r.ə) həzrətlərindən öyrənib, ictihad dərəcəsinə çatmışdır.

Qırx ildən artıqdır ki, Qum hövzəsinin böyük ustadlarındandır, minlərlə tələbə tərbiyə etmişdir.

Ərəb və fars dillərində səksəndən çox əsəri vardır. Bir sıra əsərləri azərbaycan, türk, ingilis, fransa, urdu və ispan dillərinə tərcümə edilmişdir.

«Təfsiri-mövzui» adlanan yeni üslubla Quranı təfsir etməyin təməlçilərindən olub və Həzrəti Mühəmməd (s)-ın həyat haqqında «Füruği əbədiyyət» - «Əbədi işıq» adlı əsərin sahibidir.

Ayətullah Cəfər Sübhani Təbrizli hal-hazırda Qum şəhərinin dini hövzəsinin böyük ustadlarındandır. Onun etiqadiyyat sahəsində bir çox əsəri vardır. Ən mühüm «İlahiyyat elmləri və islam maarifi» həmin kitabıdır ki, biz onu Azərbaycan dilində tərcümə edib, hörmətli azərbaycanlı bacı-qardaşımızın faydalanmaları üçün çap etdik. Kitabın tərcüməsi barədə sizin göstərişlərinizi, tənqidlərinizi və təkliflərinizi gözləyirik.

**Azərbaycanin Qumdakı Mədəniyyət ocağı**

**Seyyid Əli Əkbər Ocaq Nijad**

# *BİRİNCİ FƏSİL*

# *ALLAH VƏ YARADILIŞ ALƏMİ*

## BİRİNCİ DƏRS

## TANRI HAQQINDA TƏDQİQAT APARMAĞIMIZIN SƏBƏBİ

Bəşər ən əski zamanlardan bəri, «Bu aləmin bir yaradıcısı vardır» deyə, Allaha inanmışdır. Böyük mədəniyyətlərin, ümumi bəşəri elmlərin və əqidələrin təməlçisi kimi tanınan hörmətli alimlər, filosoflar, tədqiqatçılar və böyük kəşfiyyatçılar inanırlar ki, «Bu xilqətin əsrarəngiz nizam-intizamı, böyük bir Pərvərdigarın və qüdrətli yaradıcının əsəri və nişanəsidir. Həmçinin bu təbiətin gözəlliyi və onun heyrətləndirici boyaqlarla boyanması və dunyanın bu zahiri nəqş-nigarlığı bir bacarıqlı rəssamın varlığını göstərməkdədir. O, hikməti və sonsuz elmi ilə bütün aləmi və onun hər bir parçasını müəyyən ölçülərlə yaratmışdır». Habelə tarix boyu özlərini Allahın Peyğəmbəri və səfiri kimi təqdim edən bir sıra təmiz və hər bir aludəlikdən uzaq olan şəxsləri tanıyırıq ki, öz risalətləri və öhdələrinə aldıqları vəzifələrini yerinə yetirmək üçün bir çox fədakarlıqlar edib, əllərindən gələni əsirgəməmişdilər. Onlardan bəziləri xalqı hidayət etmək və irşad etmə yolunda öz həyatlarındanda canlarından da keçmişdilər.

Açıq-aydındır ki, onların öz yollarında hər tərəfli fədakarlıqları, öz dediklərinə möhkəm inandıqlarından mənşələnmişdir.

İndi bu sualla rastlaşırıq ki, əcəba, aralarında bir çox böyük alimlər, mütəfəkkirlər, saleh və təmiz insanlar olan cəmiyyətlərin imanı kifayət etmir ki, biz onların imanlarının və əqidələrinin doğruluğunu təsdiq edək?

Əgər bir nəfər bunu inkar etsə, ondan soruşmalıyıq ki, ümum bəşərin bir çoxunun Allahın varlığına dair söz birliyi və fikir birliyi ən azından buna səbəb olmazmı ki, onların bu əqidəsinin doğruluğuna ehtimal verək, və aləmin bir yaradıcısı olduğunu təsdiq edək? Bu ehtimalı inkar etmək olmaz. Hər bir insaflı və vicdanlı adam yaxşı bilir ki, belə bir ehtimalı inkar etmək olmaz.

Bu ehtimal olmaqla biri bu barədə tədqiq etməzsə, «Bəlkə Allaha inananların sözü düzdür» deyə, həmişə iztirab keçirməkdə olub qorxar, və onu yüngül saydığı üçün kafirlər üçün olan ağır əzablara düçar olar. Bu üzdən ehtimal edilir ki, əqidə prinsipləri barədə tədqiqat aparmamaq, axirət ziyanlarına uğramağa səbəb olar.

Hər bir ağıllı şəxs bilir ki, mühüm ziyandan ehtimal üzündən olsa da belə, çəkinmək lazımdır. Əslində ehtimali ziyandan çəkinmək bəşərin fitrətində qoyulmuşdur. İnsan bəzən bir uşağın da sözünə inanıb, əhəmiyyət verir və onu araşdırır. Əcəba etinasızlığının ziyanı

ödənilməyən peyğəmbərlərin və böyük alimlərin sözlərinə necə inanmaq olmaz? (Necə olar ki, o, peyğəmbərin və alimlərin sözünə inanmasın.) Bir halda ki, onların sözünə etinasızlıqla yanaşmaq insanı ödənilməyən ziyana uğradar. Və ya tədqiqat aparmaq da belə, necə çəkinə bilər?

# İKİNCİ DƏRS

# ALLAHA İNANMAĞIN MÜSBƏT VƏ DƏYƏRLİ TƏSİRLƏRİ

## 1. QƏRİZƏLƏRİN NORMALLAŞDIRMASI

İnsan, bir qərizələrə və meyillərə malikdir ki, onun həyatı o meyillərə bağlıdır. Əgər bir gün insandan bu meyillər alınsa, sanki ondan yaşamaq duyğusu alınmışdır. Amma bu meyillər o zaman insan cəmiyyətinə faydalı olar ki, onları hər hansı bir ifratdan və təfritdən qoruyasan. Başqa sözlə, bu meyillər və qərizələr normallaşdırılmalı və doğru və düzgün şəkildə rəhbərlik olunmalıdır. Misal üçün, baliğ olan vaxtda qız-oğlanın cinsi meyilləri daxili qərizələrinin zahirləşməsi və qabarmasıdır ki, kainatın xaliqi onlarda yaratmışdır, və bəşər nəslinin davamı ona bağlıdır. Amma həmin meylin kontrola alınmaması, bir çox ictimai qaydaların pozulmasına və cəmiyyətdə hərc-mərcliyə səbəb olar.

Habelə «xudpərəstlik» hissi həyatın təməli sayılır. Çünki insan özünü istəməsə və bu meyl onda məhv olsa, öz həyatının davamı üçün heç bir fəaliyyət etməz. Xətər vaxtı özünü qorumaz. Nəticədə onun həyat məşəli sönər. Digər tərəfdən, əgər insan həmin meylini kontrola almasa, hər şeyi özü üçün istəsə, nəticədə bədbəxtliyə uğrayıb zülm etməyə və ədalətsizliyə sarı yönələr.

«Qəzəblənmə və hiddətlənmə» hissi də insan həyatında mühüm rol ifa edir. Bu hiss insanı hər hansı bir xətərlə qarşılaşdıqda özündən müdafiə etmək üçün bütün maddi və mənəvi qüvvələrindən fadalanmaq qərarına gətirir. Əgər bir şəxsdə bu hiss olmazsa, onun fərdi və ictimai hüququna təcavüz olar və xətər vaxtında özündən müdafiə edə bilməz. Amma həmin hissdə ifrat etsə, nəticədə cəmiyyət fəsada çəkilər. Başqa qərizələr də eynidir.

Nəhayət, əgər insan öz qərizə və meyillərini kontrola alıb, normal vəziyyətə salmasa, hər kəs öz qərizəsini doyurmaq fikrində olar və nəticədə insan həyatının dağılmasına, bir çox qırğınlara, ədalətsizliyə və başqa ictimai fəsadlara səbəb olar.

Qərizələri normallaşdırmaq üçün ən yaxşı yol cəmiyyətdə məsuliyyət hissi yaratmaqdır. Yəni cəmiyyət özünü hər anda və ləhzədə bir böyük və mütləq qüvvənin qarşısında məsul hiss edib, o qüvvə onların əməllərini nəzarət altına almasını yəqin etsinlər. Həmçinin o qüvvənin onların yaxşı işlərindən qədrdanlıq edib, yüksək dərəcələrdə mükafatlandıracağına dair inansınlar. Habelə inansınlar ki, o qüvvə, öz qərizələrini doyurmaqda ifrata və ya təfritə uğrayan şəxsləri cəzalandıracaqdır. Belə bir məsuliyyət hissi, alim, qadir, hazır və nazir, eşidən və görən, bəşərin daxili və xarici işlərindən agah olan Allaha inanmadan təmin olmaz.

Bəzi yoxsulları görürük ki, yoxsul olduqları halda başqalarının əmlakına əl uzatmırlar. Şəhvətlərinin şiddətli vaxtında başqasının namusuna baxmırlar, bir vəzifə almaq üçün qeyri-şəri iş görmürlər. Belə bir kontrol yalnız Allaha inanmaqla, mükafata ümid bəsləməklə və cəzadan qorxmaqla ola bilər. Demək, bu Allaha inanmaqdır ki, sapqındırıcı meyilləri kontrola almaqda son dərəcədə təsirlidir.

## 2. ƏXLAQİYYATIN VƏ ƏXLAQİ SƏCİYYƏLƏRİN PƏRVƏRİŞİ

İnsani səciyyələr və əxlaqi üstünlük meyilli olmaq bizim zatımızda və fitrətimizdə qoyulmuşdur. Başqa sözlə, yaxşılıqlara meyl göstərmək, pisliklərdən çəkinmək bizim fitrətimizdə köklü bir şeydir. Heç kəs, doğru olmağı, pis və xəyanət etməyi yaxşı bilmir. Aləmdə elə bir insan tapılmaz ki, ilqara vəfalı olmağı, pis və ilqara vəfasız çıxmağı yaxşı bir iş bilsin.

Dinlər, məzhəblər, öz mükafatları və cəzaları ilə, insanda belə bir üstün əhval-ruhiyyənin yaranmasında və pərvəriş edilməsində ən təsirli rol ifa edə bilərlər. Çünki din öz proqramları ilə insana yaxşı sifətlərə malik olmağı öyrədir. Və mükafatları və cəzaları ilə, xalqı yaxşı işlərə sarı yönəldir və pis işlərdən çəkindirir.

Alimlər, məzhəbi və dini əxlaqiyyatın arxası bilirlər. Məzhəbə arxalanmayan əxlaqiyyatı qəbul edilməz bilirlər. Çünki fədakarlıq, yoxsullara yardım etmə, düzlük, doğruluq, əmanətdarlıq, iffət və bu kimi əxlaqi mövzulara və prinsiplərə riayət etmək bir çox yerlərdə maddi məhrumluqlarla yanaşıdır. Dəlili yoxdur ki, bir nəfər heç bir səbəbi və mənəvi qəsdi olmadan, o məhrumluğa dözsün. Amma insan inansa ki, bu məhrumluqlara o biri dünyada mükafat verəcəklər və belə keçici naməşru ləzzətlərə aludə olmağı ağır əzabla cəzalandıracaqlar, onda bu məhrumluğa dözər.

## 3. ƏDALƏTİN YAYILMASI VƏ QANUNLARIN QÜVVƏYƏ MİNMƏSİ AMİLİ

Dünyəvi hökümətlər din və imana əhəmiyyət vermədən hökümət etmək istəyirlər. Onlar sadəcə aşkar xilafların və təcavüzlərin qarşısını ala bilərlər, amma heç vaxt gizli və təhlükəsizlik qüvvələrinin gözündən uzaq qalan təcavüzlərin qarşısını ala bilməzlər. Belə bir xilafların və qanuna zidd əməllərin qarşısını imandan, məsuliyyət hissindən və ilahi cəzalardan qorxmaqdan başqa heç bir şey ala bilməz. Zira iman höküməti elə qüvvətlidir ki, insanı sadəcə aşkar qanuna zidd olan əməllərdən saxlamır, bəlkə onu daxili və gizli günahlardan da saxlayır. Hətta insanı günahı fikirləşməkdən və pis bir işi görməyə qərara gəlməkdən də saxlayır.

Bəli, bünövrəsi əxlaqiyyat və insani səciyyələrlə, və əsası imanla və Allahdan qorxmaqla qoyulan cəmiyyətdə qanun ən yaxşı şəkildə icra

olunar. Qanun belə cəmiyyətlərdə elə nüfuz və qüvvəyə malikdir ki, qaranlıq gecələrdə, öz-özünə, polis olmadan icra olunur və həyata keçirilir.

Allah və məzhəbə inanmağın bir belə faydaları varsa və cəmiyyətin taleyində bu qədər təsirlidirsə, bəs nə üçün insan onun haqqında tədqiqat aparmasın? Təki onun həqiqəti olmuşsa, bir belə faydalardan faydalansın.

Heç kim tədqiq etmədən və araşdırmadan iddia edə bilməz ki, allahpərəstlik, axirət, mükafatlar və cəzalar, - zənn və gümandan başqa bir şey deyildir. Əgər bu sözü dildə də desə ürəkdə onun xilafını qəbul etmişdir. Hər bir araşdırıcı aqilin vəzifəsidir ki, bu barədə mütaliələr edib, tədqiqatlar aparsın, təki araşdırmaqla Allaha iman gətirsin və onun dünya və axirət faydalarından məhrum qalmasın.

## ÜÇÜNCÜ DƏRS

## RUHİ BÖHRANLAR VƏ NİGƏRANLIQLAR

İnsan elmin gücü ilə həyatının bir çox problemlərini həll etmişdir. İradəsizliyinin, zəifliyinin, bir hissəsinə son qoymuşdur. Misal üçün, görünməz düşməni olan mikrobu görüb, onunla necə mübarizə aparmasını öyrənmiş və özünü bir çox xəstəliklərdən qurtarmışdır. Yeraltı sərvətləri çıxartmaqla, təbiətin müxtəlif imkanlarından faydalanmaqla bir çox maneələri qarşısından götürmüş və ürəyi istədiyi kimi öz rahatlıq vəsaiti təmin etmişdir.

Amma bu gözədəyər elmi müvəffəqiyyətlərə nail olsa da, səadətli həyatın bünövrəsi sayılan mənəvi, ruhi və psixoloji rahatlığa nail ola bilməmişdir, hətta maddi tərəqqilərin və cismi rahatlıqların artması ilə bərabər günü-gündən ruhi problemlər də çoxalmışdır. Və bu problemlər o dərəcədə artmaqdadır ki, nəzərə gəlməyən ruhi böhranlar və psixoloji nigəranlıqlar maddi tərəqqilərlə və maşın mədəniyyəti ilə birgə olmuş və bir-biri ilə əlaqədar, yanaşı irəliləməkdədirlər.

Əlbəttə, insan bütün əsrlərdə bir növ həyacanla, iztirabla əlbəyaxa olmuşdur. Amma müasir dövrdəki kimi heç vaxt belə bir qorxuya, izdirab və həyacana, ruhi pərişanlığa və psixoloji xəstəliklərə düçar olmamışdır. Sözümüzün şahidi texnika sahəsində qabaqcıl olan dünya ölkələri mətbuatı orqanlarının yaydıqları rəqəmlərdir. Əlbəttə bu həyacanın və nigaranlığın bir sıra səbəbləri də vardır ki, indicə onları qeyd edəcəyik:

### 1. HƏDİZ-HESABSIZ MATERİALİSTLİK

Mənəviyyatı unudub, dünyanın keçici yaşayışından savayı başqa məqsədi olmayan bir qrup öz daxili istəklərini təmin edib, rifahda yaşamaq üçün daim çalışmaqdadırlar. Ancaq bununla belə, istəklərinin onda birinidə təmin edə bilmirlər. Belə bir dünyasevərliyin, rifahtələbliyin nəticəsi fikri rahatlığın yox olması, iztirab və həyəcan keçirməkdən başqa bir şey deyildir. Məqsədi sərvət yığmaqdan, maddi faydalar və cismani ləzzətlərdən başqa bir şey olmayan və gərçəkdə ruh və düşüncə fəzasını dünyasevərlik və məddəpərəstlik işğal edən kimsə öz istəklərinin böyük hissəsini təmin edə bilmədiyinə görə fikri narahatlığa, iztirab və nigəranlığa duçar olub, həmişə iztirab keçirməkdədir. Bu səbəblərə gələcəyin qaranlığı fikri artırılsa, bu dərdlər və əndişələr bir qorxunc mürgə kimi onun behnin aradan aparar. Bu, iztirab keçirmənin ən muhum səbəbidir.

## 2. ÇƏTİNLİKLƏR VƏ MÜSİBƏTLƏR

Bu dünya müsibət və çətinliklərlə doludur. Hər bir kimsə öz həyatı boyunca müxtəlif məhrumiyyətlərlə, çətinliklər və məğlubiyyətlərlə qarşılaşmışdır. Onların hər birisi iztirab, diksinmə, nigəranlıq və qəm-qüssənin törənməsinə ən mühüm səbəbdir. Həyat gəmisi müxtəlif çətinliklər dalğası ilə üz-üzə duran fırtınalı dünyada heç kimsə öz ruhunda bu amillərin təsirini inkar edə bilməz.

### ÖLÜM ƏNDİŞƏSİ

Hər bir adam bir gün ömrünün qurtaracağına inanmışdır. Ölüm əndişəsi bir qorxunc div kimi insanın göz önündə dayanır. Ölümü həyatın qurtaracağı bilib, ondan sonrakı axirət həyatına inanmayanlar üçün xeyli can üzünü və narahatlıq törədən olub, onların həyatınıı, xüsusilə, ömrlərinin son çağlarını, tam kədərləndirər, hər bir yaşayış şadlığını pozub, aradan aparar. Bəzən bu mərhələdə ruhi təzyiq o qədər şiddətli olar ki, insanı vaxtsız ölüm sərhəddinə kimi çəkər. Çünki, belə bir əqidə ilə (yəni ölümün fəna və yoxluq qapısı olduğuna inanmaq) rifah və rahatlıqda yaşayan insan özünü fəna və yoxluq ərəfəsində gördüyü zaman tam şəkildə naümid olub, hər şeydən məyus olar. Bununla yaşayışın şirinliyi ona acı olur.

Bu səbəbdən materialist mühitində yaşamış həmişə ruhi təzyaqatlarla birlikdə olur. Materialist bir insan həmişə özünü iztirab və nigaranlıqlardan qurtarıb, psixologiyasının sarsıntısına dinc bir sığnacaq axtarır. Bəzən özünü qurtarmaq üçün narkotik maddələr və qumar oynamağa üz gətirir. Təki ağlı və duyğusunu aradan apran amillərin kölgəsi altında bir neçə müddət rahatlıqla və xəbərsizlik aləmində keçici olursada, öz fikri və ruhunu unutmaqla yaşaya bilsin. Və ruhi təzyiqlərdən qurtarsın. Bəzən də bu təzyiqləri aradan azaltmaq üçün teatr, musiqi və kinoya pənah gətirir, elə təsəvvür edir ki, bunlar aldadıcı cilaları ilə onun sarsılmış ruhunun iztirablı düşüncəsini bu təhlükədən qurtarıb, dinclik sahilinə çatdıra bilərlər.

Əcaba, batil təsəvvür?! Neçə də mümkün olmayan xam xəyal.

Amma bir müddətdən sonra bu amillərdən də çiyrəyir və elə bir mərhələyə gəlib çatır ki, intihardan başqa bir çıxış yolu tapa bilmir.

## DÖRDÜNCÜ DƏRS

## ALLAHA İNANMAĞIN PSİXİ BÖHRANLARIN AZALMASINA TƏSİRİ

Allaha inanmaq, məzhəbə arxalanmaq və axirət duasına iman gətirmək insanın ruhunda bu narahatlıqları və nigaranlıqları azaltmaqda ecazkaranə təsir buraxır. Allaha inanmaq iztirabyaradıcı amilləri xunsa edib, kökdən yox edir. Çünki məzhəb öz həyatverici əxlaqiyyat proqramları və təlimatları ilə psixoloji ehtirasların səbəbi sayılan tamahkarlığı, məqamtələbliyi, mal-dövlət sevərliyi gözəl şəkildə tədil edir. Və onu nəfsi böyüklüyə, yaxşılıq etməyə, pis işlərdən çəkinməyə çağırır. Böyük mükafatlar və cəzalar müəyyən etməklə onun tamahkarlığını kontrol altına alıb, insanın rahatlığını və dincliyini pozan hədsiz-hesabsız dünyasevərliyin və rifahtələbliyin qarşısını alır. İnsanlıq şəninə yaraşan mənəvi dəyişikliyi insan ruhunda gücləndirir. Xüsusilə islam dini insanın dünyaya nisbət sevgisini azaltmış və dünyanı və onda olan bütün yaşayış materiallarını məqsəd deyi, bir vasitə kimi qiymətləndirmişdir. İnsanı, dünyanı məqsəd bilməkdən çəkindirəkən, dünya və maddiyatdan törənən iztirabın və ehtirasın ilk amilinin pis və bəyənilməz təsirini aradan aparmışdır.

İnsan hikmətli, mehriban və bəndələrinin xeyir-şərinə agah olan Allaha inanmaqla acı hadisələrin, müsibətlərin, bəla və çətinliklərin pis və bəyənilməz təsirinin qarşısını alır. Çünki Allaha inanan kimsə bilir ki, onun üçün baş verən hadisələr, bütün işləri məsləhət və əql üzündən olan mehriban, hikmətli, qüdrətli və bilən Allahın təqdiridir. Özəlliklə müsibətlərin qarşısında dözümlü olduğunun dəyərli mükafatı olacağına diqqət yetirərsə, daha faydalı olar. Əlbəttə Allahın qəza və qədərinə inanmağın mənası bu deyilir ki, fasid cəmiyyətin təzyiqi altında əlimizi əlimizin üstə qoyub, müxtəlif zülm və haqsızlıqlar qarşısında «dözək» və təqdir deyə, susub dinməyək. Bəlkə bundan məqsəd insanın ixtiyarı və qüdrəti çatmayan və insanın ağlına, xəyalına sığmayan müsibətlər və çətinliklərdir. Örnək olaraq zəlzələ, sel, ölüm və digər kədərləndirici hadisələrin bir çox hissələri kimi. Beləliklə insanın ikinci çətinliyi həll olub, acınacaqlı hadisələr qarşısında dözümlü və güclü olaraq iztirab və təşvişin qarşısını alar.

Din, insanı məad və axirətə inandırıb, həyat secimini ölümdən sonrakı aləmədək uzatmış və ölümü əbədiyyətin qapısı bilmişdir. Bu yolla insanın maddi yaşayışına özəl zövq və canlılıq bağlanmış və həyatın qocalar, sinli keçmişlər və fəaliyyətdən dayananlar üçün belə şirinlətmişdir. Axirət vədləri ilə onların üzündən qəm, fəna, yoxluq tozunu silmişdir və bununla iztirabın və nigəranlığın üçüncü amili aradan qaldırılar.

## BİLİCİLƏRİN SÖZÜ

Bir çox bilicilər və psixoloqlar dediklərimizi tamamilə təsdiq etmişlər. Psixologiyanın atası adlanan Vilyam Cimz deyir: «Böyük həqiqətlərə və mənəviyyətə arxalanan kimsə həyatın daim dəyişməyindən və alt-üst olmasından nigaran olmayıb həyəcan keçirməz. Bu səbəbdən məzhəbi imana malik olan kimsə hər hansı bir iztirab və təşvişdən qorunmuşdur».

Deyl Karinki yazır: «Amerikada orta hesabla hər 35 dəqiqə ərzində bir nəfər özünü öldürür. Hər 2 dəqiqə ərzində bir nəfər psixi xəstəliyinə duçar olur. Əgər xalq məzhəbdə və məzhəb dualarında qeyd olan dinçliyə sarı yenəlsəydilər bu dəliliklər və intiharlar baş verməzdi».

D. Q. Herz yazır: «Biz həyatımızda iman və tədil olunmaya möhtacıq və mən çağdaş əsrimizin böyük filosofu J. Milanın «Din və məzhəb həyatda insana ruhi sığınacaq bağışlayır» dediyi sözü təsdiq edirəm».

## QURANIN GÖSTƏRİŞİ

Qurani-Məcid də tam acıq aydın bir kiçik cümlə ilə bu həqiqəti bəyan edir:

أَلَا بِذِكْرِ اللَّهِ تَطْمَئِنُّ الْقُلُوبُ

***«Bilin ki, qəlblər (möminlərin ürəkləri) yalnız Allahı zikr etməklə aram tapar!»***[1] Allahı xatırlamaq ruhun dincliyidir.

---

[1] «Rəd» surəsi, ayə 28.

## BEŞİNCİ DƏRS

## FİTRƏT YOLU İLƏ ALLAHI TANIMAQ

İnsanın Allahı tanımaq üçün iki yolu var.

1) Fitri duyğular və könül yolu.

2) Əql və istinbat yolu.

Fitrət yolundan məqsəd, insanın iç çəkimi və batini şüuru onu Allaha sarı yönəldir. Heç bir dəlil olmadan, özü bilməyə-bilməyə Allahı axtarıb tapır. Allahtələblik hissi bir qərizə və fitrət kimi onun vücuduna qoyulmuşdur. Bu hiss başqa hisslər kimi insanı müəyyən məqsədə tərəf çəkər. İstidlal və əql yoluna gəlincə, insan onunla və elmi dəlillərlə Allahın varlığını sübut edir.

Birinci yolun (fitrət) təməli iç hisslərdir və ikinci yolun (əql) təməli istidlal və düşüncədir. İnsan könül və fitrət yolu ilə Allahı tanımaq üçün heç bir dəlil və istidlala möhtac deyildir. O islam ziyalılarının «fitrət» adlandırdığı Allahtələblik və Allahı axtarma nəticəsində Allahını tapır. Amma onun ikinci yolunun göstəricisi əql, təfəkkür və istinbatdır.

## İNSANIN RUHUNUN DÖRDÜNCÜ XÜSUSİYYƏTİ VƏ YAXUD MƏZHƏB HİSSİ

İnsan ruhunun təbii, sabit və ilk ünsürlərindən olan din və məzhəb hissinin kəşf etməklə insanın vücud və ruhunda dörd hissin olması sübut edildi.

### 1. ARAŞDIRMA HİSSİ

Bu, həmən insanın ağlını mübhəm, çətin və səbəbi bəlli olmayan məsələləri araşdırmaya vadar edən bir hissdir ki, onun təsiri nəticəsində texnika və elm tapılmışdır. Bu, əsrlərcə bundan əvvəl inkişafçılara, ixtiraçılara gizli sirrləri açmaqda və bu yolda çətinliklərə və ağır şəraitə uğradıqda qüvvə verib, gücləndirən hissdir.

### 2. YAXŞILIQ HİSSİ

Bu, əxlaqiyyət törədən və insanın fəzilət və səciyyələrinə və onun ruhunun üstün sifətlərinə dayanacaq olan hissdir. Bu insanı ədalətsevərliyə və həmnəvsevərliyə yönəldən və insanda yaxşı əxlaqiyyətə və fəzilətlərə doğru yönəlmənin və pisliklərdən çəkinmənin vücüda keçilməsinə səbəb olan hissdir.

## 3. GÖZƏLLİK HİSSİ

Bu, müxtəlif zövqlərin cılalanmasına səbəb olan və incəsənət törədən hissdir.

## 4. MƏZHƏB HİSSİ

İnsanlar tamamilə fitri olaraq, Allahtələb və Allah arayandırlar. Onlar öz vücüdlarında bir növ maddədən üstün varlıqları tanımağa meyl duyurlar. İnsan ruhunda məzhəb duyğusunun olması bunu sübüt edir ki, insanda olan məzhəbi meyllər tamamilə onun mahiyyətində kök salmış və Allaha, maddədən üstün varlıqlara diqqət yetirmək onun (insanın) fitrətindən qaynaqlanır. Üstəlik, bu fitrətin cılalanması həddi-buluğda daha aşkar və gözə dəyəndir.

Sözün qısası, insanı geniş görüşlə araşdıran kimsələr tamamilə bunu etiraf edirlər ki, insanda Allaha diqqət yetirmə məsələsi bir dərin məzhəb duyğusundan qaynaqlanmış və insanın varlığı onunla qarışmışdır. İndi bu hissin insanında zatında fitri olduğuna dair sözümüzü acıqlamaq üçün fitri şeylərin xüsüsiyyətlərini qeyd etmək məcburiyyətindəyik. Təki bununla insanda fitri şeylərlə fitri olmayanlar ayırd olunsun.

## FİTRİ ŞEYLƏRLƏ FİTRİ OLMAYANLARI NECƏ AYIRD ETMƏK OLAR?

Coğrafiya, siyasət və iqtisadiyyat kimi amillərin təsiri nəticəsində insana təhmil olmuş düşüncə və ya əməl adi fikir və əməl sayılır ki, onun qaynağı fitrət deyil, haman amillərdir. Örnək olaraq qütbdə yaşayan xalqlar qalın paltar qeyməli və üstüvə məntəqələrində yaşayan xalqlar isə yüngül və nazik geyim geyməlidirlər. Açıqdır ki, bunların heç birisi fitrədən deyil, yaşayış mühitinin coğrafi şərtlərindən irəli gəlmişdir. Habelə, alcaq va uca olmaq, paltarın boyağı xalqların adət və ənənələri, yas və toy mərasimləri eyni xüsüsiyyətə malikdir. Çünki, əgər paltar seçmədə model və boyağı, müxtəlif yas və toy mərasimi keyfiyyəti fitri olsaydı, bütün yerlərdə eyni şəkildə olmalı və məntəqələrin və suyların dəyişmələrilə olmalı idi.

Halbuki, insanın zatından qaynaqlanan hər hansı əməl və düşüncə «eşikdən səbəblənməyərək» insanın fitrətindən sayılır. Bu cürə şeylər insanda fitrət və heyvanda qərizə (istək) adlanır.

Bu üzdən bal arısının küllərin şirəsini çəkmək, məxsus ev çrüləmək, lər səpmək, beçə vermək və bu kimi fəaliyyətlər onun ərizəsindən qaynaqlanır. Çünki bu fəaliyyətlər heç bir eşik amillərinin təsiri altında qalmamış və ümumi və kütləvi cəhəti vardır. Yəni, bal arısı hər hansı zaman və məkanın fərqliyinə baxmayaraq eyni fəaliyyət göstərir. Bu

sübut edir ki, bu əməl onun zatından qaynaqlıdır. Canlıların bir çox fəaliyyətləri eyni xarakter daşıyır. İnsanda da bir sıra meyllər və duyğular vardır ki, onu heç bir xarici amil ona təhmil etməmişdir. Eyni halda bütün insanlarda vardır. Məsələn, bütün insanlar ömrlərinin müəyyən çağında cinsi məsələlərə, gözəlliyə, məqam və sərvətə görə bir növ maraq bəsləyirlər. Həmçinin bütün insanlar ədalət, mehribanlıq və özlərindən başqalarını sevməyə rəğbət göstərirlər.

Mümkündür ki, ibtidai və vəhşi insanların şərafət və əmanətdarlığı öz sadə həyatlarında mədəniyyətli insanlardan daha çox olsun. «Kulisin hotintut» qəbiləsi barədə demişdir: «Verdiyi sözlər müqəddəsdir. Avropalıların fəsad və xəyanət yolu ilə gördükləri işlər onlarda görünməmişdir».

Verdiyimiz misallara diqqət yetirərək fitri məsələlərlə ümumi və adi məsələlər arasındakı fərqi bu əlamətlərlə tanımaq mümkündür.

1) Fitri olan hər bir şey bütün insanlarda eynidir. İnsanlar təmamilə ona sahibdirlər

2) Fitri şeylər fitrətin rəhbərliyilə baş verir. Ona malik olmağın təlimata ehtiyacı yoxdur.

3) Fitrətə qaynaqlanan hər hansı bir düşüncə və əməl «siyasi, ictimai, coğrafiya» amillərinin təsiri altında deyildir.

4) Fitrətin ziddinə olan ardıcıl təbliğlər keçici olaraq, onun yetişdirilməsini yubandırsa da belə, ancaq heç də onu aradan aparmaz.

Adi və qeyri-fitri şeylər, bu dərd əlamətin əksinədir.

İndi görək məzhəb hissi və Allaha diqqət yetirmək saydığımız dərd əlamətin çərçivəsinə daxilmi və ya yox? Azacıq diqqət yetirməklə görürük ki, bu əlamətlər tamamilə insanın Allahaxtarma və Allahtələb etmə hissində mövcuddur.

## 1. ALLAHAXTARMA HİSSİ BİR ÜMUMİ BƏŞƏRİ HİSSDİR

Allahşünaslıq və təbiətdən üstün olan varlıqlara meyl göstərmək dünyanın (zaman və məkan baxımından) bir müəyyən zaman və məkana həsr olmamışdır. Arxeologiya tarixinə əsasən Allaha və varlığın məbdəinə inanmaq bütün dünya millətləri və müxtəlif vəhşi və ya mədəniyyətli qomlar içində olmuşdur. Keçniş insanların tərzi-həyatını, tərzi-təfəkkürü və mədəniyyətinin nə dərəcədə olduğunu əldə etmək üçün arxeolagiya bilicilərinin vasitəsilə aparılan elmi tədqiqatlar və qazıntılar nəticəsində bir çox məbədlər və ibadət yerləri kəşf olmuşdur ki, tamamilə əski insanların bu yerlərdə ibadət etmələrini göstərməkdədir. Tutaq da ki, bəzilər Allahı tanımaqda səhv edib, özlərinə büt yonmuşdular.

İnsan tarixində heç bir dövr yoxdur ki, insanın metafizik aləmi tanımaq üçün meyli olmasın. Məzhəb hissi bütün xalqların və millətlərin həyatında bir ayrılmaz parça olmuşdur. Bu sahədə Kolombiya universitetinin professoru Con R. İvers demişdir: «Heç bir məzhəbi

xarakter daşımayan fərhəng və mədəniyyət heç bir xalqda görünməmişdir. Məzhəbin kökü tarixin ən qaranlıq və dərin yerinədək çəkilmişdir».

Dini hiss isə dünyanın ən mədəniyyətli xalqlarında bir təbii hissdir ki, dünyanın hər bir güşəsində cilalanmaqdadır. Əgər dünyanın müxtəlif qitələrinə baş vursaq, bu hissin əsərlərini və cilvələrini həm varlı və texnika sahəsində inkişaf etmiş ölkələrdə və həmdə yoxsul və geri qalmış ölkələrdə görəcəyik.

Bütün millətlər arasında və bütün zamanlarda yayılan allahşünaslıq bünün fitri olmasını göstərmirmi?

Bundan əlavə, hər hansı bir insaflı kimsə siyasi məsələlərdən allahpərəstlərin və materialistlərin görüşlərindən özünü uzaq etsə də belə, çətinliklər, çarəsizliklər, və başqa hadisələrlə qarşılaşdıqda öz içində onun çətinliklərinə və çarəsizliklərinə son qoyan əzəli və əbədi bir qüvvəyə inanır və ixtiyarsız olaraq ondan yardım diləyir. İnsan ruhunun dərinliyindən mənşələnən belə bir allahı tanımaq elm, fəlsəfə və əql dəlillərinin nəticəsi deyil, insanın zatı və fitrətindən qaynaqlanır. Onu yaradan onun zatında belə bir acırtma qoşmuşdur. İnsan çarəsizlik vaxtında onu bütün varlığı ilə hiss edib ona sarı çəkilir.

Bəli, biz bir itiyimiz olduğunu, o itiyin kim olduğunu bilmədən və çarəsizliyimizi necə aradan qaldıracağını və bizi necə aram edəcəyini bilməyərək bilməyə-bilməyə bir uşağın anasının ardınca olduğu kimi bizdə onun ardıncayıq və onu axtarırıq.

## 2. FİTRƏT İNSANI ALLAHA SARI YÖNƏLDİR

Allahaxtarma hissi insanın başqa iç hissləri kimi heç bir təlim və rəhbərlik olmadan insanda tapılır. İnsan ömrünün bir müəyyən vaxtında sərvət, məqam, pul və bu kimi şeylərə heç bir təlim olunmadan və öyrənmədən diqqət yetirdiyi kimi Allahıaxtarma hissi və heç bir təlimata və təsir etməyə ehtiyaclı olmadan insanın vücudunda tapılır.

İnsanda təlimsiz və təhsilsiz olaraq, məzhəbə və Allaha meyl göstərmənin tapılışı onun fitri olmasını göstərir. Və bunu göstərir ki, bu duyğu insanın başqa duyğuları kimi bir müəyyən vaxtda oyanır.

Əlbəttə əgər bu duyğular düzgün şəkildə qorunmasalar mümkündür onlarda bir sıra azqınlıqlar baş versin. Məsələn, əgər insanın məzhəb və Allahaxtarma hissi peyğəmbərlərin, ilahi bilicilərin və dünyanın böyük filosoflarının vasitəsilə hidayət olunmasına, bu hiss bütpərəstlikdən baş açar. Bu halda insan məxluqu xaliq yerinə sitayiş edib, məxluqu xaliq təsəvvür edər. Bizim, «təbii və fitri hiss təlim və təhsilə ehtiyatsızdır» dediyimiz sözdən məqsədimiz budur ki, onun tapılmasında tərbiyəçinin və müəllimin heç bir dəxaləti yoxdur. Ancaq bunu qəbul etməliyik ki, bu hisslərdən düzgün faydalanmaq və heç bir inhirafa və azqınlığa uğramaq agah tərbiyəçilərin müraqibətləri və təlimatlarından aslıdır.

Elə bu səbəbdən alimlər deyirlər ki, «günəş ay, ulduzlar kimi yer üzündə olan varlıqlara pərəstiş etmənin səbəbi insanın həmən Allahaxtarma və Allahtələblik hissinin düzgüncə rəhbərlik olmamasındandır ki, bu inhirafa və xurafalara çəkilmişdir. Əgər bu hiss əql vasitəsilə rəhbərlik olunub xalq ilahi peyqəmbərlərin dediklərinə diqqət yetirsəydi, heç halda insan varlığın həqiqi Pərvərdigarının və məbudunun yerinə zəif məxluqlara diqqət yetirməzdi.

## 3. MƏZHƏB HİSSİ COĞRAFİYA, SİYASƏT VƏ İQTİSADİYYAT AMİLLƏRİNİN NƏTİCƏSİ DEYİLDİR

Bütün əsrlərdə, dövrlərdə və bütün dünyada bu Allahaxtarma hissinin olmasından bu nəticə əldə edilir ki, bu hiss bir batini duyğu fitrətdən asılı olan bir mühərrikdir. Bu hiss coğrafiya və ya başqa amilin nəticəsi əsərində olsaydı dünyanın bir müəyyən nöqtəsində və ya siyasi-iqtisadi baxımdan vahid şərtlərlə malik olan bir müəyyən xalqda olmalı idi. Halbuki, bütün əksini görürük. Yəni, bütün millətlər arasında siyasi və coğrafiya şərtlərinin çeşidli və bir-birinin əksinə olduğuna baxmayaraq, bu millətlərin arasında bu hiss eynidir.

Əlbəttə, bu məsələyə diqqət yetirməliyik ki, bir hissin fitri olması həmişə insanların diqqət mərkəzində olmasını tələb etməz. Çünki, insanın sərvət, məqama rəğbət göstərməsi və ləzzəttələblik aləmində keyf çəkməyə məşğul olması onu fitri olan bir çox əxlaqi üstünlükdən azdırması mümkündür. Əslində insanın fitri məsələləri Allahaxtarmaqda həsr olunmur. Ondan başqa insan da bir sıra zati və təbii hisslər və qərizələr vardır ki, o qərizələrin birisinə çox əhəmiyyət vermək o birisinin unudulmasına səbəb ola bilər.

Məsələn təbiətin sirrlərini kəşf edib açmaq insanın fitri məsələlərindəndir. Hər hansı bir insan elmi tədqiqatlar aparmağa fitrətən rəğbət göstərir. Amma bu qərizə hər bir mühitdə çiçəklənməz. Hər yerdə bir şəkildə ola bilməz. Yəni elmi mühitlərdə və uyğun şəraitdə avtomatik işləyər. Amma uyğunsuz bir yerdə elə süstləşər ki, bu şəraitin davam etməsi bu hissin unudalmasına səbəb olar. Habelə evlənməyə meyilli olmaq, mal və məqama rəğbət bəsləmək hamısı fitrətdən qaynaqlanırlar. Amma hər növ mühitdə büruz etmirlər. Mümkündür ki, bu qərizələrin birisinə çox diqqət yetirmək başqalarının unudulmasına səbəb olsun.

Allahaxtarma hissi də bunlar kimidir. Ola bilər ki, maddiyyata diqqət yetirmə, şəhvət və ləzzət tələblik batlağında batmaq insanın, bu batini çağırımdan və hissdən qafil olmasına səbəb olsun. Çünki mənəviyyətə, Allaha diqqət yetirib, əxlaqi prinsiplərə əməl etmək ilə nəfsi ehtiraslarda batmaq arasında əks nisbət vardır. Əgər nəfsi meyillər o qədər güclü olsalar ki, insanın bütün ruh və rəvanini öz istilası altına alsın, o halda mənəvi duyğulara bir yer qalmazdır.

Doğrudur ki, müsibətlər və çətinliklər insanı maddiyyatın ağır yuxusundan qurtarar. Onun könlündən qəflət pərdələrini tamamilə aradan qaldırar, könlünü fitrətin çiçəklənməsi üçün və Allaha diqqət yetirmək üçün hazırlayar. Bu səbəbdən ağıllı insanlar təzyiqatlara və çətinliklərə məruz qaldıqda istər-istəməz Allahı xatırlayıb, cəmimiyyətlə ona göz tikənlər.

Ləzzətlərdə başı qarışmış və Allahdan qafil olan insan oynamağa başı qarışan bir uşağa bənzər ki, oynadığı halda mehriban ata və anasından qafil olur. Ancaq bir pis hadisə baş verdikdə dərhal onları xatırlayır və onlardan yardım diləyir.

İnsan rifahdan olduqdna gündəlik məşğələlərlə başı qarışır və başqa aləmə, mənəviyyət dünyasına diqqət yetirmir, amma onun ahəngdar və normal həyatını pozan hər hansı bir hadisə ilə qarşılaşdıqda özünü gücsüz duyduğu halda onun ruhunda bir böyük qüvvə və üstün aləmaxtarma hissi tapılar. Bu səbəbdən insan istər Allaha inanmış olsun, istərsədə materialist olsun, bəlalarla, dənizdə tufanda, təyyarədə həlak olmaqla və ya xəstəlikdə sağalmaqdan naümid olmaqla qarşılaşdıqda Allahı xatırlayar və o böyük qüvvədən yardım tələb edər. Sanki, bəla və müsibət təzyiqi könüllərin paslarını təmizləyir və bu fitrətdən qavzanan səsi, yəni Allahaxtarma hissini, onların qəlbində dirildir.

## ARDI-ARASI KƏSİLMƏYƏN TƏBLİĞAT MÜMKÜNDÜR ONUN QARŞISINI ALSIN, ANCAQ ONU KÖKDƏN ARADAN APARA BİLSİN

Dünya xalqları arasında bir sıra riyazət çəkən insanlar ola bilərki, riyazət çəkmək vasitəsilə bir növ hissin çiçəklənməsinin qarşısını alsın. Məsələn, cinsi meyllər bir batini və fitri meyldir. Amma Hindistan riyazət çəkənləri (pəhrizkar, rahib, asket...), bir sıra sıxıntılara dözməklə bu hissi elə gücdən salırlar ki, azacıq bu məsələlərin fikrinə düşürlər. Lakin həmin riyazət çəkənlər başqa bir yerdə sakinləşərlərsə, onların yatmış hissləri oyanıb, fəaliyyətə başlayacaqdır.

Bu üzdən bir məsələnin fitri olmasını mənası bu deyildir ki, hər bir yerdə bir olsun və heç bir amil, mühit və təbliğatın onun şiddəti və zəfində təsirli olmasın. Bəlkə deməliyik ki, bir sıra təbliğat kimi amillər bəzi fitri və batini duyğuların artımını azalda bilsin, ancaq onu heç vaxt aradan apara bilməz.

Məsələn, indiki dünyamızın üç hissədən birinə solçuluq məfukrəsi hökm sürür. Materiyalizm ideolagiyasının rəhbərləri müxtəlif təbliğat vasitələrindən faydalanıb, kommunizm zənciri ilə istismara çəkilmiş xalqlar da məzhəb hissini aradan aparsın. Ancaq onlar heç də bu mübarizədə müvəfəqiyyət əldə edə bilməmişlər. Onlar məzhəbi xalqın ürəyindən çıxarda bilməmişlər.

Sovet ittifaqında kommunizm inqilabından onlar il keçdiyinə rəğmən, məzhəb hissi, mənəviyyət və Allaha diqqət yetirmək halədə xalqın ürəyində öz qüvvəsini qorumuşdur. Həmin bu səbəbdən bu son illərdə müsəlmanlara və xristianlara bir sıra şərtlər üzrə öz dini mərasimlərini bərpa etmək üçün nisbi azadlıq vermişlər.

## BU SAHƏDƏ BİLİCİLƏRİN SÖZÜ

Jan-Jak Russo deyir: «Allahı tanımaq yalnız əql yoluna həsr olmamışdır, bəlkə fitrət yolu bu məsələni yaxşı sübut edər. Din hissi insan ruhunun birinci ünsürlərindən və onun təbii və sabit ünsürlərindəndir ki, onun əsl qisməti heç bir başqa şeyə çevrilən deyildir».

Paskal deyir: «Xalq bunu hələ bilməmişdir ki, Allahı dərk edən əql deyil könüldür».

Aleksis Karl deyir: «İrfan duyğusu bizim içimizdən qaynaqlanıb, qovzanan bir hərəkətdir. İnsan suya ehtiyacı olduğu kimi, Allahada ehtiyaclıdır».

Vil Do Rant deyir: «İmam bir təbii məsələdir və bir başa bizim qərizə və duyğularımızın ehtiyaclarından irəli gəlmişdir».

Pol Klarens Ebersull deyir: «İnsan öz üstün dərki və anlayışında bir yaradıcının olmasının zərurətini hiss etməsi Allahın varlığına böyük bir dəlildir».

Bu görüşlərin məcmuəsindən açıqlanıb ki, insan ruhunda məşhur üç duyğudan başqa bir, məzhəb, Allah-axtarma və Allah-tələb etmə hissi də vardır. İnsanlar təmamilə öz fitrətlərinin tələbilə istər-istəməz ona sarı çəkilirlər. Bunun bir fitri məsələ olduğu üçün insan fitrətindən başqa bir amili yoxdur. Hər hansı bir mənəviyyətə tərəf çəkən şey ondan irəli gəlir, fəlsəfə istidlalından yox.

## QURAN VƏ HƏDİSLƏRDƏ FİTRƏT YOLU İLƏ ALLAH TANIMAQ MƏSƏLƏSİ

İnsanın bilik və elm sahibləri və ziyalıların vasitəsilə açıqlanmış bu böyük sirri Quranın ən dəyərli həqiqətlərindəndir ki, on dörd yüz il bundan əvvəl bizim hörmətli Peyğəmbərimiz (s) onu bəyan etmişdir.

فَاَقِمْ وَجْهَكَ لِلدِّينِ حَنيفًا فِطْرَةَ اللّٰهِ الَّتى فَطَرَ النّاسَ عَلَيْها لا تَبْديلَ لِخَلْقِ اللّٰهِ ذالِكَ الدّينُ القَيِّمُ وَ لٰكِنَّ اَكْثَرَ النّاسِ لا يَعْلَمُونَ

***«Allahın doğru yoluna sarı yönəl, Allah insanın yaradılışını onun üzərində yaratdı, Allahın xilqəti dəyişilməzdir».***[1]

[1] «Rum» surəsi, ayə 30.

Bu ayədə «Hənif ayənin»dən məqsəd ki, insan yaradılışı onun üzərində olmuşdur, həmən Allah pərəstlik və «tövhid» dinidir. Bu ayə tam açıldıqda tövhid yolundan hər hansı bir azğınlığı insan fitrətinin xilafına olaraq qeyd etmişdir, onu süst və boş bilmişdir.

Həzrəti İmam Sadiq (ə) bu ayəni belə təfsir etmişdir:

فَطَرَهُمْ على التَّوْحيد

**«Allah insanı tövhid fitrətində yaratmışdır».**

Həzrəti İmam Sadiq (ə)-ın yanına bir kişi gəlib, onu Allaha sarı hidayət etməsini istəmişdir. Həzrəti İmam Sadiq (ə) bir misal gətirməklə onu öz fitrətin diqqətini çəkdi. O misal Quranın bəzi ayələrində gəlmişdi. O misal budur:

- İndiyə kimi gəmi ilə səfərə çıxmısanmı?

- Bəli.

- Olubdur ki, gəmi sınsın və sənin heç bir nicat yolun olmasın?

- Bəli

- O halda səni o təhlükədən qurtara bilən bir görünməz qüvvəni duymuşsan?

- Bəli.

- O həmən qüdrətli Allahdır ki, bütün maddi vəsilələrin işdən düşdükdə və heç bir nicat verən olmadıqda insan istər-istəməz onu xatırlayır və ona sarı yönəlir.

## ALTINCI DƏRS

## İSTİDLAL YOLU İLƏ ALLAHI TANIMAQ

İstidlal yolu ilə Allahı tanımaqdan məqəsd insanın əql vasitəsilə Allahı tanımaqdır. Bundan qabaq oxucumuz fitrət yolu ilə allahşunaslıq ilə istidlal yolu ilə allahşunaslığın arasında olan fərq budur ki, fitrət yolu incə və dəyərli olduğu halda başqaların hidayət etmək üçün faydalı ola bilməz. Hər bir kimsə özü şəxsən öz içində Allaha sarı yönəlməni duyur. Bu iç duyğunu deyib eşitmə yolu ilə başqasına intiqal vermək olmaz. Onu batini duymaq və hiss etməkdən başqa bir vasitə ilə dərk etmək imkansızdır.

Amma istidlal yolu isə istidlal edən kimsəni Allaha sarı hidayət etməkdən əlavə başqaların da düşüncəsində də bir dəyişiklik törətmək olar. Çünki istidlali tövhid və Allahı tanımaq bir sira elmi və fəlsəfi dəlillərin nəticəsidir ki, onları bütün dünya xalqına göstərmək mümkündür. Və xalqı o istidlalın əsası və nəticəsi ilə tanş edib, başqa elmi məsələlər kimi öyəmtək olar.

Hər halda, fitrət və könül yolu kamil, incə və ləzət verici olmuşsada, ancaq onu başqasına intiqal verib, öyrətmək mümkün deyildir. Bununla tövhidi yaymaq və cahanşümul etmək üçün istidlal və əql yolunu ələ almaq məcburiyyətin-dəyik. Təki əqlin yol göstəməsi ilə Allaha yol tapa bilərik.

## ALLAHI TANIMAQ ÜÇÜN ƏN SADƏ İSTİDLAL

Yaradıcılıq dünyasının nizam-intizam ən açıq və çahanşümul bir allahşunaslıq üçün bir dəlildir. Qurani-Kərim və islamın böyük rəhbərləri öz təkidli bəyanatlarında, tamamilə sətirləri və səhifələri hikmətli, elmli, ölçü və biçimli, nizam-intizamlı olan yaradılış aləmi kitabını mütaliə etməyə çağırmışlar. Onlar bu çağırışa kifayətlənməmiş, varlıgın heyrətləndirici və əsrarəngiz nizamından nümunələr zikr etməklə, bu sahədə mütaliə və araşdırma yolunu bütün bəşərə açmışlar.

Samavi kitabın və vəhy qoruqçularının bu yolu getməyə artıq diqqət yetirmələrinin səbəbi budur ki, hər bir insan öz elmi, görüşü və istedadına görə dünya nizamında bariz nümunələri dərk edib, saysız-hesabsız zərrəcikləri əsrarəngiz nizam-intizamının varlıgından ona elm, hikmət, ölcüb-biçmək ilə nizam verən nazimin varlıgından anlasın.

Əlbəttə bir biologiya alimi və ya bir fizika və kimya alimi və yaxud fəza və keyhani cismilərində ixtisasçı olan alimin dünya nizamından olan dərki və anlayisi bir adi kimsənin dərki və anlayışı ilə müqayisə edilməzdir. Amma hər iki qrup öz mütaliə və araşdırmalarından vahid və eyni nəticə alırlar. Hər iki qrup bu nəticəyə çatırlar ki, bu dunyanın

əsrarəngiz nizamı, bu sonsuz zərrəciklərin nizam-intizamı, canlılar hüceyrələri iskiletinin nəzmi və səma hadisələrinin munəzzəm hərəkəti bunu sübut edirlər ki, bu varlıqlar tədbir, əql, ölçüb-biçmə üzündən yaranmışlar və onlar böyük qüdrətli və bilici qüvvənin müdaxiləsi olmadan belə bir nizam-intizamla yarana bilməzdilər.

Gerçəkdə təbiət üzrə olan elmələr müxtəlif şöbələr ilə bərabər yaradılış aləminin nizam-intizamı və əsrarəngiz təşkilatının bir güşəsini açılmaqdadır. Hər çənd insan təbiətin sirrlərin açmış və elmin yeni zirvələrinə çatmış və heyrətləndirici müvəffəqiyyətlər əldə etmişdir. Hələ yenədə dünyanın heyətləndirici və dəqiq nizam-intizamını anlamaqda böyük addımlar atmaqdadır. Əgər ki çağdaş əsrimizin alimlərinin elm və diqqətli vasitələrin amili ilə aləmin, bitkilərin, heyvanların, səma və keyhan cismlərin, dəniz əcibələrinin əsrarəngiz nizam-intizamından anlayışları kecmislərin bu sahədəki görüşləri ilə fərqlidir. Amma bütün təbiət elmlərinin güzgüsündə iki məsələ yaxşı aydınlşır.

1) Yaradılış aləmi bir elmi plan, özəl bir ölçüb-biçmək üzrə yaranmış və onun hər bir zərəciklərinə və bütün cəhətlərinə bir sıra dəyişilməz qanun-qaydalar hökm sürür.

2) Yaradılış aləminin bu tədbiri və nizam-intizamı bunu göstərir ki, onu bir qüdrətli yaradıcı və bacarıqlı bir bilici diqqətli elmi ölçülərlə planlaşdırmış və ona varlıq və vücud bağışlamışdı.

## NİZAM-İNTİZAM DƏLİLİ

Bu dəlil üç məsəl üzərində dayanır:

**1.** Varlı aləmində insanın ağlı və elmi işlədiyi qədər bunu sübut etmişdir ki, varlıqda nizam-intizamdan başqa bir şey yoxdur. Dünya alimləri və böyük ixtiraçılar öz araşdırmalarında bunu etiraf etmişlər ki, dünyanın başa-başında ölçüb-biçməkdən, əsrarəngiz nizam və təşkilatdan başqa bir şey görməmişlər.

İnsan bütün elmi mərkəzlərdə, labaratoriyalarda və rəsədxanalarda bu dünyaya hökm sürən nizam-intizamı artıq tanımaq üçün tam şəkildə çalışırlar. Təbiətin sirlərini açan kimsələrin məqsədi bu işdən, təbiət sirlərindən pərdəni qaldırmaq, ona hökm sürən müxtəlif qayda-qanunları və nizam və təşkilatı tanıtmaqdan başqa bir şey deyildir. Təbiət elmləri təmamilə öz müxtəlif riştələri ilə birlikdə varlığın əsragəngiz nizamını açıqlamadadır.

**2.** Hər bir «fonem»in (yəni öncədən «var» olmayıb sonradan var olan şey) bir səbəbi vardır. «Səbəb-nəticə» qanunu isə bir ümumi və cahanşümul qanunudur.

**3.** Nizam-intizam, tədbir, ölçü üzdə olan fonem təsadüf təsirindən vücuda gələ bilməz. Bəlkə bir səbəbin nəticəsidir ki, onu düşüncə, ölçü və diqqət üzdə yaratmışdıq.

# YEDDİNCİ DƏRS

## NİZAM-İNTİZAM DƏLİLİNİN ÜÇ TƏMƏLİ

### 1. YARADILIŞ ALƏMİNİN ƏSRARƏNGİZ NİZAM-İNTİZAMI

Yaradılış dünyasinin belə dəqiq nizamı və sirri dərin və ucsuz-bucaqsız okean kimidir ki, insan bu elmləri ilə sadəcə bir neçə addım irəli sürə bilmişdir. İnsan, hələlik bu heyrətləndirici inkişafı və əsrarəngiz məlumatı ilə sadəcə təbiət elmlərinin alfa-betini öyrənmişdir. Elm və bilik sahəsində nə qədər irəliləmişdə, bir o qədər də varlıq aləmindən heyrəti və təəccübü artmışdır. İnsan bununla öz elminin məhdud olmasını anlamışdır. Bir fizika alimi bu məsələ ilə əlaqədar demişdir: «Mən nə qədər təhsil etdim, atomdan kəhkəşana və mikrobdan insana kimi hər bir şeyi nəzərimdən keçirtdim; ancaq bunu anladım ki, hələ bilinməyən şeylər çoxdur».

Alimlərin sözlərində çoxlu gözə çarpan belə etiraflar tamamilə bunu sübut edirlər ki, insan elmin nərdivanından sadəcə bir neçə pillə üstə çıxa bilmişdir. Bu üzdən dünyanın məşhur riyaziyyatçısı Albert Enşteyndən bildikləri ilə bilmədiklərinin nisbətini soruşulduqda öz kitabxanasının nərdivanı kənarında durduğu halda cavab verir: «Bunların bir-biri ilə fasiləsi bu nərdivan ilə göylərin sonsuz fəzası fasiləsincədir. Mən hələ elm nərdivanının bir neçə pilləsindən yuxarı çıxa bilməmişəm».

Beləliklə məlum olur ki, insanın bu geniş və dəqiq dünya nizamından məlumatı o qədər azdır ki, hərgiz hesab olunmur. Amma insanın böyük yaradılış aləminin barəsində məlumatının milyardda biri bilici və qüdrətli yaradıcının varlığını sübut etmək üçün kifayət edir. Açıq-aşkarcasına açıqlayır ki, belə bir mürəkkəb və dəqiq nizam bir hikmətli, qüdrətli və elmi qaynağa arxalanmasa imkanı yoxdur.

### 2. HƏR HANSI BİR HADİSƏ SƏBƏBSİZ DEYİLDİR

İnsan düşüncəsini ilk məlumatı hər hansı bir hadisənin səbəbi olmasıdır. Heç bir hadisə (yəni öncədən var olmayıb sonradan var olan şey) səbəbsiz var olmayır. İnsan bu külli qanunu öz yaşayışı boyunda etdiyi araşdırmalardan əldə etmişdir. İndiyə kimi bir hadisənin səbəbsiz olaraq, var olması görünməmişdir.

Bununla, bir belə yaradılış aləmində olan əsrarəngiz nizam-intizamın olmasının bir səbəbi olmalıdır. Çünki heç ağıllı insan, belə bir vücüd aləmində bir belə əsrarəngiz şəkillər və təsvirlər bacarıqlı bir rəssam olmadan var olmasını qəbul etməz.

## 3. HƏR HANSI BİR VÜCUDUN NİZAM-İNTİZAM ÜZRƏ YARANMASI ONU YARADAN KİMSƏNİN HİKMƏTLİ, QÜDRƏTLİ VƏ ALİM BİR VÜCUD OLMASINA DƏLİLDİR

Əgər bir əsərin varlığı o əsəri yaradanın varlığını göstərərsə, o əsərin xüsusiyyətlərilə tanış edər. Bir avtomobilin oluşu onu düzəldənin varlığına bir dəlildir. Onun xüsusiyyətləri isə onun düzəldənin texnika sahəsində nə qədər bilikli olduğunu göstərər.

Firdovsi «Şahnaməsi» kimi bir ədəbi şahkar, onu yaradan kimsənin varlığını göstərirsə, onun özəllikləri isə bunu göstərir ki, onu qoşan kimsə dastan yazma üslübünü ədəbi fənləri və fars dilinin xüsüsiyyətlərini tam şəkildə bilirmiş. Heçdə belə bir ədəb xəzinəsini ədəbiyyat vurğunu olmayan və dastan yazma qaydalarını bilməyən kimsə tərəfindən yazılması və ya təsadüf üzrə yazılmasını iddia etmək olmaz.

İnşaat prinsiplərinə uyğun tikilmiş bir bina və ya böyük bir müəssisənin ehtiyacı yerə tikilmiş bina onun düzəldənini göstərməkdən əlavə onun yaradanın ağıllı, düşüncəli olub bəsirət və gözü açıqlıqla o binanın saldırmasını da göstərir. Heç kimsə belə təsəvvür etməz ki, bir qrup, heç bir memarlıq və tikintilik sahəsində məlumatı olmadan, sadəcə daş kərpiçlə oynayıb təsadüf üzündən, heç bir fikir və əql işlətmədən iki təbəqəli bir bina çürlənmişdir.

Şübhəsiz olaraq, hər hansi bir yazıçının, sözünün, işçinin, peşəsinin əsəri və hər hansi bir insanın əməli onun məlumatının nə dərəcədə olduğunu, ruhunun nə kimi xüsusiyatlərə malik olduğunu göstərir.

Həmçinin hikmətli nizam-intizam, düzəlinilmişlərin möhkəmliyi, varlıqların nizam-intizamı da bunu göstərir ki, onları yaradan kimsə qadir və alimdir. Heç vaxta ən sadə nizam-intizamı kar və kor təsadüfün və şüur və hissi olmayan təsadüfün nəticəsi bilmək olmaz ki, bu böyük və heyrətləndirici yaradılış nizamı da təsadüf üzündən olsun:

طبیعت ندارد شعور ای پسر　　　　محال است باشد بدیع الاثر

Təbiətin şüuru yoxdur. Bu üzdən əsər də yarada bilməz.

## SƏKKİZİNCİ DƏRS

## TƏSADÜF VƏ TƏDBİRLƏ GÖRÜLƏN İŞLƏRİN FƏRQİ

Həzm, tərtib və ölçüb-biçməklə görülən işlər qəti olaraq bir ağıllı və bacarıqla yaradanın işidir ki, diqqətlə öz işini bir ölçüyə salmışdır. Amma nizamsızcasına olan işlər təsadüf üzündən bir şüursuz və ağılsız amilin nəticəsidir.

Məsələ aydın olmaq üçün hər iki növ işə bir neçə misal gətiririk. Əvvəldə bilicilərin gətirdiyi ən açıq misalı gətiririk:

Bir anbarda iki milyon ton daş, dəmir, kərpic, sement, əhəng, kəç (gips), ağac, şüşə, lülənin və başqa tikinti materyalları olduğun təsəvvür edin. Onun bir milyon tonunu bir mühəndis anbardan çıxardıb düz bir yerdə neçə təbəqəli bir bina salır. Digər bir milyon tikinti materialı isə sel vasitəsilə anbardan çıxarılıb, oranın neçə kilometrliyində bir-birinin üstünə qalaqlanır.

Neçə təbəqəli bina ağıllı bir mühəndisin işi və qalaqlanmış təpə isə selin təbii bir işidir. Hər hansı bir zamanda hər hansı bir insan binaya daxil olduqda hər bir şeyi dəqiq ölçülüb öz yerində olmasını görür. Pəncərələr, dirəklər, dəmirlər, qapı-pəncərələrin öz yerlərində qoyulduğunu görürlər.

Simlərin məxsus yerdən çəkilməsini, məxsus kilidlərə bağlanmasını, isti və soyuq suyun məxsus qırnalardan gəlməsini, binanın hər bir yerində nizam-intizamın olmasını müşahidə edirlər.

Amma o qalaqları gördükdə nizam-intizamın arada olmamasını müşahidə edirlər. Mərmər daşların torpaq altında qalması, dəmirlərin hərəsinin bir yerdə düşməsi, simlərin dolaşıq düşülməsi, qapı-pəncərənin əyilib əyri-üyru olunması görünür. Demək tam nizamsızlıq görünür.

Şübhəsiz olaraq onları görən bu nəticəni əldə edir ki, binanı cürləyən bir alim imiş, amma qalaq təsadüf üzündən cürlənmişdir. Binanı cürləyən memar öz iradə, əzm və ixtiyari ilə hər bir şeyi ölçüb-biçdikdən sonra öz yerinə qoymuşdur, amma selin heç bir iradə, əzm və ixtiyarı olmadan, və suyun dalğası təsadüfi olaraq hər bir şeyi bir yerə atmışdır.

## DİGƏR MİSALLAR

**1.** Fərz edin ki, bir otaqda iki nəfər çap maşını ilə Nəbatinin
Kuşeyi vəhdət nə əcəb cayımış
Sirri nəhan onda hüveydayımış
beyti ilə başlanan şeirini yazmaq istəyirlər. Amma onlardan birisi təhsil almış savadlıdır, digəri isə savadsız və gözsüzdür. Ancaq barmaqları ilə məxsus düymələri basmaqla maşını işə salıb, yaza bilər. Onların hər ikisi işə başlayırlar. Savadlı, alim, hərfləri tanıyan kimsə

əvvəl barmağını «K» hərfinin, sonra «U» hərfinin və sonradan «Ş» hərfinin üzərinə qoyub tərtibi nəzərdə tutmaqla sözün hərflərini yazır. Bir azdan sonra beyti tamamilə doğru olaraq yazır.

Amma sadəcə maşını işə salan gözsüz və savadsız kimsə hərfləri tanımadığından əlini hər hara gəlib basmaqla bir səhifəni cızma-qara edib, səhifədə dəyərli bir şey yaza bilməz. Yazdığınında heç bir mənası ola bilməz.

Birinci iş bir bilici alimin işi, ikincisi isə bir gözsüz və savadsızın işidir. Minlərlə kor və təhsil almayan kimsələr, milyonca səhifə cızma-qara edərlərsə, bir səhifədə olsun bir qəsidəni yaza bilməzlər. Çünki onların işində nizam-intizamdan hesab-kitabdan bir xəbər yoxdur.

Bu səbəbdən biz dünyanın hər harasında bu şairin çap olunmuş şeirin görərsə, deyəcəyik ki, bu iş maşınla yazma fənnini bacaran və hərfləri tanıya bilən kimsənin işidir. Biz heç vaxt deyə bilmərik ki, bu səhifə bir gözsüz və savadsız adamın barmaqlarının basılması ilə və ya bir uşağın maşınla oynaması səbəbində təsadufi olaraq yazılmışdır.

***

**2.** Bacarıqlı bir rəssam kağız üzərində təbiət gözəlliyini rəssamlıq edir. Şəkildə bir qrup dəniz qırağında yaşayırlar, bir qrup dənizdə üzməyə məşğuldurlar, bir başqa qrup isə dəniz qırağında istirahət etməkdədirlər. Rəsmdə suyun dalğası gəmilərin hərəkəti, adalar, əkin yerləri, bağlar və sahil gözəl şəkildə əks olunmuşdur.

Hər hansı bir tamaşaçı bu tablonu gördükdə, rəssamı bir kağız üstündə müxtəlif boyalarla özünə məxsus bacarıqla əsrarəngiz bir mənzarələr yaratdığına görə təqdir edir.

Bu incə sənət işi onu yaradanını sübut edərək, onun şüurlu, bacarıqlı olduğunu göstərir. Heç kim bir kiçik uşağın və ya rəssamlıq fənninə malik olmayan bir kimsənin vasitəsilə təsadüfi olaraq belə bir gözəl əsərin yaranmasına inanmaz. Bu heç kimin beyninə yerləşməz. Bunu, birisi təsadüf üzündən var olmasını iddia edərsə, zarafat edərsədə hamı onu danlayar. Çünki belə bir mənzərənin düşüncəsiz, yaranması mümkün deyildir.

***

**3.** Bir heykəl yonan bir böyük alimin heykəlini yonur o çoxlu zəhmət çəkib, çoxlu fikir edib çalışdıqda sonra, öz işini incə sənət mərkəzlərinə bağışlayır. Onun bu işi məqsədsiz, nizam-intizamsızca təsadüfi olaraq yaranmışdırmı? Yoxsa bir heykəltəraşın vasitəsilə fikir üzündən yaranmışdır.

Açıq aydındır ki, böyük bir daşı dağdan dərəyə dığırlatmaqla heykəl çürlənməz.

Bu misallardan bir fayda əldə edilir. O da budur ki, hər hansı bir şeyin quruluşunda nizam-intizamın, olması onun bir bilikli iradə və əzmli bir səbəbin vasitəsilə yaranmasını sübüt edir.

***

**4.** Bir avtomobilə diqqət yetirin. Onu bir sıra biliçilər ağılla, tədbirlə, nizam-intizamla düzəltmişdir. O, təsədüf üzündən əmələ gələ bilməz. Əgər polad, şüşə, plastik parçalarını bir böyük qaba töküb firlandırmaqla heçdə bir avtomobil çürlənməz.

***

**5.** Elm, təcrübə bunu sübüt etmişdir ki, bir sadə və bəsit nizamda belə olsun yalnız fikir və düşüncə ilə ola bilər. Bu üzdən bir muzeydə mixi xətti ilə yazılmış əsəri gördükdə onun bir ağıllı və şüurlu kimsənin vasitəsi ilə yazılmasını xatırlayır. Heç vaxt onun təsadüf üzündən yaranmasını zənn etmirik.

***

**6.** Bir kitabın yazılması fikrə, ağıla, düşüncəyə möhtacdır. Müəllif əvvəlcə kitabın əsl sözlərini öz beynindən nizama salır, sonra onu qələmə gətirir. Çap işcisi isə onun hərflərini nizama salaraq, düzüb çap edir və yaxşı bir qabığa tutub onu yayır. Bunu demək olmaz ki, bu kitab təsadüf üzündən yazılmışdır.

***

**7.** Bir məktəbdə yazı taxtası üzərində riyaziyyat formulu bizim diqqətimizi çəkir. Həmin anda bu formulun bir riyaziyyatçı vasitəsilə yazılmasını anlayırıq. Onun təsadüfi olaraq yazı taxtası üzərində yazılması ehtimalını vermirik.

***

**8.** Heç kimsə iddia edə bilməz ki, yer kürəsinin başına fırlanan bir «süni qəmər»in düzəlməsi fikir, düşüncə və bir bilikli insanın vasitəsilə yaranmışdır.

***

**9.** Böyük müəssisələrdə dörd yüz nəfərdən çox işçinin işini görə bilən hesab edici maşın bizim sözümüzü təsdiq edir. Çünki onu təsadüf

üzündən irəli gəlməsin iddia etmək olmaz. Onu bacarıqlı bir sənətkarın əli olmadan var olmasını təsəvvür etmək çətindir.

***

**10.** Biz bu nümunələrə kifayət edib, öz yaşadığımız mühitə diqqət yetiririk. Biz öz evimizdə bir sıra kitab, qəfəsə, kəbə, xalça, masa və başqa şeyləri görürük. Onların təsadüfən var olmasını iddia edə bilərikmi? Biz onların hər tək-təkini bir ağıl və bilicinin vasitəsilə yaranmasını düşünürük.

***

Əgər əql bu məsələlər barədə bu nəticəyə çatır ki, hər bir yaradılışın vücudunda nizam-intizam varsa, onu bir ağıllı və bilici kimsə yaratmışdır. Demək bu halda həmən əql, varlığın bir belə nizam-intizamlı olan və hər birisi yüzlərcə yazıdan, təhririyyə maşınından, hesablayan maşınından, elektronik məğzdən daha artıq mürəkkəb, əsrarəngiz, heyrətləndirici olan şeylər barədə də həmən təhər hökm edib açıqlayacaqdır ki, «VARLIĞIN TANRI ADLI BİR YARADICISI VARDIR!»

## DOQQUZUNCU DƏRS

## FƏZADA NİZAM-İNTİZAM

Kainat elə böyükdür ki, onu metr, kilometr və ağacla ölçmək olmaz. Göy cisimləri bir o qədər çoxdur ki, onları məmuli rəqəmlərlə hesablamaq olmur. Bu səbəbdən insan ulduzların arasındakı fasiləni müəyyən etmək üçün başqa ölçüyə üz gətirmişdir. O da həmən işığın hərəkəti sürətdir ki, bir saniyədə üç yüz min kilometrlik məsafəni keçib gedir.

Bizim təəccübümüzü daha artıran Günəşin özü də böyük ulduzları ehtiva edən qalaktika adlı ulduzlar məcmuəsindən olduğunu bilməkdir. Bu qalaktikanı milyonlarla Günəş kimi ulduzlar ehtiva edir.

Helə bizim qalaktika Günəş sistemi və milyonlarla ulduzları ilə belə təkcə milyonlarla qalaktikalardan birisidir. Heç kim bilmir ki, dünyada neçə milyon qalaktika vardır. Hər vaxt bir güclü dəstgah (teleskop) ixtira olur, bir çox qalaktikalar kəşf olur. Onların bəzisi o qədər uzaqdır ki, milyonlar il vaxt tələb edir ki, onun işığı yerə gəlib çatsın.

Bizim qalaktikalarımızın diametiri bir o qədərdir ki, işıq onu iki yüz – üç yüz milyon il ərzində keçib gedir.

Bir bilimçinin dediyi kimi, bizim bu gün fəzada istila tapmaq dediyimiz söz kainatın əzəməti qarşısında milyonlarla ağacı ehtina edən meşənin bir ağacını qonan kəpənəyə bənzəyir ki, bir yarpağa qonmaq istəyir, birinci yarpaq «yer kürəsi» o biri yarpaq isə «ay kürəsi» və ... o yarpaq olan budaq sanki Günəşin sistemi o ağac isə sanki qalaktikadır ki, bizim Günəş sistemi onun bir parcasıdır. O meşə isə varlıq və kainat aləmi kimidir, bizim astronomlarımız isə meşədə gəzən misafirlər kimidir, ulduzlar isə bu meşəni təşkil edirlər. Hər bir meşə məhdud olduğu kimi ulduzların sayı da məhduddur. Amma onların sayı nə hududdadır? Yeni təxminlər bunu göstərir ki, ulduzların sayı qırx milyard hüdudundadır.

İnsan belə böyük və vəsf edilməz cisimlərin qarşısında özünü elə itirib kiçilir ki, utandıqından başını aşağıya salır. Demək bir kitabın səhifələrinin gücündən xaricdir ki, belə bir böyük və zahirən sonsuz nizamın bir güşəsini açıqlaya bilsin.

آب دریا را اگر نتوان کشید      هم بقدر تشنگی باید چشید

Güşeyi vəhdət nə əcəb çayimiş
Dənizin suyunu tamamilə içmək olmasa da
İnsan susuzluğu qədər ondan içməlidir.

Günəş sisteminin bir sıra nizamından qeyd etməkdə onun yaradılmasının sözsüz qüdrəti və elminin əzəmətinə baxmaq olar.

## BİZİM GÜNƏŞİN YERİ SİSTEMDƏ

Bu od kürəsi insan düşüncəsinə sığışmayan əsgarəngiz qaynağıdır. İndi həmin yanan məşəlin onun yaradılmasının elmini, hikmətini və qüdrətini göstərən bəzi sirlərini qeyd edirik:

Günəş bir milyon üç yüz doxsan bir min dəfə Yerdən yekədir. Yəni əgər Yer kürəsi bir milyon üç yüz doxsan bir min qədər böyüsə, Günəşcə ola bilər. Əgər Yer kürəsinin böyüklüyünü bilsək, Günəşin böyüklüyü bilinər. Yer kürəsinin həcmi min səksən üç milyard üç yüz iyirmi milyon kubometirdir.

## GÜNƏŞ AĞIRLIĞI

Alimlər elmi prinsiplərlə günəşin ağırlığını müəyyən etmişlər. Nəhayət Günəşin ağırlığını və ya fiziklərin deyilişi ilə Günəşin həcmini üç yüz otuz min dəfə Yercə elan etmişlər.

Günəşin həçmi ilə ağırlığı arasında Yerlə ölçüdə olan fərqliyi (yəni onun həcmi bir milyon üç yüz doxsan bir min dəfə yekədir) bu səbəbdəndir ki, Günəşin cinsi qaz olduğundan onun ağırlığı yerin ağırlığından yüngüldür.

## GÜNƏŞİN HƏRARƏT DƏRƏCƏSİ

Günəşin öz hərarəti dərəcəsi təxminən on bir min franhayt dərəcədir. Amma içinin hərarətini yetmiş milyon franhayt dərəcə təxmin vurmuşlar. Bu hərarət mərkəzindən saniyədə dörd milyon və hər dəqiqədə iki yüz qırx milyon ton işıq enerjisi və hərarəti fəzada yollanır.

Ağıl bu işıq və hərarət mərkəzinin əzəməti qarşısında heyrətlə qalıb gicəlmişdir. Milyonlar ildir ki, bu yanar kürə yanaraq, hərarət və işıq paylayır, amma hələ də onun qüdrəti və gücü eləcə də qalır. Bu yanar kürə bir fabrika kimidir ki, saniyədə dörd milyon ton enerji istehsal edir. Nəticədə sistemin bütün üzvlərinə Merkuri planetindən tutmuş Pluton splanetinə qədər, kiçik qəmərlərdən tutmuş böyük qəmərlərə qədər işıq və hərarət paylayır, və altı milyon kilometr hüdudunda, istilası altında olan sahəyə işıq saçıb isidir. Bizim Yer kürəsi fasilə baxımından üçüncü səyyarədir ki, onun istehsal etdiyi inerjidən bir azacıq istifadə edir.

## GÜNƏŞİN YAŞI

Günəşin ömrü barədə irəli sürülən ən son nəzəriyyə budur ki, Günəşin ömrü bəzi qonşuları kimi dörd min ildən beş min ilə kimidir.

## GÜNƏŞİN HƏRƏKƏTİ

Bu sahədə tədqiq aparanlar bu nəticəyə çatmışlar ki, Günəş Yer kimi öz başına fırlanır. Onun hər bir fırlanışı iyirmi beş gün çəkir. Günəş öz başına bir oxda fırlanır ki, Yer Günəşin başın öz oxunda həmi cəhətdə fırlanır. Günəşin bu hərəkətinə vəzi hərəkəti deyirlər.

Amma intiqali hərəkət: Alimlərin tədqiqatına əsasən, Günəş sistemi səyyarələri (planetləri) və qəmərləri ilə birlikdə şimal nöqtəsinə doğru saniyədə on doqquz kilometr yarım sürətlə hərəkətdədir.

Günəşin üçüncü hərəkəti qalaktikanın mərkəzinə doğrudur. Hər qalaktika milyonlarla ulduzu ehtivar edir. Ulduzlar tamamilə qalaktikanın başına fırlanırlar. Onların hərəkətinin sürəti eyni deyildir. Mərkəzdən uzaq-yaxın olduqlarına görə fərqlidir.

Bizim Günəş qalaktika məşmüəsinin bir parçasıdır. O qalaktikahın başqa ulduzları kimi saatda doqquz yüz yetmiş iki kilometr sürətlə qalaktikanın mərkəzinin başına fırlanır. Günəşin fırlandığı ox o qədər uzundur ki, onun fırlanışı iki yüz iyirmi milyon il müddət ərzində bu oxu kecib gedir.

Bu qədər Günəşin əzəməti və faydalı fəaliyyəti barədə kifayət edə bilər. İndi bu sistemin planetləri barədə Günəşdən fasilə tutduğunu sıra ilə qısa söz açırıq.

### 1. MERKURİ

Merkuri Günəşə ən yaxın planetdir. Günəşin əlli səkkiz milyon kilometrliyində yerləşmişdir. Planetlər Günəşin başına yumurtavarı bir oxda hərəkət etdikləri üçün onların Günəşdə fasilələri həmişə bir deyildir, çox-azlığı vardır. Merkuri planetinin Günəşlə fasiləsi ən çoxu yetmiş milyon kilometr və ən azı qırx altı milyon kilometrdir. Orta hesabla fasiləsi əlli səkkiz milyon kilometrdir.

Bu planetin bir yanı həmişə Günəşə tərəfdir. Bu səbəbdən onun bir tərəfi cəhənnəm kimi yandıran və başqa tərəfi bum-buzdur. Bu planetin azaraq görüşməsinin səbəbi budur ki, onun çıxıb-batması Günəşin çıxıb-batması ilə birdir. Bu cəhətdən özünü azaraq göstərir. Bununla belə onu ilin bəzi günlərində üfüqdə görmək mümkündür.

Bu səyyarə səksən səkkiz gün ərzində öz oxu başına və Günəşin başına fırlanır. Başqa sözlə, o Günəşin başına fırlandığı müddət ərzində öz başına da fırlanır. Merkuri Günəşə ən yaxın planet olduğundan bir qısa oxda və yeyin sürətlə fırlanır. Onun yolu saniyədə qırx yeddi kilometr yarımdır.

## 2. ZÖHRƏ ULDUZU (AXŞAM-SƏHƏR ULDUZU)

Zöhrə planeti fəza alimləri Yerin bacısı adlandırmışlar. Amma onlar heç bir-birlərini tanımırlar. Onun çevrəsini qatı toz aldığından hələ xüsusiyyətləri bir o qədər bəllənməmişdir.

Venera Yerlə Merkuri planeti arası bir oxda Günəşin başına fırlanır. Venera planeti məxsus işıqlığı olduğu üçün Günəş batdıqdan sonra gün batan yerdə və Günəş çıxmadan əvvəl gün çıxan yerdə görmək olar. Yunanlılar bu ulduzu iki tərəfdə gördükləri üzündən belə təsəvvür edirmişlər ki, guya iki ulduzdur və iki ad qoymuşlar. Halbuki bir ulduzdur. Bəzən dan ulduzu və bəzən də axşam ulduzu demişlər.

Venera planeti Yer kürəsinə bir çox cəhətdən oxşadığı üzündən ona Yerin bacısı demişlər. Onun həcmi (məsahəti) Yerin doxsan yeddi fayzıca, ağırlığı səksən iki fayzıca və çəkim qüvvəsi (cazibəsi) Yer cazibəsinin onda doqquz fayızıcadadır.

Venera planeti iki yüz iyirmi dörd gün və on altı saat qırx səkkiz dəqiqə ərzində bir dəfə Günəşin başına fırlanır.

## 3. YER KÜRƏSİ YAŞADIĞIMIZ TORPAQ

Yer kürəsi barədə məlumatımız başqa kürələrə nisbət daha çoxdur. Yer kürəsi, bəşərin dünyaya göz açdığı bir böyük yerdir. Amma alimlərin nəzərinə əsasən, bu kürə digər kürələrə nisbətən çox kiçikdir. Yer başqa kürələr kimi azadlıqla fəzada dolanır. Bu kürə Günəşin yüz əlli milyon kilometrliyində və üç yüz altmış beş gün və beş saat və qırx səkkiz dəqiqə ərzində və saniyədə 29,8 kilometr sürətlə Günəşin başına fırlanır. Yerin Günəşdən fasiləsi ən çoxu 152 milyon kilometr və ən azı 147 milyon kilometrdir. Yerin fəzasını 800 kilometr qalınlığında qazlar əhatə edir ki, bir zireh kimi Yerə tərəf tullanan asteroidlərin qarşısını alır. Bu asteroidlər saniyədə əlli kilometr sürətlə Yerin fəzasına atılır.

## 4. MARS PLANETİ (MƏRRİX)

Bu gün alimləri daha çox özünə məşğul edən və onu tanımaq və sirlərini kəşf etmək üçün keçmiş əsrlərdən daha çox səy göstərilən planet Mars planetidir. Bu səy göstərmələrinin səbəbi budur ki, Yer kürəsindən sonra həyat və yaşayış şəraiti Mars planetində başqa planetlərə nisbət daha çoxdur. Bu üzdən bu planetdən çoxlu fotolar götürmüşlər. Göygöyərtinin oluşu bu kürəyə qəti bir şeydir.

Mars kürəsinin Günəşdən 228 milyon kilometr fasiləsi vardır və 677 gündə saniyədə 24 km surətdə Günəşin başına fırlanır.

Mars Yerin xırda qardaşıdır. Gecə-gündüz Mars kürəsində Yerdə olduğu kimidir. Bir azacığ ixtilafla 24 saat 37 dəqiqə ərzində öz başına

fırlanır. Marsda Yerdə olduğu kimi dörd fəsil vardır, amma onun fəsilləri iki bərabər yerin fəsllərindən çoxdur.

Mars, Yerin Günəşdən aldığı işıq və hərarətin yarısını Günəşdən alır. Bu yüzdən Mars yerdən soyuqdur. Yayda hərarət dərəcəsi 27 dərəcə santiqraddan çox olmur. Qışda isə soyuq - 58 dərəcəyə enir.

## 5. MÜŞTƏRİ SƏYYARƏSİ[1]

Yupiter Günəş sisteminin ən böyük planetidir ki, bir dairəvarı oxda Mars oxundan qıraq bir oxda Günəşdən 741 milyon kilometr fasilə ilə fırlanır. Onun diametri 148 min kilometrdir. Yəni on bir dəfə Yer qədərdir. Onun məsahəti 150 dəfə Yerdən çoxdur.

Yupiter saniyədə 13 kilometr surətlə on bir il üç yüz on beş gün ərzində Günəşin başına fırlanır. Onun 9 saat 55 dəqiqə 41 saniyə ərzində vəzi hərəkəti də vardır.

## 6. SATURN PLANETİ (ZÜHƏL)

Yupiterdən sonra Saturn planeti durur. Yunanlıların nəzərinə görə, Saturn planeti Günəş sisteminin son planeti sayılırdı. Amma teleskop ixtira olunduqdan sonra məlum oldu ki, Saturn Günəş sisteminin son həddi deyil. Günəşin hökümət etdiyi dairə xəyal edildiyindən daha genişdir.

Saturn planeti 9 diametr dəfə Yerdən yekədir və nəticədə məsahəsi 700 dəfə Yerdən böyükdür. Amma onun ağırlıqlı yüngül materialdan təşkil tapdığı üçün fəqət 100 dəfə Yerdən böyükdür. Amma onun ağırlığı yüngül materialdan təşkil tapdığı üçün fəqət 100 dəfə Yerdən böyükdür.

## 7. URAN PLANETİ

Bu planet 13 mart 1781-ci ildə Uilyam Herşelin vasitəsilə kəşf edildi. Onun kəşf olunması Günəşin hökümət sürdüyü dairəni 1428 milyon kilometrdən 2783 milyon kilometrə kimi genişlənirdi. Bu planet böyüklük baxımından Yupiter və Saturndan qalan deyildir. Onu adi gözlə də belə görmək mümkündür. Uran 84 il yeddi gün ərzində və saniyədə 6700 metr sürətlə Günəşin başına (oxu ətrafında) fırlanır. O, on saat 8 dəqiqə ərzində öz başına fırlanır.

[1] Yupiter planeti.

## 8. NEPTUN PLANETİ

Bu planeti Urben Leverye ilə İohann Qalə kəşf etmişdir.

Bu planet Günəşdən 4500 milyon kilometr fasilədə qərar tapmışdır və öz böyük oxuna 164 il və 280 gün ərzində keçib gedir. Yəni onun hər bir fəsli 40 il çəkir. O 15 saat 40 dəqiqə ərzində bir dəfə öz başına (oxu ətrafında) fırlanır.

## 9. PLUTON PLANETİ

Bu planet Günəş sisteminin son planetidir. Onu 1930-cu ilddə amerikalı alim Klayd Tombo kəşf etdi. Bu planet 40 dəfə Yercə Günəşdən uzaqdır. Bu planetin kəşf edilməsi ilə Günəşin hökümət dairəsi 4500 milyon kilometrdən 5920 milyon kilometrə qədər genişləndi. Bu planet bir dairəvari oxda 250 il ərzində bir dəfə Günəşin başına dolanır.

Bununla belə demək olmaz ki, bu planet Günəş sisteminin son planetidir.

***

Alimlər ehtimal edirlər ki, bundan başqa da planetlər olmuş olsun. Demək bu Günəş sisteminin bu vəziyyəti bizə göy kürələrinin xilqətinin nizam-intizam üzrə olduğunu göstərir. Onun hər bir güşəsi onun xilqətində bir bacarıqlı, müdəbbir, hikmətli fərdin dəxalətini göstərir. Əql heç vaxt bunu qəbul etməz ki, bu əsrarəngiz nizam elm, hikmət və qüdrət dəxalət etməyən yaranmış olsun. Heç bir insaflı insan bu hikmətli və insan düşüncəsindən üstün olan dəqiq nizamı, təsadüfün nəticəsi bilməz.

Hamılıqla bilirik ki, alimlər Göy kürələrinin müxtəlif hərəkətlərindən əldə etdikləri geniş məlumat vasitəsilə yüz illər bundan əvvəllər bu planetlərin, Gunəş və Ayın çıxıb-batmasını, Ayın və Günəşin tutulmasını müəyyən edə bilirlər. Belə bir dəqiq qabaqgörənlik yalnız bu kürələrə hakim olan nizamın oluşu ilə mümkündür. Bu onların münəzzəm hərəkətlərinin nəticəsindən irəli gəlir.

Bu planetlərin hərəkəti o qədəq münəzzəmdir ki, bir planetin hərəkətində pozğunluğun müşahidə edilməsi başqa bir planetin kəşfinə gətirib çıxarmışdır.

Məsələn Uran kəşf olunduqdan sonra alimlər onun hərəkətində bir növü pozğunluğu muşahidə etdilər. Bu mətləb səbəb oldu ki, bir fransalı alim belə bir məruzə versin:

«Mənim zənnimcə, bir kəşf olmamış planet Uranın nəzmində pozğunluq törətmişdir».

Bu bilici alim bu planetin yerini müəyyən etdi. Bir müddət ondan sora almanlı alim İohann Qale həmin yeri müəyyən olmuş planeti Neptun adında kəşf etdi. Pluton da bu tərzdə kəşf oldu.

Belə bir dəqiq qabaq görənliklərin səbəbi bu kürələrin hesab kitab üzrə hərəkətlərindəndir. Günəş sisteminin nizamını araşdırmaqla üst dünyanın nəzmi qurtarırmı? Və ya indiki bəşər belə bir araşdırma vasitəsilə özünü çox geniş dünyalar qarşısında görür, elə bir dünya ki, milyardlar sistem və ulduzlarla doludur. Bizim günəş sisteminiz o böyük okeanın ən dərinliyindədir.

Əgər insan elmin qanadı ilə bir az Günəş sistemindən yuxarı gedə bilərsə və milyardlar ulduzu və qalaktikanı görüb, heyrətə dalırsa və bu bədii nizamdan bir azacıq agah olarsa; bu nizamın yaradıcısı qarşısında baş əyər.

Demək bununla belə bəzilərin iddia etdiyi təsadüf və bu nizamın öz-özünə yaranması nəzəriyyəsi bir uşaq sözündən və əfsanədən başqa bir şey deyildir.

## ONUNCU DƏRS

## İNSAN VÜCUDUNDA TÖVHİDİN AÇIQ DƏLİLLƏRİ

İnsan özünü tanımaq üçün bir sıra elmlərə əl tapmışdır ki, onunla öz vücudunun əsrarından agah olmuşdur. İnsan bədəni o qədər əsrarəngizdir ki, onun hər bir üzvü bizi başqa bir aləmə aparıb çıxardır. Zira bədənin hər üzvündə bir sirli dünya yatmışdır.

Bu əsrarı aşağıda qeyd etdiyimiz yerlərdə axtarmaq mümkündür.

1) İnsan bədəninin sirli hüceyrələri.

2) Bədənin aşbazxanası sayılan həzm etmə dəstgahı.

3) Bədənin qidasını çatdıran qan dövranı sistemi.

4) Bədəndə qanı təmizləyən tənəffüs sistemi.

5) Bədənin baş komandiri olan əsəb və beyin sistemi.

6) Beyinin məlumat alma vasitələri sayılan göz, qulaq, burun və....

7) Bədənin başqa üzvləri.

Bu sistemin sirli quruluşu bizim üçün bir qüdrətli və alim yaradıcının varlığını sübut edir. Biz tövhidin ürəyə yatan sənini və Allahşünaslığın səfa verici nidasını insanın hər bir üzvündə və onun hər bir zərrələrindən ürək qulağı ilə eşidirik. Bizim ağlımız və vicdanımız hər parçasını tanımaq ücün dərin mütaliələrə möhtac olunan və bədii nizamın və sistemin təsadüfi olaraq yaranmasını qəbul edə bilmir.

Necə inanmaq olar ki, bizim gözümüzün 9 vərəqədən (qatdan) ibarət olan və onların diametri kağız vərəqinin qalınlığından az olan bəbəyi öz-özünə və heç bir alim və qüdrətli quvvənin vasitəsi olmadan yaranmışdır?

Demək olarmı ki, bir belə sirləri barəsində kitablar yazılan və hər ildə onun barəsində yeni şeylər kəşf olan və ömrün başa-başında bir labaratoriya kimi dəqiq və nizamla işləyən həzm etmək istemi təsadüfi olaraq yaranmışdır?

Korsi Morisin dediyinə görə, biz müxtəlif qidaları xam material kimi bu labaratoriyaya tökürük. Biz bu sistemin necə işləməsindən və bu dəsgahın içində xam materialın kimyəvi dəyişilməsindən xəbərsizik. Biz ət, göyərti, çörək və tərəvəz yeyirik. Onunla bir az su içirik və bəzən dava-dərman üçün sıra göy-göyərti ərəği içirik. Bu halda bizim mədəmiz bir belə qida maddələri arasından faydalı olanları seçib, özünün istehsal etdiyi kimyəvi maddələrlə onu dartır. Sonra onun artığını tullayır, qalanını protein edib, bədən hüceyrələrinin qidasını təmin edir.

Bu alim sonra deyir: «Mədə yağları və başqa zəruri maddələri xəzinə edir ki, bədənin qidası yetişmədikdə aclıqdan həlak olmasın. Bu işlərin hamısı insanın xəbəri olmadan görülür.

Bu kimya laboratoriyasında ərinib düzələn maddələr insanın laboratoriyada istehsal etdiyi maddələrdən çoxdur. Bu laboratoriyaya tökülən maddələrin sayı bir milyon növdən çox təmin olan parçalardandır.

Bir yumruq yekəliyincə olan qan mərkəzi-qəlb iki möhkəm qələnin (kürək köks) arasında və iki ağ ciyərin ortasında və bədənin sol tərəfində qırmızı və qara damarlardan asılıdır. O bədənin ən mühüm və sirli orqanlarındandır. Bu avtamatik dəstgah armud şəkilindədir və böyüklüyü bir yumruq böyüklüyüncədir. Amma elə qüvvəlidir ki, hər bir dəqiqədə 70 dəfə açılıb yumulur, otuz il ərzində bir milyarddan çox bu işi görür. Bu bir haldadır ki, əgər bu üzv dəmirdən, poladdan və ya daşdan olsaydı, bu ağırlıqda işi görə bilməz və tablaşa bilməzdi. Görəsən süni qəlbi peyvənd vurmaq mürəkkəbdir və ya qəlbin öz orqanizmi? Qəlbə peyvənd vurmaq bir işığı bir yerdən başqa bir yerə bağlamaq kimidir. Bu iş işığın öz quruluşundan daha mürəkkəbdir. Bir yerdə ki bir qəlbi başqa bir qəlbin yerinə peyvənd vurmaq elm, əql və zəka tələb edirsə, eləcə də bir qəlbi yaratmaq da (ki, açılıb yumulmaqla qara damarlardan qara qanı alır və ciyər vasitəsilə aldığı oksigenlə təmizləyib, bədənin bütün yerlərinə göndərir) bir alim və qüdrətli yaradıcını tələb edir.

Bir şəhərə, müəssisəyə və ya kiçik evə lüləylə su çəkmək müəyyən planları tələb edir. Bizim bütün bədənimizə tükdən nazik və incə damarlar çəkilmişdir ki, qan bir axımda hər dəqiqədə iki dəfə bədənin bütün yerlərini dolanır. On milyarddan çox bədəndə olan hüceyrə insanın bədənini yuyur. Bunlar bədənin hər bir yerində və hətta gözün incə pərdələrində və beynin həssas yerlərində daimən cərəyandadır və hər üzvün lazimi qidalarını çatdırır.

Görəsən insan ağlına sığmayan bu incə və bədii orqanizmin bir alim və qadir yaradıcısı yoxdurmu? Görəsən bu təsadüfi olaraq yaranmışmı?

İnsanın beyni ən əsrarəngiz üzvlərdəndir. Bəşərin məlumatı bu sirlər mərkəzində necə fəaliyyət etməsindən çox azdır.

Canlıların içində yalnız insandır ki, öz düşüncəsini işə salmaqla düşünə bilir və bir məsələnin həll edilməsindən başqa bir məsələni həll edir. Amma heyvanın idrakı belə deyildir. Onun şüuru sabitdir. Yəni bu günkü qarışqa həmən işi görür ki, onun ən qədim cəddi o işi görürdü. Onun ev düzəltməsi ilk gündən indiyə kimi birdir, heç fərq etməmişdir. Bəzilərin dediklərinə əsasən, heyvan şüuru və idrakı bir neydən qalxan sadə ahəng kimidir ki, gözəl, incə və ruh oxşar olduğu halda çox məhduddur. İnsan şüuru və idrakının fəaliyyəti bunun xilafına olaraq, çox genişdir. Beyinin o zaman əzəmətini yaxşı düşünürük ki, insanın hərəkatı və hissiyyatı hətta qida həzm etmə kimi qeyri-iradi hislərini beyni öz kontrolu altına almışdır. Bir canlının ən açıq təsiri həmən ehsas və hərəkətdir ki, bunların hər ikisinin mərkəzi beyindir.

Bədənin hər birinə çəkilən əsəb damarları daxili və xarici amillərin təsirindən aldığı hər hansı bir məlumatı dərhal beyinə yollayırlar. Bundan əlavə, insanın beş hiss üzvü beyinin məlumat vasitələridir. Onlar hər bir hadisədən təsirlənib aldıqları məlumatı dərhal beyinə yollayırlar. Bu mərkəzin xəbər alma və məlumat alma qüdrəti bir o qədər yoxdur ki, göndərilən raportların hamısını bir yerdən alır və heç vaxt səhv etmir. Hər

birinə lazımi əmri verir. Deməli göz sistemi əşyanın şəkillərini yolladıqda qulaq da qulaq sistemi vasitəsilə aldığı səsləri yollayır.

Beyinin arxiv qisməti yaradılışın əsrarındandır. İnsanın xatirələri müntəzəm şəkildə bir xırdaca yerdə saxlanır. Oraya bir dəfə muraciə edəndə milyonlarla zəxirənin içindən müəyyən xatirəni çəkib çıxardır. Bir alim insanın beyninə sanki bir böyük kitab evi qərar tutmuşdur.

## İNSAN BEYNİLƏ ELEKTRONİKA BEYNİNİN MÜQAYİSƏSİ

Elektronik məğzlər (beyinlər) texnikanın əcaibindəndir. Onun bir müəssisədə işə salmaqla, yüz işçinin işini görmək olur.

Minlərlə imtahan vərəqəsi onun vaistəsilə yoxlanılır, bir gəminin adını kağazda yazıb ona versənizsə, o sizin üçün gəminin qüdrəti, quruluşu, kapitanı və necə işləməsi barədə lazımi məlumat verəcəkdir. Əgər həmin dəzgahdan bir adanın xəritəsini isdəsən, o adanın düzgün və gözəl xəritəsini, bütün lazımi məlumatları ilə belə sənin üçün hazırlayacaqdır.

Bu texnika bu əzəməti ilə belə yalnız insan beyni qabağcadan cavabını kaset formasında hazırladığı sualların cavabını verə bilir. Onun bir gəminin barəsində məlumat verməsinin səbəbi budur ki, qabağcadan o gəmi barədə lazimi məlumatlar bir kasetə alınmış və o aparata verilmişdir. Biz o gəmi barədə ondan məlumat isdəyəndə onun müəyyən bir yeri hərəkətə gəlir və həmən kaset işə düşür. Sonra onun ixtiyarında qabaqcadan qoyulan məlumatı bizim ixtiyarımızda qoyur.

Bu böyüklükdə dəstgahın özündən təşəbbüsü yoxdur və sadəcə cavabı qabağcadan hazırlanan sualların cavabını verə bilir. Keçmişdən xəbər verə bilər, qabaqcadan onun beynində yerləşən problemləri həll edə bilir. Açıq-aydındır ki, bu saxta məğzim insan məğzinin bərabərində bir şey deyildir. Eyni halda hamin saxta məğz böyük bir tövhid dərsidir. Çünki belə bir saxta məğzim yaranması saysız alimləri tələb edirsə, bəs belə insanların məğzi bir alim və qadir yaradıcını tələb etmirmi?

## TÖVHİD NİŞANƏLƏRİ BAŞQA CANLILARDA

Məməlilər, mərcanlar, şerənclər və tək hüceyrəlilər kimi canlıların orqanizmlərinin əsrarəngiz nizamları bizi bu aləmdən üstün olan bir qüdrət, elm və iradə ailəminə aparıb çıxarır. İnsan heç vaxt inana bilmir ki, bu dəqiq nizamlar və mürəkkəb olan qida həzm edici, tənəffüs, əsəb və məğz dəstgahının sistemin, hər bir canlının öz daxilində və ya xarici amillər vasitəsilə ehtiyaclarını ödəyən alim və qadir yaradıcının dəxaləti olmadan yaranmasına inana bilmir.

Hər bir canlının bədənində yerləşən nizam-intizamları genişcəsinə izah etmək bizim qüdrətimizdən xaricdir. Bioloji elmləri isə bu qədər inkişafı ilə belə, hələ bir çox heyvanların daxili əsrarəngiz nizamları

açıqlaya bilməmişdir. Bioloji elmləri barədə yazılan kitablarda bu barədə geniş məlumat verilmişdir. Deməli bu elmlər barəsində yazılan kitablar, yəni tibb, bitki tanıma, biologiya, heyvanşünaslıq, fizika, kimya sahəsində yazılan kitabların hər biri allahşünaslıq və tövhidi tapmaq kitabıdır. Çünki bu kitablarda yaradılışın sirləri və qayda-qanun barədə açıqcasına söz açılmışdır. Elm sadəcə «xilqət intizamı»na yol tapmaqdan və yaradılışın qayda-qanununu tanımaqdan başqa bir şey deyildir. Hər hansı bir qanun kəşf olduqda bu aləmin yaradıcısının elm və qüdrətini görməyə yeni bir qapı açılır, deməli elm inkişaf etdikcə iman qüvvələşir və allahşünaslıq mövzusu günü-gündən təzələnir.

Hər bir vücudun yaranma qanunu və sirri bir sikkə kimi iki üzü vardır. Biologiya alimləri nəzərindən bir sıra nizam-intizamdır ki, o vücudun varlığı ona bağlıdır, və əgər o nizam-intizam pozulsa onların varlığı təhlükəyə düşər. Amma ilahiyyat alimləri nəzərindən, bu nizam Allahın varlığını görmək üçün bir bacadır. Yəni onun yaradıcısının alim və qadir olmasına böyük bir dəlildir.

Bu üzdəndir ki, yeni astronomiya elminin təməl Daşını qoyan Kəpler deyir: «Bizim xilqətin və göylərin əzəmətinə dair elmimiz artdıqca, dindarlığımız və imanımız dərinləşir».

Albert Vinçester deyir: «Elm aləmində yeni bir kəşfiyyat baş verəndə, yüz dəfə bizim imanımız möhkəmləşir və az-çox əqidələrimizdə olan gizli vəsvəsələr aradan gedir və öz yerini allahşünaslığın və töhidin üstün məfkurəsinə verir».

## ON BİRİNCİ DƏRS

## BİTKİ ALƏMİNDƏ TÖVHİD DƏLİLLƏRİ

Nizam-intizam dəlili allahşünaslığın ən sadə və ümumi dəlili olmaqla, sadəcə göy cismlərində və insan vücudunda həsr olmamışdır. Biz nəbatət və bitkilər aləmində olan nizam-intizam vasitəsilə alim və qadir Allahın varlığına dəlil gətirək. Bundan əvvəl dediyimiz kimi, hər bir mövcudun diqqətli nizam-intizamı onun yaradıcısının alim və qadir olmasını göstərir.

Hər nədən əvvəl bir bitkinin mürəkkəb hüceyrələrinə diqqət edin. Hələ bir hüceyrənin əsrarəngiz nizamı, onun xaliqinin qadir olmasına ən yaxşı dəlildir.

Bir hüceyrənin nizam-intizamı o qədər əsrarəngiz və heyrətləndiricidir ki, bütün dünya alimləri hüceyrələrin sirlərini tanımaq üçün apardıqları tədqiqatlarla belə, hələ də onun quruşunun sirri barədə bir o qədər məlumat əldə edə bilməmişlər və hələ də yeni kəşfiyyatı güdürlər.

Bitkinin orqanizmini açıqlamaqdan vaz keçirik. Bitkinin necə artması və göyərməsi və hüceyrələrin bölünməsi barədə bəhsə girişmək istəyirik. Bunları araşdırdıqda bu nəticəyə çatırıq ki, bir üstün olan kimsə bu vəziyyəti öz nəzarəti altına almışdır.

Bitkilərin doğub-doğulması çox dəqiq və hesab-kitab üzrədir. Təkcə bu iş bir alim və qadir yaradıcının varlığına böyük bir dəlil ola bilər. Bunu bir gülün orqanizmini izah etməklə açıqlayırıq:

Güllər ümumiyyətlə dörd hissədən təşkil tapırlar ki, hər qismətin öhdəsinə müəyyən bir vəzifə qoyulmuşdur.

1) Gülün qabığı: həmən yaşıl yarpaqlardır ki, gülün üzünü örtür.

2) Gülün öz yarpağı: Əlvan və rəngarəng yarpaqlardır ki, Allahın nişanələrindəndir.

3) Gülün göbəyi: Gülün içində bayraq şəkilində xırda şeylər vardır ki, ona gülün göbəyi deyərlər. Bunların başında sarı rəngli xırdaca qabarıq vardır ki, onun içində bir xırda torba vardır. O torpanın içində ruşeym kimi kirdə dənələr vardır ki, dişi qismətlə birləşəndə gülün toxmu cürlənir.

4) Dişilik yeri: Bu qismət gülün baş tərəfindəndir ki, yapışqanlı maddə onu bürümüşdür. Bu yapışqan maddənin işi erkək dənələri yığıb saxlamaq və onların gövərməsinə yardım etməkdir.

Barlandırma (tozlandırma) əməli belə olur: Külək əsəndə gülün içində olan toxum torbası tərpənir, torba açılır və toxum gülün yarpaqları arasına tökülür. Sonra toxum, dişi toxumla birləşib və barlanır və gülün toxumunu təşkil edir.

Görəsən təsəvvür etmək olar ki, bu maraqlı oyun və bu heyrətləndirici təşkilat öz-özünə yaranmışdır?

Biz güllərin nizamı barədə həmin əndazəyə kifayət edirik və sözümüzü bir biologiya aliminin sözü ilə sona çatdırırıq. O deyir:

«Yol üstündə göyərən bir yonca budağına diqqət edin. Bəşərin indiyə kimi düzəltdiyi şeylər və maşınlar özü göyərən bitki kimi heç ola bilərlər? Bu yonca budağı sözün tam mənasında heyrətləndirici və əsrarəngiz (sirli) maşındır ki, daima artır və hər gün onda minlərlə fiziki və kimyəvi dəyişiklik verir. Bunların hamısı onun təbii həyatını təşkil edən «protoplazma» adında maddənin kontrolu altındadır.

Bu diri və əcaib maşını kim yaratmışdır? Görəsən onu Allah yaratmamışdır? Və onun zatında artılma qüvvəsini qoymamışdır ki, bu qüvvə onun bütün növlərində bir nəsildən o biri nəslə öz xasiyyətlərilə birlikdə daşınsın? Biz daima həmin xüsusiyyətlər və sifətlər «yonca»nı tanıyırıq.

Məncə, bu biologiyanın ən əsrarəngiz hissəsidir ki, ilahi qüdrəti cilalandırır. Biz elə bir dünya ilə qarşılaşırıq ki, son dərəcədə kiçik və xırdadır. Yoncanın artılmasına səbəb olan özəyi bir hüceyrədən xırdadır. Onu fəqət qüdrətli mikroskopların vasitəsilə görmək olar. Amma bu özəylərin elə qüvvəsi vardır ki, lazımi vaxtda (əlbəttdə nadir hallarda) öz əsl keyfiyyətini dəyişib, qabaqkı nəsillərdən yaxşı olan yeni bir növ və nəsl törədir».

Dünya alimləri və mütəfəkkirləri bilirlər ki, canlılarda artılma qüvvəsi yaranması və növünü dəyişmə qüvvəsinin yaranması ilahi hikmətin və məşiyyətin nişanəsidir. Bu göstərir ki, bütün canlıların kəmala doğru hərəkət edirlər.

Burada Allahşünaslığın ümumi dəlili olan dəlilinin izahatı qurtardı. Amma bu mövzunu mükəmməlləşdirmək üçün nəzm dəlilini başqa baxımdan tədqiq etmək istəyirik.

## ON İKİNCİ DƏRS

## NƏZM DƏLİLİNİ MÜVAZİNƏT VƏ KONTROL BAXIMINDAN ARAŞDIRIRIQ

Mübahisələrimizi mükəmməlləşdirmək üçün nizam dəlilini başqa baxımdan tədqiq edirik. O da təbiətdə «müvazinət»in olmasıdır. Bu, nizam dəlilinin bir şöbəsi kimidir. Müvazinətdən məqsəd çanlılarda və bitkilərdə olan uyğunlaşmaqdır. Bu müvazinət və uyğunlaşma bu aləmin bir hikmət üzündən yaranmasını və xaliqin hər şeyi özünə uyğun olan yerdə qərar verməsini göstərir. Aləm xəttü-xal və qaş-göz kimi hər şey öz yerində qərar tutmuşdur.

İndi həmin müvazinəti sübut etmək üçün bir sıra nümunələr zikr edirik.

## CANLININ VƏ BİTKİNİN YARANMASINDA MÜVAZİNƏT VARDIR

Bu iki canlının yaranması elə nizam və hesab-kitab üzrədir ki, hər birinin varlığı başqasını mükəmməlləşdirir. Biri olmasaydı, o birisi də olmazdı. Korsi Morisen bu barədə lazımi izahatı vermişdir. O deyir:

«BİRİNCİ NÜMUNƏ: Hamımız bilirik ki, bitkilərin həyatı həmən azacıq karbon oksidinə bağlıdır. Nəbatət havada mövcud olan həmən karbon oksidi ilə nəfəs alırlar. Bitkilərin yarpaqları insanın ağ ciyəri kimidir ki, Günəş istisi təsirindən karbon oksidini karbona və oksigenə ayırır. Oksigeni havada buraxır və karbon isə bitkinin özündə qalır. Deməli nəhayət bizim tənəffüs etdiyimiz və beş dəqiqə də olsun onsuz diri qala bilmədiyimiz oksigeni bizim üçün təmin edir.

Bütün meşələri nəbatatı və bütün bitkilərin və göyərəntilərin əsl orqanizimləri su və karbondan ibarətdir. Heyvanlar karbon buraxırlar və bitkilər oksigen buraxırlar. Bu üzdən bu mövcudları hər hansının əməli və işi dayansaydı, ya heyvanlar bütün oksigeni istehlak edərdilər və ya bitkilər bütün karbonları istehlak edib qurtarardılar və müvazinətin pozulması səbəbindən hər iki qrup sürətlə həlak olardı.

Bu son vaxtlar sübut edilmişdir ki, bitkilərin həyatları üçün azacıq lazım olan oksigen kimi heyvanlara da bir azacıq əsid karbonik ehtiyacdır.

İKİNCİ NÜMUNƏ: Həşəratın insanlar kimi ağ ciyərləri yoxdur və bir lülə (boru) vasitəsilə tənəffüs edirlər. Həşərat böyüyəndə o lülələr də onunla bərabər böyüyür. Bununla heç bir həşərat neçə santimetrdən çox böyüməz. Həşəratlar elə yaranmışdır ki, onun tənəffüs etməsi heç vaxt böyük həşəratın vücuda gəlməsinə səbəb olmazlar. Həmin müvazinə və təadül (bərabərləşmə) həşəratların yer üzünə istila tapmasının qarşısını

alıb. Əgər bu təadül və müvazinə olmasaydı, insan yaşaya bilməzdi, və müdafiəsiz insan heç vaxt şir yekəlikdə bir mığmığının və qaplan yekəlikdə toratanın qarşısında dura bilməzdi.

ÜÇÜNCÜ NÜMUNƏ: Keçmiş zamamlarda dəniz səyyahları müxtəlif səfərlərdə köhnə və qalmış qida yeməkdən bədənlərində yara çıxardırdılar. Son vaxtlar məlum oldu ki, lumu və narıncı şirəsi bu xəstəliyin dərmanıdır. Müsafirlər bu zamandan qabaq bu xəstəliyin səbəbindən bir şey bilmirdilər. Bir nəfər madaqasqarlı bu xəstəliyin qəti dərmanını tapdı. Bu bir haldaydı ki, səyyahlar bu xəstəliyin əsərində həlak olurdular. Yüz il çəkdi ki, bu xəstəliyin dərmanı lumu suyunun olması məlum oldu. Deməyə yeri yoxdur ki, bir çox xəstəliklərin səbəbi bədəndə vitaminlərin azlığındandır. Bəşər yüz illər boyunca Yer kürəsində yaşamışdı. Amma heç vaxt onun həyat mənbəyi olan vitaminlərdən bir xəbəri yox idi və bilmirdi ki, onun həyatını təadülləşdirdir.

İnsan yüz illər bundan əvvəl endokrin vəzisindən xəbərsiz idi. Bu vəzilər bir laboratoriya kimidir ki, insan bədənində ən mühüm kimyəvi dəyişilmələri törədir və bir çox fəaliyyətlərin və şadlıqların amili olur. Əgər bu əcaib damcılanmalar öz təadülün əldən versələrsə, insan bir çox cismi və ruhi xəstəliklərə düçar olar.

Bu müvazinə və təadüllər alim və müdrik yaradıçının varlığına ən yaxşı dəlildir.

Biz əgər bu barədə dayansaq və heyvanlarda və nəbatatda müvazinət və təadülün varlığı barədə mübahisə açsaq, bu bəhs uzun çəkər. Bu üzdən daha bir nümunə zikr etməklə bəhsimizi sona çatdırırıq.

DÖRDÜNCÜ NÜMUNƏ: Bütün cismlər donanda xüsusi çəkisi ağırlaşır, amma suyun donanda yüngülləşir. Həmin iş, yəni su donanda yüngülləşməsi, həyatda əcib bir rol ifa edir. Əgər su donanda ağırlaşsaydı, buzlar dənizlərin və çayların dərinliyində yığışıb qalaqlanardı və dənizlər bir təpə kimi qalaxlanardı. Amma suyun üzü donmaqla, suyun altı donmur. Bununla dəniz heyvanları asanlıqla su altında yaşayırlar və həmçinin buzlar da yaz fəslində tez əriyirlər».

# ON ÜÇÜNCÜ DƏRS

## CANLILARIN FİTRƏTƏN YOL TAPMALARI

Bu varlığın yaradıcısı hər bir canlının zatında «yol tapmaq» hissi qoymuşdur. Bir canlı dünyaya göz açdığı zaman bir üstün qüdrətdən ilham alaraq, yaşamaq yolunu tanıyır və öz kəmalına və yarandığı məqsədə çata bilir. Bu bir dəlildir ki, Quran çox geniş mənada Fironun qarşısında Həzrəti Musa (ə)-ın dilindən ona işarə edir.

Fironun Həzrəti Musadan tanrı barəsində soruşanda Həzrəti Musa (ə) tanrını belə təqdim etmişdir:

قَالَ رَبُّنَا الَّذِي أَعْطَىٰ كُلَّ شَيْءٍ خَلْقَهُ ثُمَّ هَدَىٰ

***«Dedi: Bizim Rəbbimiz hər bir şeyə onun məxsus yaradılışını əta edən, sonra (ona) doğru yol göstərəndir».***[1]

«Yol tapmaqlıq» və «zatən hidayət olunma» bu dəlilin əsasını təşkil edir. Biz həmin sirli şüurun varlığından və Quranın deyişilə «vəhy və ilham»dan ilham verənin varlığını anlayırıq. Yəni həmin sirli qüvvədən və bir məktəb görmədən, yaşayış tərzi ilə tanış olmaqdan bir alim və qüdrətli ilhamvericinin varlığına inanırıq.

İndisə canlarında olan həmin qeybi (gizli) ilham və zatən hidayət olunmadan bir neçə nümunə qeyd edirik:

### 1. QARIŞQA

Evinizin yan-yörəsində yaşayan qarışqalara diqqət etsənizsə, onların yuvaları yanında bir yaşamaq həvəskarlarını görəcəksiniz. Bu heyvan toxumdan çıxdığı zaman heç bir müəllimi olmadan, özünün bütün ehtiyaclarını bilir və həmçinin, o, ehtiyaclarının necə ödəməsi yollarını tanıyır. Misal üçün yuva bağlamada, yumurtlamada, dən yığıb onları parçalamada (dartmaqda) son dərəcədə mahirdir. Bəzən də özü üçün şənlik yığıncaqları təşkil edər. Bu heyvan dənlərin bütün xüsusiyyətlərini də bilir. O bilir ki, hansını iki böləcək və hansını dörd böləcəkdir. Qış işlərinə gəlincə heç bir xəbərdarlıq olmadan özü yaxşı şəkildə görür. Eynən bir insan kimi öz qış günlərinə lazımi yanacaq və qida maddələrini təmin edər. Bu heyvanın yuvasının uzunluğu müxtəlif yerlərdə fərq edir. Bəzən Avstraliya ölkəsində yuvaları çox yekə və uzundur. Bu heyvan öz yuvasına qapı və pəncərə qoyar. İsti vaxtlar onu açar, soyuq vaxtda bağlayar.

[1] «Taha» surəsi, ayə 50.

## 2. GÜVƏ

Bu kiçik həşarat, özünə məxsus bir zəka ilə yuva cürləmək üçün elə bir sementdən faydalanır ki, hələ geofizika alimləri elə bir sementi kəşf edə bilməmişlər. Əgər bəşər bir gün elə bir sementi kəşf edib, onunla bina tiksə, o binaları dinamitlə də dağıtmaq olmaz.

İndi belə bir sualla rastlaşırıq ki, görəsən həşəratlər bu elmləri harada və hansı məktəbdə öyrənmişdir? Necə bir sirli qüdrət onları belə yaşamaqla tanış etmişdir. Əgər belə təsəvvür olsa ki, bu elmlər vərasət səbəbilə onlara çatmışdır, bu fikir bir əfsanə kimi olar. Çünki heç bir təhsil edilən elm vərasət və ginetika vasitəsi ilə uşağa daşınmaz. Heç vaxt görünməmişdir ki, bir memarın və ya mühəndisin oğlu həmin sahələrdə təhsil almadan, memar ya mühəndis olsun. Buradadır ki, bəşər təəccüblənir və bu kiçik heyvanlara bu elmləri ilham edən qüvvə qarşısında baş əyir və inanır ki, bu elmlər və ilhamlar bir alim və qadir ilham verən olmadan ola bilməz.

## 3. BAL ARISI

Bu bal həşaratı sirli bir zəka ilə gülün üzərinə qonub, onun şirəsini xüsusi bir tərzlə sümürür və onunla insana çox şirin bal düzəldir. Bu həşaratın yuva bağlaması xilqətin əcaibindəndir. Zira bu həşərat yuvasını altı-bucaq şəklində elə düzəldir ki, bir bucaq başqa bir bucaqla mində bir milimetr də olsun fərq etmir.

Bal arısı öz yuvasını qaranlıqda və tufanlıqda da belə çox asan tapır.

Fəhlə arılar pətəyin içində evləri müxtəlif surətdə düzəldirlər. Böyük evlər erkəklər üçündür. Ana olacaq arılar isə məxsusi yerdə olurlar. Ana arı ləyərdlərləri, erkək arıları məxsus olan yerin müəyyən bir qismətinə daşıyır, amma arı ola bilənlərləri (toxumları) dişi arılara məxsus olan yerlərə daşıyır. İşçilər uzun müddət ərzində pətəyin müxtəlif işlərini görməklə bərabər, yeniyetmə arıların onlara qoşulmasını gözləyirlər, onlar uşaqların qidasını bal mumundan düzəldib, onlar üçün çeynəyirlər. Erkək və dişi arılar böyüyəndə qidanı çeynəmək işi dayandırılır və təbii bal onlara yedizdirilir. Bu keyfiyyətlə becərilən dişi arılar sonrralar həmən işçi arılar olurlar.

Mələkənin (ananın) evində olan dişi arılara eləcə qidanı çeynəyirlər və onlara yedirdirlər. Həmin arılardır ki, pətəyin mələkəsi olub və lər səpirlər. Bununla görünür ki, törəmə əməli müəyyən bir təşkilat tələb edir. O cümlədən müəyyən bir evlər lazımdır. Həmçinin bu işdə qida çox təsirlidir. Bu iş üçün lazımdır ki, arıların məlumatı və hissiyyatı bir o qədər olsun ki, qida və qidanın təsiri barədə malik olduqları geniş məlumatdan vaxtında faydalanıb həyaya keçirsinlər.

Qurani-Kərim bu barədə deyir:

وَأَوْحَىٰ رَبُّكَ إِلَى النَّحْلِ أَنِ اتَّخِذِي مِنَ الْجِبَالِ بُيُوتًا وَمِنَ الشَّجَرِ وَمِمَّا يَعْرِشُونَ ثُمَّ كُلِي مِنْ كُلِّ الثَّمَرَاتِ فَاسْلُكِي سُبُلَ رَبِّكِ ذُلُلًا ۚ يَخْرُجُ مِنْ بُطُونِهَا شَرَابٌ مُخْتَلِفٌ أَلْوَانُهُ فِيهِ شِفَاءٌ لِلنَّاسِ ۗ إِنَّ فِي ذَٰلِكَ لَآيَةً لِقَوْمٍ يَتَفَكَّرُونَ

***«Rəbbin bal arısına belə vəhy etdi: «Dağlarda, ağaclarda və qurduqları çardaqlarda özünə evlər tik; Sonra bütün meyvələrdən ye və Rəbbinin sənə göstərdiyi yolla rahat get! (O arıların) qarınlarından insanlar üçün şəfa olan müxtəlif rəngli bal çıxar. Şübhəsiz ki, bunda düşünüb dərk edənlər üçün bir ibrət vardır!»***[1]

## 4. QIRMIZI ARI

Qırmızı arı çəyirtkəni şikar edib, bir çuxura salar müəyyən yerlərini sancar və bihuş edər və bir diri ət kimi onu saxlayar. Sonralar çəyirtkəni müəyyən bir yerində toxum tökər. Uşaq toxumdan çıxar kimi çəyirtkəni bədənindən qidalanır. Amma onu ani olaraq öldürmürlər, çünki özləri da onda ölərlər. Sonra arı yerdə bir dəlik oyub, özü ora soxular və orada can verər. Nə arı və nə də ki arının balaları gördükləri işdən baş çıxartmırlar. Onlar bilmirlər ki, onların uçaqları necə olurlar. Qətiyyən bu zati hidayət olmaq səbəsiz deyildir. O bir alim və qadir şəxsə bağlıdır.

## 5. UŞAĞINI HEÇ VAXT GÖRMƏYƏN ANA

Amofil adında bir Həşərə ölümünü düyanda bir qurdaq şikar edər və onun arxasının müəyyən bir yerindən elə çalar ki, qurdaq bihuş olur, amma ölmür. Sonra bu qurdağın bədəninin müəyyən bir yerinə toxum atır və özü uşağın dünyaya gəlməzdən əvvəl ölür. Uşaqlar qurdağın ətindən qidalanıb böyüyürlər. Əcibdir ki, analarını görməyən bu uşaqlar, böyüyüb həddi buluğa çatdıqdan sonra toxum atmaq istəyəndə öz anaları kimi əməl edirlər. Bu işdə heç səhv etmirlər. Bu həşaratın sonrakı nəsli qabaqkı nəsli görmədiyi üçün heç kəs deyə bilməz ki, onlar analarından öyrənmişlər.

Bu həşarat bu dərsləri və təlimatı hansı məktəbdə öyrənmişdir?

Siz istər həyatı və yaşayışı maddədən başqa bir şey biləsiniz, istərsə də bu barədə başqa əqidəniz olsun, qətiyyən buna inanmalısınız ki, bu heyvanın bu növ fəaliyyətləri bir xüsusi rəhbərliyi tələb edir. Elə bir rəhbəri tələb edir ki, o rəhbər onun həyatı üçün lazım olan şeyləri və həyat vasitələrini onun ixtiyarında qoymuşdur və onu həyatın yollarına xüsusi ilhamla tanış etmişdir.

Bu necə bir qüdrətdir ki, bütün canlıları ilk gündən yaşama tərzi ilə tanış etmişdir? Onlar gediləcək məqsədə doğru hərəkət edirlər. Həmçinin

---

[1] «Nəhl» surəsi, ayə 68-69.

ata və analar heç bir təlim görmədən öz uşaqlarını kamil surətdə tərbiyə edirlər.

## 6. DOĞUM YERİNƏ MƏHƏBBƏT VƏ YA CƏHƏT TAPMAQ

Sizin evinizin qabağında yuva bağlayan qaranquş, qış fəslində qışlağa gedir. Amma yaz gələndə yenə öz yuvasına qayıdır. Quşlar qışın soyuğunda cənuba sarı köçərlər. Onlar yüzlər ağac yerin və dəryaların üstündə yol gedirlər, amma öz yuvalarını itirmirlər.

Bir göyərçinin əl-ayağını bağlayıb, bir sandıqda qoyasan və aparıb uzaqdan azad etsən, yenə havada fırlanıb, öz yuvasına qayıdar. Balıq balası neçə illər boyunca dənizdə yaşayar, nəhayət dünyaya gəldiyi şirin suyu tapıb, oraya qayıdar. Bir cayda üzən balığı nəzərdə tutaq. O çalışır ki, özünü anadan olduğu yerə çatdırsın. Ona görə də çayın müəyyən nöqtəsinə tərəf gedir. Onu o müəyyən nöqtəyə sarı çəkən nədir?

İlanbalıqların yaşayışlarının rəmzini tapmaq daha çətindir. Onlar balığ olandan sonra yaşadıqları yeri buraxıb, hamısı birlikdə dənizin dərinliyinə sarı (bərəmud) bir uzun yolu tutub gedirlər.

O yerə catmaq üçün Avropadan hərəkət edən ilanbalıqlar minlər kilometr yol gedəndən sonra Saqares adlı bir dənizə çatırlar, orada ilanbalıqlar toxum atıb ölürlər. Sonra onların təzəcə dünyaya gəlmiş uşaqları, onları əhatə etmiş mühitin şəraitindən heç nə bilməyərək, hərəkətə başlayırlar və özlərini ata-analarının gəldikləri sahilə çatdırmaqdan əlavə, əcdadları yaşayan kiçik bir arxa da baş vururlar.

Bu ilanbalıqları hidayət edən qüvvəni kim vermişdir?

Heyvanların şüuru bir o qədər genişdir ki, alimlərin kəşf etdiklərinin mində birini burada zikr etmək olmaz.

Bu son vaxtlarda alimlərin tədqiqatları nəticəsində heyvanlar haqqında bir kitab yazılmışdır. Kitabı yazan Vitus Droşerdir. Farscaya «Heyvanların sirli hisləri» adı ilə tərcümə olunmuşdur. Bu kitabı mütaliə edən şəxs heyvanların sirli hislərinin genişliyindən və əzəmətindən heyrətə dalır. Yaxşısı budur ki, əziz oxucular o kitaba müraciət etsinlər.

## 7. YARALANMIŞ ÜZVÜN SAĞALMASI

Təəccüblüdür ki, bir çox canlılar öz bədənlərini yenidən qurmağa qadirdirlər. Bədən hüceyrələri işlərilə o qədər tanış və mahirdirlər ki, bədənin bir üzvü mükəmməlləşməyə ehtiyacı olsa, onlar işə başlayıb o üzvü sağaldıb kamilləşdirənə kimi öz fəaliyyətlərindən əl götürmürlər.

Bir amerikalı alim öz kitabında belə yazır:

Xərçəng kimi bir çox heyvanların bir üzvü yaralandıqda, o üzvün hüceyrələri dərhal o üzvü sağaltmaq üçün işə düşərlər. Həmçinin, onlar üzvü sağaldandan sonra dərhal işdən əl çəkərlər. Sanki özləri işin qurtarmasını bilirlər.

Bir yer qurdunun başını qırtsanız, o özünə başqa bir baş düzəldəcəkdir.

Bizim elə üzvlərimiz vardır ki, hüceyrələri işləməyə vadar edir. Görəsən bir gün olacaqdır ki, cərrahlar insan bədənində başqa bir əli, sümüyü və ya dırnağı yaratmaq üçün hüceyrələri fəaliyyət etməyə vadar etsinlər.

Bu heyvanlarda bu təlimatlar bir gizli qüdrəti göstərişləri olmadan ola bilərmi? Məgər heyvanların bu əsrarəngiz şüurlarını və başqa sözlə, həyatını davam etdirməyə yol tapmaqlarını görmək, bizə bir hikmətli, alim və qadir yaradıcığının varlığını anlatmırmı?

## 8. MÜHİTLƏ UYĞUNLAŞMA VƏ VƏZİFƏ SEÇMƏ

Canlıların əsrarəngiz işlərindən biri də öz vəzifələrini seçmə və mühitə uyğunlaşmalarıdır ki, bu iş onun bütün hüceyrələrinə hakimdir. Doğrudan da əql bu iki növ işin (vəzifə seçmə və mühitə uyğunlaşma) qarşısında təəccüblənir. Misal üçün, hər bir canlı müxtəlif hüceyrədən təşkil tapmışdır. Onların hamısı bir hüceyrədən əmələ gəlsələr də belə, (çünki hər bir canlı ilk gündə bir hüceyrədən başqa bir şey deyildi) hər hansı bir üzvün, o cümlədən qəlbin, beyinin, sümüyün və ağ ciyərin hüceyrələri o üzvə uyğun qidanı cəzb edirlər. Hüceyrələr məcburi halda özlərini mühitin tələbatı ilə uyğun olaraq öz şəkillərini, mahiyyətlərini və əsl təbiətlərini dəyişməlidirlər. Onlar özlərini yaşadıqları mühitin tələbatı ilə - özləri də o mühitin bir parcası olmaqla - həmahəng etməlidirlər.

Canlının vücudunda hər hansı bir hüceyrə meydana gəlsə, bəzən ət kimi bəzən də dəri kimi olmaqa hazırlaşlrdılar. Onlar bəzən dişin dibi kimi və bəzəndə göz yaşı kimi olurlar. Bəzən burun kimi və bəzən də qulaq kimi görsənirlər.

Bu halda hər bir hüceyrə özünü elə bir şəkilə və mahiyyətə salmalıdır ki, öhdəsinə qoyulan vəzifəni yernə yetirə bilsin.

## 9. TƏHLÜKƏSİZLİK VƏSAİTİ (VƏSİLƏLƏRİ)

Bir sıra toratanlar vardır ki, top kimi yumru bir tor toxuyub, onu bir şeyə baqlayır və suya atır. Sonra öz qarnının altındakı türkləri hava ilə doldurur və o torun alt tərərfindən torun içinə püfləyir. Pülədikdən sonra o tor bir top kimi şişir. Sonra onun içinə toxum atır və uşaqların onun içində böyüdür. O bu yolla uşaqlarını xətərdən qoruyur. Toratanın həmin əməli bir sıra diqqətli elmlərdən, o cümlədən toxuculuq və mühəndislik elmlərindən tutmuş dənizaltı əməliyyatına kimi ibarətdir.

## 10. GECƏ QUŞU GECƏ KƏPƏNƏYİ

Quşlar içində gecə quşu bir cıra xüsusiyyətə malikdir ki, tövhidin və haqqın böyük nişanəsi ola bilər. Bu quş təbiətin zərurətindən, yəni günəşin işığında uca bilmədiyi üzündən, gecələr uçmalıdır. Digər tərəfdən, qorxunç qaranlıq təhlükəlidir. Mümkündür ki, bu quş qida tapmaq üçün uçsun, amma qapı, pəncərə, divar kimi bərk şeylərə dəysin və yaralansın. Onun yaradıcısı onu elə yaratmışdır ki, onun vücuduna elə bir qüvvə qoymuşdur ki, o bir şeyə toqquşmadan əvvəl dərhal onu anlayır və yolunu dəyişir, və öz uçuşunu davam etdirir. Bu sirli qüvvə radarın dalğaları kimidir ki, alimlər onunla təyyarələrin yolunu müəyyənləşdirib, hidayət edirlər.

Görəsən bu quş belə bir aparatı haradan tapmışdır ki, dünya alimləri yüz illərdən sonra onu kəşf edə bilmişlər?

***

Biz bu neçə misala və nümunəyə diqqət etməklə, bir sıra şeyləri əldə edirik. Onları yığcam şəkildə zikr edirik.

**A.** Onlar heç bir müəllim görmədən bütün ehtiyaclarını və o ehtiyacları necə ödəmələrini bilirlər.

**B.** Bu heyvanlar iş prinsiplərinə və öz vəzifələrinə və həmçinin birlikdə işləməyə tam agahdırlar.

**C.** Onların bir üzvü ziyan görəndə, bir avtomatik sistemlə ziyan görmüş üzvü sağaldırlar.

**Ç.** Onların yaşayış mühitləri dəyişildikdə özlərində bir sıra dəyişikliklər törətməklə özlərini mühitlə uyğunlaşdırırlar.

Mümkündür ki, biz onların hu qəribə fəaliyyətlərini gördükdə deyək ki, insan hələ onun yüzdə birinə də malik olmamışdır. Başqa sözlə, onların düşüncəyə və ağıla malik olduqlarına inanmış oluruq və deyirik ki, onlar bu işləri düşüncə və ağılla görürlər.

Qətiyyən bu sözü qəbul etmək olmaz. Çünki nəbat və heyvan hüceyrəsinin ağlı və düşüncəsi yoxdur ki, deyə bilək onlar öz problemlərini fikr və ağılla həll edirlər.

Demək bu nəticəyə çatırıq ki, bu canlıların sirli işləri onlara rəhbərlik edən bir qüdrət qaynağına bağlanır. O elm və qüdrət qaynağı icə bütün canlıları öz istilası altına almalıdır, təki bu rəhbərliyi yaxşı şəkildə edə bilsin. Bu qüdrət və elm qaynağı, varlıq aləmini yaradan Mütəal-Allahdan başqası ola bilməz.

Qurani-Kərim bu barədə deyir:

الَّذِي خَلَقَ فَسَوَّىٰ وَالَّذِي قَدَّرَ فَهَدَىٰ

***«O Rəbbin ki, (hər şeyi) xəlq etdi və nizama saldı. O Rəbbin ki, (hər şeyin keyfiyyətini) əzəldən müəyyən etdi və (hamıya) yol göstərdi».***[1]

[1] «Əla» surəsi, ayə 2-3.

## ON DÖRDÜNCÜ DƏRS

## QURANIN VƏ MƏSUM RƏHBƏRLƏRİN GÖSTƏRİŞLƏRİ

Quranda bir çox ayələr vardır ki, Allahın varlığını necə sübut etməyi bizə öyrədir. Biz onların bəzisini qeyd edirik.

إِنَّ فِي خَلْقِ السَّمَاوَاتِ وَالْأَرْضِ وَاخْتِلَافِ اللَّيْلِ وَالنَّهَارِ وَالْفُلْكِ الَّتِي تَجْرِي فِي الْبَحْرِ بِمَا يَنْفَعُ النَّاسَ وَمَا أَنْزَلَ اللَّهُ مِنَ السَّمَاءِ مِنْ مَاءٍ فَأَحْيَا بِهِ الْأَرْضَ بَعْدَ مَوْتِهَا وَبَثَّ فِيهَا مِنْ كُلِّ دَابَّةٍ وَتَصْرِيفِ الرِّيَاحِ وَالسَّحَابِ الْمُسَخَّرِ بَيْنَ السَّمَاءِ وَالْأَرْضِ لَآيَاتٍ لِقَوْمٍ يَعْقِلُونَ

***«Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində, içərisində insanlar üçün mənfəətli şeylər olan gəmilərin dənizlərdə üzməsində, quruyan yer üzünü Allahın göydən yağmur yağdıraraq yenidən diriltməsində, cins-cins heyvanları onun hər tərəfə yaymasında, göylə yer arasında ram edilmiş küləyin və buludların bir səmtdən başqa səmtə döndərilməsində, əlamətlər vardır».***[1]

اللَّهُ الَّذِي رَفَعَ السَّمَاوَاتِ بِغَيْرِ عَمَدٍ تَرَوْنَهَا ۖ ثُمَّ اسْتَوَىٰ عَلَى الْعَرْشِ ۖ وَسَخَّرَ الشَّمْسَ وَالْقَمَرَ ۖ كُلٌّ يَجْرِي لِأَجَلٍ مُسَمًّى ۚ يُدَبِّرُ الْأَمْرَ يُفَصِّلُ الْآيَاتِ لَعَلَّكُمْ بِلِقَاءِ رَبِّكُمْ تُوقِنُونَ

***«Gördüyünüz göyləri dirəksiz olaraq yüksəldən, sonra ərşi yaradıb hökmü altına alan, müəyyən vaxta qədər dolanan Günəşi və Ayı ram edən, bütün işləri yoluna qoyan, ayələri müfəssəl izah edən məhz Allahdır. Rəbbinizlə qarşılaşacağınıza, bəlkə, inanasınız!»***[2]

وَهُوَ الَّذِي مَدَّ الْأَرْضَ وَجَعَلَ فِيهَا رَوَاسِيَ وَأَنْهَارًا ۖ وَمِنْ كُلِّ الثَّمَرَاتِ جَعَلَ فِيهَا زَوْجَيْنِ اثْنَيْنِ ۖ يُغْشِي اللَّيْلَ النَّهَارَ ۚ إِنَّ فِي ذَٰلِكَ لَآيَاتٍ لِقَوْمٍ يَتَفَكَّرُونَ

***«Yeri döşəyən, orada möhkəm dağlar, çaylar yaradan, bütün meyvələrdən cüt-cüt yetişdirən, gecəni gündüzlə örtüb bürüyən Odur. Şübhəsiz ki, bunda düşünən insanlar üçün neçə-neçə dəlillər vardır!»***[3]

Qurani-Kərimdə bir çox ayələr oxuyuruq ki, onlarda dünya varlıqlarında olan əsrarəngiz nizam-intizam və onlarda qoyulan zati hidayət olunma qüvvəsini zikr etməklə, Allahın varlığını sübut etməklə, Allahın varlığını sübut etmək istəmişdir. Biz bu üç ayə ilə kifayətlənirik.

---

[1] «Bəqərə» surəsi, ayə 164.
[2] «Rəd» surəsi, ayə 2.
[3] «Rəd» surəsi, ayə 3.

***

Həzrəti İmam Sadiq «Tohidi müfəzzəl» adlı bir uzun hədisdə buyurur:

«Ulduzlar iki növdür: Sabit və hərəkətsiz ulduzlar ki, bir-birlərinə görə dəyişmirlər. Və o birisi hərəkətdə olan ulduzlar (ki, planet adlanırlar), daimən bir yerdən başqa bir yerə doğru hərəkətdədirlər, və öz hərəkət oxlarından bir azacıq da olsun eşiyə çıxmırlar. Onların hərəkəti iki növdür: Biri ümumi hərəkətdir ki, gecə-gündüzdə gün çıxandan gün batana doğrudur və o birisi məqribdən məşriqə tərəfdir. Bir dəyirman daşı üstündə sola tərəf hərəkət edən qarışqa kimi ki, dəyirman daşı onu sağa tərəf fırladır. Deməli qarışqanın iki növ hərəkəti vardır. Biri öz iradəsiylə etdiyi hərəkət və biri də onun hərəkəti əksinə olan hərəkətdir ki, dəyirman daşı onu icbarən hərəkətə gətirir. Görəsən bu məxsus nizam üzrə hərəkət edən planetlər və ulduzların bu hərəkətləri hikmətli Allahın tədbiri olmadan mümkündür? Əgər bir hikmətli müdrikin tədbiri olmasaydı, hamısı ya sabit olmalı idi və ya hərəkətdə olmalı idi. Və əgər hamısı hərəkətdə olsaydı, bu düzgün nizam və intizam haradan meydana gələrdi.

Ulduzların hərəkəti o qədər yeyindir ki, ağıla sığışmır və o qədər işıqlıdır ki, göz önu görməyə qadir deyildir. Allah onları bu qədər bizdən uzağ etmişdir ki, həm hərəkətlərini anlayar və həm də onların işığı bizim gözümüzə ziyan yetirməsin.

Əgər o sürətlə belə bizə yaxın olsaydı, işıqlarının şiddətindən gözümüz kor olardı.

Əgər bir dəstgahla quyudan su çəkəsən, onunla bir bağ salasan və o quyunun suyunu münəzzəm şəkildə ayrı-ayrı yerlərə aparasan və bu işləri bir müəyyən qayda üzrə görəsən, bir şəxs onu görsə, onun öz-özünə yaranmasını təsəvvür etməsi mümkündür? Təbiidir ki, bir ağıllı adam onu görsə, dərhal anlayar ki, bir mahir şəxs bu dəstgahı o nizamı ilə belə düzəltmişdir.

Əgər insan bir su çəkmə dəsgahını görməklə dərhal onun düzəldəninə diqqət yetirirsə, bəs necə mümkün olar ki, insan bir belə sabit və hərəkətdə olan ulduzları və onların nizam üzrə gecə-gündüz hərəkətlərini, ilin dörd fəslini heç bir pozğunluq olmadan və öz işlərində bir azacıqda olsun əyri olmadan hərəkətlərini görməklə belə, bir belə böyük və əcaib varlıqları yaradan hikmətli xaliqin varlığını anlasın?»

***

Kafirlərdən biri olan Əbu Şakir Disani Həzrəti İmam Sadiq (ə)-ın xidmətinə gəlib dedi:

- Allahın varlığını mənə sübut edin.

Bu halda onların yaxınlığında bir uşaq yumurta ilə oynayırdı.

Həzrət o uşağın əlindən yumurtanı alıb, üzünü Əbu Şakirə tutub dedi:

- Bu yumurtanı görürsən! Bir ağzı bağlı və möhkəm qaladır. Bu qalanın iç divarında bir nazik dəri vardır, və onun içindı bir az əridilmiş qızıl (yumurtanın sarısı) və bir az da əridilmiş gümüş (yumurtanın ağı) vardır. Onların heç biri bir-birinə qatışmaz. Bu yumurtanın içindən heç kimin xəbəri yoxdur ki, onun içində olacaq cücə erkəkmi yoxsa dişidir. Cücə yumurtadan çıxanda onun müxtəlif rənglərlə boyanmasını görürük. Misal üçün bir tovuz quşa baxaq. Görəsən necə bir qüdrət və neçə qələm ilə onu bu rənglərlə boyamışdır? Görəsən bir toyuğun və ya tovuz quşunun boyanması bir tablonun boyanmasından əhəmiyyətsizdir? Kim deyə bilər ki, bu saxta tabloları rəssam çəkmişdir, amma bu təbii tabloların bir rəssamı yoxdur?

Sonra Əbu Şakirə dedi:

- Buna inanmırsan ki, yumurtanın və yumurtadan çıxan cücələrin bu xüsusiyyətləri ilə belə, bir hikmətli, alim və tədbirli yaradıcısı vardır?

Əbu Şakir bir az fikirləşdi, sonra yuxudan ayılmış kimi oyanıb dedi:

- Bəli inanıram ki, bu yaradılış aləminin bir «Allah» adlı yaradıcısı vardır. O Allah bütün kəmal sifətlərinə malikdir və inanıram ki, Həzrəti Muhəmməd (s) onun bəndəsi və peyğəmbəridir, və sən də onun canişini və Allahın yer üzündə hüccətisən. Səndən itaət etmək vacibdir.

Allahşünaslıq barədə imamların və peyğəmbərin sözlərini toplamaq istəyən şəxs neçə cilddə kitab yazmalıdır. Çünki «Hədisi müfəzzəl» bir müstəqil kitabdır ki, Həzrəti İmam Sadiq (ə)-dan yadigar qalmışdır.

## ON BEŞİNCİ DƏRS

## BU TƏNQİDLƏRƏ BELƏ, ALLAHA NECƏ İNANMAQ OLAR?

### TƏBİİ SƏBƏBLƏR KƏŞF OLMAQLA «ALLAHA» EHTİYAC YOXDUR

Bəzi materialistlərin zənnincə, bəşər təbii səbəbləri bilmədiyi üçün Allaha inanmışdır, çünki bir tərəfdən zəlzələ, tufan, Ay tutlma, Gün tutulma, və bir çox xəstəliklər kimi hadisələrin səbəblərindən xəbərsiz idi; və digər tərəfdən təcrübəsi və ağlı ilə hər bir hadisənin bir səbəbi olmasını qəbul etmişdi. Bu səbəbdən hər bir hadisə üçün bir səbəb təsəvvür etdi. Amma o hadisələrin həqiqi səbəbini tanımağa imkanı olmadığından, bütün hadisələr üçün «Allah» adında bir səbəb təsəvvür etdi və onu bütün hadisələrin əsl səbəbi tanıdı. Hal-hazırda bir çox hadisələri məlum olmuşdur. Bəşər səbəbi məlum olmayan başqa hadisələrin səbəbini məlum etmə və kəşf etmə əzmindədir. Bu üzdən daha, «Hər şeyin səbəbi Allahdır» deyə inanmaq olmaz.

### ONLARIN SÖZLƏRİ BUDUR: ...

Bəşər elmindən uzaq olan vaxtlarda və hələ təbiətdə «səbəb-nəticə» əlaqələrini kəşf edə bilmədiyi dövrdə, hər hansı bir mürəkkəb şeylə qarışılaşdıqda onun maddi səbəbini anlamaqdan aciz qalırdı. Bu üzdən dərhal qeyri-maddi səbəblərə əl uzadırdı və onların hamısının səbəbini «Allah» adlandırırdı.

Misal üçün: yağış damcılarının və qarın göydən yağmasını və ya insanın gözünü qamaşdıran və qulağını dolduran ildırım səsini görürdü. Amma bilmirdi ki, yağışın və qarın yağmasının səbəbi günəşin dənizlərin üzünə şüası düşüb, suyun buxarlanmasındandır. Və ya bilmirdi ki, ildırım iki buludun müsbət və mənfi elektrik tüklərinin toqquşması nəticəsində vücüda gəlir. Bu səbəbdən bəşər bir sıra qeyri-maddi səbələri qəbul edirdi. Amma bir az keçməmiş varlıqların bir-birləri ilə əlaqələri bir-birinin ardınca kəşf oldu və daha qeybi (gizli) qüvvələrə və qeyri-maddi tanrılara bir yer qalmadı.

### BU TƏNQİDİN CAVABI

Əvvəldə bu tənqidçilərdən soruşmalıyıq ki, nə dəlillə siz deyirsiniz ki, bir kiçik hadisənin səbəbini tanımaqda səy etmək bəşərin diqqətini Allaha cəlb etmişdir. Nə üçün bu fikiri irəli sürməyək ki, bəşərin varlıq aləminin səbəbini axtarması bu fikrin mənşəyi olmyuşdur. Bu bir haldadır

ki, ikinci nəzər bu fikrin tapılmasına daha uğundur. Zira ilk bəşər öz təbii anlağı və dərki ilə bu varlıq aləminin bir xüsusi nizamla yaranmasını və elmlə, tədbirlə ölçülünməsini görürdü. Necə oldu ki, varalıq aləminə diqqət yetirmək onu varlıq aləminin yaradıcısına və bütün kainatın xaliqinə sarı yönəltmədi, amma bəzi hadisələrin səbəbini axtarmaq nəticəsində bu fikri irəli sürüldü?

Bundan əlavə, materialistlərin Allahdan etdikləri təfsir bir səhv təfsirdir. Və yüzə-yüz batildir. Heç bir idealist onların yozduqları Allaha inanmırlar. Zira idealist[1] (allahpərəst) olmağın mənası bu deyilir ki, hədislərin bəzisinin səbəbini maddi səbəblər bilək və səbəbini kəşf edə bilmədiyimiz hadisələrin səbəbini da Allaha bilək. Belə bir vücud, yəni aləmin bəzi hadisələrinin səbəbi olub, başqa hadisələrin səbəbi olmayan və ya maddi səbəblər sırasında qərara tutan vücud Allah ola bilməz. O başqa yarananlar kimi bir məxluqdur.

İdealistlərin dediyi Allah, həmin həqiqətdir ki, varlıq aləmi təmamilə ondan mənşələnmişdir. O bütün «səbəb-nəticə»lərə və bütün varlıq aləmi təbii əlaqələri ilə belə ona bağlıdır. Həqiqətən o sadəcə bəzi hadisələrin səbəbi deyil. O səbəblər səbəbdir.

Başqa sözlə, idealistlər hər bir maddi hadisənin səbəbini maddi səbəb bilməklə və maddə dünyasını səbəb-nəticələrin məcmuəsi bilməklə belə, maddə aləminin məcmuəsinə və bu bədii nizamın tapılmasına və təbii səbəblərin və nəticələrin nizama salmasına başqa bir üstün səbəbi gəbul edirlər ki, bu səbəb elm və idrak üzündən və müəyyən bir nizam və tətbirlə bu əsrarəngiz nizami yaratmışdır.

Bu üzdən materialistlər adlandırdığı və onun tapılmasını bəşərin cəhaləti ilə təfsir etdiyi allah heç də Allah deyildir. İdealistlər onu Allah bilmirlər. Materialistlər bu sözləri, bunu yetirir ki, onlar hələ idealistlərin əsl iddiasini anlamımışlar. Və bir bilmədikləri mövzü haqqında gəzavət edib, görüş irəli sürmüşlər.

Əgər Allaha inanmaq bir fərziyyə hesab etsək, bu fərziyyəni belə bəyan edirik:

İdealistlərə görə, maddə aləmi bir sıra səbəb-nəticələrdən təşkil tapmışdır ki, hamısı birlikdə təbiətin bir parcası və hamısı bir dərəcədə və bir mahiyyətdədir. Amma bu səbəblərdən və cilvələrdən üstün olan bir səbəblər səbəbi vardır ki, bu maddi aləmi «var» etmişdir və bir bədii və əsrarəngiz bir nizam xəlq etmişdir. Belə bir fərziyyə etiraf etməyin qarşısını almayır və maddə aləmində olan diqqətli ölçülər və əsrarəngiz

---

[1] İdealizm — fəlsəfədə, ən geniş mənasıyla, mənəvi güclərin kainatdakı bütün müddətləri ya da olub bitənləri təyin etdiyini müdafiə edən bütün fəlsəfə təlimlərini ehtiva edəcək şəkildə istifadə edilən termin. Mövcud olan hər şeyi «düşüncə»yə bağlayıb ondan törədən; düşüncə xaricində obyektiv bir həqiqətin var olmadığını, başqa bir deyişlə düşüncədən müstəqil bir varlığın ya da maddi həqiqətin ol/tapılmadığını dilə gətirən fəlsəfə axınını xarakterizə edər. - Red.

nizam, belə bir səbəblər səbəbini varlığını sübut edir. Yoxsa şüursuz və dərki olmayan maddə, heç vaxt belə bir nizam-intizamı yarada bilməz.

Deməkidealistlərin iddia etdiyi səbəblər səbəbi mövzusu, materialistlərin rədd etdiyi şeylə heç bir əlaqəsi yoxdur. Məzhəb və Allah barəsində materialistlərin etdikləri bir çox tənqidlər onların idealistlərin inandıqları şeydən xəbərsiz olduqlarından irəli gəlmişdir. Bu sözüçüzün şahidi onlardan eşitdiyimiz sözlərdir. Misal üçün, materialistdən biri belə deyir: heç bir alim labaratoriyalarda Allahdan əsər və işarə görmür. Heç bir laboratoriya belə bir vücudun varlığını sübut edə bilməmişdir.

Həmin şəxs «maddədən ayrı ruh»un varlığını rədd etmək məqamında deyir: «Heç bir cərrah cərrahlıq bıçağının altında belə bir mövudu görməmişdir».

Belə gülünc tənqidlər onların idealistlərin məntiqləri ilə tanış olmamasını göstərir. Çünki laboratoriyanın sübut edəcəyi şey Allah deyildir. Laboratoriyanın işi maddə və maddi şeylərdir. O maddi mövzuları sübut və ya rədd edə bilər. Amma maddə aləmindən üstün olan mövcudu (ki o maddi aləmi yaratmışdır) laboratoriya və həm laborant və həmçinin laboratoriyaya qoyulan şey və sınağın özü də belə, bütün şəraiti ilə onun Allahın əsəri və onun yaratdığı şeylərdir və ona məxsusdur.

Habelə «maddədən ayrı ruh» dediyimiz söz özü uca səslə çiğırır ki, mənim vücudumun mahiyyəti bıçaq altında olan şeydən fərqlidir. Bu üzdən cərrahlıq vəsaiti məni rədd və ya sübut etməkdə acizdir.

Mövzunu daha açıqlaması üçün materialistlərin və idealistlərin görüşləri ətrafında bir az ətraflı izah etməyi lazım bildim, təki bununla bu iki görüşü ortaq nöqtələri və fərqləndikləri nöqtələr hörmətli oxuculara açıqlansın.

## İLAHİ VƏ MADDİ GÖRÜŞÜN ORTAQ NÖQTƏLƏRİ

Həm idealistlər və həmdə materialistlər səbəb-nəticə qanunu qəbul edirlər. Heç bir şeyi səbəbsiz bilmirlər. Hamısı etiraf edirlər ki, bütün dünyada olan şeylər, həmin maddə aləmində olan bir sıra səbəblərin nəticələridir. Misal üçün, hamı deyir ki, «qızdırma» xəstəliyinin səbəbi qana daxil olan bir mikrobdur və əslən cin adlı bir şeylə əlaqəsi yoxdur. Və yağışın, qarın səbəbi dənizlərdən, okeanlardan qalxan buxardır ki, bulud şəklinə düşüb, bir sıra hava xasiyətləri əsərindən yağış və qar damcıları kimi yerə tökülürlər.

Həm materialistlər və həmdə idealistlər etiraf edirlər ki, yer kürəsinin günəşin başına bir beyzi şəkil oxda fırlanması nəticəsində gecə-gündüz və dövr fəsillər əmələ gəlir. Hər iki görüşün tərəfdarları qəbul edirlər ki, meyilli ümumi cazibə və mərkəzdən qaçma qüvvəsi, yeri və başqa kürələri fəzada mayallaq saxlamışdır. Əgər bu iki qüvvə olmasaydı, nizam-intizam pozulardı.

Hər iki ideologiyanın tərəfdarları inanırlar ki, insan və heyvanda hüceyrənin həyatı erkək və dişi parçasının ayrılması ilə təşəkkül tapır. Həmin hüceyrə bir sıra səbəblər və amillər nəticəsində artırlar.

Nəbabət və bitkilər bir sıra daxili və xarici amillər və səbəblər nəticəsində artırlar. Onlar qida maddələrini yerdən alıb, suyu və oksigeni də əldə edirlər. Heç bir alim, istər materialistlər və ya idealistlər, inkar etmir ki, ağacın barlanması onun peyvəndlənməsindən asılıdır. Peyvəndlənməsi isə, yəni erkəklə dişinin birləşməsi həmin maddə aləmində olan amillərlə bağlıdır.

Yelin əsməsi, tufan olma, zəlzələlər, neft mədənlərinin tapılması, su üzündə dalğaların olması, havanın isti-soyuqluğu, təbiətin ən kiçik parçası olan atomdan tutmuş onun ən böyük şeylərinə kimi bir sıra təbii səbəbərin nəticəsidir ki, onlar həmin aləmdədirlər.

İdealistlərə ən böyük iftira budur ki, bir şəxs bilmədiyindən və ya düşmənliyindən belə iddia etsin ki, güya idealistlər bu aləmdə baş verən hadisələrin səbəbini təbii səbəb bilmirlər.

Əgər siz əski Yunan alimlərinin kitablarına və islam filosoflarının yazdıqlarına baxsanızsa, görəcəksəniz ki, onlar bir çox yerdə ilahi fəlsəfəni, təbii elmləri bir yerdə yazmışlar, və öz kitablarınnın bir hissəsini ilahi fəlsəfəyə və başqa hissəsini təbiət sirlərini izah etməyə həsr etmişlər.

Tərxan Farabinin Şeyxur-Rəisin (İbn Sina) və Xacənin fəlsəfə və təbii elmlər kitabları hələ dini hovzələrində tədris olunur. Onlar Ərəstun (Aristotel), Əflatun kimi əski Yunan alimlərinin yazılarından istifadə etmişlər. Bu kitabların hamısı iki hissiyə bölünür. Bir hissə təbii elmlər barəsindədir və o biri hissə isə metofizik barəsindədir ki, Allah və Allahın sifətləri barədə söz açılır.

## BU İKİ GÖRÜŞÜN BİR-BİRİNDƏN AYRILDIĞI NÖQTƏ

Bu iki idealogiyanın ortaq nöqtələrini zikr etdik. İndi də bu iki görüşün ixtilaf nöqtələrini açıqlamaq istəyirik.

Materialistlər deyir ki, mövcudların müxtəlif parçalarını və zərərlərini mütaliə etməklə bu nəticəyə çatırıq ki, hal-hazırdakı dünya bir böyük partlayış nəticəsində bu vəziyyətə düşmüşdür. Aləm partlayışdan sonra bir sıra saysız avara və hərəkətdə olan zərrələr kimi fəzada dağılmışdır. Sonra bir sıra dəyişikliklər nəticəsində hal-hazırda olan vəziyyətə düşmüşdür. O cümlədən bizim Günəş sistemi kimi olmuşdur.

İdealistlər deyirlər ki, maddə aləminin varlıqlarının saysız zərrələrdən təşəkkül tapması doğrudur, amma nizamsız hərəkətlər və daim dəyişikliklər və hər hansı bir partlayış, alim, qadir və fövqəladə hikmətə malik olan böyük bir qüvvənin müdaxiləsi olmadan bir nizam-intizamlı dünyanı yarada bilməz. Bu nəzəriyyə, yəni hal-hazırdakı dünya əsrarəngiz nizam-intizamı ilə belə, bir partlayış nəticəsidir, nəzəriyyəsi buna bənzər

ki, biz iddia edirik ki, bir metal mədəni öz özünə partladı və bu partlayış nəticəsində maşın vücuda gəldi. Sonra dəmir hərfləri yarandı, və o hərflər müntəzəm şəkildə düzülüb, bir alim və şüurlu işçi olmadan bir yüz çildli kitab çap olundu!!!

Çox aydındır ki, bir mədənin partlayışdı metal parçalarını o yan bu yana tullayar, heç vaxt onun parçalarını nizama salmaz.

Materialist deyir ki, Yer kürəsi və başqa kürələr, bir gün hamısı birlikdə vəhdət təşkil edirdilər, bu mərkəz parçaları ilə belə, bir odlu kürə kimi yanmaqda idi. Sonra planetlər mərkəzdən ayrılıb və zamanın axımı ilə onların odu sönməyə başladı və hər biri bir planet kimi oldu.

İdealistlər deyir ki, biz bunların hamısını qəbul edirik, amma fövqəladə qüdrətə, elmə, şüura malik olan bir amilin dəxaləti olmadan və öz tədbiri və qüdrəti ilə o planetləri bir-birindən ayrılıb, onlarda iki ziddityətli (cəzb və dəf) qüvvəni qoya bilən, və o iki qüvvəni, planeti mərkəzə doğru çəkilməkdən və ya suqut edilməkdən saxlaya biləcək bir nizamla tənzim edə bilən kimsənin müdaxiləsi olmadan, heç vaxt mümkün deyildir ki, təsadüf üzündən aləmdə belə bir əsrarəngiz nizam baş versin.

Günəş sistemində olan bu nizamı təsadüf nəticəsindən və günəş sisteminin mərkəzindən öz-özünün ayrılması nəticəsindən bilən kimsənin məntiqi buna bənzər ki, deyək neft ayırma zavodları və metalurqiya zavodları yerin müəyyən bir qismətində zəlzələ olmaqda bəzi metal parçaları, neft məskənləri, milələr, sutunlar, maşınlar, zavod vəsaiti öz-özünə xam mədəndən vücuda gəldi və bir böyük zavod düzəldi. Əgər bu fərziyyə qəbuldursa, onda əvvəlkini də qəbul etmək olar.

Materialist deyir ki, heyvanlarda və bitkilərdə olan bu ixtilaflar və növlər müxtəlifliyi yeni bir şeydir. Yoxsa bütün canlıların kökü bir heyvana və ya bitkiyə qayıdır. İlk gündən bir canlıdan və bir bitkidən başqa dünyada bir şey yox idi.

İdealistlər deyir ki, növlərin təkamülü (transformizm) barədə deyilən sözlər bir elmin fərziyyədir ki, bir sıra şahidlər də onun üçün gətirmişlər. Amma hələ də fərziyyə dairəsindən eşiyə çıxmayıbdır. Bu fərziyyəni irəli sürənlərin bir çoxu etiraf etmişlər ki, bu fərziyyənin anlaşılmaz nöqtəsi çoxdur. Amma hər halda idealist və ya materialist bu fərziyyə qarşısında yeksandırlar. Nə növlərin dəyişilməsi materialistlərə bir dəlildir və nə də növlərin sabitliyi idealistlər üçün bir şahiddır. Bu fərziyyə istər düz olsun və ya olmasın, varlıq aləmində olan nizam-intizam səbəb olur ki, insan dünya üçün bir yaradıcını qəbul etsin. Bu üzdən, həm bu fərziyyəni irəli sürənlər də həm də onun müxalifləri idealist olmuşlar və idealistirlər.

Demək, Allaha inanmağın kökü fitrətdir. Əsl mövzu fitri olmaqdan əlavə, bu xilqət aləminin heyrətləndirici nizamında olan qüdrət və elm nişanələri, günəşin və ayın nizamla fırlanması, bitkilərin uyğun şəkildə yanması, insanın sirli bədəni və sairə... insanın Allaha sarı hidayət edirlər.

İlahi alimlər heç vaxt təbii səbəbləri inkar etməmişlər ki, onları bilməmək Allaha inanmağın səbəbi olsun (bu əsl nəzəriyyə barəsində).

Bu əsildən aldıqları nəticə daha əsassızdır. Zira təbii səbəblərə inanmaq Allaha inanmağın qarşısını almır. Çünki təbii səbəbə etiraf etmək bundan başqa bir şeyi sübut etmir ki, hər bir maddi hüceyrənin maddi səbəbi vardır və ya yağışın, qarın yağması, günəşin, ayın dolanması və yayın, yazın qayıtması və ... bir sıra münəzzəm təbii səbəblərin nəticəsidir.

Amma söz burasındadır ki, partlayış nəticəsində yığcam olan maddə bu vəziyyətə düşmədən əvvəl nizam-intizamsız idi. Necə şüursuz maddə belə bir sirli nizamlı özündə yaratdı? İlk gündə bu nizamı yaradan kim idi? Buradadır ki, materialistlər heyrətə dalıb təccüblənirlər. Zahirdə təsadüf üzündən olmasını iddia etsələr də batində və ürəklərində özləri qəbul edirlər ki, heç vaxt elmi, qüdrəti və dərki olmayan təsadüf bu nizamı yarada bilsin.

Aləm bir böyük zavod kimidir ki, mühəndislərin və ixtiraçıların vasitəlilə yaranan bir böyük nizam üzdə öz işini davam etdirir. Görəsən belə bir nizama inanmaq, bizi, həmin zavodun nizamını yaradan mühəndislərin və ixtiraçıların varlığına etiraf etməkdən ehtiyacsız edirmi?

## ON ALTINCI DƏRS

## ALLAHI KİM YARATMIŞDIR

Ən qədim zamanlardan bəri materialistlərin ən mühüm tənqidləri bu olmuşdur ki, əgər hər bir şeyi Allah yaratmışsa, bəs Allahı kim yaratmışdır?

Bu tənqidin cavabını verməzdən əvvəl, bir şeyi qeyd etmək istəyirəm.

Bu tənqidin və sualın cavabını vemək yalnız idealistləri öhdəsində deyildir. Materialistlərin özü də həmin sualın cavabını verməlidirlər. Çünki onlar deyirlər: «Varlıq maddədir və hər şey maddəyə qayıdır. Maddənin bir başlanğıcı yoxdur. Həmişə olub və olacaqdır».

Burada bu suala rastlaşırıq ki, siz ki, deyirsiz bu aləmin təməli maddədir, bəs bu maddənin özü haradan gəlmişdir? Və başqa sözlə, materialistlərə deyirik ki, siz özünüz səbəb-nəticə qanununu qəbul edirsiniz. Bizim üçün deyin görək ki, bəs bu əsl maddə hansı səbəbin nəticəsidir?

Bununla görürük ki, bu tənqid yalnız idealistlərə qayıtmır, təki onlar bu sualın cavabını vermək məcburiyyətində qalırlar. Bəlkə də materialistlər özləri də eyni suala cavab verməli olurlar. Əlbəttə onlardan soruşulan sual belədir ki, siz hər bir şeyin səbəbini maddə bilirsiniz. Bəs maddənin səbəbi nədir? Bu üzdən (buna diqqət etməklə ki, «səbəb-nəticələr» silsiləsi bir həddə kimi ola bilər; sonsuz deyilir) bütün dünya filosofları, istər materialist olsun və ya idealist olsun, bir əzəli vücuda yəni həmişə olan vücuda inanmışlar. Materialistlər deyirlər ki, aləmdə əzəli vücud maddədir və ya maddə ilə inerji arasında olan ortaq həqiqətdir. Amma idealistlər deyirlər ki, varlığın əsl mənşəyi əzəli və daimi vücudu Allahdır.

Nəticədə, bir əzəli və daimi məbdəyin varlığını hamı inanır və möhkəm əqli dəlilər, bütün filosofların bir əzəli məbdəyə inanmağa məcbur etmişdir. Deməli, materialistlər ilə idealistlərin ixtilafı nədədir?

Açıq-aydın demək lazımdır ki, ixtilaf nöqtəsi yalnız buradadır ki, idealistlər o ilk səbəbi və varlıq məbdəyini şüurlu, hikmətli, qüdrətli və iradəli bilib «Allah» adlandırırlar. Amma materialist o ilk səbəbi alim olmayan, iradəsiz və qüdrətsiz bir şey bilib, onu maddə adlandırırlar.

Dediklərimiz sözlərdən bu nəticəyə çatırıq ki, ilahi filosoflar Allahı sübut etmək üçün sadəcə «səbəb-nəticə» qanununa kifayət etməmişdilər. Çünki bu dəlil yalnız ilk səbəbi sübut etdirir. Başqa sözlə, bizi bir əzəli vücudun varlığına hidayət edir. Bunu materialistlər də qəbul edirlər.

İslam filosoflarının əsas məsələləri budur ki, ilk səbəbi sübut etsinlər, bunu sübut etmək üçün varlığın nizam-intizamını və xilqətin təccüblü sirlərini və aləm hakim olan qanunları mütaliə etmək lazımdır. Qabaqkı

dərslərdə oxuduq ki, bu yolla bu məsələni həll etmək idealistlər üçün çox asandır.

Bu söz o tənqidin və sualın cavabında deyilməli birinci söz idi.

İndi məsələnin özünə qayıdırıq.

Cavabdan qabaq, bir neçə suala diqqət edin.

Hər şeyin rütübəti (nəmliyi) sudadır. Suyun rütubəti nədir və haradandır?

Hər şeyin piyi yağdandır. Yağın yağlığı haradandır?

Hər şeyin şorluğu duzdandır. Duzun şorluğu nədəndir?

## BİR AÇIQ MİSAL

Biz öz evimizə və ya iş otağımıza baxanda işıq olduğunu görürük. Özümüzdən soruşuruq, görəsən bu işıq otağın özündəndirmi?

Dərhal cavab veririk, yox, çünki əgər o işıq otağın özündən olsaydı, daha heç vaxt qaranlıqlaşmazdı. O bəzi vaxtlar işıq və bəzi vaxtlar qaranlıqdır. Deməli, o işığını başqa yerdən alır.

Biz bu nəticəyə çatırıq ki, otağımızın işıqlığı oraya düşən işığın vasitəsilədir.

Bu halda soruşuruq, işığın özü işığı haradan almışdır?

İşığın öz işıqlığı özündəndir. Habelə suyun axımlığı (mayeliyi) və nəmliyi, yağın yağlığı, duzun şorluğu başqa yerdən deyildir. Bu onların təbii və zati xasiyyətidir. Su zatən rütubətli və axımlıdır. Yağ zatən yağdır. Duz zatən şordur. İşıq zatən işıqlıdır. Aləmin heç bir yerində elə bir işıq olmaz ki, onun zərrələri qaranlıq olsun və ya başqa bir şey onu işıq etsin. İşığın zərrələri hər harada olsa, işıqlıdır və işıqlıq onların zatındadır. İşığın zərrələrinin işıqlığı alınma deyildir. İşığın zərrələri aradan gedərlər, amma onlar var olduqları zaman qaranlıq ola bilməzlər. Bu əslən mümkün deyildir. (Diqqət edin!) Bu üzdən əgər bir şəxs desə ki, bütün dünyanın işqlığı işıqdandır və işığın işıqlığı haradandır? Dərhal deyirik ki, işığın işıqlığı işığın zatındandır (özündəndir).

Habelə, əgər soruşsalar ki, hər şey varlığını Allahdan almışdır, bəs Allah varlığın haradan almışdır? Cavab deyərik, Allahın varlığı öz zatındandır. O, varlığını başqasından almamışdır. Varlığı özündəndir. Bu bəhsimizin sonunda bir şey qeyd etmək istəyirik:

Suyun zatən axımlığından duzun şorluğu, yağın zatən yağlılığından, işığın zatən işıqlığından məqsəd bu deyildir ki, məsələn suyun axımlığı zati olduğu üçün onun bir yaradıcısı olmasın. Bəlkə məqsəd budur ki, aləmin yaradıcısı suyu təbii və zati olaraq həmli və axımlı yaratmışdır. Onun həmliyini heç vaxt ondan almaq olmaz. Əgər onun həmliyini ondan ayırmaq mümkün olsa, onda o su olmaz. Və ya işığın zərrələrindən işıqlığı ayırmaq olmaz. Yəni onun zərrələrindən işıqlığı alandan sonra, onun «işıq» olması mümkün deyildir.

Açıq aşkardır ki, bu misalları yalnız zehnimiz mövzuya yaxınlaşmaq üçün qeyd etdik. Yoxsa bu misallarla bizim əsl bəhsimiz arasında yer-göycə fərq vardır. Çünki «hər şeyin varlığı Allahdandır və Allahin varlığı özündəndir» dediyimizin mənası budur ki, o Allahı heç kim yaratmamışdır. Onun varlığı və vücudu zati ilə eynidir. Amma «hər şeyin işıqlığı işıqdandır və işığın işıqlığı özündəndir» sözün mənası bu deyildir ki, işığın bir yaradıcısı yoxdur. Bəlkə o sözün mənası budur ki, aləmi yaradan işığın da işıqlığını onun zatından etmiş və onu belə yaratmışdır.

## HƏMƏN TƏNQİDİN CAVAB BAŞQA DEYİŞLƏ

Bəzən kiçik bir səhv üzündən bir sadə söz bir mühüm tənqid və sual kimi meydana gəlir.

Bütün ilahi filosoflar və idealistlər inanırlar ki, hər şeyin bir səbəbi vardır və hər bir yaranmış bir yaradıcını tələb edir. Bu sözlərdən aşkar olunur ki, yaranmış və nəticə olmayan şey bu qanundan xaricdir. Və idealistlərin nəzərincə, Allah yaranmış olmadığı üçün bu ümumi qanundan xaricdir. Materialistlər bir sözü səhvən və ya səhvə salmaq üzündən dəyişmişlər, yəni «hər bir nəticə bir səbəb tələb edir» sözünün yerinə demişlər ki, «hər bir vücud bir səbəb tələb edir». Və həmçinin «hər bir yaranmışın (yəni sonradan var olan və yaradılan şey) bir yaradıcısı vardır» sözü yerinə demişlər ki, «hər bir şeyin yaradıcısı vardır». Bununla bu nəticəyə çatırlar ki, bəs Allahın səbəbi, yaradanı, vücuda gətirəni kimdir?

Bunların cavabı bir kəlmədir: heç kim deməmişdir ki, hər şey və hər mövcud bir yaradıcı istər, təki siz deyəsiz Allah da həmin mövcudlardan və şeylərdən biridir, bəs onun yaradıcısı kimdir.

Bunu belə deməliyik ki, hər bir yaranmış şeyin yaradıcısı vardır, amma açıq-aydındır ki, Allah yaranmış şey deyildir ki, o qanunun tələbi ilə bir yaradıcısı olsun.

## SONSUZ SƏBƏBLƏR VƏ NƏTİCƏLƏR BATİLDİR

Bəzilər belə təsəvvür edirlər ki, yaranmış aləm bir sıra bir-birinə bağlı olan səbəblər və nəticələdən ibarətdir. Bu səbəb-nəticələri nə qədər izləyə bilsək də belə, heç vaxt nəticə olmayıb, yalnız səbəb olan və vücüda başqasından olmayıb özündən olan bir mövcuda çata bilmərik. Bu yaranış aləmi isə bir sıra sonsuz səbəblər və nəticələrdən başqa bir şey deyildir.

Bu şəxslər bilməlidirlər ki, onların bu nəzəriyyələri həmən səbəb-nəticənin silsilələnməsidir ki, onun batilliyinə ilahi filosoflar bir çox dəlillər gətirmişlər. Biz o dəlillərdən birini qeyd edirik. Xaiş edirik, bir az diqqət edəsiniz.

Tutalım ki, bir sonsuz səbəb-nəticə silsiləsi bizim qarşımızdadır. Gözümüz gördükcə, ağlımız işlədikcə səbəb-nəticələrdən başqa bir şey görmürük. O silsilənin hər bir parcası öz səbəbinin nəticəsi olmaqda bərabər, özündən sonrakı parcaya görə səbəbdir (səbəb olduğu halda nəticədir də) bu silsilənin parcaları, nəticə olduqları üçün zatən varlığa malik deyildir, bəlkə varlığını öz səbəbindən almışdır. Bu hökm bu silsilənin büsbütün parçalarına keçərlidir. Hər hansı barmaq qoysaq, görəcəyik ki, varlığını bir səbəbdən almışdır.

Bu halda bunu həll etmək üçün iki yolumuz var:

**1.** Səbəblər və nəticələr silsiləsi bir yerdə dayansın. Yəni elə bir yerə çataq ki, orada səbəb olsun, nəticə olmasın. Onun varlıgını özündən olsun. Bu halda allahpərəstlərin sözü sübut edilir. Və qəbul olunur ki, yaranış aləmini Allah yaratmışdır. Və nəticə (məlul) olmadıgı üçün səbəbə möhtac deyildir. Başqa sözlə, sonradan olmuş deyil əzəlidir. Yaranmış deyil yaradandır. Varlıgı başqasından deyil, özündəndir.

**2.** Tutalım ki, bu silsillələr sonsuz olaraq uzanırlar və bu silsilə elə bir yerə çatmır ki, orada bir mövcud olsun ki, səbəb olsun nəticə olmasın, ehtiyacsız olsun möhtac olmasın. Bu halda bu sualla rastlaşırıq ki, bu sonsuz silsilə onun hər bir parçası və həlqəsi nəticə və məlul oldugu üçün bir varlıq verənə və yaradana (səbəb) möhtacdır. (Çünki onun parçalarının heç birnin varlıgı özündən deyildir. Başqa bir yerdən onlara varlıq vermək lazımdır.) Bəs necə mümkündür ki, ehtiyac onu əhatə edən silsilə, bir ehtiyacsız sığınağa sığınmadan var ola bilsin və ədəmdən (yoxdan) öz-özünə var olsun?!

Siz bunlardan hər hansısının üstünə barmaq qoysanızsa, görəcəksiniz ki, onların heç birinin varlıgı özlərindən deyil başqasından almışlar. Bu onların birinə həsr olmur, hamısı eyni xarakter daşıyır. Silsilənin bütün həlqələri və parçaları eynidir.

İndi soruşur ki, büsbütün möhtac, yoxsul olan silsilə öz varlığının haradan və hansı mənbədən alınmışdır? Başqa sözlə, bu silsilənin həqiqəti onun parçalarından başqa bir şey deyildir. Və onun hər bir parçası bir yaradana möhtac oldugu üçün silsilə də təmamilə bir yaradıcıya möhtacdır.

Yəni bir elə məbdəyə möhtacdır ki, o məbdə öz varlığını özü təmin etmişdir. Necə demək olar ki, bir sonsuzluq silsilə bütün parçaları və həlqələri nəticə olduğu üçün yoxsul və möhtac olmaqla, bir zatən varlı olan və varlığını özü təmin edən məbdəyə arxalanmadan var ola bilmişdir. Məgər sonsuz çoxlu sıfır yığışmaqla bir say təşkil edə bilərlərmi? Və ya saysız amillərin toplaşmasından həyat və ya ölüm vücuda gələ bilərmi?

Düzdür birinci nəticənin (məlunun) ehtiyacının ikincisi və ikinci məlunun ehtiyacını üçüncü və onunkunu da dördüncü ödəyir, amma bu silsilələrin parcaları və həlqələri nə qədər də olsa, belə yenə tamamilə möhtac və yoxsuldur. Və yoxsulluq və möhtac olma hakim olan bir həlqə

heç vaxt zatən varlı olan və möhtac olmayan bir səbəbə arxalanmadan var ola bilməz.

Xülasə, sonsuz silsilə haqqında iki növ təsəvvür vardır.

1) Zatən varlı olan (Allaha) bir səbəbə dayanmaq. Bu surətdə daha sonsuz olmaqdan xaric olur və bir möhtac olmayan yaradıcıya bağlanır.

2) O silsilələr namütənahi olaraq və yalnız səbəb olub nəticə olmayan bir mövcuda çatmasın. Bu təsəvvür təsəlsülün batil olması üçün batildir. Təbii olaraq allahpərəstlərin iddiaları sübut edilir.

Bu bəyandan anlayırıq ki, Allahın səbəbə möhtac olmaması «hər məlulun səbəbi vardır» qaydasını məhdudlaşdırmır. Çünki Allah məlul deyildir ki, səbəbə möhtac olsun. Belə deyilir ki, məlul olsun və müstəsna olaraq səbəbə möhtac olmasın.

Başqa sözlə, vücudu özündən olan mövcud məlul deyildir ki, səbəbə möhtac olsun və səbəb-nəticə qanununa bağlı olsun, və təbii olaraq məlul və nəticə olmayan bir şey səbəbə möhtac deyildir.

## ON YEDDİNCİ DƏRS

## NƏ ÜÇÜN BƏZİ ALİMLƏR MATERİALİZMƏ YÖNƏLMİŞLƏR

SUAL: Əgər aləmin nizamı və varlıqların əsrarəngiz nizam-intizammı Allahın varlığına bir dəlildirsə, bəs nə üçün bəzi alimlər Allahın varlığını inkar edirlər və ya şübhəlidirlər?

CAVAB: Bəşər həyatının bütün dövrlərində, xüsusilə alimlərin və biologiya elmlərinin təməl daşını qoyanların arasında mütərəqqi fikir həmən allahşünaslıq və metafizik aləminə inanmaq məsələsi idi. Bunun dəlili bəşər tarixinin və elminin təməl daşını qoyanların yaşayışlarını və həmçinin keçmiş dərslərdə allahşünaslığın fitri olmasına dair izah etdiklərimizi bir daha mütaliə etməklə açıqlanır. Hətta demək olar ki, bəşər həyatının bütün dövrlərində, bütün dəyişikliklərin təməli, həmən məzhəbi və dini əqidələr olmuşdur.

Beli, hər bir dövrdə bir neçə nəfər bu yoldan azmış və bu fikrin xilafına olaraq görüşlər irəli sürmüşlər. Quran nazil olanda əvvəl cahiliyyət dövründə də bu kimi şəxslərdən var idi. Qurani-Kərimin «Casiyə» surəsinin 24-cü ayəsidə onların əqidələrinə işarə edib deyir:

وَقَالُوا مَا هِيَ إِلَّا حَيَاتُنَا الدُّنْيَا نَمُوتُ وَنَحْيَا وَمَا يُهْلِكُنَا إِلَّا الدَّهْرُ

***«Dünya həyatımızdan başqa heç bir həyat yoxdur; ölürük və dirilirik; bizi öldürən ancaq dəhrdir» deyirlər».***

Bu üzdən islamın ilk əsrlərində Allahı inkar edən şəxsə «dəhri» dəyərdilər. Bu kimi şəxslər bütün əsrlərdə azlıqda idilər. Hətta Yunan mədəniyyəti dövründə və islamın parlaq əsrlərində sadəcə bir neçə alimin adını, Allahı doğrudan inkar edənlər siyahısında çəkmək olar.

İslam fəlsəfəsində bəzi Yunan alimlərinin adını çəkirlər ki, güya idealistlərin qarşı nöqtəsində dayanmışlar. Onların bəzi sözlərindən Allahı inkar etmək iyisi gəlir. Amma bəzilərin əqidələricə, onlar Allahı inkar etməmişlər. Bəlkə onların sözləri mübhəm olduğu üçün onları şübhəyə salmışdır.

Demək, bütün əsrlərdə insanın əsl yolu həmən Allaha diqqət etmə və dini əqidələri müqəddəsləşdirmək idi. Materializm isə ümümdünya fikirindən və hətta insan fitrətindən bir növ azğınlıq sayılırdı.

18-ci və 19-cu yuz illərin yarısından, dini əqidələri nəfy etmək, ruh aləmini inkar etmək, varlığı maddəyə həsr etmək məsələsi bəzi Qərb alimləri arasında bir sıra gələcəkdə deyəcəyimiz səbəbdən şiddətlə qaldırıldı. Amma həmən illərdə də bunlar idealistlər müqabilində azlıqda idilər. 20-ci yüz ildə əldə etdiyi hörməti də əldən verdilər. Hal-hazırda

böyük alimlər və biologiya elmlərinin təməl daşını qoyan alimlər də idealistlərin sıralarına qoşulmuşlar.

Sözümzün dəlili bu son vaxtlarda qırx böyük alimin Allahın sübutu barədə yazdığları kitabdır.

Fin Bravn Amerikanın raket düzəltmə zavodunun alimidir ki, bir müsahibədə belə demişdir:

«Mən dünya alimlərinin bir çoxu ilə tanışam. Onların çoxunu tanıyıram, amma hələ elə bir alimə rastlaşmamışam ki, bir alim kimi təbiəti Allaha inanmadan və Allaha arxalanmadan yaza bilsin».

Elm «yaradıcını» axtarır. Heç kim yaradıcını tanımaq istəməyənə kimi bir iş görə bilməz.

Bir sıra alimlər tanıyırıq ki, illər boyu bir sıra siyasi-ictimai səbəblər təsiri altında materializm təbliğ edirmişlər, amma bir müddətdən sonra fitri səbəblər təsirində Allah qarşısında boyun əyib və onun varlığına etiraf etmişdir.

Almanlı məşhur filosof Reing bir materialist idi. Amma fitri amillər və əqli dəlillər üzrə allahşünaslığa sarı çəkildi və «Dünya yaranmışdır» adlı bir kitab yazdı.

Daha bir ingiltərəli filosof Romin bir müddət materializm fəlsəfəsini müdafiə edirdi, amma nəhayət fitrət qüvvəsinin təsirindən allahşünaslığa qayıdıb dedi:

«Mənim dünyanın şüursuz maddədən tapılması barədəki elm və fəlsəfə prinsipləri batil və əfsanədir. Aləmin hikmətli və qüdrətli yaradıcısı (ki, mənim daxili ehsasatım onun varlığına şəhadət verir) olmadan yaranması mahal və qeyri-mümkündür. Aləmin yaradıcısı haqdır».

İngiltərəli filosof Mikail Faradi xəstəliyinin son günlərində dostunun soruşduğu «Niyə fikirləşirsən?» - sualın cavabında demişdir:

«Mən böyük Allah qarşısında alnımı yerə sürtürəm. Onun varlığına etiraf edirəm. Yalnız fitrətim, batini şüur və hissiyyatım və bütün aləm nizamı və qanunları varlığına dəlil olan kimsəyə fikirləşirəm. Yəgin edirəm ki, mənim bütün təqsiratımdan keçib, günahlarımı bağışlasın».

Bu nümunələrdən, yəni materialist filosof olub, sonradan allahşünas filosoflardan olanlardan çoxdur. Müasir alim Albert Enşteynə görə hər alimdə idealistlik ruhu və metofizik aləminə inanmaq əqidəsi vardır. O deyir:

«Çox çətinliklə dünya mütəfəkkirlərinin içində bir şəxs tapmaq olar ki, onda bir növ məzhəb duyğusu olmasın».

Bəzi alimlər bir sıra səbəblərə görə, özlərini bir materialist kimi tanıtdırırlar. Amma bəzi yerlərdə bilmiyə-bilmiyə elə sözlər deyirlər ku, idealistlik əhval-ruhiyyənin onlarda olmasını göstərir.

Yaxşı olar ki, burada sözümüzü qısaldaq və Qərbdə keçmiş dövrlərdə materializmə yönəkmənin səbəbləri barədə izahat verək.

## ON SƏKKİZİNCİ DƏRS

## MATERİALİZMƏ YÖNƏLMƏNİN SƏBƏBLƏRİ

## BİRİNCİ VƏ İKİNCİ SƏBƏB

### 1. ALLAHI YANLIŞCASINA TƏQDİM ETMƏK

Naqis və yanlış və bəzən əfsanəvari təqdimlərin ziyanlarından qafil olmamaq lazımdır. Çünki hər hansı bir həqiqəti uşaqlıq və gənclik çağından yanlış və naqis şəkildə insan beyninə daxil etmək, onların fikir və elm baxımından yüksələndən sonra ruhlarında pis təsirlər buraxar. Çünki onlar o həqiqəti həmən yanlış təlimatla tanıyırlar. Və o həqiqətlər, uşaqlıqda və gənclikdə öyrəndikdə əfsanələr kimi onların gözləri qarşısında cilvələnir. Bəzən uşaqlıq dövründə öyərəndikləri şeyləri elmi ölcülərlə uyğunlaşdıra bilmədikləri üçün onları inkar edirlər.

Bu yanlış təlimatlar sonradan təhsil alan şəxslərə çox təsir buraxır. Amma avam və sadəlövh xalqa gəlincə bu hadisələr qarşısında toplaşırlar. Onların tədqiq, araşdırma və tənqid qüvvələri yoxdur, sadəcə qəbul etmək vəziyyətindədirlər. Bu baxımından görürük ki, Qərbdə materializmə yönəlmə məsələsi alimlərin içində çox qaldırıldı. Adi xalq belə fikir izdihamlarından uzaq qalmış, nə ibadətlərnindən əl götürdülər və nə də ki, öz ibadət etdiyi yerdən iz çevirdilər.

Əsl təqsirkar və müqəssir Qərb kilsələrinin məzhəbi kitablarının çıxarsız və yetərsiz təlimatlarıdır. Çünki Qərbin metofizik məsələləri barədə əsl qaydağı həmən təhrif olunmuş Tovrat və İncil kitablarıdır. Bu iki kitabı təqdim edən tanrı, mahnı oxuyan və yaz yeli əsəndə bağda enli-enli gəzən tanrıdır. O elə bir tanrıdır ki, insan onun gözündən gizlənə bilir və o insanın ardınca düşür, onu tapmaq üçün axtarır!!

Tovratın təqdim etdiyi tanrı bir tanrıdır ki, dan yeri ağarana kimi Yaqub ilə güləşir və ona qalib gələ bilmədiyindən onun budun sıxır. Sonra ona yalvarıb ki, onu buraxsın. O deyir ki, bərəkət verməyənə kimi səni buraxmayacam. Beləliklə ondan bərəkət alır!!

Tovrat belə yalnış təqdimlərlə doludur. Açıq-aydındır ki, belə əsassız xürafələr, təhsil almış şəxslərdə çox pis təsirlər buraxar. Onlar isə din məsələləri barədə mütəxəssiz olmadıqları üçün (onların ixtisas sahələri biologiya elimləridir) Allahı inkar edirlər.

Kilsə keşişləri də belə yanlış təqdimlər etməkdə Tövratdan qalan deyirlər. Onların tanrını insan şəklinə salıb, öz bəndələrini günahdan qurtarmaq üçün yer üzünə endirirlər. Sonra tanrı oynaya-oynaya dara çəkilir və canı bədənindən çıxır. Onun bədəni torpaq altında dəfn olur. Sonra dirilir, yenə tanrıya sarı uçur.

Bədbəxtliklə, belə yalnış təlimatlar elə bir mühitlərdə yayılmışdır ki, orada təbii və maddə elmləri inkişaf etmişdi. Digər tərəfdən, ilahi maarifi və idealistlərin düzgün əqidələrini tanımaq üçün, həmən xristian keşişlər sistemi və təşkilatından və həmən təhrif olunmuş kitablardan başqa bir şey yox idi.

Amma Şərq xalqları arasında, məzhəbi əqidələri bir sıra xürafələrlə qatışmışdırsa da belə, onların arasında tədqiqatların suallarına cavab verə biləcək böyük alimlər və filosoflar çox idi. Bu üzdən yanlış və yetərsiz təlimatlar, Şərq alimlərində bir o qədər təsir buraxa bilməmişlər.

Xülasə bu şəxslər uşaqlıq çağında kilsədə tanrı və məzhəb haqqında bir sıra sözlər eşidirdilər. Özləri bir müəyyən sahədə ixtisasçı olandan sonra gördülər ki, tanrı barəsində onlara deyilən sözlər elmi ölçülər və meyarlarla uyğunlaşmır. Onların bu barədə tədqiqat aparmaq üçün doğru və düzgün bir qaynaq olmadığı üçün, onlar çarəsizlikdən belə təsəvvür etdilər ki, tanrı və məzhəb mövzusu bir əfsanədən artıq bir şey deyildir.

## 2. DOĞRU BİR FƏLSƏFƏNİN OLMAMASI

Qərb elm sahəsində diqqətə layiq qədər inkişaf edib bir çox fizik, riyaziyyat və astronomiya fərziyyələrini alt-üst etdiyi zaman, Qərbdə tanrı və məzhəb barəsində alimlərin suallarına cavab verə biləcək bir kamil fəlsəfə yox idi.

Qərbin elmi hərəkatından yüz illər keçirsə də belə və elm aləmində bir mühüm addımlar atsa da, hələ bir sıra şübhələrin və tənqidlərin cavabını verə bilən bir fəlsəfə sistemini formalaşdıra bilməmişdir. Kamil bir fəlsəfənin olmaması, onların tanrı və məzhəb barəsində bir sıra suallarla rastlaşmaqlarına səbəb olmuşdur, və bu suallara cavab verə bilmədikləri üçün, tanrı və metofizik aləmini inkar edirdilər.

Misal üçün, materialistlər deyirdilər ki, biz Allahı görmürük və əlimizlə hiss etmirik və buna görə də varlığına inanmırıq.

Belə bir sözün qarşısında düzgün ideologiya yox idi onlara aydınlaşdırsın ki, hər şey varlığı gözümüzlə və başqa hisslərlə tanımaq olmaz. Əql qüvvəsi və könül hissi də mərifət vəsaitlərdən biridir ki, onunla bir sıra şeyləri tanımaq mümkündür. Əgər əql bir şeyin varlığını sübut edib təsdiq etsə, onu «labaratoriyada onun varlığından bir nişanə yoxdur» deyə, inkar etməyimiz düz iş deyildir.

# ON DOQQUZUNCU DƏRS

## MATERİALİZMƏ YÖNƏLMƏNİN SƏBƏBLƏRİ

## ÜÇÜNCÜ VƏ DÖRDÜNCÜ SƏBƏB

## 3. DARVİNİZM QALMAQALI

Darvinin canlıların və bitkilərin barəsində irəli sürdüyü fərziyyə də bəzi biologiya elmləri alimlərinin və ilahi elmlər barəsində ixtisasçı olmayanların materialistliyə yönəlmələri üçün yox təsirli amil olmuşdur.

«Növlərin təkamül» məsələsi (transformizm) yalnız Darvinin birinci dəfə olaraq əldə etdiyi mövzu deyildir. Darvindən əvvəl Lamark və ondan əvvəl də iki nəfər Yunan filosofları o barədə mübahisələr aparmışlar. Darvinin bu fərziyyəni və nəzəriyyəni yaymaqda ən mühüm rolu o idi ki, elə bir zamanda fərziyyəsini irəli sürdü ki, elm dünyası onu qəbul etməyə hazır idi. O «Növlər prinsipi» adlı kitabının yaymaqla, Qərbin elmi yığıncaqlarında əcibə bir hay-küy saldı. O ömrünün sonuna qədər Allahpərst idi. Amma din düşmənləri onun nəzəriyyəsindən din və məzhəbin əleyhinə iki tərəfdən istifadə etdilər.

1) Növlərin təkamülü nəzəriyyəsi istər tədrici olsun və ya ani, müqəddəs «Tövrat» kitabının mündəricatı ilə ziddiyətlidir. Tövrat açıq-aydıncasına deyir ki, bütün insanlar Adəmdəndir və Adəm isə torpaqadan yaranmışdır.

2) Allahpərstlərin yaradıcının varlığının sübut etmək üçün ən aydın dəlili nizam-intizam dəlilidir. Canlılar və bitkilər aləmində görünən bir nizam o zaman hikmətli bir yaradıcının varlığına dəlil ola bilər ki, onlar ani olaraq yaranmış olalar. Materialistlərin deyişilə, əgər tədric olaraq olsa, yəni milyon illər ərzində bu nizam tapılsa, onda buna dəlil ola bilməz ki, xilqət aləmi bir tədbir və meyar və məqsəd üzündən yaranmışdır.

## İNDİ BİRİNCİ SÖZÜN CAVABI

Əvvələn növlərin dəyişilməsi nəzəriyyəsi, istər ani olsun və ya tədrici, sübut edilməmiş və əsassız bir nəzəriyyədir. Darvindən sonra müxtəlif surətlərə düşmüşdür və bəzən də rədd edilmişdir. Darvinin tədrici təkamül teoriyasi (tranformizm nəzəriyyəsi) dörd əsas və təməl üzrə dayanırdı ki, indi o dörd prinsipini hər dördü də rədd edilmiş və batil olmuşdur.

Həmin fərziyyənin batilliyinə açıq şahidimiz, Darvindən qabaq və sonra, müxtəlif nəzəriyyələrin meydana çıxmasıdır. Bizim üçün hələ

məlum deyildir ki, gələcəkdə nə kimi bir-birini batil edən nəzəriyyələr meydana atılacaqdır.

Saniyən, əgər təkamül və dəyişilmə (cinslərin dəyişilməsi) nəzəriyyəsi sübut edilib və inkar olunmaz açıq mövzuların sırasına yerləşsə də belə, onda müqəddəs kitabın məzmunu o nəzəriyyə ilə ziddiyyəti olmayacaq bir şəkildə yazmaq olar. Çünki müqəddəs kitabın məzmunu bu barədə elə deyildir ki, onu aydınlaşdırmaq olmasın.

Salisən, təkamül nəzəriyyəsinin sübutu və tutalım ki, müqəddəs kitaba ziddiyətli mövqedə olması, heç vaxt Allahın olmamasını sübut etmir. Çünki yaradıcının varlığı bir sıra açıq və qəti dəlillərə sübut edildiyi zaman, təkamül nəzəriyyəsi ilə müqəddəs kitabın uyğunlaşmamadığı, Allaha inanmağın qarşısını ala bilməz. Lakin təkamül nəzəriyyəsinin qətiliyi sübut edilsə, və müqəddəs kitabın məzmunu aydınlaşılmasa, bu halda deməliyik ki, bu sözləri müqəddəs kitabdan qəbul etmək olmaz.

## İKİNCİ SÖZÜN CAVABI

Doğrudur ki, bəzi təkamüllər tədricidir. Misal üçün, həm quraqda və həm suda yaşamaq üçün bəzi quşları barmaqları arasında bir növ pərdə (üzmək üçün) tədrici olaraq yaranmışdır. Amma bəzi orqanizmaların bütün üzvləri bir yerdə olsalar canlıya yardım edə bilərlər.

Misal üçün, gözün böyük sistemi və ya qulağın o bir elə mürəkkəb təşkilatları ilə belə hamısı birlikdə bir işi görürlər. Bunun özü yaranışda bir məqsədin olmasına dəlildir.

Bütün bu təşkilatlar gözün bəbəyindən tutmuş əsəblərinə kimi bir anda yanmalıdırlar. Çünki əgər bu dəstgahların biri naqis olsa, gözün olması mümkün deyildir. Bununla belə görəsən inanmaq olar ki, bu anillər öz-özünə bir yerə yığışmışdır? Və ya onlar öz başına yeni bir vəziyyəti yaratmış və bir-birinin ehtiyaclarını ödəyirmi?

Sözün qısası budur ki, tədrici təkamül və sonsuz partlayışlar və təsadülərlə, qulaq, hislər, bədən əzası və göz kimi müntəzəi bir şeyin və orqanizmların yaranması şəraitini nizama salınmasını və xülasə xilqət məsələsini aydınlaşdırmaq olmaz. Tutalım ki, tədrici təkamül nəzəriyyəsi düzdür, amma deməliyik ki, bu partlayışlar və bütün işlər bir alim və qadir Allahın iradəsi və əmri ilə olunur.

Bir alimin nəzərincə, Darvinin nəzəriyyəsi aləmin bir nizam üzrə qərar tapmasını sübut edir. Bu ən mühüm deyildir ki, aləm nizam üzrədir, hərcmərc deyildir. Bu aləmin sahibi vardır.

## 4. BİR ÇOX ELMİ FƏRZİYYƏLƏRİN BATİL OLMASI

Yerlə göyün keyfiyyəti barədə Bətləmiyusun nəzəriyyəsi 1500 ilə yaxın dururdu. O nəzəriyyə bir müqəddəs kitab kimi elmi yığıncaqlarda

tədris olunurdu. Bu nəzəriyyə alimlərin qəlbində elə nüfuz etmişdir ki, bəzi təfsirçilər bu nəzəriyyənin doğruluğuna inandıqları üçün Qurani-Kərimin o nəzəriyyə ilə uyğun olmayan bəzi ayələrini o nəzəriyyəyə uyğun olacaq şəkildə yozub açıqlayırdılar.

Amma Avropada elmi hərəkatlar başladıqda o nəzəriyyələri bir neçə alim rədd etdi.

Bir lehistanlı (polşalı) alim Nikolay Kopernik Yerin mərkəz olmasını rədd edib və planetlərin mərkəzini Günəş olmasını sübut edib.

Almaniyalı İohan Kepler sübut etdi ki, hər planet Günəşin başına fırlandıqda bir yumurtavari (beyzi) oxda öz başına da fırlanır. Planet hər nə qədər Günəşə yaxındırsa, bir o qədər sürəti çoxdur.

Qalileo bir teleskop düzəltməklə göylərin sirli pərdəsini aradan qaldırdı və bir çox görünməyən ulduzları görüb, qalaktikaları ulduzlar toplumu kimi tanıtdırdı.

Nyuton «cazibə qüvvəsi» və «mərkəzdən qaçma» qanunlarını kəşf etməklə sübut etdi ki, milyonlarla Günəş sistemləri və qalaktikalar fəzada mayallaqdır. O, Neptun, Pluton və Uran planetlərini də kəşf etdi.

Bu dəyişikliklər bir çox alimləri bir çox məsələlərə bədbin etdi. Onlar belə fikirləşirdilər ki, indi bir çox nəzəriyyələrin əsassızlığı aşkar olduqda, başqa nəzəriyyələrin belə əsassız olmasına dəlil nədir? Bizdən qabaqkılar hiss olunan məsələlər barədə bu dərəcədə səhv etmişdirlərsə, hissdən xaric və üstün olan laboratoriyaya sığışmayan məsələlər barədə daha çox səhv edə bilərlər.

Beləliklə, metafizik məsələlərinə şübhələr, tərdidlər, inkarlar artdı və materializm görüşü bəzilər arasında yayıldı.

Hələ keçmiş və qədim fikirlərə və görüşlərə nisbət bədbinlik hissini şiddətləşdirən şey, o zamanın alimlərini çolqalayan (əhatə edən) yersiz elmi məqrurluq və lovğalıq idi.

Onlar bir neçə şeyi kəşf etməklə belə təsəvvür edirdilər ki, aləmin bütün sirlərini bilib və gizli şeyləri kəşf etmişlər.

Açıq-aydındır ki, məğrurluq, əql ilə həqiqətin arasında olan ən qatı pərdə və örtükdür. Bir realist şəxs, hər nə qədər onun elm qanadları varlıq aləminin sonsuz fəzasında da qanadlana bilsə də belə, öz beyin və düşüncəsini bir belə böyük aləmin önündə və bütün məsələləri hal etməkdə, dəfələrlə kiçik və gücsüz bilməlidir.

Nəhayət, o elmi məğrurluq çox çəkmədi, və təbiətin başqa sirlərini kəşfi, bəşərin bir çox məsələlərin və bilinmiyən şeylərin varlığına etiraf etməsinə səbəb oldu. Bəşər elm baxımından yüksəldikcə, xilqətin sirlərini təfsir etməkdə onun heyrəti, məbhutu və mat qalması artırdı.

20-ci yüz ildəki Avropa ilə 19-cu yüz ildə olan Avropa çox fərqlidir. Daha alimlər və bilicilər metafizik aləmini inkar etmirlər.

Bundan əlavə bu yüz ilin əvvəllərində tədqiqatçıların və kəşfiyyatçıların, elm, texnik və demokratik sistemlər, bəşəri həyat çətinliklərindən və çarəsizliklərindən qurtarıb sənətə, rahatlığa və

mədəniyyətə çatdıracağına dair verdikləri vədələr yalana çıxdı. Bunlar yeni problemlər, nigəranlıqlarla qarşılaşmışlar.

Nəhayət, onlar istər-istəməz, hikmətli, alim, qüdrətli Allahın varlığını təsdiq edən fitrət nidasına müsbət cavab vermiş və daima ondan yardım diləyirlər. Yəni inanırlar ki, bir çox problemlərin həlli üçün Allaha və məzhəbə inanmaq lazımdır.

## İYİRMİNCİ DƏRS

## MATERİALİZMƏ YÖNƏLMƏNİN SƏBƏBLƏRİ

## BEŞİNCİ, ALTINCI VƏ YEDDİNCİ SƏBƏB

Materializma yönəlişin səbəblərindən biri də hissi fəlsəfəyə yönəlmək idi. Yeni bir şeyi hissiyyatla tanımaq istəyrdilər. Hətta tanrını və ruhu və başqa qeyri-maddi mövcudları da laboratoriyada və cərrahlıq bıcağı altında görmək istəyirdilər. Onlardan laboratoriyada bir əsər görməyəndə, onu inkar edirdilər. Açıq-aşkardır ki, tanrı bir qeyri-maddi vücuddur. Onu laboratoriya vasitəsilə tanımaq olar.

Materializmə yönəlmənin digər bir səbəblərindən biridə din, tanrıdan müdafiə etmək adına əqidə müfəttişliyi möhkəməsinin etdiyi cinayətdir. Bu cinayətlər illər boyu davam etdi və ürəklərə düşmənlik toxumu səpdi. Nəticədə, o məhkəmə gücləşsizlikdən sonra, xalq onu tənqid atəşinə aldı. Alimlər isə qisas almaq üçün xalqın hisiyatını kilsə və məzhəbin əleyhinə qaldırdı və bununla xalqı Allahı inkar etməyə məcbur etdilər.

Amma xoşbəxtliklə, bir az keçməmiş bu qalmaqal yatdı, ehsasat atəşi söndü, kilsənin və keşişlərin azğın fikirləri ilə Allaha və metafizik aləminə inanmaq məsələsinin hesabı bir-birinə ayırd oldu, və yenə alimlər Allaha inanmağa sarı çəkildilər.

Materializmə yönəlmənin başqa bir səbəbi də Qərbin texnika sahəsində irəliləməsi və həyat vəsilələrini geniş miqdarda istehsal etməsi idi ki, fəsad və əxlaqiyyat pozğunluğuna səbəb oldu. Bəşərin maddi elmlər sahəsində irəliləməsi və bir çox ləzzəttələblik və şəhvətpərəstlik vəsilələrinin düzəlməsi, bəşərin mənəviyyətdən qafil olmasına səbəb oldu.

Açıq-aşkardır ki, xalq şəhvətpərəstliyə, həva-həvəsliyə və maddiyyata könül verdikləri mühitlərdə, allahpərəstlik və allahaxtarma məfkurəsi göyərib artmamadan əlavə, zahiri aludəliklər onların könüllərinə nüfuz edib, dini əqidəliklər onların könüllərinə nüfuz edib, dini əqidələrə və məfkurələrə görə onları etinasız edər.

***

Bu materializmə yönəlmənin səbəblərinin bəziləri idi ki, qısa olaraq bu dərslərdə onları zikr etdik.

# *İKİNCİ FƏSİL*

# *ALLAHIN CƏMAL VƏ CƏLAL SİFƏTLƏRİ*

## İYİRMİ BİRİNCİ DƏRS

## YEGANƏ ALLAH

### ALLAH BİRLİYİNƏ BİRİNCİ DƏLİL

Tutalım ki, aləmin Allahı kimi başqa bir Allah da vardır. Bu söz bunu yetirir ki, Allah və onun misli, hər biri iki parçadan mürəkkəb olmuşdur. Bu iki parçadan tərkib olmaq möhtac olmaqlığı tələb edir ki, möhtac olmaq allahlıqla uyğun olmaz.

### İNDİ BU DƏLİLİN İZAHI

Bir sinifin məktəblilərini nəzərdə tutaq. Görəsən onlar hər baxımdan bir-biriləri ilə oxşar və birdilər. Qətiyyən belə deyildir. Görəsən onlar hər baxımdan ziddirlərmi? Yenə yox. Həqiqət budur ki, onlar bəzi cəhətdən bir-birinə oxşayırlar və bəzi cəhətdən bir-birilərindən fərqlənirlər.

Misal üçün, insan olub ağıla, düşüncəyə malik olduqları üçün bir-birlərinə oxşayırlar. Onlar hamısı bir dərəcədə insan adını daşıyırlar. Amma, qiyafə, ruhiyyə, boyaq, zahiri baxımdan bir-birilə fərqli və bir-birindən ayrılırlar. Hətta iki ekiz qardaş bəzi cəhətlərdən bir-birlərindən fərqlənirlər. Heç olmazsa onların oturduqları yer bir-birindən fərqlidir.

Əgər belə təsəvvür etsək ki, iki nəfər hər bir cəhətdən bir-birilə eynidir, onda demək lazımdır ki, bir şəxsdir iki deyildir. Onun iki şəxs olması əfsanədir.

Bu sözlə açıqlandı ki, iki və neçə olmaqlıq tələb edir ki, onlar bəzi cəhətlərdən bir-birlərinə oxşayırlar və bəzi cəhətlərdən də fərqlənirlər. (onların həm ortaq nöqtələri və həm də ayırd olma nöqtələri vardır). Başqa sözlə, əgər iki şeyin ikiliyi düz olsa, onda bunu qəbul etmək lazımdır ki, onlar bəzi cəhətdən bir-birlərindən fərqlənməlidirlər. Yoxsa onların ikiliyi qeyri-həqiqətdir və həqiqətdə bir şeydir.

Deməli əgər aləmin iki Allahı olsa, hər birisi başqası malik olmayan müəyyən xüsusiyyətlərə malik olmalıdır ki, bu xüsusiyyətlər onların bir-birindən fərqlənməsinə və ayrı olmasına səbəb olsun. Bu halda o iki Allahın hər ikisi iki parçadan tərkib tapmalıdır ki, biri ortaq parça o birisi qeyri-ortaq parça.

Deməli ikiliyin nəticəsi budur ki, o Allahların hər ikisi iki parçadan mürəkkəblənsin və məlumdur ki, hər mürəkkəb şey özünün tərkib tapdığı

parçalarına möhtacdır. Bu sözü bir misalla izah edək: Müxtəlif parçalardan mürəkkəb olan bir çap maşını, müxtəlif parçalarına möhtacdır. Bu parçalar müəyyən həmahəngliyi ilə mürəkkəb olmasa, bir çap maşınının düzəlməsi qeyri-mümkündür.

Həmcinin əgər aləmin Allahı iki parçada mürəkkəb olsa, o öz parçalarına möhtacdır. Yəni onun varlığı, o iki parçasının varlığına bağlıdır. Bir halda ki, Allah heç bir şeyə möhtac deyildir.

## İKİNCİ DƏLİL - ALƏMİN TƏRKİB HİSSƏLƏRİNİN HƏMAHƏNKLİYİ VƏ BAĞLILIĞI

Allahın birliyinə başqa bir dəlil də təbiət elimlərindən əldə edilən nəticələrindəndir ki, bizi Allahın birliyinə hidayet edir. Bu sözun izahı:

Bir kitab oxumaqla onun bir və ya neçə nəfərin vasitəsilə yazılmasını bilmək olar. Bir şəxs yazan kitabın sözləri, cümlələri, neçə sözü başlaması və nəticə alması və bütün bölümləri arasında bir növ həmahənglik görünür.

Amma neçə şəxs yazan kitaba belə bir həmahənglik olmaz. Zira onlar hər nə qədər fikir-bir və səliqə-bir olsalar da belə, yenə çox yerlərdə onların fərqini olduqları görsənəçəkdir. Əgər onların nahəmahəngliyi və ixtilafı, hamı üçün aşkar olmasa da, heç olmasa ədəbiyyatşunaslara və alimlərə aşkardır.

Xilqət aləmi özü bir böyük kitabdır ki, bəşər tamailə, onun səhifələrini saya bilməz, hələ onun bütün səhifələrini oxumağa heç imkanı yoxdur, bir növ nizam və həmahəngliyə malikdir. Bütün, astronomiya, atom, fizika, kimya və biologiya alimləri həmin tərkibi, həmahəngliyi, bağlılığı və nizamı təsdiq etmişlər. Onlar deyirlər ki, vahid bir nizam və yeganə bir tədbir bu aləmi idarə edir.

Bizim Günəş sisteminə hakim olan nizam, eləcə də bir atoma (ki, onlardan milyonda bir-birinin üstünə yığsan bir nöqtə yekəlikdə olar) hakimdir.

Bu aləmin qanunları elə ümumi və küllidir ki, dünyanın bir bucağında onu təcrübə etməklə bütün xilqət aləmini əhatə edən bir ümumi və saysız-hesabsız qanun əldə etmək olar. Cazibə və dəf qanunu bütün aləmə hakimdir. Bütün bitkilər və heyvanlar peyvənd qanunu ilə barlanırlar. Heyvanlar arasında oxşarlıq o qədərdir ki, bəzilər belə guman etmişlər ki, onların hamısı bir kök və şeydən əmələ gəlmişlər.

Hər kimdən soruşsaq hamı bunu təsdiq edəcək ki, bütün varlıq aləmində, vahid Allahın əsərləri görünür.

Əgər xilqətin məndə və mənşəyi vahid və yeganə olmasaydı və əgər aləmə iki qüdrət hakim olsaydı, aləmin vəziyyəti belə olmazdı, və bir belə həmahənglikdən və sıx əlaqələrdən bir xəbər yox idi. Zira dediyimiz kimi iki mahir rəssam, iki yazıçı, iki qüdrətli tablo düzəldən zövq, fikir və hər bir cəhətdən bir olsalar da belə, yenə onların əsərləri və sənətləri yeksan

olmayacaqdır. Əgər xətt və sənət ustaları diqqət etsə görəcəklər ki, bu iki tablo və xətt iki sənətkardandır.

## HƏZRƏTİ İMAM SADİQ (ə)-IN BU BARƏDƏ BƏYANATI

İmam Sadiq (ə) öz bəyanatlarının birində həmin dəlilə işarə edib deyir:

فَلَمَّا رَاَينَا الخَلقَ مُنتَظِماً والفُلكَ جارياً واختِلَافَ الَّيلِ وَ النَّهارِ والشَّمسَ والقَمَرَ دلَّ صِحَةُ الاَمْرِ وَ التَّدْبيرِ و ائْتِلَافُ الْاَمْرِ عَلى اَنَّ الْمُدَبِّرَ وَاحِدٌ

**«Xilqətin müntəzəm olması, gecə-gündüzün ardıcılığı, Günəşin və Ayın nizam üzrə hərəkəti bizi aləmin Vahid müdəbbirinin olmasına hidayət edir. Bir qüdrət aləmi idarə edir».**

Həmçinin «Hişam ibn Hikəm» Allahın birliyinə dəlil istəyən zaman demişdir:

اِتِّصَالُ وَ تَمَامُ الصُّنعِ

**«Aləmin tərkibliyi və tamamlığı onun yekənəliyinə dəlildir».**

# İYİRMİ İKİNCİ DƏRS

## ÜÇÜNCÜ DƏLİL

## İKİ ALLAHIN ALƏMİ İDARƏ ETMƏSİ XARABLIQ VƏ FƏSAD TÖRƏDƏR

Fəlsəfənin diqqətli hesabatı sübüt etmişdir ki, yaradıcının çoxluğu xilqət nizamında fəsad və nahəmahənglik törədər. Qurani-Kərim də həmin dəlilə işarə edir:

Hər vaxt aləmə, yer və göyə iki yaradıcı hökümət etsa iki sürət təsəvvür olunar:

1- İki yeksan və həm misal Allah

2- İki fərqi Allah ki, bir-biri ilə külli fərqliyi olsun.

Əgər bir-birinə oxşasa və eyni olsalar iki nəfər bir-birinə oxşayan insan kimi ki, bir-birinin eyni və misli olurlar. Bu sürətdə birinci dəlildə dediyimiz kimi, bu Allahın iki tərkib hissəsindən, biri hər ikisinin arasında olan ortaq nöqtə və biri də qeyri-ortaq nöqtədən təşkil tapmasını tələb edir. Mürəkkəb olmaq isə möhtac tələb edir və möhtac olmaq isə Allahlıqla uyğun deyildir.

Bu səbəbdən ikinicisi yəni iki ziddiyətli və aralarında heç bir oxşarlıq olmayan Allah barədə mübahisəmizi davam etdirək:

Açıq-aydındır ki, iki ziddiyatlı vücüd işləri və əsərləri, onların zatları kimi ziddiyətli olmalıdır, çünki iki ziddiyətli vücüdün, işləri və əsərləri baxımından bir və yeksan olmamalıdır. Hər vaxt aləmə bu xüsüsiyyətə malik olan iki Allah idarə etsələr, hər birinin tədbiri bir-biri ilə ziddiyətli olacaqdır və bu iki ziddiyətli tədbirin nəticəsi xilqət (yaranış) aləmində əlaqələrin qırılması və nizamın pozulmasıdır. Qurani-Kərim həmin barədə buyurur:

لَوْ كَانَ فِيهِمَا آلِهَةٌ إِلَّا اللَّهُ لَفَسَدَتَا

***«Əgər aləmdə Allahdan başqa tanrı olsaydı, onların hər ikisi fəsada uğrayardı».***[1]

[1] «Ənbiya» surəsi, ayə 22.

## DÖRDÜNCÜ DƏLİL

## ƏGƏR BAŞQA BİR ALLAH OLSAYDI ONUN DA ƏSƏRLƏRİ ZAHİR VƏ AÇKAR OLARDI

Allahın birliyinə alimlərin bəyan etdikləri dördüncü dəlil Həzrəti İmam Əli (ə)-oğlu İmam Həsən (ə)-a xitabən yazdığı bir məkdubda qeyd edilmişdir.

Həzrətin Əli (ə) buyurur:

وَ اعْلَمْ يَا بُنَيَّ أَنَّهُ لَوْ كَانَ لِرَبِّكَ شَرِيكٌ لَأَتَتْكَ رُسُلُهُ وَ لَرَأَيْتَ آثَارَ مُلْكِهِ وَ سُلْطَانِهِ وَ لَعَرَفْتَ أَفْعَالَهُ وَ صِفَاتِهِ وَ لَكِنَّهُ إِلَهٌ وَاحِدٌ كَمَا وَصَفَ نَفْسَهُ لَا يُضَادُّهُ فِي مُلْكِهِ أَحَدٌ وَ لَا يَزُولُ أَبَداً وَ إِنَّهُ خَالِقُ كُلِّ شَيْءٍ

**«Ay oğlum, bil ki, əgər sənin Pərvərdigarının bir ortağı olsaydı, onun tərəfindən də peyğəmbərlər gələrdilər və onun da qüdrəti və hökümətinin əsərlərini görərdin, onun sifətlərini tanıyardın. Amma o yeganə Allahdır, o özü özünü belə sifətləndirmişdi, aləm onunkudur və heç kəs onun ziddi deyildir, o hər şeyi yaradandır».**

Həzrətin Əli (ə) bu qısa cümlədə Allahın birliyi barədə iki əqli dəlilə işarə etmişdir:

**1.** Əgər Allahın bir ortağı olsaydı, onun da qüdrəti əsərləri və istilası nişanələrini görərdik, işləri və sifətləri ilə tanış olardıq, yəni əgər aləmi iki yaradıcı yaratsaydı, qətiyyən aləmdə iki Allahın əsərlərini görərdik, və iki plan və tədbiri müşahidə edərdik, amma alimlər tamamilə öz elmi tədqiqatlarında, bir plandan və tədbirdən xəbər verirlər. Bu dəlili bundan əvvəl izah etdik.

**2.** Əgər aləmdə başqa bir Allah olsaydı öz bəndələrini hidayət etmək üçün o da peyğəbərlər yollayardı və onları edəcəkləri işlərdən agah edərdi. Bir halda ki, belə bir Allahın tərəfindən heç bir peyğəmbər gəlməmişdir. Bütün peyğəmbərlər hamısı özlərini yeganə Allah tərəfindən Məbus olmaqlarını bildirmislər. Nəticədə ikinci Allahdan bir əsər yoxdur.

İmamın Allahın birliyinə gətirdiyi bu dəlil yeganə bir dəlildir. Bu dəlillə cox tanış olmag üçün sözümüzü davam etdiririk.

Allahın varlığı və onun bəzi sifətləri sübut edilmiyənə kimi bir peyğəmbərin peyğəmbərliyini qəbul edib Allah barəsində onun sözlərini qəbul etmək olmaz. Amma Allahın varlığı və ədaləti və hikmətli olması bir sıra əqli dəllillərlə sübut edilsə və sonra bir müəyyən şəxsin peyğəmbərliyi möcuzəsi olmaqla sübut edilsə, və belə bir peyğəmbər o Allahın birliyindən xəbər versə, onun sözü onun peyğəmbərliyinə və düzlüyünə iman gətirən kimsə üçün faydalı olacagdır.

Amma onun peyğəmbərliyinə inanmayan şəxslərə heç bir faydası yoxdur. Əgər həmin peyğəmbər Allahın birliyini əqli dəllillə sübut etsə onun sözu hamılar üçün faydalı olar.

İndi deməliyik ki, Həzrəti Əli (ə)-ın nəql etdiyimiz sözündən məqsədi bu deyildir ki, peyğəmbərlərin hamısı Allahın birliyindən xəbər verdikləri və bizim onları doğruçu bildiyimiz üçün Allahın birliyinə dair sözlərini qəbul etməliyik. (Əgər ki bu sözdən məqsədi bu da olsa düzdür). Amma onun bu sözdən başqa məqsədi vardır. Oda budur: əgər aləmin iki Allahı olsaydı, təbii olaraq qanun vəz etmək, peyğəmbər yollamaq məqamında hər ikisinin əsəri görünərdi. Yeni hər ikisi öz varlığını, aləmin yaranmasında, nizamında, qanununda, peyğəmbər yollamaqda göstərərdi. Amma peyğəmbər yollamaqda, kitab göndərməkdə, qanunda, aləmin nizamında başqa bir Allahdan xəbər yoxdur.

Buna görə ki, hec bir peyğəmbər onun tərəfindən gəlməmişdir, habelə xilqət aləmində başqa bir Allahın qüdrəti, tədbiri görünmür. Çünki bu nizamda nizamın vahidliyindən və onun tərkib hissələrinin bir-birinə bağlı olmaqdan başqa bir şey görünmür.

***

Bu qədər dəlil və başqa dəlillər, bir sıra əqli fəlsəfi dəlillərdir Allahın birliyini sübut edirlər.

Və indi Allahın birliyinə hər bir insanın vucundunda olub əqli və fəlsəfi dəlillə möhtac olmayan başqa bir dəlil də qeyd edirik.

## BEŞİNCİ DƏLİL

## İNSANIN ŞÜURU VƏ FİTRƏTİ ALLAHIN BİRLİYİNƏ ŞƏHADƏT VERİR

Allahın varlığını sübut etmək üçün iki yol varımız idi:

1 - Fitrət yolu ilə insan Allahı tanıyırdı, hər insan özünü məxsus bir şəraitdə allahpərəst görürdü.

2 - Onun vücudunun dəlillərini görməklə varlığını təsdiq edirdik.

Allahın vahidliyini və birliyini də sübut etmək üçün həmin iki yol vardı.

**1** - Fitrət

**2** - Dəlillə sübur etmək

İzzah etdiyimiz dörd dəlil 2-ci yol idi. İndisə də fitrət yolu:

Hər bir insanın öz fitrəti Allahın birliyinə şəhadət verir.

Çünki bütün maddi səbəblər və təbii amillər işdən düşən vaxda və insan özünü məhv olmaq uçurumumda gördükdə, bilməyərək və onu hər hansı bir çətinliyi aradadan götürə bilən bir qüdrət mərkəzinə diqqət edir.

Bu həssas vaxtlarda heç kim bir geniş qüdrətdən başqa bir şeyə arxalanmaz; Eləcə ondan problemlərin həl etmək üçün yardım istər.

Bununla, Allahın birliyi sadəcə fəlsəfi və elm deyil, bəlkə insanın fitrəti və şüuru da onu təsdiq edir.

## İYİRMİ ÜÇÜNCÜ DƏRS

## TÖVHİD DƏRƏCƏLƏRİ

İslam alimləri töhvid barədə bir çox mübahisələr aparıb və tövhidi neçə hissəyə bölmüşlər:

**1** - tövhidi zati
**2** - tövhidi sifati
**3** - tövhidi əfal
**4** - tövhidi ibadət

1 - TÖVHİDİ ZAT

Tövhidi zatdan məqsədimiz həmən ətrafında danışdığımız mövzü idi ki, Allahın birliyini və ona oxşar və bənzər birinin olmadığını sübut etdik. O yeganə olmaqdan əlavə zatı da tərkib hissəsindən mürəkkəblənməmişdir. Onun tərkib hissəsindən mürəkkəblənməsi nə əqlə sığışar (yeni əql də onu təhlil etməkdə bir hissəsindən mürəkkəblənməsini etimal etməz) və nə də xaricdə onun bir tərkib hissəsi vardır. O hər cəhətdən bəsitdir, tərkiblənmə onun zatına yol tapmamışdır. Əlbəttə Allahın mürəkkəb olmaması barədə gələcək dərslərimizdə izahat verəcəyik.

2 - TÖHVİDİ SİFATİ

Töhvidi sifatdan məqsəd budur ki, Allahın sifətləri onun zatı ilə eynidir, yəni «Allah alimdir» sözünün mənası bu deyildir ki, Allahın zatı ilə sifətləri ayrı-ayrı şeylərdir, bəlkə onun mənası budur ki, Allahda elm eynidilər. Habelə Allahın diri və qadir olması, bu mənaya deyildir ki, dirilik və qüdrət, onun zatına sonradan əlavə olmuşdur, bəlkə məqsəd budur ki, onun zatı həyat və qüdrətlə eynidir. Çünki belə olmasa Allahın iki tərkib hissəsindən (zat və sifət) mürəkkəb olması nəzərə gələrdi və dediyimiz kimi mürəkkəb bir şeyə möhtacdır və hər bir cəhətdən varlı və ehtiyacsız olan Allahlıq ilə möhtac olmaq uyğun gələ bilməz.

Allahın «zat» və «sifət»dən mürəkkəblənməsini zənn edəriksə, bu sürətdə Allah öz tərkib hissələrinə möhtac olan mürəkkəb bir Allah olar. Yəni bu tərkib hissələrinin hər hansı olmasa onda Allah da olmayacaqdır.

Həmin məqamdadır ki, fəlsəfə dəlili üzrə deyirdilər Allahın zatı sifətləri ilə eynidir və onun zatı həmən elm, qüdrət və başqa zatı sifətlərdir. Allahın zatı, sifətləri ilə eyni olduğu kimi, onun sifətləri də bir-biriylə eynidir. Yəni onun elminin mahiyyəti, qüdrətinin mahiyyəti ilə fərqli deyildir. Bu üzdən demək olmaz ki, onun zatının bir hissəsi elm və başqa bir hissəsi də qüdrətdir. Onun zatı, tamamilə qüdrət, elm və başqa zati sifətlərdir. Həmçinin sifətləri də bir-biri ilə eynidir. Əgər belə olmasa

yenə onun zatı tərkib hissələrindən mürəkkəblənməsi məsələsi meydana çıxır. Və dediyimiz kimi mürəkkəblik Allahlıqla uyğun deyildir.

3 - TÖVHİDİ ƏFAL

Xilqət aləmində bir sıra təbii səbəblərin əsərləri ilə üzləşərik. O cümlədən Günəşin parıltısı və odun yanması və.... Bu təbii vücudların arasında insan özü bir çox hadisələrin amilidir.

İndi görək, bu amillər bir belə əsərləri haradan gətirmişlər? Açıq-aydındır ki, onları yaradan qadir və alim Allah, bir belə əsrarəngiz əsərləri onlara vermişdir. Heç vaxt belə təsəvvür olmasın ki, bu əsərlər onların özlərindədir. Onlar müstəqil deyillər, Gülün gözəlliyi, bitkinin tibbi əsəri, və insanın gördüyü iş hamısı Allah tərəfindədir. Heç bir şeyin özündən bir şeyi yoxdur. Əlbəttə bu sözün mənası bu deyildir ki insan bütün işlərində məcburdur və ixtiyari yoxdur. Bunu bir az da izah edirik:

Bizim iki növ səbəbimiz vardır:

**1.** Faili muxtar - illəti muxtar

**2.** Faili müztər - illəti müztər

Fail və illəti muxtardan məqsəd budur ki, şüurlu, idraklı, iradəli, əzəmətli və ixtıyarlı olsun və hər bir işi görməyə azad və müstəqil olsun (insan kimi). İnsan bir iş bərabərində iki yolu vardır. Həm o işi görə bilər və və həm də görməyə bilər. O tam azadlıqda və ixtiyarla ya o işi görər və ya görməkdən çəkinər.

Fail və illətin müztərdən məqsəd budur ki, şüuri və idraki (düşüncəsi yoxdur). Yəni faili muxtarın qarşı nöqtəsidir. Əgər şüuru vardırsa da heç bir ixtiyar və azadlığı yoxdur (Günəş və od kimi şeylər).

«İşlər hamısı Allahdandır» deməyimizin mənası budur ki, insanın əməlləri ixtiyar üzündən olar və həçinin başqa mövçudların işləri ixtiyar üzündən olmayaraq, hamısı özlərindən asılı olmaqla bərabər, Allahdan asılıdır. Əgər onların əlaqələri bir an Allahdan kəsilsə, və bir an Allahdan onlara qüvvə gəlməsə, onlar heç bir işi görə bilməzlər.

Aşağıda qeyd olan misala diqqət edin.

Bir necə işığı işıq sacan zaman görsən, birinci dəfədə belə güman edərik ki, bu işıqlıq işığın özündəndir, amma bir az diqqət edəndən sonra görürük ki, bu işıqlıq onların özündən deyil. Onlar o işıqlığı elektrik mənbələrindən almışlar. Əgər bu elektrik lampaları, elektrik mərkəzlərindən əlaqəsi qırılsa, hamısı sönər və bir işığı olmaz. Deməli elektrik lampalarının işıqlığı özlərindən deyil, amma eyni halda elektrik lampalarının nömrələri neşəliyində tam təsirlidir.

Günəşin hərarəti, ayın işıqlıqlığı, hər mövcudun, canlının və insanın bütün əməlləri onların özlərindən və örqanizmlərindən olan müxtəlif üzvlərindən asılıdır, amma eyni halda hamısı müstəsna olmadan ulu Tanrıdan qüvvə alırlar, və bir ləhzə də olsun ondan ehtiyaşsız deyillər, əgər bir an onların varlıq məbdəi və mənşəyindən əlaqəsi qırılsa dərhal aradan gedərlər.

4 - TÖVHİDİ İBADƏT

İbadət etmək və bəndəlik etmə Allaha məxsusdur, ondan başqasını pərəstiş etmək olmaz. Çünki pərəstiş etmə və bəndəlik iki şeydən asılıdır ki o iki şeyin heç biri Allahdan başqa heç kəs də yoxdur:

**1.** İbadət olunan (məbud) kəmal baxımından hər bir nöqsanlıqdan və eybdən ayrı olmasıdır. Bu sonsuz kəmal bunu tələb edir ki, hər bir şüurlu insan onun qarşısında təvazökarlıla pərəstiş etsin.

**2.** Bir mövcudu ona görə pərəştiş etməliyik ki, aləmi, insanı yaradıb, cismi, canı bağışlayıb nemət və bərərkət versin və əgər bir ləhzə ondan əlaqələr qırılsa varlıqdan bir əsər qalmasın. Peyğəmbərlərin, imamların məqsədi həmən sonsuz kəmal və cəmal sahibi olan məbudu pərəstiş etməkdir. Onlar qeyb aləmindən yüksək mərifətə və dərin agahlığa malik olduqları üçün, Allahı sonsuz kəmala və cəmala malik olduğu üçün pərəstiş edirlər bəziləri də Allahı ona görə pərəstiş edirlər ki, varlıq aləminin kilidi onun əlindədir və ondan əcr almaq üçün ona ibadət edirlər. Hər halda ibadət etməyin səbəbi istər onun məhz kəmal sahibi olmasından olsun və ya başqa bir səbəb üçün olsun, hamısı Allahda vardır və Allahdan başqa heç bir kəsdə ibadət və pərəstiş olunma ləyaqəti yoxdur.

Bu bəhsimizin nəticəsi budur:

**1** - Allah yeganədir və şəriki də yoxdur.

**2** - Onun sifətləri ilə zatı eynidir. Çoxluq və mürəkkəblik onun zatına yol tapa bilməmişdir.

**3** - Hər bir mövcudun və yaranmışın əməlləri mövcudun özündən asılı olmaqla bərabər, Allahdan da asılıdır.

**4** - Allahın müqəddəs zatından başqa heç bir mövcud pərəstiş olunmağa ləyaqəti yoxdur, və ibadət yalnız və yalnız Allah üçündür.

## İYİRMİ DÖRDÜNCÜ DƏRS

## MÜQƏDDƏS ÜÇ ÜQNÜM

Allahın birliyi barədə bir sıra dəlillər gətirdik, yaxşı olar ki, indiki xristian aininin əsası olan üqnüm və ya üç Allahlıq barədə danışaq. Dünyada xristianlı kimi mübhəm, dom-dolaşlıq, buruşuq və mürəkkəb bir məzhəb yoxdur və həmin məzhəbdə də üqnüm məsələsi kimi mübhəm, anlaşılmaz, ağıla batmayan bir məsələ yoxdur.

Zamanın axımı, fikri inkişaflar, yersiz məzhəbi təəssüblərin azalması, xristian alimlərinin fikirlərində dəyişiklər törətdi və cəbəb oldu ki, yeni fikirlər ilə keçmiş əqidələr arasında bir dərin fasilə yaransın. Elə bir fasilə ki, onu heç zaman doldurmaq olmaz.

Onlar bu barədə iki cürə fikirləşirlər, və bu iki yolla özlərini qane edirlər.

**1** - Bir qrup çalışır ki, əski xristian əqidələrini bir təhər məntiqiləşdirsinlər və o əski əqidələri müasir dillə bəyan etmək istəyirlər. Üqnüm barədə də həmin işi görmüşlər.

**2** - Bir qrup da özlərini belə təfsirlərdən və təvillərdən qurtarmış, amma ağıla batmayan bir söz deyirlər və elm ilə dinin ziddiyətli olmasını irəli sürürlər və deyirlər ki, elm ilə dinin yolu bir-birindən ayrıdır, mümkündür din bir şeyi qəbul etsin ki, elm onu rədd etsin.

Bunlar bundan qafildirlər ki, elm ilə dinin ziddiyyətli olmasını qəbul etmək nəticədə dinin batil olmasını sübut edər, zira insanın hər bir məzhəbin haqlığına əqidəsi əqli və elmi dəlillərdən mənşələnir. Bununla necə bir məzhəbin haqlığını elmi-əqli prinsiplərlə sübut etmək olar ki, əqlin və elmin özü o əqidələrin bəzi qismlərini rədd edir.

## TƏSLİS MƏSƏLƏSİ XRİSTİANLILARIN DİNİ KİTABXANALARINDA

Qurani-Kərim deyir ki, üqnüm məsələsi heç bir səmavi dinlərdə yox idi və xristianlar məsih gedəndən sonra üç allahlığı başqalarından almış və onu məsihin yeganəpərəst müqəddəs məzhəbinə əlavə etdilər:

وَقَالَتِ الْيَهُودُ عُزَيْرٌ ابْنُ اللَّهِ وَقَالَتِ النَّصَارَى الْمَسِيحُ ابْنُ اللَّهِ ۖ ذَٰلِكَ قَوْلُهُمْ بِأَفْوَاهِهِمْ ۖ يُضَاهِئُونَ قَوْلَ الَّذِينَ كَفَرُوا مِنْ قَبْلُ ۚ قَاتَلَهُمُ اللَّهُ ۚ أَنَّىٰ يُؤْفَكُونَ

***«Yəhudilər: «Üzeyr Allahın oğludur», xaçpərəstlər də: «Məsih (İsa) Allahın oğludur», - dedilər. Onların ağzında gəzən bu (boş) sözlər daha***

***öncə küfr edənlərin sözlərinə bənzəyir. Allah onları öldürsün! Necə də (yalana uyub haqdan) döndərilirlər!»***[1]

Qurani-Kərim bu həqiqəti on dörd əsr bundan əvvəl demişdir və zamanın axımı və tədqiqatçıların tədqiqatı bu həqiqəti elə açıqlamışdır ki, xristianlıların özləri də buna etiraf edirlər.

Tarix göstərmişdir ki, peyğəmbərlərin vəfatından sonra və ya qeybət zamanında, onların bəzi tərəfdarları bütpərəstliyə üz gətirmiş və peyğəmbərlərin əsas məqsədi olan yeganəpərəstlikdən və töhviddən əl götürmüşlər.

Bəni İsrailin buzövpərəstliyə yönəlmələri, həmin mövzuların açıq nümunələrindəndir ki, tarixdə qeyd olunmuşdur.

Bununla təəccüblənməliyik ki, Həzrəti Məsih (ə) gədəndən sonra, üç Allahlıq ki, bir növ bütpərəstlikdir xristian millətlərinə yol tapmışdır.

## HƏM BİRDİR VƏ HƏM DƏ ÜÇ

İndi görək üqnüm nə deməkdir? Üqnümü kitab - müqəddəsi qamusu yaxşı bəyan edir.

Bu kitabın müəllifi yazır: «Allahın təbiəti üç mütəsavi əsldən təşkil tapmışdır. Yəni dədə Allah, oğul Allah və Allahın müqəddəs ruhu. Dədə Allah bütün kainatı yaratmışdır və oğul isə özünü fəda edən müqəddəs ruhu təmizləyir və lakin bu üç əslin bir dərəcəsi və əməli vardır».

İndi bu məzhəbin tərəfdarlarından soruşmalıyıq ki, sizin qəsdiniz bu sözdən nədir? Bu sözdə təsəvvür olunan şey iki surətdən başqa deyildir ki, heç bir rububiyyət (allahlıq) şəninə yaraşmır.

**1** - Bu üç allahların hər biri müstəqildilər və hər biri müəyyən vücudla təzahür edir. Misal üçün, necə ki, hər bir insan xaricdə müstəqil bir vücuda malikdir və hər birisinin bir növ şəxsiyyəti vardır, eləcə də bu üç əslin hər biri ayrı-ayrı vücudları var. Başqa sözlə, bir təbiətdir üç fərdi vardır; Təslisi bu mənada götürsək həmən muşriklərin arasında olan şirkdir və bu şirk xristian məzhəbində üç Allahlı kimi təzahür etmişdir.

Çox gülüncdür ki, kilsə budətçiləri belə bir təslisi tövhidlə uyğunlaşdırmağa çalışırlar. Onlar bunu demək istəyirlər ki, o, «üç» olduğu halda «bir»dir və eyni halda «bir»dir amma «üç»dür də.

Bu təfsir ziddiyətli deyilmi? (Həm kosa həm saqqallı) görəsən dünyaya belə bir adam tapılar ki, üç ilə biri müsavi (bərabər) bilsin?

**2** - Bu «təslisi» başqa təhər də yazmışlar. Yəni bu üç əsldən heç biri müstəqil deyillər. Amma mürəkkəblənib bir-biri ilə bağlaşdıqda aləmin Allahını təşkil edirlər.

---

[1] «Tövbə» surəsi, ayə 30.

Bu təfsirə bu tənqidi etmək olar ki, bununla Allah üç tərkib hissələrindən mürəkkəb olmuşdur. Tərkib isə möhtac olmaqlığı tələb edir. Bir halda ki, möhtac olma Allahın zatına yol tapmamışdır.

Nəticədə üç Allaha inanmaq şirkdir. Demək olmaz ki, o «üç» Allahdır eyni halda «bir»dir. Bu söz bir-birinə ziddir və bir-birini batil edir. Həmçinin demək olmaz ki, «bir» Allah «üç» tərkib hissəsindən mürəkkəb olmuşdur. Çünki mürəkkəblik möhtac olmağı tələb edir və möhtac olmaq allahlıqla uyğun deyildir.

## QƏLƏTƏNDAZ (SƏHVƏ SALAN) SÖZLƏR (SƏFSƏTƏ)

Xristian keşişlərindən bəzisi teslisi vəhdətdə olmaqla təfsir etmək üçün bir sıra misallar gətirirlər və yanlış sözlərlə öz ziddiyyətli sözlərini düz söz kimi cilvələndirmək istəyirlər.

Misal üçün belə deyirlər Günəşin işığı, hərarəti və cismi üç şeydir, eyni halda bir Günəşdən artıq deyildir və ya insanın ruhu, sözu, düşüncəsi üç şey oldugu kimi eyni haldan bir şəydən artıq deyildir. Biz də deyirik «üç» allahdırlar amma eyni halda «bir» Allahdır.

Bu misallar sadəlov şəxsləri tovlamaq üçün nəticəli ola bilsə də, amma alimlər üçün səfsətədən və səhvə salan sözlərdən başqa bir şey deyildir.

Çünki Günəşin cismi ilə hərarəti və işığı çox fərqlidir, günəşin cismi məxsus bir cismdir ki, başqa cismlər kimi üçbucaqlıdır, amma onun hərarəti və işığı bir növ enerjidir və Günəş hər saniyədə dörd milyon ton enerji istehsal edir və fəzaya göndərir. Bununla necə demək olar ki, Günəşin cismi ilə enerjilər birdir? İkinci misalda insanın ruhu bir həqiqətdir ki, fikr onun mənəvi əsərlərindəndir. İnsanın danışması isə bir cismi və fiziki fəaliyyətdir. İnsan qərara gələndən sonra onunla öz fikrini bəyan edir. Fikr ruhdan aslıdır və «danışmaq» ağızdan aslıdı. Bəs necə demək olar ki, ruh, fikr və danışıq bir şeydir.

## İYİRMİ BEŞİNCİ DƏRS

## QADİR ALLAH

Pərvərdigarı aləmin sifətlərindən biri «Qüdrət» və adlarından biri qadirdir. Allahın qadir olmasından məqsəd budur ki, o hər mümkün bir işi görməyə güclüdür

## ALLAHIN QÜDRƏTİN DƏLİLLƏRİ

Allahın qadir olmasını müxtəlif yollarla sübut etmək olar, ən açıq yol xilqətin əsrarəngizliyində və əcaibliyində tam yəqin etməkdir. Buna görə ki, hər bir şeyin varlığı, onun bir yaradıcısı olmasına şəhadət verdiyi kimi hər bir şeyin xüsusiyyətləri də bizi onun yaradıcısının malik olduğu sifətlərə hidayət edir.

«Fizuli»nin şeirlərini araşdırmaqla iki şeyi anlayırıq:

1 – Birisi budur ki, onun bir insan tərəfindən yaranmasını anlayırıq.

2 – O birisi də budur ki, «Bu şeiri qoşan kimsə son dərəcədə sənətkar və qüdrətli bir şair imiş ki, belə gözəl və irfani şeirlər yaratmışdır».

Həmçinin yaradıcıların və natiqlərin əsərlərini araşdırmaqla həmin iki nəticəni əldə edirik.

Bununla biz xilqətin ən kiçik mövcudunun əsrarəngiz nizamından tutub (atom) onun ən böyük mövcudlarının (kəşkəşan) nizamını araşdırmaqla əldə edirik ki, bu mövcudlar onun qüdrəti və gücünün nişanəsidir.

Elmin günü-gündən inkişafı, Pərvərdigari aləmin qüdrətinin göstəricisidir. Biologiya elmləri hər bir mövcud barəsində araşdırma aparması bizə iki şeyi öyrədir. Xilqət aləminin xüsusiyyətlərini və qanunlarını öyrədir, və digər tərəfdən bizə anladır ki, Pərvərdigari-aləm məhz qüdrətlidir. Qüdrətli bir teleskopla mavi göyə baxsaq görəcəyik ki, böyük kəşkəşanlar, ulduzlar, aylar və günəşlər göy üzündə üzürlər. Bunlar hamısı Pərvərdigarın böyük qüdrətini göstərir.

Bir hüceyrənin mürəkkəb və əsrarəngiz quruluşu, Allahın qüdrətinin açıq şahidi və dəlilidir. Bir hüceyrə bizi belə bir həqiqətə yönəldirsə, qətən insanın bədəni hüceyrələri və ya yer üzünə gələn bütün insanların hüceyrələri Pərvərdigari-aləmin açıq dəlilidir.

## FİTRƏT YOLU

Mütəal Allahın qüdrətinin başqa bir dəlili insanın təmiz fitrətidir. İnsan fitrəti Allahın varlığını göstərdiyi kimi eləcə də Allahın qüdrətini göstərir.

İnsanın özünün dar vaxtında və əli təbii səbəblərdən üzüləndə, bilməyərək bir nöqtəyə sarı yönələr, təki o qadirin əli ilə öz çarəsizliyini bir tərəflik etsin.

## NAMÜTƏNAHİ QÜDRƏT

Biz allahpərəstlər, Allahı hər bir işi görməyə qadir bilməkdən əlavə hər bir yaranmağa qabiliyyəti olan şeyi yaratmağa qadir bilirik, onun qüdrətini məhdud bilmirik. Bizim əqidəmizcə Pərvərdigari-aləmin qüdrəti namütənahi və sonsuzdur.

Həzrəti Əli (ə) «Nəhcül-bəlağa»də buyurur:

و ما الجَليلُ وَ الطَفَ وَ الثَّقيلُ و الخَفيفُ و القَوىُّ و الضَّعيفُ فى خَلقِهِ الّا سَوَاءً

**«Yekə və xırda, ağır və yüngül, yaradılış baxımından qüvvəli, və qüvvəsiz, böyük Allahın qarşısında yeksandır».**

Yəni Pərvərdirgari-aləm aləmin qüdrəti bir həddə məhdud deyildir ki, deyilsin filan işi görməyə və ya filan şeyi yaratmağa qüdrəti yoxdur. Allah zatən qeyri-mükün olmayan hər bir işi görməyə qadirdir. Müxtəlif mövcudları yaratmaq üçün qadirdir.

Qurani-Kərim buyurur:

أَوَلَيْسَ الَّذِي خَلَقَ السَّمَاوَاتِ وَالْأَرْضَ بِقَادِرٍ عَلَىٰ أَنْ يَخْلُقَ مِثْلَهُمْ ۚ بَلَىٰ وَهُوَ الْخَلَّاقُ الْعَلِيمُ

***«Məgər göyləri və yeri yaradan (bir daha) onlar kimisini yaratmağa qadir deyilmi?! Əlbəttə (qadirdir). (Hər şeyi) yaradan, (hər şeyi) bilən Odur!»***[1]

[1] «Yasin» surəsi, ayə 81.

## İYİRMİ ALTINCI DƏRS

## NEÇƏ SUALIN CAVABI

Bəzən sual olunur ki, Allah özü kimi bir mövcud yarada bilərmi? Və ya kainatı bir yumurtanın içində «dünyanı kiçiltmədən və yumurtanı böyütmədən» yerləşdirə bilərmi? Və ya elə bir şey yarada bilər ki, onu məhv edib aradan apara bilməsin?

Cavab: Əlbəttə bu sualların təzəliyi yoxdur. Ən əski zamanlardan xalq arasında bu suallardan var idi. İslamın böyük rəhbərlərindən və imamlardan da belə suallar olunub onlara da cavab vermişlər. Biz qısa olaraq bu sualların cavabını veririk:

«İşlər» neçə qismdir:

1 - Bəşər üçün hal hazırdakı şəraitdən olduğu kimi görülməsi mümkün olan işlər. Mütəxəssislər maşın və təyyarə düzəltmək kimi.

2 - Bəşər üçün indiki şəraitdə görülməsi mümkün olmayan işlər, amma mümkündür müəyyən şəraitdə gələcəkdə o işləri görmək mümkün olsun. Göy kürələrində yaşamaq kimi.

3 - Adi və təbii vasitələrlə mümkün olmayan və metafizik aləmi səbəbləri ilə mümkün olan işlər. Odun gülüstan olması və ya çəliyin əjdaha olması kimi. Bu işləri görmək bəşərə və təbii səbəblərə mümkün deyildir? Amma Allahın peyğəmbərlərinə, Allah adamlarına qeyb aləminə arxalanmaqla mümkündür

4 - Nə maddi aləmlərə və nə də metafizik aləmi amillərinə mümkün olmayan işlər. İki qarşılı və zidd şeyin bir yerə yığışması (qara ilə ağın bir yerə yığışması). Bir zamanda bir şeyin həm olub həm də olmaması, (2×2) iki dənə ikinin beş olması kimi şeylər qeyri-mümkündür.

Bu işlərin birinci, ikinci və üçüncü qismi (ikinci və üçüncü qismi adi amillərə mümkün olması da) mümkün işlər sayılır. Yəni bu üç qism mümkün işdir. Ağıl tədqiq etdikdən sonra o işləri mümkün bilir. Əgər bəşər də o işləri görə bilməsədə, peyğəmbərlər ilahi qüvvə ilə o işləri görə bilərlər.

Amma dördüncü qism zatən qeyri-mümkündür və o işi əsla görmək olmaz.

İndi ki, mümkün ilə zatən qeyri-mümkünün mənası açığlandı o sualların əsil cavablarına çatırıq, «Qüdrət» Allahın Qüdrəti kimi nə qədər çox və nəmütənahi olsa da belə zatən qeyri-mümkün olmayan işləri görə bilər, yəni birinci, ikinci, üçünçü qismdən olsa, dördüncü qismdən yox.

«Qüdrət zatən qeyri-mümkün olan işlərə əlaqə bağlamaz» deməyinizin mənası bu deyildir ki, pərvərdigari-aləmin qüdrəti məhdud və naqisdir, mənası budur ki, o iş görülməyə şəni və qabiliyyəti yoxdur. «Yetərsizlik və naqislik o işi görəndə deyil, işin özündədir. Mövzu açıqlanmaq üçün bu misala diqqət edin:

Əgər bir dərziyə bizim üçün yaxşı bir köynək tikməyə bir qədər parça versək, əgər o dərzi elə bir köynəyi tikə bilməsə deyərik ki, o dərzi yaxşı köynək tikə bilmir.

Amma ona köynək tikmək üçün bir neçə kərpic versək və o tikməsə, bu surətdə deməzlər ki, o dərzi köynək tikməyi bacarmır. Axı kərpicin paltar olmağa qabiliyyəti və ləyaqəti yoxdur. O mahir dərzi olsa da, amma kərpic və palçıq paltar olmaz.

Habelə bu ki, «deyirik bu böyüklükdə aləm yumurtaya yerləşməz», mənası bu deyildir ki, Mutəal-Allahın qüdrəti naqis və məhduddur. Bu iş zatən ola bilməz, qeyri-mümkündür. Çünki onda bunu tələb edər ki, yumurta və aləm bir vahid anda həm böyük olsun həm də kiçik. Bu da olası iş deyildir. Bu cəhətdən ki, qab, qaba tökülən şeydən yekə olmalıdır, yumurta bu aləmdən böyük olmalıdır və başqa tərəfdən aləmin yumurta da yeləşməsini təsəvvür etmişik və yumurta isə həmən kiçikliyində qalmalıdır. Bununla aləmdən dəfələrlə kiçik olmalıdır.

Budur ki, deyirik bu təsəvvür qeyri-mümkündür. Çünki iki zidd şey bir yerə sığışmaz və bu da qeyri-mümkündür.

Və habelə bu ki deyirik: «Allaha oxşar bir şey yarana bilməz». Mənası bu deyildir ki, Allahın qüdrəti naqisdir. Bu iş əslən və zatən qeyri-mümkündür. Çünki o şey yaranmış olar və həm olmaz. Əgər Allah kimi olsa yaranmış olmamalıdır, və əgər onu Allah yaratmışsa yaranmış olmalıdır.

Üçüncü sualda, görəsən Allah elə bir şey yarada bilər ki, daha onu aradan apara bilməsin? Bunun mənası bu deyilir ki, Allah acizdir. Onun mənası budur ki, bu iş zatən qeyri-mümkündür. Belə olmasa, o şey həm mümkün olar və həm də olmaz. Çünki bir tərəfdən Allah yaratmışdır, demək «mümkünül-vücüddur» və mümkünul-vücüdun mənası budur ki, bir zamandan sonra yox olsun, və digər tərəfdən deyirik ki, Allah onu aradan apara bilməsin, yəni yox olmasın. (Həm olsun və həm olmasın, yəni iki zidd şeyin bir yerə yığılması, bu da qeyri-mümkündür).

Həzrəti Əli (ə) bu sualların birinin cavabında demişdir:

اِنّ اللہ تَعَالَی لَا يُنْسَبُ اِلَى الْعَجْزِ وَ الَّذِي سَاَلْتَنِى لَا يَكُونُ

**«Allah aciz deyildir ki, ona acizlik nisbəti verəsən, amma sənin soruşduğunu sual olası bir şey deyildir».**

Noqsanlıq Allahın qüdrətindən deyil, Allah mütləq qadirdir, onun qüdrətinin həddi yoxdur. Amma bu işlər zatən qeyri-mümkündür və olası bir iş deyildir.

# İYİRMİ YEDDİNCİ DƏRS

## ALİM VƏ BİLƏN ALLAH

Alimlər müxtəlif yollarla Allahın alimliyini sübut etmişdir. Biz sadəcə iki dəlili zikr edirik:

1 - Bir şeyi yaradan onun bütün incəliklərini bilir, görəsən demək olar ki, bir təyyarəni düzəldən kimsə onun elmi və texniki qismətlərindən xəbərsizdir? Və ya bir lüğət kitabını yazan onun məzmunundan xəbərsiz ola bilər?

Bir şeyi müəyyən ölç-biç, nizam-intizam və plan əsasında yaradıldığından o şeyi yaradan şəxsin alimliyinin anlaya bilərik. Bununla atomdan tutmuş qalaktikaya kimi aləmin bütün mövcudlarının bir müəyyən plan əsasında yaranmasından yaxşıca bilirik ki, varlıq aləmini bir alim və bilici şəxs yaratmışdır.

Bu «Varlıq» adı böyük kitabın hər bir səhifəsinin nizamı şəhadət verir ki, onları yaradan onların bütün xüsusiyyətlərindən agahdır. Qurani-Kərim həmin dəlili bir növ incəliklə bəyan edir:

أَلَا يَعْلَمُ مَنْ خَلَقَ وَهُوَ اللَّطِيفُ الْخَبِيرُ

***«Məgər yaradan (sizin gizli saxladığınız hər şeyi) bilməzmi?!»***[1]

2 - Allahın alimliyinə və bütün varlıqlardan agah olmağının digər bir dəlili də Allahın vücudunun hər şeyi əhagə etməsi və namütənahı olmasıdır, zira hər tərəfdə olan vücud təbii olaraq hər şeydən agahdır. Necə ki, müəyyən bir zaman və məkana həsr olan vücud həmən zaman və məkandan başqa bir zaman və məkandan agahlığı olmagacaqdır. Bu misallara diqqət edin.

Bir kiçik həşərat (miləçək) öz xırda gözləri ilə rəngarəng xalçanın üstündən gedir, o, hər ləhzədə bir rəngi görür və o müəyyən yerdən agahdır.

Amma insan işıqlı gözü ilə xalçanın bütün boyaqlarını və şəkillərini görə bilər və o xalçanın hər bir yerindən agahdır. İnsanla həşəratın burada fərqi budur ki, insanın bütün xalçaya əhatəsi var amma həşarətın əhatəsi yoxdur.

Bir kiçik otaqda oturmuşuq, o otağın xırda bir bacası vardır, oradan eşiyə baxırıq, birdən-birə bir sürü dəvə ordan keçir, biz o dəlikdən hər ləhzədə bir dəvədən yox görmürük, otağın damının üstündə olan şəxs isə bir sürü dəvənin hamısını bir yerdə və bir ləhzədə görə bilir.

---

[1] «Mülk» surəsi ayə 14.

Bəşərin keçmişə və gələcəyə həmçinin bir yox şeylərə nisbət vəziyyəti həmən otağın dəliyindən bir sürü dəvəyə baxan şəxs kimi və ya bu dünyanın sadəcə bir santimetrindən xəbəri olan həşərat kimidir.

Amma varlıq aləmini yaradan böyük Allahda heç bir zaman və məkan məhdudluğu təsəvvür olmaz. O, otağın damı üstündə olan şəxs kimidir ki, sürünü tamamilə görür. Qurani-Kərim müxtəlif ibarətlərlə Allahın sonsuz elminə işarə edir.

وَخَلَقَ كُلَّ شَيْءٍ وَهُوَ بِكُلِّ شَيْءٍ عَلِيمٌ

***«O yaratmışdır. O, hər şeyi biləndir!»***[1]

عَالِمِ الْغَيْبِ لَا يَعْزُبُ عَنْهُ مِثْقَالُ ذَرَّةٍ

***«Zərrə qədər bir şey Ondan gizli qalmaz».***[2]

## ELMİ-HUSULİ VƏ ELMİ-HÜZURİ

Bir gülşənin açmış küllərini və ağacın budağında nəğmə oxuyan qənarini gördükdə bu mənzərə gözümüzün vasitəsilə düşüncəmizin xəzinəsi olan ruhumuza daşınır.

Gülüstanı, ağac başında qənari və bu mənzərəni görməkdən əldə etdiyimiz şey həmin idrak mənbəimizdə bizi əlimizdə olan həmən zehnimizin o mənzərədən aldığı surət və şəkildir. Alimlər belə təsvir və zehni surət yolu ilə əldə edilən elmə[3] elmi-husuli deyirlər. Yəni xaricdən yalnız bizim yanımızda bir surət, təsvir və şəkil vardır və onu biz bir sıra vasitələrlə əldə etmişik.

Elmi-hüsulinin qarşısında başqa bir elmimiz vardır ki, ona elmi-hüzuri dəyərlər. Elmi-hüzuridən məqsəd budur ki, məlumun özü öz xarici vücudu ilə bərabər heç bir vasitə olmadan alimin (məlumata malik olan) yanında olsun. O alimin onu sonradan qazanmasın. Belə bir məlumat təsvir və foto çəkmək vasitəsilə əldə edilmir. Dediyimiz kimi məlumun zatı alimin yanındadır.

Bu misala diqqət edin:

1 - Hər bir diqqətli şəxs öz alçaqlığını öz yanında görür. Özü ilə özünü düşünmənin arasında bir vasitə yoxdur. O iki, deyir «mən özümə aliməm» mənası bu deyildir ki, zehnində (beynində) özündən bir surəti və şəkili vardır, mənası budur ki, özü öz yanındadır və özünə nisbət elmi-hüzurisi vardır.

---

[1] «Ənam» surəsi ayə 101.
[2] «Səba» surəsi, ayə 3.
[3] Burda elmdən məqsəd əldə edilən və ya birinin malik olduğu məlumatdır. Burada hər bir məlumat elm deyirik.

2 - İnsanın bütün ehsasatı, dərdi-qəmi, ruhi məhəbbəti heç bir zehni təsvir olmadan insanın özünə məlumdur. İnsan şadlığını, pərişanlığını, dərdini, ruhi əzabını ehsas edir, yeni onları kerçək olmaqla öz yanında bilir. Onlardan sadəcə beynində bir şəkil və ya təsviri yoxdur.

İndi ki, bu iki növ elmlə (elmi-hüzuri və elmi-husuli) tanış olduq, bilməyimiz yaxşıdır ki, Allahın elmi, hüsuli deyil, elmi-hüzuridir. Yəni xilqət aləmi bütün zərərləri, xüsusiyyətləri, və əsrarəngiz nimaları ilə belə Allahın yanındadır. Bu hüzurdan məqsəd bu deyildir ki, aləmdən bir təsvir Allahın yanındadır, məqsəd budur ki, aləmin bütün zərərləri öz xarici xüsusiyyətləri ilə belə onun yanındadır və ondan gizli deyildir. Çünki hər mövcud hər anda varlığa möhtacdır.

Böyük Allah hər zəhzə ona varlıq verir, həqiqətdə, hər mövcudun varlığı ləhzəbələhzə davam edir. Bunanla hər mövcud var olan vaxtdan son ləhzəsinə kimi ləhzəbələhzə Allahın məxluqudur və həmişəliklə onun yanındadır.

## ALLAH ALİMLİYİNƏ İNANMAĞIN TƏSİRİ

Allah alim bilən şəxs və Allahın hər yerdə hazır olmasına və bütün işlərdən və qəsdlərdən agah olmasına inanan şəxs, heç vaxt günahın dövrbərinə dolanmaz. Aludəliklərdən təmiz qalar. Həmişə özünün, cəmiyyətinin və qohumların islahı fikrində olar. Allahı özünün işlərində nazir bildiyi üçün heç vaxt zülm etməz. Allahın bəndələrini incitməz, öz qüvvəsi miqdarında zülmə, zorakılığa və mərdimazarlığa qarşı mübarizə edər.

Özünü Allahın qarşısında gördüyü üçün, xeyr işlər görməyə çalışar, Allahı özündən razı edər, Allahı öz niyyət və qəsdinə agah bildiyi üçün, başından günah etmə, narəva iş görmə fikrini atar. Bütün həyatında müsəlmanlara yardım etmə, onların dadına çatma, onları din və dünya işlərində yaxşılığa çatdırma fikrində olar.

Allahı hər yerdə hazır bilən şəxs, Yüsif kimi günah etmənin ən həssas şəraitində və ondan çəkinər. İnsan çox zaman xəlvət yerlərdə şeytanın girinə keçər, amma Allahı hər yerdə hazır bilən şəxs, Allahın rizayəti üçün günahdan keçər və özünü aludə etməz. Bu Allahın alimliyinə inanmağın təsiridir.

Əlbəttə böyük Allah da bu kimi insanları mənəviyyatın yüksək dərəcəsinə çatdırar ki, həmin dünyada bilsinlər ki, Allahın itaətindən dadlı, heç bir şey yoxdur.

## İYİRMİ SƏKKİZİNCİ DƏRS

## HƏYY VƏ DİRİ ALLAH

Bir biologiya elmləri aliminin əqidəsicə həyat və yaşayış, bir mövcud ehsas etməsi və hərəkət etməsidir. Ehsasdan məqsəd həmən cüzi idrakdır ki, bütün canlıların və hətta bitkilərin bədənində vardır. Alimlərin tədqiqatları sübut etmişlər ki, bitkilərin də özlərinə görə bir növ cüzi ehsasaları vardır.

Bu sözdən məqsəd bitkilərin və heyvanların həmən artımı və hərəkətidir. Bir biologiya alimin fikrinə görə həyat və yaşayış həmin xüsusiyyətə həsr olunur. Amma bir az diqqət etsək görəcəyik ki, həyatı həmin mənada həsr etmək olmaz. Çünki ehsasın yerin əqli və idrarı olan və hərəkət yerinə xaric aləmdə bir sıra işlərin mənşəyi olan mövcud təsəvvür etsək qətiyyən «dirilik» və «həyat» sözü ona yaraşar?

Bu sözün açıq misalı insandır. Çünki əgər onun bədən hissi və hərəkətin mənşəi olan heyvani həyatdan göz yumub onun yüzlər elmi və fəlsəfi məsələləri həll edən əql və düşüncə qüvvəsinə göz tiksək, qətiyyən «dirilik» adı ona yeraltında diri adlandırdığımız həşaratdan çox yaraşır.

Bununla o biologiya alimi bizimlə bir az həmahənk olmalı və həyatı bədən artımı, ehsası və hərəkəti mənasında götürmək yerinə belə deməlidir:

«Həyat və dirilik canlılarda bir növ xüsusiyyətlərdir ki, səbəb olur o canlı feilin və idrakın mənşəyi olsun, istər bir cüzi bədən hissi kimi olsun və ya kamil surətdə olsun ki, ona «idrak» deyirik. Həmçinin o feil istər hərəkət və artım kimi olsun və ya yaratmaq, düzəltmə və həyata gətirmək kimi işlər olsun, fərq etməz».

Nəhayət, «həyat» və «yaşayışda» bədən hissi məkani hərəkət və fəaliyyət lazım deyildir. Bu yalnız heyvan və bitki həyatıdır ki, bədən hissi və hərakət lazımdır. Amma yuxarı səviyyədə «həyat» və yaşayış üstün və geniş məna özünə alır.

Bunla açıqlanır ki, Allah «həy və diri»dir, çünki geniş elmi ilə hər şeyi dərk edir və həmçinin milyardlarla əsrarəngiz işin (feilin) mənşəi və məbdəidir.

## ELM VƏ QÜDRƏT HƏYATI TƏLƏB EDİR

Allahın alimliyi və qadirliyi sübut edilərsə, onun həyatı və diriliyi öz-özünə sübut edilir. Çünki «diri» olmağın mənası «qadir» və «alim»dən başqa bir şey deyildir. Bununla Allahın diriliyinin dəlili həmən qadirliyinin və alimliyinin dəlili ilə eynidir. Allahın elmini və qüdrətini sübut edən dəlillər, onun həyatını da eləcə sübut edir. Əlbəttə Allahı «həyy» adlandırdığımızın səbəbi budur ki, onda həyat əsərlərini yəni

idrak (elm) və feil (qüdrət) görürük, bu səbəbdən ona həyy deyirik, yoxsa Allahın həyatının keyfiyyəti və həqiqəti bizim üçün heç də açıq deyilir.

Bizim Allahın həyatı barədə insan həyatının mənası bu deyildir ki, Allahın həyatı insan həyatı kimidir. Biz yalnız sözümüzü izah edib zehni hüzur üçün insan həyatının adını çəkdik. Yəni bunu demək istəyirik ki, həyat və yaşayış barəsində həyvan və bitki həyatından başqa daha da geniş məna vardır. Qurani-Kərim də Allahı həyy və diri heç vaxt aradan getməyən bilir.

وَتَوَكَّلْ عَلَى الْحَيِّ الَّذِي لَا يَمُوتُ

***«Ölməz, həmişə diri olana (Allaha) təvəkkül et».***[1]

[1] «Furqan» surəsi ayə 58.

## İYİRMİ DOQQUZUNCU DƏRS

## EŞİDƏN VƏ GÖRƏN PƏRVƏRDİGAR

İnsada və heyvanda görmək budur ki, gözün hədəqəsi vasitəsilə şeydən təsvir alınır və gözün pərdəsinə yollanır. Sonra göz sinirləri onu beyinə yollayır və oradan idrak mənbəyinə daşınır. İnsanda və heyvanda eşitmək belədir ki, səs dalğaları pərdəli və məxsus sinirli və sümüklü qulağa çatır və oradan beyinə yollanır və sonra idrak mənbəyinə daşınır. Əgər görmək və eşitmək həmin olsa qətən Allahı bu iki sifətlərlə sifətləndirmək olmaz. Allahın gözü və qulağı yoxdur. Çünki o maddə deyildir və bu maddi dəsgahlara da malik deyildir. Amma bir az diqqət etsək görəcəyik ki, Mütəal-Allahın bizim kimi gözü və qulağı olmasa da yenə onu eşidən və görən demək olar.

Bir görən və eşidən insan o bir elə gözü və qulağı fəaliyyətindən nə nəticə alır? Cavab budur ki, görməliləri görür və eşitməliləri eşidir. Özündə xaric dünyadan bu iki üzvün vasitəsilə agah olur. Əgər bir şəxs bu iki üzvün olmadan görməliləri görərsə və eşitməliləri eşitsə, və əşyanın şəkili və təsfiri yerinə onun yanında özləri hazır olsalar, bir belə şəxsi daha yaxşı «görən» və «eşidən» sifətləri ilə sifətləndirmək olar.

İnsanda «görməklik» və «eşitməklik» həmən görülməli və eşidilməlilərdən agah olmaqdır, gözün və qulağın fəaliyyəti həmin agahlığın müqəddiməsidir. Əgər insanda bu müqəddimələr olmadan görülməlilərdən və eşitilməlilərdən agah ola bilsəydi, mütləq onu da görə (bəsir) və eşidən (səmi) adlandırardıq.

Mürəal-Allah da bütün eşidilməli və görülməlilərdən agahdır. Allahın elmi barədə dediyimiz kimi bütün dünya varlıqları müxtəlif çehrələri ilə onun yanında hazırladılar, aləmdə bir şey yoxdur ki, Allahdan gizli olsun. Bu hesabla bütün görülməlilər və eşidilməlilər Allahın yanında hazırdır və Allah onlardan agahdır həmin münasibətə görə onu bəsir (görən) və səmi (eşidən) adlandırırıq.

Əlbəttə açıqdır ki, «bəsir» və «səmi» sifəti Allahın elminin iki şöbəsindədir. Bu iki sifət Allahın elmi qarşısında müstəqil bir sifət deyillər.

Qurani-Kərim də Allahı həmin iki sifətdə xatırlayır:

وَاتَّقُوا اللَّهَ وَاعْلَمُوا أَنَّ اللَّهَ بِمَا تَعْمَلُونَ بَصِيرٌ

***«Allahdan qorxun və bilin ki, Allah, həqiqətən, sizin nə etdiklərinizi görəndir!»***[1]

---

[1] «Bəqərə» surəsi ayə 233.

ذَٰلِكَ بِأَنَّ اللَّهَ لَمْ يَكُ مُغَيِّرًا نِعْمَةً أَنْعَمَهَا عَلَىٰ قَوْمٍ حَتَّىٰ يُغَيِّرُوا مَا بِأَنْفُسِهِمْ وَأَنَّ اللَّهَ سَمِيعٌ عَلِيمٌ

***«(Kafirlərə verilən) bu əzab ona görədir ki, bir tayfa özünə bəxş edilən neməti dəyişməyincə, Allah da ona əta etdiyi neməti dəyişən deyildir. Həqiqətən, Allah (hər şeyi) eşidəndir, biləndir!»***[1]

Həzrəti İmam Sadiq (ə) buyurur:

هُوَ سَميعٌ بَصيرٌ ، سَميعٌ بِغَيْرِ جَارِحَةٍ وَ بَصيرٌ بِغَيْرِ آلَةٍ

**«Allah eşidən və görəndir, qulağı olmadan eşidir və gözü olmadan görür».**

[1] «Ənfal» surəsi ayə 53.

## OTUZUNCU DƏRS

## HİKMƏTLİ TANRI

Xilqət aləmini araşdırmaq, bizi bu aləmin yaradıcısına hidayət etdiyi kimi eləcədə Tanrının hikmətli iradəsinə də hidayət edir. Çünki hikmətli o kəsdir ki, işlərini hesab üzündən və bütün işlərini və əməllərini müəyyən plan üzrə yerinə yetirər. Biz xilqət aləmini və onun əsrarəngiz nizamını diqqətlə araşdırmaqla görürük ki, bu aləm imkanı qədər lap yaxşı yaranmışdır.

Elm hər gün aləmin sirlərini açmaqda yeni bir addım götürür. Elm heç vaxt öz təkamülü yolundan qalmamış və hər gün xilqətin sirlərində yeni bir sirrə əl tapır. İndiyə kimi bəşər bunu əldə etmişdir ki, xilqət aləmi xüsusi bir istehkamla yaranmış və bu aləmin yaradıcısı elə hikmətli və iş yolu biləndir ki, hər bir şeyi öz yerində imkanı surətdə qərar vermişdir.

جهان چون چشم و و خط و خال ابروست
که هرچیزی به جای خویش نیکوست
هرچیز که هست آنچنان می باید
و آن چیز که آنچنان نمی باید نیست

Aləm, göz, qaş, üz və xal kimidir ki,
Hər şey öz yerində gözəldir.
Hər şey olduğu kimi yaxşıdır və
Hər şey yaraşmır elə də deyildir.

Siz bir gecə quşunun xilqətinə diqqət edin: Bu quş gündüz eşiyə çıxa bilmədiyi üçün, gecə yuvasından eşiyə çıxır və qida dalınca gedir, amma gecə qaranlığında müxtəlif şeylərə dəyə bilər.

Yaradıcı Tanrı onu «radara» oxşar bir qüvvəyə malik etmişdir, təki onunla hər hansı bir maniəyə çatmazdan əvvəl onunla agah olsun. Həzrəti Əli (ə) öz danışıqlarının birində həmin heyvanın əsrarəngiz həyatını Allahın hikmətinə bir dəlil bilir:

من لطائف صنعته و عجائب حکمته ما ارانا من غوامض الحکمه في هذه الخفافيش

**«Allahın əsrarəngiz hikməti və diqqətli yaratdıqlarından ki, bizə xilqətin mürəkkəb əsrarına hidayət edir bu gecə quşlarının neçə yaranmasıdır».**[1]

Əgər Mütəal-Allah insana söz vermişdir ki, onunla öz ətrafını görsün. Həmin gözü toz-torpaqdan qorunmaq üçün ona kirpik də vermişdir ki, yel əsəndə, toz-torpaq olanda, tufan vaxtı pəncərənin pərdələri kimi öz-özünə salınsın və gözü şiddətli işıqdan və toz-torpaqdan qorusun.

[1] «Nəhcül-bəlağa» xütbə 151.

Allah yeri həyat beşiyi qərar vermişdir həyatın davamı üçün elə bir hikmətli plan əsasında tökmüşdür ki, həyatın davamı ən yaxşı surətdə imkan tapsın.

Heyvanların və bitkilərin müxtəlifliyi ki, hər biri müəyyən bir orqanizmlə yaranmışdır, Allahın hikmətli iradəsinə bir dəlildir. Dağ bitkiləri ilə su qırağında bitən bitkilərin orqanizmləri arasında çox fərq vardır. Dağ bitkiləri özlərində suyu sağlamaq üçün qabıqları qalın və yarpaqları kobud yaranmışdır, amma su qırağında bitən bitkilər nazik qabıqlıdır ki, su Günəşin hərarətindən tez buxar olsun. Soyuq və buzlaq yerlərdə olan heyvanların və bitkilərin bədənləri və orqanizmləri ilə isti yerlərdə olan heyvanların və bitkilərin orqanizmləri ilə tam fərqlidir. Onların orqanizmləri mühitlə münasib surətdə yaranmışdır. Xülasə xilqət aləmində hər bir kiçik və böyük şey ən yaxşı və kamil şəkildə yaranmışdır. Bu aləmin hər bir yerində Mütəal-Allahın hikmətini görmək olar.

Əsasən hər işin nahəmahəngliyi və naqisliyi cəhalətin, başarıqsızlığın, acizliyin nəticəsidir. Mütəal-Allahın sonsuz qüdrəti və elmini, bütün aləmə əhatəsini, hər bir şeyin olmasını, hər bir «yoxdan» «var» etmə gücünə malik olmasını açıq dəlillərlə qəbul etməsək daha mənası yoxdur ki, o elmi və qüdrəti ilə belə, yaratmasını nəzərdə tutduğu şeyi nahəmahəng və naqis yaratsın.

## HİKMƏTLİYİN BAŞQA MƏNASI

Alimlərin nəzərincə hikmətliliyin başqa bir mənası da vardır. Yəni hikmətli şəxs, o şəxsdir ki, pis işlərdən uzaq olub və məqsədinə uyğub olmayan əbəs bir iş görməsin.

Hikməti həmin mənada götürsək də, yenə Allahın sifətlərindəndir. Çünki pis, qəbih, əbəs və məqsədə uyğun olmayan işlərin amili olan cəhalət, bilməməzlik, bacarmamazlıq və möhtac olmaqlıq kimi şeylərin heç biri Mütəal-Allahda yoxdur. Böyük Allah bu kimi amillərdən uzaq və təmizdir.

Hikmət həmin mənadadır ki, Mütəal-Allah tərəfindən peyğəmbərin göndərilməsini tələb edir.

Alimlər bunun izahında demişlər:

Allah insanı bir məqsəd üçün yaradılmışdı və bu məqsəd onun mənəvi və ruhi yüksəlişidir və insan özü bu məqsədə çata bilmədiyi üçün, Allah tərəfindən onları hidayət etməyə bir sıra peyğəmbərin gəlməsi lazımdır.

Bunla belə Allahın hikməti bunu tələb edir ki, peyğəmbərləri göndərsin. Yoxsa xilqətin məqsədi təmin olmayacaqdır.

Qurani-Kərim Allahı hikmət sifətilə sifətləndirmişdir, aşağıda qeyd olan ayələr Allahın hikmətinə dəlildir.

رُسُلًا مُبَشِّرِينَ وَمُنْذِرِينَ لِئَلَّا يَكُونَ لِلنَّاسِ عَلَى اللَّهِ حُجَّةٌ بَعْدَ الرُّسُلِ ۚ وَكَانَ اللَّهُ عَزِيزًا حَكِيمًا

***«Biz peyğəmbərləri (möminlərə) müjdə gətirən və (kafirləri) əzabla qorxudan kimi göndərdik ki, daha insanlar üçün peyğəmbərlərdən sonra Allaha qarşı bir bəhanə yeri qalmasın. Allah yenilməz qüvvət sahibi, hikmət sahibidir!»***[1]

عَالِمُ الْغَيْبِ وَالشَّهَادَةِ ۚ وَهُوَ الْحَكِيمُ الْخَبِيرُ

***«Qeybi və aşkarı bilən də Odur. O, hikmət sahibidir, (hər şeydən) xəbərdardır!»***[2]

الَّذِي أَحْسَنَ كُلَّ شَيْءٍ خَلَقَهُ ۖ وَبَدَأَ خَلْقَ الْإِنْسَانِ مِنْ طِينٍ

***«O, yaratdığı hər şeyi gözəl yaratdı, insanı (Adəmi) yaratmağa palçıqdan başladı».***[3]

قَالَ رَبُّنَا الَّذِي أَعْطَىٰ كُلَّ شَيْءٍ خَلْقَهُ ثُمَّ هَدَىٰ

***«(Musa) dedi: «Rəbbimiz hər şeyə Öz xilqətini verən, sonra da ona doğru yolu göstərəndir!»***[4]

Siz həmin ayələrin məzmununa diqqət etməklə görəcəksiniz ki, hansı ayə hikmətin hansı mənasına işarədir.

---

[1] «Nisa» surəsi ayə 165.
[2] «Ənam» surəsi ayə 73.
[3] «Səcdə» surəsi ayə 7.
[4] «Taha» surəsi ayə 59.

## OTUZ BİRİNCİ DƏRS

## NEÇƏ SUALIN CAVABI

Bəşər indiyə kimi araşdırma hissi əsasında xilqət aləminin bir sıra sirlərini kəşf edib bu əsrarəngiz nizam-intizam dərk edə bilmişdir.

Əgər bəşərin araşdırma hissi olmasaydı, elm, kamal baxımından həmən ibtidai halda qalacaqdı, amma həmin hissin təsirindən insan cəhalət pərdələrini kənara vurub həqiqətin üzü ilə tanış olmuşdur.

Fərziyyələrin dəyişməsi, bəşər məlumatının dəyişilməsi və yeni fərziyyələrin, köhnə fərziyyələrinin yerinə oturması bunu göstərir ki, hələ insanın elmi son dərəcə kamala çatmamışdır və hələ təkamül yolunda addımlayır.

Alimlərin arasında fərziyyələrin davam gətirə bilməsi və bir sıra dəyişilən qaydalar kimi təsəvvür olunması, bəşər fikrinin məhdudluğuna və bəşərin acizliyinə və xilqətin tamam sirlərini bilməkdə gücsüzlüyünə dəlildir.

Əlbəttə bunu deməк istəyirəm ki, bəşərin məlumatı daim dəyişilər. Çünki onların içində bir sıra elmi qaydaları vardır ki, çox müsbət təsirlidir.

Həmçinin, alimlərin bu sahədə və təbiətin sirlərini kəşf etməkdə çəkindikləri zəhmətləri unuda bilmərik. Onların dəyərlərini bu fərziyyələrin dəyişilməsi bəhanəsinə inkar edə bilmərik. Şəkkin yəqində və tənqidin islahda təsiri olduğu kimi sübut edilməmiş fərziyyələr də təbiətin gizli sirlərini kəşf etməyin əsası və təməlidir.

Bizim indilikdə iddia etdiyimiz söz budur ki, insan, təbiət və xilqətin bütün sirlərini kəşf etməsini iddia edə bilməz. Bununla əgər bəzi şeylərin sirrini bilmədikdə deyə bilməz ki, Tanrı onu əbəscəsinə yaratmışdır.

Müasir böyük alim Albert Enşteyn deyir:

«İnsanın məlum bilmədiyi şeylərə görə aləmin geniş fəzasına sarı olan bir nərdivan kimidir ki, insan hələ o nərdivanın bir necə pilləsini çıxa bilmişdir».

İnsana ən yaxın olan mövcud həmən insanın özüdür. Görəsn insan özünü tanıya bilmişdirmi?

İnsan öz vücudunun bir okean sirlərindən hələ bir o qədər baş çıxarda bilməmişdir. Aleksis Karl öz «İnsan tanınmamış mövcud» adlı əsərində yazır:

«İnsan başdan ayağa məchul bir məcmuədir ki, onu tezliklə duymaq olmaz... bizim daxili dünyamızın bir çox yeri hələ də tanınmamış qalmışdır. İnsan həyat barədə tədqiqat aparanların bir çox sualları cavabsız qalmışdır».

## İNSAFLI ALİMLƏR

Böyük alimlər hər vaxt bir sıra tanınmamış şeylərlə rastlaşdıqda təvazökarlıqla demişlər:

Biz ümumiyyətlə bilirik ki, xilqət aləminin hər bir şeyi müəyyən bir nizam-intizam və məqsəd üzündən yaranmışdır. Əgər biz onların sirlərini açıqlaya bilməmişiksə, o bizim ağlımızın və elmimizin azlığından asılıdır. Biz bir gün onun elm vasitəsilə açıqlanmasını gözləməliyik.

## MƏĞRUR ALİMLƏR

Amma bir sıra məğrur alimlər də vardır ki, öz fərziyyələrinə və elmlərinə məğrurlanıb deyirlər:

Əgər aləmin xilqəti bir hikmətli mənbədən mənşələnmişdirsə, bəs nə üçün bir sıra faydasız şeylər yaranmışdır. Misal üçün:

1 - Appendisit (kor bağırsaq) xırda bağırsağının qurtaracağında bir xırda lülə kimidir.

2 - İnsanın boğazında olan «qalxanvari» adlı vəzlər.

3 - Kişinin əmcəkləri.

4 - Qulağın əti.

Bu tənqidlərin cavabı olaraq aşağıdakı qeydlərə diqqət edin.

1 - Əgər xilqət kitabının bütün vərəqələrini oxusaydıq və onun bütün şeylərindən agah olsaydıq, və bu şeylərin faydasız olduqlarını bilsəydiksə, bu surətdə xilqətin yaradıcısını təbqid atəşinə tuta bilərdik. Amma biz hələ elmin əlifbası ilə tanışıq, bizim bilmədiyimiz şeylər bildiyimizdən daha çoxdur, bu halda bizim tənqidlərimiz yersizdir.

Biz bu tənqidlərdə «yoxdur» kəlməsinin yerinə «bilmirəm» kəlməsini qoymalıyıq və açıqdır ki, bizim üçün faydası olmayan bir şeyi faydasız bilmək olmaz.

2 - Tutalım ki, bəşərin məlumatı lap son həddinə çatmışdır və bəşər xilqət kitabını tamamilə oxumuşdur və hər bir mövcudun faydasını tapmışdır, və bəzi şeylərin bir faydalı olmasını əldə edə bilməmişdir. Bu surətdə deməliyik ki, bir alim milyonlar səhifəsi olan kitabı diqqətlə oxuyub və onun yazıçısının hikmətini, elmini məqsədini, göstərən sətirləri tamamilə oxusa, amma o sətirlərin içində bir neçə sətiri oxuyub başa düşməsə, bu düşünməməzlik o kəlmələrin və sətirlərin mənasəzlığına dəlil ola bilməz. Amma kitabın başqa səhifələrində olan hikmət üzündən o kəlmə və sətirlərin də bir mənası olduğunu anlamalıdır.

3 - Elm həmin tənqid atəşinə tutulmuş bəzi şeylərin faydalarını kəşf etmişidir. Çünki bu gün sübut edilmişdir ki, boğazdakı vəzilər ağ hüceyrə düzəltməkdə çox əhəmiyyətlidir. Ağız və burun yolu ilə bədənə daxil olan mikrobların qarşısını həmin ağ hüceyrələr alır.

Bundan əlavə, boğazın vəziləri bədənin təbii xəbərdarlıq edənidir. Çünki onun şişməsi bir növ xətərdən xəbərdarlıq etmə kimidir.

Həmçinin, qulağın əti səsin haradan kəlməsini müəyyənləşdirməkdə və səs dalğalarını eşitməkdə son dərəcədə təsirlidir.

Hər halda biz bir mövcudun faydalı olmasını əldə edə bilməyəcək, onun faydasız olmasına dair hökm etməyiniz yersizdir. Zira bilməyəcəksiniz, olmağa dəlil ola bilməz.

Həzrət İmam Sadiq (ə) buyurur:

حَقُّ اللّهِ عَلَى خَلقِهِ اَن يَقُولُوا ما يَعلَمُونَ وَ يَكُفُّوا عَمَّا لا يَعلَمُونَ

**«Allahın bəndələrinə haqqı budur ki, bildikləri sözləri desinlər və bilmədikləri şeylər barədə görüş irəli sürməkdən çəkinsinlər».**

## OTUZ İKİNCİ DƏRS

## MÖHTAC OLMAYAN VƏ VARLI TANRI

Aləmdə olan hər hansı bir kamil şey Allahın zatının göstəriçisidir. Başqa sözlə Allahın varlığı bütün kəmalların məbdəyi (başlanğıcı) və mənbəyidir. Onun vücudunda heç bir məhdudiyyət yoxdur. Deməli o, möhtac olmayan və varlı bir mövcuddur.

Çünki möhtac o şəxsə deyərlər ki, malik olmadığı kəmala möhtac olmuş olsun. Amma bütün kəmalların məhşəyi olan bir mövcudun möhtac olması mənasızdır.

Başqa sözlə möhtac olan Tanrı, tanrı deyildir. Bu surətdə o, onun ehtiyacını ödəyə bilən bir şəxsə möhtacdır, əgər onun ehtiyacını ödəyən şəxs özü mütləq möhtac olmayan olursa, deməli o, Tanrı olur. Yoxsa o da onun ehtiyacını ödəyə bilən bir şəxsə möhtacdır.

Qurani-Kərim buyurur:

يَا أَيُّهَا النَّاسُ أَنْتُمُ الْفُقَرَاءُ إِلَى اللَّهِ ۖ وَاللَّهُ هُوَ الْغَنِيُّ الْحَمِيدُ

***«Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə (heç nəyə, o cümlədən sizin ibadətinizə) möhtac deyildir. O (hər cür) şükrə (tərifə) layiqdir!»***[1]

Allahın bəndələrini ibadətə çağırmasının səbəbi bu deyildir ki, o, bəndələrinin ibadətlərinə möhtacdır. Bu çağırışın səbəbi odur ki, ibadət kəmal və tərbiyə olunma vasitəsidir. O bəndələrindən istəmişdir ki, onu tanıyıb pərəstiş etsinlər. Təki bununla ruhi kəmala nail olsunlar. Demək ibadətin vacib olması, Allahın bəndələriinə olan lütf və mərhəmətidir.

Qurani-Kərim buyurur:

وَقَالَ مُوسَىٰ إِنْ تَكْفُرُوا أَنْتُمْ وَمَنْ فِي الْأَرْضِ جَمِيعًا فَإِنَّ اللَّهَ لَغَنِيٌّ حَمِيدٌ

***«Musa dedi: «Əgər siz və bütün yer üzündə olanlar nankorluq etsəniz, (bununla Allaha heç bir zərər yetirə bilməzsiniz). Çünki Allah (heç kimə, heç nəyə) möhtac deyildir. (O, bütün məxluqatı yaratdığına görə onsuz da öz-özlüyündə hər cür) tərifə (şükrə) layiqdir!»***[2]

---

[1] «Fatir» surəsi ayə 15.
[2] «İbrahim» surəsi ayə 8.

## OTUZ ÜÇÜNCÜ DƏRS

## SƏLBİ SİFƏTLƏR

## ALLAH CİSM DEYİL VƏ MƏKANI YOXDUR

Bir bödlü (ölcülü) şeyə xətt, iki bödlü şeyə səth və enə, boya və dərinliyə bölünən bir şeyə cism deyərlər. (Başqa sözlə bir üzlü şeyə «xətt» (cizgi) və iki üzlü şeyə səth və üç üzlü şeyə cism deyərlər) Cism məkan adlı bir boşluğu doldurur. Bununla heç bir cism yoxdur ki, bir məkana möhtac olması.

Əgər Allahın cism olduğunu təsəvvür etsək, bu halda onun vücudu bir məkanla birgə olmalıdır və bu məkana möhtacdır, amma möhtac olmaq Allahlıqla tutmaz.

Həmçinin hər bir cism tərkib hissələrindən mürəkkəb olmuşdur, hər bir mürəkkəb isə öz tərkib hissəsinə möhtacdır. Əgər Allahı cism təsəvvür etsək, onu mürəkkəb və möhtac bilməliyik, bu bir haldadır ki, Allahlıq ilə möhtac olmaq bir yerə yığışmaz.

İslamın böyük rəhbərləri müxtəlif dəlillərlə Allahın cism olmamasını sübut etmişlər.

İmam Sadiq (ə) buyurmuşdur:

سُبْحانَ مَنْ لا يَعْلَمُ كَيْفَ هُوَ إِلّا هُوَ لَيْسَ كَمِثْلِهِ شَيْءٌ وَ هُوَ السَّمِيعُ الْبَصِيرُ لا يُحَدُّ وَ لا يُحَسُّ... وَ لا يُحِيطُ بِهِ شَيْءٌ وَ لا جِسْمٌ

**«Allah hər bir nöqsandan arınmışdır. Hər kəs onun zatının necəliyindən bir şey bilmir. Heç şey onun kimi deyildir. O duyan və biləndir. Məhdud deyil, kəmallarının sonu yoxdur. Hisslərlə dərk olunmazdır... cism deyildir».**[1]

Altıncı imam bu cümlələrdə möhkəm dəlillərlə Allahın cism olmamasını rədd et etmişdir. Başqa bir yerdə deyir:

اِنَّ الْجِسْمَ مَحْدُودٌ مُتَنَاهٍ وَ الصُّورةُ مَحْدُودَةٌ مُتَنَاهِيَةٌ فَاِذَا احْتَمَلَ الْحَدَّ احْتَمَلَ الزِّيَادَةَ وَ النُّقْصَانَ وَ اِذَا احْتَمَلَ الزِّيَادَةَ وَ النُّقْصَانَ كَانَ مَخْلُوقاً

«Cism mütənahi və məhduddur, surət də məhdud və mütənahidir, hər hansı məhdud olan şey azalıb-çoxala bilər və azalıb-çoxalan şey yaranmış olan bir şeydir. Amma aləmlərin xaliqi məhdud deyildir».[2]

---

[1] «Tövhid» Səduq səh. 98.
[2] «Tövhid» Səduq səh. 99.

## BİR MƏSƏLƏNİN HƏLLİ

Burada bir məsələni qeyd etmək istəyirəm, Qurani-Kərimdə «Allahın əli» kimi sözlərin olması Allahın cism olmasına dəlil deyildir. Bu sözlərin ədəbiyyatşünas və dilçi alimlərin dediyinə əsasən məcazi mənaları qəsd edilmişdir. Misal üçün «يَدُ اللَّهِ فَوْقَ أَيْدِيهِمْ» - (Allahın əli bütün əllərin üstündədir) sözündən məqsəd, Allahın qüdrətidir. Bir çox sözlər eləcə məcaz işləmişdir.

Həmçinin başqa bir ayədə Mütəal-Allah deyir:

قَالَ يَا إِبْلِيسُ مَا مَنَعَكَ أَنْ تَسْجُدَ لِمَا خَلَقْتُ بِيَدَيَّ

***«Ey İblis! Sənə mənim Öz əlimlə yaratdığıma səcdə etməyə nə mane oldu?»***[1]

Bu sözdən məqsəd Allahın qüdrətidir.

[1] «Sad» surəsi ayə 75.

## OTUZ DÖRDÜNCÜ DƏRS

## TANRI GÖZƏ GÖRÜNMƏZDİR

İnsan öz beş növ hissiylə hiss olunan mövcudlarla əlaqdədir. Gözü ilə görunmələri görür, qulağı ilə eşidilməliləri eşidir və başqa üç qüvvə ilə iyləri, soyuqluq və istiliyi, bərklik və boşluğu hiss edir. İnsanın mərifət vasitələrinin çoxu həmin beş növ hissiyyat olduğu üçün hissi və təçrübi elmləri bir təhər öyrənmişdir, bu səbəbdən həmişə hər bir şeyi həmin hisslərlə dərk etmək istəyir, sanki hiss edilməyən mövçudları qəbul etmək istəmir.

Amma həmin insan təcrübi elmlərinə bir belə, güvənçə də belə, bir az tədqiq etməklə görəcəkdir ki, varlıq aləmi təkcə həmim hiss olunan şeylərə həsr olmamışdır. Aləmdə bir sıra mövcudlar da vardır ki, hiss və görmək hakimiyyətindən xaricdir.

### BİR NEÇƏ MİSAL

1 – Bir alma ağacının dibində oturmuşuq, birdən-birə yel əsmədən bir alma ağacdan düşür, hamımız bilirik ki, bu almanın düşməsinin bir səbəbi vardır və onun səbəbi yerin cazibə qüvvəsidir. Görəsən yerin cazibə qüvvəsi bir həqiqətdirmi? Yoxsa əfsanədir? Mütləq o, bir həqiqətdir, amma gözə görünən həqiqətlərdən deyildir. O, bir həqiqətdir ki, onun təsirlərindən və nişanələrindən onun varlığını anlayırıq, yoxsa onu gözümüzlə görmürük.

2 – Günəşin işığı bir büllura düşəndə, büllurun o biri tərəfindən yeddi rəng görünür. O, boyaqlar bunlardır: qırmızı, sarı, narıncı, mavi, yaşıl, bənövşəyi və laciverdi (tünd göy).

Görəsən həmin yeddi bayaqdan başqa bir boyaq yoxdurmu? Və ya bunlardan əlavə də bayaqlar vardır?

Bu gün elm sübut etmişdir ki, o yeddi boyaqdan əlavə bir sıra boyaqlar vardır ki, gözə görünməzdir. Amma onların əsər və nişanələrindən onların varlığını anlayırıq. Misal üçün əgər həmin yeddi növ işıqı bir pərdədə əks etdirsək və bir hərarət dərəcəsini onunla ölçsək, görəcəyik ki, hərarəti ölçən cihaz hər vaxt qırmızı gərgin o biri üzünə çatdıqda çox tərpənir və həraraətin çoxluğunu göstərir.

3 – Aləmdə elə səslər vardır ki, bəşər, onları əsla eşitmir. Amma bir çox heyvanlar vardır ki, səsləri eşidir. Səs dalğalarını müəyyən bir həddə eşitmək olar.

4 – Havada gördüyümüz bir toz zərrəsi minlərlə atomdan təşkil tapmışdır ki, əslən gözə görünməzdir. «Protonların» başına fırlanan «elektronlar»ın fırlanması bir həqiqətdir ki, riyaziyyat elmləri vasitəsilə sübut edilmişdir.

5 – Bir az öz həyatımız haqqında düşünək, həyat nə deməkdir? Həytın mahiyyəti bizə məlum deyil, amma bir sıra nişanələrlə onu dərk edirik. Misal üçün, görürük ki, canlının nə qədər ki, canı vardır hərəkət edir və artır, amma canını əldən verəndən sonra bu kimi əsərləri onlardan görmürük. Bununla həyatın varlığını inkar etmək olmaz. Bu bir haldır ki, həmin həyatın varlığı beş hisslərlə dərk edilmir və gözlə görünmür.

6 – Bizim dostlarımıza və qohumlarımıza olan məhəbbətimiz inkar edilməzdir. Məhəbbət ruhun ən böyük təəssüratındandır ki, inkar etmək olmaz. Bunlar göz ilə görünürmü və ya beş növ hiss ilə dərk olunurmu?

Görəsən bunları göz ilə görə bilməmək bəhsanəsilə inkar etmək olarmı?

İnsafdan çox uzaqdır ki, bir şeyin görülməməzliyi və hiss oluna bilinməməzliyi, onun var olmasına dəlil olsun.

Əlbəttə, çəkdiyimiz misalların bəzisi adi gözlə görünməsə də bir sıra dəsgahların vasitəsilə görmək mümkündür. Amma bir sıra mövcudlar vardır ki, heç bir vəsilə ilə onları görmək olmaz, bu kimi mövcudlara istilahda (terminologiya) «mücərrəd» deyirlər.

Bu aləmin mövcudları iki növdür. Maddə və mücərrəd. Maddə odur ki, gözlə, adi hisslə və müəyyən dəsgahlarda dərk etmək mümkün olsun. Mücərrəd mövcudlar isə hiss olunmaz və gözə görünməzdir. Onların əsər və nişanələrindən varlıqlarını dərk etmək olar. Misal üçün ruhu, fikri, elmi və düşüncəsi «Mücərrəd»dirlər ki, heç vaxt hissiyyat hakimiyyətində deyillər.

Başqa sözlə maddi varlıqları təcrübə və sınaq yolu ilə tanımaq mümkündür, onların varlıq və mahiyyətlərini laboratoriyada ölçmək və sınaqdan keçirmək olar. Amma, mücərrəd olan varlıqları heç vaxt laboratoriyada sınaqdan keçirmək olmaz.

Burada bu nəticəni əldə edirik ki, varlıq maddi varlıqlara həsr olunmur, bəlkə varlıq aləmində «mücərrəd» varlıqlar da vardır. Həmçinin, maddi varlıqların hamısı həmin beş növ hisslə dərk olunmur.

Bununla belə heç bir şübhə yoxdur ki, Allah gözə görünməzdir. Çünki Allah cism və maddə deyildir ki, görünsün, maddi şeyləri görmək mümkündür. Amma maddədən üstün və mücərrəd olan mövcudu heç zamanda görmək olmaz. Başqa sözlə, əgər desək ki, Allah görünər, onda deməliyik ki, Allah cism və maddədir. Cism və maddə olmaq möhtac və mürəkkəb olmağı tələb edir. Nəticədə bizim Allah təsəvvür etdiyimiz şey Allah deyil, bizm kimi mürəkkəb, öz tərkib hissəsinə möhtac və cism olur.

Qurani-Kərim buyurur:

لَا تُدْرِكُهُ الْأَبْصَارُ وَهُوَ يُدْرِكُ الْأَبْصَارَ ۖ وَهُوَ اللَّطِيفُ الْخَبِيرُ

***«Gözlər Onu (görüb) dərk etməz. O, gözləri dərk edər. O, lətifdir (cisimlikdən uzaqdır), (hər şeydən) xəbərdardır!»***[1]

Həzrəti Əli (ə) bu barədə deyir:

الْحَمْدُ لِلَّهِ الَّذِي لَا تُدْرِكُهُ الشَّوَاهِدُ وَلَا تَحْوِيهِ الْمَشَاهِدُ وَلَا تَرَاهُ

**«Gözlər onu görməz».**[2]

«Zələb» adlı bir kişi Həzrət Əli (ə)-dan soruşdu: Öz Allahını görmüsən?

- Görmədiyim Allahı pərəstiş etmərəm.
- Onu necə görübsən?
- Zahiri gözlər onu görməz, amma könül imanla onu görə bilər.

Deməli əgər Quranda və ya hədislərdə elə sözlər gördük ki, Allahın cism olub gözə görünməsini anladırsa, o ayə və rəvayətləri əqli və Qurani dəlillərlə elə əsaslandırmalıyıq ki, Allahın cism olması mənasını verməsin.

Misal üçün deməliyik ki, Allahı görməkdən məqsəd onun rəhmətini görməkdir və ya Allaha qovuşmaq, Allahın rəhmətinə qovuşmaqdır və ya başqa düzgün mənaya yozmalıyıq.

---

[1] «Ənam» surəsi, ayə 104.

[2] «Nəhcül-bəlağa» xütbə 180.

## OTUZ BEŞİNCİ DƏRS

## ALLAH ADİLDİR

Ədalət Allahın siətlərindəndir, Allahın ədaləti bəhsi Allahın hikmətli olması ilə tam əlaqədardır. Allahın hikməti sübut edilən yolla əlaqədə Allahın ədaləti də sübut edilir. Çünki hikmətli olmağın mənası budur ki, pis iş görməsin və zülm isə həmən pis işlərdən uzaqdır.

Əslində zülm etməyin səbəbi bunlardan ibarətdir: Bir işin zülm olmasını bilməmək, zülmün pis iş olmasını bilməmək, zülm etməyə möhtac olmaq, zülm etmək məcburiyyətində qalmaq. Bu səbəblərin heç biri alim, möhtac olmayan Allahda təsəvvür olunmur.

Digər tərəfdən ədalət bir növ kamal sifəti və zülm isə bir növ nöqsandır. Açıq-aydındır ki, Mütəal-Allah bütün kəmalların mənşəyidir və o, bu nöqsandan uzaqdır.

## ƏDALƏT NƏ ÜÇÜN DİN VƏ MƏZHƏB PRİNSİPLƏRDƏN (ƏSASLARINDAN) SAYILIR.

Dediyimiz kimi ədalət Allahın sifətlərindən biridir. Şiənin bu sifəti din və məzhəb prinsiplərindən sayması və tövhidlə imamət sırasında qərar verməsi və Allahın başqa sifətlərindən ayırıb müstəqil bir əsl kimi qiymətləndirməsi iki səbəb üzrədir:

1 - Bir çox əqidə məsələlərinin həllində bu əslin əhəmiyyətə malik olması, çünki Allahın ədalət və hikmətinə inanmaq ədalətli olmağın təməl daşı sayılır bu cəhətdən bir müstəqil əsl kimi qaldırmaq yaxşı ola bilər.

2 - Kəlam elmləri formalaşan vaxtda əqlin yaxşılıqla pisliyi müəyyən etməkdə səlahiyyətli olub-olmaması kəlam elmləri alimlərini iki qurapa böldü:

Bir qurupun nəzəricə, əqlin yaxşı ilə pisi təşxis verməkdə səlahiyyətli olmamasına inanmış və şəraitdən ilham almasını təklif etdilər. Bununla şərait yaxşı bilən şeyi yaxşı və pis bilən şeyi pis bilmək lazımdır. Deməli əql pis ilə yaxşını ayırd edə bilməyi üzündən ədalət və zülm barədə hökm irəli sürə bilməz və ədaltin yaxşı və iyi olmasına və zülmün pis olmasına dair bir söz deyə bilməz. Əgər bir nəzərdə irəli sürsə onun nəzərini qəbul etmək olmaz. Bununla Allahı ədalətlə sifətləndirməyimizin bir dəlili yoxdur. Allah hər işi görsə o iş elə yaxşıdır. İstər bizim əqlimizlə ədalət ilə uyğun gəsin və ya gəlməsin.

Bu qrupun qarşısından şiə alimləri və həmçinin «mötəzilə» alimləri əqlin yaxşı ilə pisi ayırd etməyə salahiyyətli olmasını təyid etdilər və onu bu məhkəmənin yeganə qazisi bildilər və əqlə görə zülm pis sifət olduğu üçün Allahı ondan uzaq bildilər.

Bununla bu qrup öz hesablarını o qrupdan ayırdılar və «ədliyyə» adı ilə məşhur oldular. Allahın ədalət sifətini din prinsiplərinin sırasında qərar verdilər. Bununla «əşairə» adlı qrup ilə bu ədliyyə qrupun hesabı bir-birindən ayrıldı.

## TƏŞRİN VƏ TƏKVİNİ ƏDALƏT

Allahın ədaləti həqiqətini izah etmək üçün bu barədə bir az geniş danışırıq:

Allahın iki növ ədaləti vardır:

1. Təşrii ədalət:

Təşri ədaləti iki sahədə araşdırırıq:

I: Peyğəmbərlərin vasitəsi ilə xalqa çatdırılan ilahi əmr və fərmanlar ədalət üzrədir. Allah öz bəndələrinin qüdrət, imkan və güclərini nəzərə alaraq onların gücləri və imkanları ilə uyğun bir sıra fərman və əmrlər və vəzifələr müəyyən etmişdir.

II: Qiyamət günündə də ədalətlə qəzavət edəcəkdir. Yaxşı əməli olanlara pis əməlləri olanları bir gözdə tutmayacaqdır. Əgər bəzi günahkarları bağışlasa da mömin və saleh bəndələrini ağır cəzalandırmayacaqdır.

Qurani-Kərim buyurur:

وَلَا نُكَلِّفُ نَفْسًا إِلَّا وُسْعَهَا ۖ وَلَدَيْنَا كِتَابٌ يَنْطِقُ بِالْحَقِّ ۚ وَهُمْ لَا يُظْلَمُونَ

***«Biz heç kəsi gücü çatmayan işi görməyə vadar etmərik. Bizdə haqqı söyləyən bir Kitab vardır. Onlara (haqsız yerə əsla) zülm olunmaz».***[1]

## TƏKVİNİ ƏDALƏT

Bu növ ədalətdə ilahi vəzifələrdən söhbət olunmur, bu növ ədalətdə xilqət aləminin nizamı bəhs edilir. Bu nizam ədalət üzrə qurulmuşdur.

Xilqətin ədalət üzrə olmasının mənası budur ki, xilqət aləminə ədalət hökm sürür. Aləm təmamilə həmahəngdir onun tərkib hissəsində ədalət və həmahənglik kamil surətdə riayət olmuşdur.

Bu növ ədaləti aləmin nizamını araşdırmaqla sübut etmək olar. Bəşər öz emi tədqiqatları ilə aləmdə nizam-intizamın, hesab-kitabın olmasını təsdiq etmişdir.

Rəvayətdə gəlmişdir بِالْعَدْلِ قَامَتِ السَّموات وَ الأَرْضُ «yer və göylər ədalətlə durur». Bu söz çox dərin mənalı sözdür. Çünki, əgər kürələrin bir-birlərindən fasiləsi və onların hərəkət-tərzləri müəyyən nizam üzrə olmasaydı, aradan gedərdilər.

[1] «Möminin» surəsi, ayə 62.

## OTUZ ALTINCI DƏRS

## DÖRD SUALIN CAVABI

1 - Əgər Allah adildir bəs nə üçün hərdən bir hadisə baş verməklə evlər yıxılır və bir sıra adam ölür. Əgər Allah adildir bəs nə üçün müxtəlif bəlalarla insana həyatı acı edir?

2 - Nə üçün həyatın sonu ölümdür. Bu həyula (qorxunc bir şey) nə üçün daima insanın gözü önündədir.

3 - İnsanların isdedadları nə üçün bir-biri ilə fərqlidir ki, bir qısa müddət ərzində ən yüksək məqsədlərə çatır və o birisi səy etsə də belə bir yerə çatmır?

4 - Bir çox insanları əhatə edən yoxsulluğun və aclığın mövcudiyyət səbəbi nədir?

## QISA CAVAB

Bu suallara bir qısa cavab veririk, o da budur ki, biz əqli dəlillərlə Allahın adil və hikmətli olmasını sübut etdik. Deməli o, hikmət və ədalətin xilafina bir iş görməz. Biz həyatda bir sıra hadisələrlə qarşılaşırıq onların məsləhətli və hikmət üzündən olmasını bilmirik. Biz deməliyik ki, onların qətən bir hikməti və məsləhəti vardır ki, hələ bilməmişik.

Əlbəttə bu cavab Allahın hikməti və ədalətinə inananlar üçün kifayət edər. Amma başqalarına lazımdır ki, bir az izah edək:

## BİRİNCİ SUALIN CAVABI:

Bəla və müsibətlər və onların törətdiyi zərər və ziyan barədə nəzər vermə ümum aləmin vəziyyətindən hər tərəfli məlumat əldə etməkdən asılıdır. Ondan sonra bu hadisələrin barəsində nəzər irəli sürmək olar. Açıq-aydindır ki, ümum aləmin vəziyyətindən agah olmaq heç mümkün iş deyildir.

Bir filosof hər nə qədər azad fikir olsa da hadisələri öz məhdudəsində və müəyyən bir zaman və məkanda tədqiq edə bilər. Amma bu hadisələrin ziyanlı və ya mənfəətli olması barədə nəzər vermək, o hadisənin səbəblərindən və nəticələrindən əvvəl gündən əbədiyyətə kimi agah olmaq lazımdır.

Mümkündür bir hadisə bir cəhətdən zərərli olsun və digər cəhətlərdən keçmişdə və gələcəkdə çox faydali ola bilsin.

Görəsən dünyada elə bir filosof olar ki, bir hadisəni əzəliyyət və əbədiyyətdə habelə bütün zaman və məkanlarda tədqiqi edə bilsin və sonra misal üçün nəzər versin ki, güya Banqladeşdə olan sel nəticəsində evlər dağıldı və adamlar öldü. Demək bütün zərər idi.

Bir tufan olur və onun nəticəsində neçə ağac kökdən çıxır, onun əsl səbəbini araşdıranda görürük ki, bu tufan bir faydalı yelin əsməsi nəticəsində baş vermişdir ki, buludları dəniz sahilindən yanıq çöllərə sarı daşımış və minlər hektar yeri onunla suvarmışdır və əgər bir az yuxarı getsək görəcəyik ki, həmin sürətli yel orada bir sazaq (soyuq külək) kimi imiş və oranın əhalisinə ləzzət verirmiş.

Bəşər xilqət hadisələrini araşdırmaqda bir növ xudbinliyə dücar olmuşdur. Hər şeyə öz mənfəət gözü ilə baxıb. Bir hadisə onun üçün faydalı olsa dərhal sevinir və şad olur. (Biri mömin olsa, bu nemətin müqabilində səcdə edir.) və əgər ona bir faydası olmasa, onu bəla, müsibət, bədbəxtlik və qaragünlük kimi qiymətləndirir.

Belə bir qəzavət etmək, dünyanın bir nöqtəsində fövqəlqüdrətlərin savaşları kimidir ki, hər birisi öz mənfəətinin mülahizə edir və biri onu nemət və qələbə çalmaq kimi və o birisi siyasi məğlubiyyət kimi dəyərləndirir.

Bununla açıqlandı ki, hadisələri xeyr və şərrə bölmək dargörüşlükdən və bir cəhətli olmaqdan irəli gəlir.

Əslində hər bir hadisənin yaxşılığını və pisliyini, xeyr və şərliyini aləmin nizamı ilə ölçmək olar. O hadisəni xilqət aləminin bir parcası kimi qiymətləndirməliyik və sonra onun barəsində nəzər irəli sürməliyik. Mümkündür xilqət aləminin davam tapması üçün, müəyyən bir nöqtədə bir partlayış baş verməsi zəruri olsun. Bu partlayış bəzilərini aradan aparıb bir çox yerləri xarab etsə də belə, Allahın hikmət və ədaləti ilə uyğundur.

## BƏLALARIN TƏRBİYƏVİ TƏSİRİ

Bəlalar və çətinliklər tərbiyə və əxlaqiyyat sahəsində elə təsirlidir ki, təsir baxımından ona çatan bir amil yoxdur. İndi həmin təsirlərin neçəsinə işarə edirk.

**1 – Gizli istedadların çiçəklənməsi**

İnsanlar müxtəlif istedadlarla dünyaya gəlirlər, amma istedadlarların çiçəklərin üçün bir sıra şərait lazımdır ki, bunu insanda hərəkətə və tərbiyə edib becərsin. İnsan çətinliklərdə öz zehnini işə salır və bununla elmin uca zirvəsinə çıxır. Əgər həmin məhrumluq və çətiliklər olmasaydı, bəşər heç vaxt elmin uca zirvəsinə özünü çatdıra bilməzdi.

Demək bəlalar, müsibətlər, çətinliklər, xoşbəxtliyin anası və rahatlıq beşiyidir. Əgər həyat bəlasız olsaydı, bəşər bu rahatlığı əldə edə bilməzdi.

**2 – Dözüm**

Bəla və müsibətin digər tərbiyə təsirlərindən biri də budur ki, insanı dözüm əhval-ruhiyyəsini gücləndirir gücləndirir və insanı hadisələr qarşısında dözümlü edir. Hadisələr tufanı onun vücud ağacını yerdən

qopardanmır. Övladlarını çətinliyə düşməkdən qoruyan ata-analar səhv edirlər. Bu uşaqlar hadisələr tufanı qarşısında, su qırağında bitən söyqd ağacı kimi hər tərəfə tərpənir və hadisələr fırtınasında saman çöpü kimi hər tərəfə atılırlar. Amma çətinlikdə bişmiş şəxslər dəbərilməz qaya və dağ kimidirlər ki, heç bir qüvvə onu dəbərdə bilməz.

Polad odda bərkiyir və bıçaq qovrunun (bülöv) vasitəsilə itilənir. İnsanı da bəlalar və müsibətlər itilədir:

تا نبیند رنج و سختی مرد، کی گردد
تا نیاید باد و باران، گل کجا بویا شود

Kişi ağır, çətinlik görməyincə tam bir kişi olmaz. Yel, yağış gəlməyincə gül açmaz.

## XƏBƏRDALIQ SİQNALI

Çətinliklərin faydalı əsərlərindən biri də insanın ayılması və qeyb aləminə diqqət yetirməsi və maddi aləmdən azad olmasıdır. Şirin və ləzzətli yaşayış qafillik amilidir. O, insanın nəfsani istəklərdə və maddi ləzzətlərdə batıb cismi və maddi ləzzətlərdən başqa heç bir əxlaqi üstünlüyə fikir verməyib diqqət yetirməməsinə səbəb olar.

Amma həmin şirin nizam bir-birinə dəyəndə, maddi səbəblər işdən düşəndə, qafillik örtüyü yırtılanda və insan özünü ölümlə əlbəyaxada görəndə öz əlaqəsini qeyb aləmi ilə bərqərar edir. Nemətdə olan insan, təzə model maşına minən bir sərnişin kimidir ki, maşının asfalt yolda sürətlə hərəkət etməsi, onu yuxuya aparır.

O elə şirin yuxuya gedir ki, heç bir şeyi dərk etmir, amma sürücü ayağını tormuza atmaq həmin vəziyyət dəyişlir və şirin yuxudan qorxu ilə qalxır. Bəlalar və çətinliklər də yaşayışı hərəkətdən saxlamaqda və xətər siqnalını səsləndirməkdə, o tormuz nəticəsi olan qəflət yuxusundan ayıldır.

Qurani-Kərim bu barədə buyurur:

وَمَا أَرْسَلْنَا فِي قَرْيَةٍ مِنْ نَبِيٍّ إِلَّا أَخَذْنَا أَهْلَهَا بِالْبَأْسَاءِ وَالضَّرَّاءِ لَعَلَّهُمْ يَضَّرَّعُونَ

***«Biz hansı bir məmləkətə peyğəmbər göndərdiksə, onun əhalisini və bəlaya saldıq ki, bəlkə, yalvarıb-yaxarsınlar!»***[1]

وَلَقَدْ أَخَذْنَا آلَ فِرْعَوْنَ بِالسِّنِينَ وَنَقْصٍ مِنَ الثَّمَرَاتِ لَعَلَّهُمْ يَذَّكَّرُونَ

***«Biz Firon əhlini (illərlə) qıtlığa, quraqlığa və məhsul çatışmazlığına məruz qoyduq ki, bəlkə, düşünüb ibrət alsınlar!»***[2]

---

[1] «Əraf» surəsi, ayə 94.
[2] «Əraf» surəsi, ayə 130.

Bəlalar və çətinliklər həqiqətdə mahir həkimin xəstəyə vurduğu sillələr kimidir ki, onu bihuşluqdan ayıldır. Bəlalar və müsibətlər sanki bir sıra nemətdir ki, məcburi olaraq təzahür edir.

İnsan əgər bu hadisələrdən mənəvi faydalansa və yuxudan ayılsa, bu hadisələr onun üçün bir lütf, ehsan və yaxşı olacaqdır, amma hələ ayılmasa onda deмək olar ki, o şəxs bəla və müsibətə düçar olmuşdur. Bu bir böyük müsibətdir ki, insanın xoşbəxtlik vəsiləsi meydana gəlsin amma insan ondan faydalanmasın və yuxudan ayılmasın.

## OTUZ YEDDİNCİ DƏRS

## İKİNCİ SUALIN CAVABI (ÖLÜM)

Tənqid edirlər ki, Allah nə üçün ölümü insana qərar vermişdir? Görəsən düzdür ki, bir küzəçi küzəni düzəldəndən sonra onu xarab etməsi düz işidir?

Bu sözlərdən bu nəzərə gəlir ki, tənqid edənlər insan üçün həmin həyatdan başqa bir həyatın sonu bilirlər və insanın yaranmasının məqsəd həmin dünyadan bir neçə gün yeyib-içmək və vurub-çıxmaq bilirlər.

Həqiqətən də əgər insanın həyatı həmin neçə gündə həsr olsaydı və onun varlığı ölümlə sona çatsaydı, bu tənqidlərin yeri var idi. Bu sualı etmək olardı ki, Allah nə üçün insanı yaradır və sonra onu aradan aparır.

Amma əgər ölüm yeni bir həyatın başlanğıcı olsa və bəşər ölməklə bir evdən başqa bir kamil evə köçsə və o heç vaxt məhv olmasa, bu sual yersizdir.

İlahi fəlsəfəyə əsasən, ölüm həyatın sonu deyildir. Bəlkə ölüm əbədiyyət qapısındır. Bu bir neçə gün yaşamaqdan məqsəd kamil bir həyata və yaşağa hazırlaşmaqdadır.

Açıq-aydındır ki, o dünyanın yaşama keyfiyyəti bizim bu dünyadakı əməl və davranışımızla tam əlaqədardır. Bu dünyada əkdiyimizi o dünyada biçəcəyik. Bəşərin yaşayışı, o tacirə bənzər ki, ömrünün bir qismini ticarətlə məşğul olub, sonra əlini işdən çəkir və ömrünün bir qismini də keçmiş qazanclarından faydalanıb həyatını davam etdirir.

## İNSANIN ƏBƏDİLİYİNİN DƏLİLİ

Alimlər insanın əbədiliyini müxtəlif dəlillərlə sübut etmişlər. Onlardan biri budur ki, insan həmişə gələcəyə baxır, onun ən mühüm arzusu həmişəlik qalmaqdır. Əbədilik meyli bütün insanlarda vardır. Canlılar onları hədələyən xətərdən təzirlər və özlərini və öz həyatlarını qorumaq istəyirlər. İnsanda bundan əlavə əbədiyyət və həmişəqalma arzusu da vardır.

Təbiətdə heç bir meyl əbəs deyildir, deməli, insanın bu meyli də onun ölümdən sonra qalmasına dəlildir. Başqa sözlə, insanda hər hansa bir ehsas və meyl əsilcəsinə təzahür etsə, onun özü üstün bir kəmalın varlığına bir dəlildir ki, o hiss və meyl ona çatmaq əzmindədir. Misal üçün, bilik və texnika səbəbi olan insanın araşdırma hissi və meyli, elmin və biliyin varlığına bir dəlildir ki, o hissi hərəkətə gətirir.

Gözəllik hissi gözəlliyin varlığına dəlildir ki, bu hiss və meyl onu izləyir. Susuzluq hiss etmə suyun varlığına dəlildir. Əgər su olmasaydı susuzluq da olmazdı. Habelə, əgər əbədilik olmasaydı, həmin meyl onun zatında qoyulmazdı.

Qurani-Məcid də insan xilqətinin məqsədini əbədilik nişanəsi olan Allah sarı qayıtmaq bilir və deyir:

أَفَحَسِبْتُمْ أَنَّمَا خَلَقْنَاكُمْ عَبَثًا وَأَنَّكُمْ إِلَيْنَا لَا تُرْجَعُونَ

***«Yoxsa sizi əbəs yerə yaratdığımızı və (qiyamət günü dirilib haqq-hesab üçün) hüzurumuza qaytarılmayacağınızı güman edirdiniz?»***[1]

Həmçinin hədisdə gəlmişdir ki, ölmək bir evdən başqa evə köçməkdir.

## ÜÇÜNCÜ SUALIN CAVABI

İstedad nə üçün fərqlidir?

Bu tənqidçilər bir əsas prinsipi unutmuşlar, o da budur ki, istedadların, dərk və zəkanı müxtəlifliyi insanın sosial həyatının davamını əsası və mayasıdır. Əgər insanlar tamamilə istedad baxımından eyni olsaydılar insanın ictimai həyatı aradan gedərdi. İstedadların fərqli olması səbəb olmuşdur ki, cəmiyyət üzvlərinin hər birisi cəmiyyətin ehtiyaclarını ödəsinlər.

Psixologiya alimləri deyirlər ki, bəçər müxtəlif və hər kəsə məxsus bir istedadla yaranmışdır, mühüm budur ki, insan öz istedadını ölçüb və hansı sahədə hərəkətə gətirməsini bilsin. Bu halda məyus olanlar bir işi başlasalar o işdə qələbə çalarlar.

Dünyada elə bir adam tapılmaz ki, əlindən heç bir iş gəlməsin və heç bir ictimai iş görə bilməsin. Bizik ki, bəzi işləri əhəmiyyətli və bəzilərini əhəmiyyətsiz qiymətləndiririk. Əhəmiyyətsiz işlərə məşğul olanları məzəmmət edirik. Başqa sözlə, ictimayyətdə isdedadların müxtəlifliyi zəruridir, cəmiyyətin işi aşmaq üçün lazımdır ki, cəmiyyət üzvlərinin hər fərdi müəyyən bir istedada malik olsun. Amma hər kəs hər hansı işlə məşğul olsa, abırlı yaşayışı olmalıdır. Əgər insanlar özləri elə bir şəraitin meydana gəlməsinə səbəb olsalar ki, yaşayışı bəzilərinə acı olsa, bunu ilahi ədalətinin hesabına qoymaq olmaz.

Əlbəttə, cəmiyyətin mənfəətini şəxsin mənfəətinə satmamalıyıq. Düzdür ki, hamı həkim, mühəndis, rəis və müdür olmaq istəyir, amma insanın bu istəyi mümkündürmü? Əgər mümkündürsə bəşərin mənfəətinədirmi? Qətiyyən yox.

Möminlərin əmiri Əli (ə) bu həqiqətə işarə edib deyir:

لا يَزالُ النّاسُ بِخَيْرٍ ما تَفاوَتُوا فَإِذا اسْتَوَى هَلَكُوا

**«Xalq nə qədər bir-birilə fərqlidirsə rifahda yaşayır, amma hər baxımından müsaviləşmək istəyəndə onlar həlak olarlar».**

---

[1] «Muminun» surəsi, ayə 115.

## DÖRDÜNCÜ SUALIN CAVABI

## YOXSULLUQ, BƏDBƏXTLİK, ACLIQ

Allahın raziq (rizq verən) olmasının mənası budur ki, Allah insana ağıl düşüncə və cismi qüvvə vermiş və təbiət adında bir varlıq onun qarşısında açmışdır. İnsan hər vaxt ruzi əldə etməyə səy göstərsə öz ruzisini əldə edə bilər. Yaşayışın bütün mərhələlərində işləmək və səy etmək ruzi əldə etməyin əsas şəraitidir. Amma fəaliyyətlərin necəliyi ömrün müxtəlif mərhələlərində fərq edir. Bir uşağın fəaliyyəti ananın döşündən süd əmməkdir, amma böyüdükcə vəzifəsi böyüyür qüvvəli bir gənc çağı təbiətdə qərar verilmiş ilahi nemətlərdən faydalanmaq üçün fəaliyyət etməlidir. Hər kəs də öz qüvvəsini işə salmaqla ilahi nemətlərdən istifadə etməlidir.

Bununla belə əgər bəziləri bir istemari (istismari) şərait yaratmaqla bəzilərini istismar edib iqtisadi ixtilafları günü-gündən genişləndirsələr, onu Allahın hesabına qoymaq olmaz. Hindistan və Afrika qitəsinin aclığını Allah və ilahi ədalətin hesabına qoymaq olmaz. Deyə bilmərik ki, onların aclığı Allah əlindədir. Çünki yaxşıca bilirik ki, xalqların sərvətini müxtəlif bəhanələrlə oğurlamış və yəğmalamışdır. Onlar öz iqtisadi qüdrətini qorumaq üçün milyonlar ton qida maddələrini aradan aparırlar.

Bununla iqtisadi vəziyyəti sabitləşdirirlər. Bu bir haldır ki, dünyanın hər bir bucağında milyonlarla insanın acından həlak olmasını müşahidə edirlər. Misal üçün bu son hesablamalarda oxuyuruq ki, Hindistanda 10 miliyon nəfər acından ölmüşdür, bu bir haldır ki, 1960-cı ildə Amerikanın anbarlarında 120 milyon ton qida maddəsi və çörək aradan getmişdir. Həmin miqdar qida miliyonlarla insanı bir il tamam doyurardı. Xülasə, yoxsulluq və aclıq bəşərin zülmündən irəli gəlir, əgər ədalət və həmtayları istəmək, zülmün yerinə otursa, hamı ilahi süfrədən (təbiətdən) yaxşıca istifadə edə bilər.

## OTUZ SƏKKİZİNCİ DƏRS

## SÜBUTİYYƏ VƏ SƏLBİYYƏ SİFƏTLƏRİ, ZAT VƏ FEİL SİFƏTLƏRİ

Allahın malik olduğu elm, qüdrət, həyat, hikmət, ədalət kimi sifətlərə «sübutiyyə» və ya «cəmaliyyə» sifətləri deyirlər, ümumiyyətlə Allahın malik olduğu hər bir sifətə «cəmaliyyə» və ya «sübutiyyə» sifəti deyilir.

Amma Mütəal-Allahın onlardan uzaq olduğu sifətlərə «səlbiyyə» və ya «cəlaliyyə» sifətləri deyilir. Misal üçün deyirik, Allahın şəriki yoxdur, Allah cism deyildir, məkanı yoxdur, görünməzdir, mürəkkəb deyildir, möhtac deyildir, zülm etməz, ölməz, aciz deyildir.

Ümumiyyətlə Mütəal-Allah hər bir nöqsandan uzaq və pakdır və hər hansı bir nöqsan sayılan sifət, Allahdan uzaqdır. Həmin xüsusiyyətə görə bu sifətlərə səlbiyyə sifətləri deyirlər.

## ZAT VƏ FEİL SİFƏTLƏRİ

Zati sifətlər bir sıra sifətlərdir ki, onu sifətləndirmək üçün zatından başqa bir şeyə ehtiyacı yoxdur. Zatın özünü təsəvvür etmək kifayət edər. Bunlar bir sıra sifətlərdir ki, Allahı o sifətlərlə sifətləndirmək üçün heç bir şeyin və feilin varlığına ehtiyac yoxdur. Allah alimrdir. İstər bir şey olsun və ya olmasın, Allah qadirdir, istər bir iş görsün və ya görməsin. Allah diridir istər başqa bir mövcud olsun və ya olmasın.

Amma feil sifətləri feilə möhtacdır, yəni Allahı o sifətlərlə sifətləndirmək onun feilini də nəzərə almağla ola bilər. Misal üçün, ədalət, hikmət, xaliq, rəzzaq kimi sifətlər feil sifətləridir əgər Allah bir iş görməsə bu sifətlər reallaşmaz.

«Allah ruzi və rizq verəndə» demək onda reallaşar ki, Allah bir sıra şeylər yaradar və onlara rizq verər və habelə, başqa feil sifətləri də belədir.

## OTUZ DOQQUZUNCU DƏRS

## BİR ŞEİRİN İZAHI

Ən qədim qədim zamanlardan tələbələr Allahın sifətlərini yadda saxlamaq üçün bu şeiri onlara öyrətmirlər:

عالم و قادر وحی است و مرید و مدرك
هم قديم و ازلی، هم متکلم صادق
نه مرکب بود و جسم، نه مرئی نه محل
بی شريك است و مئانی تو غني دان خالق

«Alimdir, qadirdir «həyy»dir, mürid və müdrik həm qədimdir əzəli, həm mütəkəllim, sadiq nə mürəkkəbdir nə cism, nə görünər nə dəyişilər, şəriki yox, mənası çox, hər cəhətdən varlıdır xaliq».

Keçmiş mübahisələrimizdə Allahın qadir, alim və həyy olub cism, mürəkkəb olmaması və həmçinin, gözə görünməməsi, ona həmtay və möhtac olmaması barədə lazımi izahat verdik.

Bəhsimizi mükəmməlləşdirmək üçün «murid», «müdrik», «qədim və əzəli», «mütəkkilim», «sadiq», «dəyişilməyən» və «biməani» (sifatı ilə zatının bir olması) sifətləri də lazımı izahat verək.

## ALLAH «MURİD»DİR

İnsan, misal üçün, kitab yazmaq kimi bir işi görmək istəyəndə, onu özü üçün faydalı bilib o işi görməyə can atır. Bu halət insanda baş versə ona «iradə» deyilir.

İradadəni bu mənada götürmək Allah barəsində düz deyildir. Allahı bu mənada «murad» adlandırmaq olmaz.

Allahın «iradəsi» bu «mürid» olması bu iki mənada ola bilər.

1 - Əşyanı yaratmaq və xəlq etmək: deyəndə ki, Allah insanı xəlq etməyə iradə etdi, yəni yaratdı. Başqa sözlə, Allah bizim kimi deyilrir ki, əvvəl qərara gəlsin sonra o işi görsün, onun iradəsi həmən yaratmaqdır. Çünki, əgər Allahı özümüz kimi əvvəl qərara gəlib sonradan bir işi görə bilsək, onu hadisə və dəyişilmə məqamında olduğunu da bilərik, biz gələcəkdə deyəcəyik ki, Allah dəyişilmə məqamında deyildir.

2 - Alim olmaq: Yəni Allahın iradəsi ilə elmi birdir və «mürid» olmaq ayrı bir sifət deyildir.

## ALLAH MÜDRİKDİR

Yəni eşidilməliləri eşidir və görulməliləri görur, duyulmalıları duyur və dərk edir. Keçmiş bəhslərimizdə dedik ki, Allahın görməsi və eşitməsi həmən elmidir və müdrikliyin isə dərk olunmalıları bilməsidir.

## ALLAH QƏDİM VƏ ƏZƏLİDİR

Əvvəldə olmayıb sonradan var olan şeyə «hadis» deyilir. Hər bir hadisin bir yaradıcısı vardır. Hədisin qarşı nöqtəsi «qədim»dir. Qədim o şeydir ki, yoxluq keçmişi olmayıb əzəldən var imiş və bir yaradıcıya da möhtac deyildir. «Qədim»i bu mənada götursək, Mütəal-Allahın sifətlərindəndir. Allah qədim və əzəlidir.

## ALLAH MÜTƏKƏLLİMDİR

Danışmağın həqiqəti budur ki, insan ağzında dilini oyan-buyana aparıb müəyyən səslər icad etsin ki, kəlmə və kəlam şəkilində olduqda, ona danışmaq deyilir. Danışma bu mənada Allah barəsində mümkun deyildir, və mənasızdır. Çünki Allah cism deyildir ki, onun ağız və dili olsun. Amma Allahın danışması səhih mənada ola bilər. Allah bir cismi dilə gətirə bilər, misal üçün ağac, daş, dağ Allahın fərmanı ilə danışa bilər peyğəmbərlər onu eşidərlər başqaları da habelə.

Deməkmütəkəllim - (danışan) olmaq da Allahın digər bir feili sifətlərindəndir.

Əlbəttə, Allahın kəlamı və mütəkəllimliyi barədə sünni-şiə arasında yox mübahisələr olmuşdur ki, bu mübahisələrin nəticəsi olaraq kəlam elmləri meydana çıxmışdır. Biz bu o barədə danışmırıq.

## ALLAH SADİQDİR - (DOĞRUCU)-DUR

Yəni Allahın kəlamı və peyğəmbərlərinin vasitəsilə xəbər verdikləri və yolladığı kitablar tamamilə dürüst və doğrudur. Müqəddəs Pərvərdigarın zatı yalandan uzaqdır.

## ALLAH DƏYİŞİLMƏ MƏQAMINDA DEYİLDİR

Bizim həmişə dəyişilməyimiz bir kəsə gizli deyildir. Bəzən unutmaq səhv üzündən, qəm, qəzəb üzündən və bəzən də şadlıq, şənlik üzündən bizim halımız dəyişir.

İnsanın ömür kitabı üç vərəqdən artıq deyildir. Hər neçə ildən bir bu vərəqlərdən biri düşür və ömrün bir fəsli aradan gedir. Bu fəsillər uşaqlıq, gənclik və qocalıqdan ibarətdir.

Amma Mütəal-Allahın zatı insanlar kimi bu dəyişmələrə məruz qalmır. Çünki bi halətlər xaricdən təsir alan mövcudlarda fəqət baş verər. Allahdan heç şey heç bir amil təsir buraxa bilməz.

Hişam ibn Həkəm Həzrəti Sadiq (ə)-dən soruşdu: «Görəsən Allahda da sevinər və hirslənər? Həzrəti İmam Sadiq (ə) buyurdu: «Bəli, amma bəndələrin sevinməsi və hirslənməsi kimi yox. Onun sevinməsi yaxşı mükafat verməsindən ibarətdir və hirslənməsi ağır cəza və əzab verməsindən ibarətdir. Onun zatında bir halət törənmədən, təhrik olunmadan, həyacana məruz qalmadan və halı dəyişilmədən sevinər və hirslənər. Yoxsa sevinməyi və hirslənməyi bu mənada götürsək, yarananların sifəti ola bilər Allah bu sifətlərdən uzaqdır».

## QIRXINCI DƏRS

## ALLAHIN SİFƏTLƏRİ ONUN ZATI İLƏ EYNİDİR

Ən əski zamanlardan bəri eləcə də ideologiya alimləri Allah hər hansı bir nöqsanlıqdan və yaranmışlara oxşamaqdan uzaq bilmək üçün Allahın sifətləri ilə zatını eyni bilmişlər.

Başqa sözlə Allahın zatı və sifatı arasında heç bir sərhəd yoxdur onun zatına sifətlər əlavə olunmamışdır. Heç vaxtda yoxluq keçmişi yoxumuş və o şeirdə «şəriksizdir və məanisiz» deməkdən məqsəd həmin şeydir. Yəni Allahın sifətləri zatına əlavə olunmamışdır. Və alim, qadir və həyy Allahın bir mənası vardır ondan başqa bir məna yoxdur.

Həzrəti Əli (ə) bu barədə buyurur:

كَمَالُ الْإِخْلَاصِ لَهُ نَفْيُ الصِّفَاتِ عَنْهُ ، لِشَهَادَةِ كُلِّ صِفَةٍ أَنَّهَا غَيْرُ الْمَوْصُوفِ ، وَ شَهَادَةِ كُلِّ مَوْصُوفٍ أَنَّهُ غَيْرُ الصِّفَةِ ، فَمَنْ وَصَفَ اللَّهَ سُبْحَانَهُ فَقَدْ قَرَنَهُ ، وَ مَنْ قَرَنَهُ فَقَدْ ثَنَّاهُ ، وَ مَنْ ثَنَّاهُ فَقَدْ جَزَّأَهُ ، وَ مَنْ جَزَّأَهُ فَقَدْ جَهِلَهُ

«Xalis tövhid odur ki, yaranmışlarda olduğun kimi zata əlavə olan sifətləri ondan uzaq bilək. Zira hər bir sifət şəhadət verir ki, öz sifətləndirdyi şeylə fərqlidir və hər bir sifətlənmiş şey ilə göstərir ki, sifətin olmaqlığı onun olmaqlığı ilə ziddir. Allahı da yaradılmışlar kimi vəsf edib təsəvvür etmək və sifətlərini zatına əlavə olan sifət bilsək, onu başqa bir şeylə yoldaş bilərik və nəticədə Allahın vahidliyi deyil onun ikiliyinə inanmalı oluruq. Hər kəs Allahı vahid bilməyib iki olmasını təsəvvür etsə və zatını sifətlərindən başqa bir şey bilsə onun tərkib hissəsindən mürəkkəblənməsini qəbul edir və əgər Allahı tərkib hissələrindən mürəkkəb olan bir mövcud bilsə, o heç Allahı tanımamışdır».[1]

Əli (ə) bu ibarətlə çox yaxşı dəlillə sübut etmişdir ki, Allahın sifətləri onun zatı ilə eynidir və onun zatına əlavə ola bilməz. Çünki sifətlərinin zatından ayrı olması Allahın tərkib hissələrindən mürəkkəb olmasını tələb edib. Bu sifətlər hər tək-təki vacib sifət olmaqla nəticədə «vacib-varlıq» olub «vacib-varlığın» çoxluxunu meydana gətirəcəkdir.

## ALLAHIN SİFƏTLƏRİ ÇOXLUĞU

Mütəal-Allah bütün kəmal sifətlərinə malik olub bütün nöqsanlardan uzaqdır. Bizim öz bəhslərimizdə sadəcə qüdrət, elm, həyat, duyan, görən, ədalət və hikmət sifətlərini və ya şeirdə gəlmiş «mürid, müdrik, qədim,

[1] «Nəhcül-bəlağa» xütbə 1.

əzəli, sadiq və mütəkəllim» sifətlərini qeyd etməyimizin mənası bu deyildir ki, Allahın sifətləri həmin bir neçə sifətə həsr olunmuşdur.

Həmçinin səlbi sifətlərdən (Allahdan uzaq bildiyimiz sifətlər) o sadəcə mürəkkəb olmayan. Cism olmayan, görünməz, möhtacsız və şəriksiz və məkanı olmayan sifətləri və həmçinin sonradan artırdığımız hadisələr və dəyişilmə məqamında olmayan, sifətlərinin zatına əlavə olmayan kimi sifətləri qeyd etməyimizdən məqsəd bu deyildir ki, Allahın səlbiyyə sifətləri həmin sifətlərə həsr olmuşdur.

Bundan əvvəl dediyimiz kimi Allah bütün kəmal sifətlərinə malik olmaqla bərabər hər hansı bir nöqsandan da uzaqdır. Həmin sözün təyidi olaraq «Covşən kəbir» kimi dualarda Allahın cəmal və cəlal sifətlərini ehtiva edən Mütəal-Allahın adlarından min adı qeyd olunmuşdur.

Başqa bir rəvayətdə gəlmişdir ki, Allahın bir çox adı vardır onları oxumağın savabı vardır.

O adlar bunlardan ibarətdir:

Əllah, Əlilah, Ələhəd, Ələla, Əlaxir, Ələkrəm, Ələvvəl, Əlbari, Əlbasit, Əlbatin, Əlbais, Əlbaqi, Əlbədi, Əlbirr, Əlbəsir, Əttəvvab, Əlcəbbar, Əlcəvad, Əlhəsib, Əlhəfiyy, Əlhəfiz, Əlhəqq, Əlhəkim, Əlhəlim, Əlhəmid, Əlhəyy, Əlxaliq, Əlxəbir, Xəyrun-Nasirin, Əddəyyan, Əzzari, Ərrai, Ərraziq, Ərrəbb, Ərrəhman, Ərrəhim, Ərrəqib, Ərrəuf, Əssəbuh, Əssəlam, Əssəmi, Əssəyyid, Əşşafi, Əşşəkur, Əssəməd, Əşşəhid, Əssadiq, Əssane, Əttahir, Əzzahir, Ələdl, Ələziz, Ələzim, Ələfv, Ələlim, Ələli, Əlğəfur, Əlğəniyy, Əlğiyas, Əlfatir, Əlfaliq, Əlfəttah, Əlfərd, Əlqabiz, Qaziyəl-Hacat, Əlqahir, Əlqədim, Əlquddus, Əlqərib, Əlqəviyy, Əlqəyyum, Əlkaşif, Əlkafi, Əlkəbir, Əlkərim, Əllətif, Əlmubin, Əlmütəkkəbir, Əlməcid, Əlmühit, Əlmüsəvvər, Əlmuqit, Əlməlik, Əlmənnan, Əlmovla, Əlmömən, Əlmuhəymən, Ənnasir, Ənnur, Əlvahid, Əlvaris, Əlvase, Əlvitr, Əlvədud, Əlvəfiyy, Əlvəkil, Əlvəhhab, Əlhadi, Əlqədir.

Rəhmətlik şeyx Səduq «Tövhid» adlı, əsərində bu rəvayəti nəql etdikdən sonra bu adların hər birisini geniş izah etmişdir.

## *ÜÇÜNCÜ FƏSİL*

## *ALLAH VƏ PEYĞƏMBƏRLƏR*

## QIRX BİRİNCİ DƏRS

## NÜBÜVVƏTİ-AMMƏ

Peyğəmbərlər düzgün, pak və ləyaqətli insanlar idilər ki, Mütəal-Allah onları özü ilə insanlar arasında səfir məmur etdi. Onlar öz ilahi sözləri və göstərişlərini vəhy yolu ilə Allahdan alıb xalqa çatdırırdılar. Peyğəmbərlər hər çəhətdən və hər baxımdan doğru və həqiqətlə uyğun olan və hər hansı bir səhvdən uzaq olan ilahi vəhy vasitəsi ilə cəmiyyəti səadətə və xeyirli işlərə hidayət edirlər.

Peyğəmbərlər haqqındakı mübahisəmizi iki hissəyə bölürük:

**1.** Mütləq səmavi peyğəmbərlərin məsələn Həzrəti Mühəmməd (s), İsa və Musa kimi müəyyən peyğəmbərin barəsində deyil, məhz peyğəmbərlik barəsində bəhs. Bu mövzu «Hübüvvəti-amməə» adlanır.

**2.** Həzrəti Mühəmməd (s) kimi bir müəyyən şəxsin peyğəbərliyin sübut etmək üçün aparılan mühabisə isə «Nübüvvəti-xassə» adlanır.

Bizim bu dərslərin mövsuzu «Nübüvvəti-amə» və peyğəbərlərin ümumi risalətlərin barəsinddir. Bəhsimizin prinsipləri bunlardır:

1) Peyğəbərlərin besətinin luzumu.

2) Həqiqi peyğəbərlərin yalancı idiyacılardan ayırd etmək yolu.

3) Peyğəbərlərin başqa aləmlə əlaqə vasitəsi olan vəhy nə deməkdir?

4) İlahi peyğəbərlərin ruhi və cismi şəraiti.

Hər şeydən əvvəl bunu qeyd etmək lazımdır ki, insan təkcə özü aglının hidayyəti ilə xilqətin məqsədi olan kamala cata bilməz. Bəlkə Allah tərəfindən bir sıra müəllimlərin göndərilməsi lazımdır ki, insana kamala catmaq üçün yardım etsinlər, bu kamala catmağa zəmin yaratsınlar. Bu səbəbdən «Nübüvvəti-ammə» adlı bəhslərimizin birinci hissəsi peyğəbərlərin göndərilməsinin əqil baxımından zəruriliyini sübut etmək barəsində olacaqdır.

Tarix boyu bir sıra hiyləgər və oyunbazlar yalan və hiyylə ilə peyğəbərlik idiyası etmiş və özlərini Allah səfiri kimi göstərmişlər. Bu səbəbdən alimlər yalancı iddiacıları həqiqi peyğəmbərlərdən seçmək üçün bir sıra yollar göstərmişlər. Bizi yaxın gələcəkdə həmin nişanələrdən biri olan peyğəbərlərin möcüzələri barəsində geniş izahat verəcəyik. Bu hissə, yəni «Peyğəbərlik nisanələri» bizim ikinci bəhsimizin mövzusudur.

Peyğəbərlərin təlimatlarının əsası «vəhy» və «qeyb» aləmi ilə əlaqədə olmaqdır. Əqidə və ideologiya sahəsində yazılan kitablarda

«Vəhy və onun mahiyyəti» adlı bir fəsil acılmışdır ki, orada bu sirli şüur idrakın barəsində bir sıra nəzərlər qeyd olunmuşdur.

Biz bu hissədə Qərbə aldananların və bəzi şərqşünasların nəzəriyələrini tənqid edəcəyik. Şərqşünaslar və Qərbə aldananlar təsəvvür eləmişdilər ki, peyğəbərlərin təlimlərinin mənşəyi onların düşüncə yüksəkliklərindən və ruhi böyüklüyündən irəli gəlir. Biz bu fəsildə sübut edəcəyik ki, peyğəbərlərin təlimlərini onların düşüncə yüksəkliklərindən fərz edənlər ilahi nübüvvəti inkar edirlər. Vəhyin mahiyyəti elə bir həqiqətdir ki, onun necəliyi bizə məlum deyildir. Vəhy xüsusi və sirli bir xabərləşmə vasitəsidir. Deməli, bizim üçüncü bəhsimizin mövzusu «vəhy» barəsindədir.

Başqa bir tərəfdən, hər kəs peyğəmbərlik məqamına layiq deyildir. Peyğəmbərlik məqamına layiq olan kimsə bir sıra şərtlərə malik olmalıdır. Əvvəlcə günahdan məsum olmalıdır. Yəni bütün həyatında günah iş görməyib pis işlərə aludə olmamalıdır. Günahdan uzaq olmaqdan əlavə hər hansı bir üsyandan da uzaq olmalıdır.

Hətta ilahi hökmləri xalqa çardırmaqda da hər hansı bir səhvdən və xətadan qorunmalıdır. Habelə xalqın nifrətinə və ondan uzaq olmasına səbəb olan hər hansı bir üzvi nöqsanlığa və xəstəliyə düçar olmamalıdır.

Bu hissə «Nübüvvət» bəhslərinin ən mühüm bəhsidir ki, «Əqidələr və məzhəblər» elmləri başlanan ilk gündən etibarən alimlər bu məsələləri qaldırmışlar və həmin məsələlər barəsində bir çox kitablar və kitabçalar yazmışlar ki, onları şərh etməklə «Nübüvvəti-ammə»nin dörd hissəsi bəhsi sona çatır.

## QIRX İKİNCİ DƏRS

## QANUNVERİCİLİK BAXIMINDAN PEYĞƏMBƏRLƏRİN GÖNDƏRİLMƏSİNİN LÜZUMU

Alimlər peyğəmbərlərin göndərilməsinin zərurətini müxtəlif yollarla tədqiq və sübut etmişlər və müxtəlif dəlillərlə ilahi peyğəmbərlərin göndərilməsinin zərurətini sübut etmişlər.

### BİRİNCİ DƏLİL

Bu dəlil aşağıda qeyd olunan təməllər üzərində dayanır ki, bunların hər birisi barədə qısa izahat veririk:

### 1. İNSAN İCTİMAİ YAŞAMAQ İSTƏYİR

İnsanın meşələrdə, səhralarda, mağaralarda fərdi yaşamaqdan əl çəkib ictimai yaşamağa can atması bunu göstərir ki, o, əməkdaşlıq edib bir çox çətinliklərə qalib gəlməsi və səadəti yolunda qarşısına çıxan hər hansı bir əngəli aradan qaldırması üçün ictimai yaşamaq isdəyir.

### 2. İNSAN SƏRHƏD TANIMAZ BİR MÖVCUDDUR

Hər bir insanda «özünü istəmə» qərizəsi vardır və bu yolda heç bir məhdudiyyəti tanımır. Hər bir şeyi özü üçün istəyir. Onun həmkarlıq və əməkdaşlıq etməsinin və arıq ictimai qanunlara boyun əyməsinin səbəbi budur ki, insan onlarsız səadətə və xoşbəxtliyə çatmasını mümkün bilmir. İnsan bilir ki, başqaları onun istəyi qarşısında sözsüz-sovsüz boyun əyməyəcəkdir. Buna görə də başqalarının hüququna ehtiram qoyub növpərəstliyi qəbul edir.

### 3. BİR SAĞLAM CƏMİYYƏT ÜÇÜN QANUNUN ZƏRURƏTİ VARDIR

İnsanın xüdpəsənlik hissini normal hala çatmaq və onun zorakılıq hissinə son qoymaq üçün bir sıra qanun lazımdır. Bu qanun iki böyük xusisiyyətə malik olmalıdır:

1) Cəmiyyətdə fərdlərin vəzifəsini müəyyən etməlidir. Bir şəxs nə qədər pak və ədalətli olsa da belə, onun öhdəsinə qoyulan vəzifələr və işinin növü və hüdudu müəyyən olunmayınca öz vəzifələrini lazımi dərəcədə yerinə yetirə bilməz, həmçinin başqalarının hüquqlarına riayət edə bilməz. Çünki, bəziləri ailə tərbiyəsi nəticəsində başqalarının hüquqlarına təcavüz etməyə razı olmazlar, amma öz hüquqlarını və

vəzifələrini bilmədikləri üçün başqalarının hüquqlarına riayət etməyə qadir olmurlar. Nəticədə ola bilər ki, iki hüququn qarşı-qarşıya çıxması nəticəsində bir sira ictimai və əxlaqi fəsadlar, o çümlədən adi öldürmə və savaş baş versin. Bununla insan, xilqətin məqsədi olan təkamülləşmə yolundan qalır.

2) Bir sıra cəzalar və mükafatlar müəyyən etməklə insanın xudpəsəndlik qərizəsini normallaşdırıb başqalarının hüququnu pozma fikrini insanın beynindən çıxartmalıdır. İndi görək insan ictimaiyyətinin əsası olan bu planı və qanunu kimlər tənzim edib formalaşdırmalıdır.

## 4. QANUNVERİCİNİN ŞƏRAİTİ NƏDİR?

Qanunverici xilqət sistemi ilə əməkdaşlıq edib insanlar üçün xüsusi bir yaşayış planı nizamlaşdırmaqla onları kəlama doğru rəhbərlik etdiyi üçün aşağıda qeyd olan xüsusiyyətlərə malik olmalıdır.

1) Qanunvericinin qanunvericilikdən məqsədi insanın cismi və ruhi ehtiyaclarını təmin etməkdir. Bu səbəbdən o, insanın bütün cismi və ruhi sirlərindən agah olmalıdır. Çünki hər hansı bir həkimin müalicəsi o zaman faydalı olmalıdır ki, o, xəstənin vəziyyətindən tam agah olmaqla xəstəni müalicə etsin və xəstənin ruhi və cismi vəziyyətinə uyğun olaraq lazımi göstərişləri versin. Yoxsa onun müalicəsi faydasız olacaqdır.

Başqa sözlə desək, qanunverici «insanşünas» və «cəmiyyətşünas» olmalıdır. Müxtəlif şəraitdə insanın qərizələrindən və onun vucudunun müxtəlif cəhətlərindən və xüsusiyyətlərindən xəbərdar olmalıdır, onun ehtiyaclarını və ehtiyaclarının ödənilməsi yollarını tam surətdə bilməlidir, şəxsi və ictimai məsləhətlərini yaxşıca dərk etməlidir.

2) Qanunvericinin qanunu nizamlandırmaqda və yartmaqda şəxsi mənafeyi olmamalıdır, ona görə ki, onun mənfəəttələblik və xudpəsənlik hissi ağlının önündə qalın örtük olmasın və onu cəmiyyətin mənafe və məsləhətlərini seçməkdə zəiflətməsin.

3) Qanunverici sadəcə zahiri islah etmək və cəmiyyətin işlərini səhmana salmaqla kifayətlənməyib hər hansı bir islahın mənşəyi olan cəmiyyətin fikir və əqidələrinin islahında da ciddi səy göstərməlidir.

Başqa sözlə, cəmiyyəti, müəyyən bir kəmala hidayət etmək üçün qanun yaradanın nəzarət və kontrolu əməllər çərçivəsindən əlavə cəmiyyətin fikrini və əxlaqiyyatını da nəzarət altına almalıdır.

***

İndi görək, bu xususiyyətlərə kimlər malikdir?

Əgər qanunverici «insanşünas» olmalıdırsa, onda insanı yaradan Allahdan başqa kamil insanşünas yoxdur: yaradandan başqa heç kim yaradılanın sirrindən agah ola bilməz.

İnsanın vucudunu tərkib hissələrini birləşdirən və hüceyrələri yaradan Allah, insan vucudunun sirrinə, onun gizli və askar ehtiyaclarına, pisinə, yaxşısına və özu yaradan mövcudun qərizə və hisslərinin neçəliyinə başqalarından daha cox agahdır. Bu səbəbdən bu şərtlə tam şəkildə yalnız Allah malikdir.

İkinci şərtdə də təkcə Allahdır ki, cəmiyyətdə bir menafeyi yoxdur və hər hansı bir xüdpəsənlikdən uzagdır. Bəşərdə ümumiyyətlə, düzgün qanunvericiliyə əngəl olan xudpəsəndlik hissi vardır. Bu qərizədən özlərini qurtarmaq üçün hər nə qədər səy göstərsələr də yenə onun əlindən tam qurtara bilmirlər.

Üçüncü şərtdə isə insanın daxili və gizli işlərini, fikir və əqidələrini nəzarət altına almaq təkcə Allaha, qiyamət gününə, cəzalanma və mükafata inanmaq əsasında olan səmavi qanunlarla ola bilər. Bu iş bəşər qanununun günündən xaricdir, çünki bəşər qanunu sadəcə zahiri və aşkar əməlləri nəzarət altına ala bilir. Onun düşüncə və əqidələrinin islahında heç bir rol oynamır. Xalq əqidə və əxlaqiyyət baxımından tam dərəcədə azaddırlar. Əgər insanın gizli işlərinə nəzarət etmək üçün onun batinini islah etmək qərarına gəlcək və qanunvericiliklə onun batinini islah etmək istəsək, çox təəssüf ki belə bir iş faydasız olacaqdır. Çünki o qanunlar heç zaman qüvvəyə minə bilməz və onu həyata keçirmək də çox çətindir. Bu bir haldadır ki, insanın bütün işləri onun daxili hislərindən və fikir tərzindən asılıdır. Batini islah etmədən hər hansı bir islah işi aparmaq su üzündə şəkil və rəsm çəkmək kimidir. Amma dini metodlarda və məzhəbi islahatlarda bu şərt tam şəkildə riayət olunur. İlahi səfirlər və səmavi müəllimlər vasitəsi ilə xalqın fikir və əqidəsində dərin dəyişiklik törətmək, Allaha və qiyamət gününə inam yaratmaqla daxili və gizli əməllərin, əqidə və fikirlərin nəzarət altına alınmasının və kontrolunun əsasları qurulur və insanların hər tək-təkini elə tərbiyə edir ki, onlar özləri özlərini qoruyur və öz gizli və aşkar əməllərini nəzarət altına alır.

Buradadır ki, cəmiyyəti kəmala sarı yönəltməyin əsası olan qanunvericilik baxımından peyğəmbərlərin göndərilməsi zərurəti aydınlaşır. Çünki insanı meşə sistemindən və yırtıcılıq mühitindən ayırd edən şey yalnız həmnövlərin hüququna riayət etməkdir. Bu hüquqlara riayət etmək üçün insanın nə edəcəyini və nə etməyəcəyini göstərən qanunların olması lazımdır. Bu qanunlar isə o zaman faydalı ola bilər ki, o üç şərtə malik olsun. Bu şərtlər isə ilahi peyğəmbərlər vasitəsi ilə gətirilən ilahi qanunlardan başqa heç bir qanunda yoxdur. Bu üzdən insanın təkamül və inkişafını istəyən Allah, öz pəyam, əmr və qanunlarını insana çatdırmaq üçün peyğəmbər adlı bir sıra insanları səfərbər etməlidir, yoxsa insan istənilmiş təkamülə çata bilməz.

## QIRX ÜÇÜNCÜ DƏRS

## TƏLİM-TƏRBİYƏ BAXIMINDAN BESƏTİN LÜZUMU

Heç bir insaflı şəxs - xilqət aləminə çox səthi diqqət etsə də belə - varlığın məqsədsiz olmasını və xaliqin xilqət aləminin məqsədsiz olaraq yaratmasına inana bilməz. Çünki Mütəal-Allah «həkim» (hikmətli)dir və həkim bir şəxs heç vaxt əbəs yerə bir iş görməz.

Xilqət aləminin nizam-intizamı, bağlılığı və aləmin bütün mövcudlarının həmahəngliyi xilqətin müəyyən bir məqsədini göstərir. Bəlkə də şübhəsiz olaraq xilqətdən məqsəd hər şeyin - bitkinin, canlının, xüsusilə insanın - öz layiqi kəmalına çatdırılmasıdır.

İndi görək bu təkamülə necə çatmaq mümkündür. Bitki və nəbatət daxili bir rəhbərliyin nəticəsində heç bir müəlimə ehtiyacı yoxdur. Heyvanlar isə yaşayış tərzini öz qərizə və hissələrindən öyrənmişlər və öz takamüllərində onlardan ilham alırlar. Sözün tam mənasından daxili qərizələr əql və düşüncənin və hər hansı bir xarici hidəyətin yerini tuturlar. Hər bir heyvan doğub-doğulmağın və uşaqlarını böyütməyin necəliyini, xəstəliklərlə necə mübarizə aparmağı, vasitəsi ilə anlayır və agah olur. Həmin daxili hidayət, onları hər hansı bir hidayət edəndən ehtiyatsız edir.

Amma insanın ehtiyacları bir o qədərdir ki, daxili qərizə və duyğular o ehtiyacların hətta yüzdə birini belə, ödəyə bilmir. Əql məşəli bəzi nöqsanları aradan qaldırırsa və həyatın bir müəyyən hissəsini bəşər üçün aydınlaşdırırsa da belə, amma heç vaxt hislərin və qərizələrin azlığından törənən nöqsanları aradan qaldıra bilməz. Nə üçün?

Çünki insan öz əqidə və düşüncələrindən səhvə uğraya bilər, bir çoxgörünən və görünməz şeylərdə səhv edə bilər. Hər gün elm və həyatda meydana çıxan bir fərziyyə başqasının yerini tutur və bununla elmi yığıncaqlara yeni nəzəriyyələr verilir. Bu baxımından insanın ruhi təkamülünün formalaşmasında əsas və səadətində təməl olan əsas məsələlərdə onun məlumatı və biliyinə etimad etmək olmaz.

Amma peyğəmbərin yeganə bilik qaynağı olan səmavi vəhy səhvə uğramayan bir bilikdir. Çünki vəhy bir sirli idrak olaraq hər bir səhvdən uzaqdır. Belə bir idraka arxalanan təlimat isə etimat etməlidir və həmin təlimatlar insanı əsl səadətə sarı hidayət edəndir.

## BAĞIŞLANILMAZ AZĞINLIQ

Əgər insan biliyinin səhvi onun səadəti ilə əlaqədar olmayan bir sıra məsələlərə həsr olunsaydı, bu surətdə bəziləri peyğəmbərin göndərilməsi zərurəti barədə şübhələnə bilərdi. Misal üçün, əgər onun biliyinin səhvi astronomiya elminə, ulduzların fasiləsinə, Yerin hərəkətinə, qalaktikaların

sayına və ... həsr edilsəydi və səadətə aid olan məsələlərdə səhv etməsəydi, peyğəmbərin göndərilməsi zərurətini inkar etmək yerli idi. Çünki bu surətdə insan özü öz düşüncəsi və biliyi vasitəsi ilə yaradıldığı məqsədə çata bilər. Çünki onun səhvi onun səadəti ilə əlaqədar olmayan məsələlərə həsr olunub. Amma təəssüflə insan elə məsələlərdə səhv edir ki, bu məsələlər onun həqiqi səadəti ilə və hətta maddi yaşayışı ilə birbaşa əlaqədardır.

O hər bir səadətin əsası sayılan xudaşüaslıqda azır ki, bununla öz mənəvi həyatını xətərə salmaqdan əlavə, tövhiddən azdıqı üçün maddi həyatın da kökləri baltalayır.

Bu gün Hindistanın bəzi rayonlarında əhali aclıq və qıtlıqla əlbəyaxadır. Bir halda ki, güya «müqəddəs öküzlər» tam azadlıqla əkin tarlalarını ayaqlayıb aradan aparırlar.

Ümumxalq yalan əqidəsi üçün bir kəs o barədə danışmağa cürət edə bilməz. O «müqəddəs öküzlər» barədə yanlış və səhv əqidə onları elə bədbəxt etmişdir ki, hər il bu geniş ölkədə minlərlə insan acından ölür. Amma heç kim o «müqəddəs öküzlərin» ətindən faydalanıb aclığın qarşısını almağa cürət etmir. Deməli, «əskik» mövcudu «üstün» mövcuda qurban etmir.

Hind dövləti insanları ölümdən qurmaq üçün «müqəddəs öküzlərin» ətlərindən zərurət miqdarında faydanlanmağa dair elan verən gün Hindistanı misli görünməyən bir həyacan bürüdü, az qala dövlət kabineti süqut etmişdi. Bu səbəbdən, dövlət ümumxalq düşüncəsi əsərində sözünü geri götürdü.

Hələ mədəniyyətli insan yaxşı yaşama münasibətlərinin əsası olan «irq» və «soy» məsələsini düzgüncəsinə həll edə bilməmişdir. Dünyanın hər bir bucağında bu məsələyə görə qanlar tökülür və geniş tətillər başlanır.

Hələ də Hindistanda miliyonlarla adam «müqəddəs öküzləri» və səma ulduzlarını pərəstiş edirlər. Əgər qatar yolunda bir öküz yatmışdırsa, heç kim onu yerindən tərpədə bilməz. Sürücü o qədər dözməlidir ki, yolçuların məbudu tam öz xoşuna olaraq qatar yolundan kənara çəkilsin.

Hələ Yaponiya kimi inkişaf etmiş ölkədə hər bir hadisənin səbəbini bir tanrı bilirlər. Yalançı tanrılarını təmsil edən xəyali surətləri pərəstiş edirlər. Ərlik qızlar ər tapmaq üçün bir sıra xüsusi bütləri pərəstiş edirlər ki, güya o bütlər onlara ər yetirən tanrıdır.

Bu, minlərcə ilahi rəhbərin göndərilməsi ilə belə, atom və kosmos əsrinin allahşünaslığı və maarifinin bir vəziyyətidir. Əgər Allah tərəfindən peyğəmbər gəlməsəydilər və bütlərlə mübarizə aparmasaydılar, görəsən xalq allahşünaslıq barəsində nə vəziyyətə düşərdi?

Heç bir şübhə yoxdur ki, tövhid məktəbinin mübariz əsgərləri olmasaydı və səma müəllimləri xalqı ilahi maarifə çəkməsəydilər. Tövhid məşəli dünyanın heç bir yerində qalmazdı.

Sokrat, Əflatun, Ərəstun kimi böyük zəkalı alimlər fikr və araşdırma yolu ilə Allahı tanımış və peyğəmbərlərin məktəbindən ilham almadan tövhid yoluna varmışlarsa da, onları peyğəmbərin göndərilməsi zərurəti məsələsində meyar və ölcü hesab etmək olmaz. Çünki bu məsələdə meyar və ölçü ümumxalqdır, bir necə istisna haləti olan kimsələr yox.

Bundan əlavə, onlar öz əqlləri vasitəsi ilə sadəcə tanrının varlığını sübut edə bilərlər. Amma Allahın sifətləri və Allahın zatının nə kimi sifətlərdən uzaq və nə kimi sifətlərə malik olması barədə bir şey əldə edə bilməzlər. Həmçinin peyğəmbərlərin hidayət çırağının işığı müəyyən zaman və məkana həsr olunmur. Bəşər yer üzünə qədəm qoyduğu zamandan və şüur və əql sahibi olan vaxtdan ilahi səfirlərdən feyz almağa və vəzifəsini bilməyə layiq olunmuşdur. Vəhy müəllimləri onu hidayət etmək üçün yollanmışlar. Bu cəhətdən çox da nəzərə uzaq gəlmir ki, belə zəkalı alimlərin Allaha iman gətirməsi də onlardan qabaqkı peyğəmbərlərin təlimləri təsirindən olsun. Elə peyğəmbərlər ki, onların təlimlərinin əks-sədası Yunanıstana kimi gedib çatıb və parıltısı hər yanı bürüyüb.

## QIRX DÖRDÜNCÜ DƏRS

## İNSANİ ELMLƏRİN İQTİSADİYYATDA VƏ ƏXLAQDA ÇATIŞMAMAZLIĞI

Bəşər elmlərinin yetərsizliyi təkcə «vücud» (məbdə), məad, tanrı və onun sifətlərinə aid olan məsələlərlə bitmir ki, insan bir sıra işlərdə peyğəmbərə möhtac olmasın. Onun cəhaləti və xəbərsizliyi dünya səadətinin təməli sayılan bir çox iqtisadi, siyasi və əxlaqi məsələləri də əhatə edir. Bir çox məktəblərin ziddiyyətli fikirləri bunu yetirir ki, insan onun əqlindən və fikrindən xaric olan bir sıra elimlərə möhtacdır.

Sözümüzü bir beçə misalla izah edirik:

1) Şübhəsiz ki, maddi həyatın əsasını cəmiyyətin səadətini və şəxislərin hüququnu təmin edə bilən bir iqtisadi sistem təşkil edir. Amma insan bir belə texniki tərəqqi ilə belə, hələ də vahid bir sistemə gəlib çıxa bilməmişdir. Deməк, düzgün iqtisadi sistemi müəyyən etmək bəşər üçün həll olunmaz bir tapmaca və məsələ olmuşdur.

Bu vəziyyətlə demək olar ki, insanın əqli və düşüncəsi onu müəyyən edilmiş məqdəsə doğru hidayət edə bilər? Və yaxud bu yolu getmək üçün «hidayəti-təşrii» adlanan başqa bir hidayət yolundan ilham alaraq öz nöqsanını bununla aradan qaldırmalıdır?

2) Əxlaqi dəyərlər insan həyatının əsasını təşkil edir. Əxlaqı olmayan bir xalqın heç insani səciyyələri də yoxdur. Amma bəşər hələ də düzgün əxlaqiyyat prinsiplərini açıqlaya bilən sistematik əxlaqiyyat məktəbini qura bilməmişdir ki, onu dünyaya tanıtdırsın. Həmin əxlaqiyyata dair ziddiyyətli mövqelər vardır. Bəziləг əxlaqı belə təfsiz edirlər: «Məqsədə çatmaq üçün yardım edən hər hansı bir şey həmən əxlaqdır». Bu təfsirə görə hər hansı bir qətl və cinayətgarlıq «proletar» inqilabına yardım göstərsə və kapitalizim cəmiyyətinin kommunizmə sarı yönəlməsinə səbəb olsa, onda o, bir əxlaqi dəyər və insani səviyyə sayılır. Hətta milyonlarla günahsız insan həlak hələk olsa da və yüzlərlə müəssisə dağılsa da belə.

Mümkündür siz bu sözü eşitməkdən təəccüblənəsiniz ki, dünyada bəzilərinin əqidəsinə görə proletar inqilabının ləhinə olan hər hansı bir məkr və hiylə əxlaqi bir işdir. Demək, siz «məqsədə çatmaq üçün hər bir vəsilədən istifadə etmək rəvadır» sözündən təəccüblənəcəksiniz. Sizin təəcübünüzü aradan qaldırmaq üçün aşağıdakı qeyd olunan cümləyə - bu partiyaların qurucularından birisinin sözünə diqqət edin:

Lenin deyir ki, «bir komunust» hər bir növ fədakarlığa hazır olmalıdır. Lazım olan vaxt hər bir yalana, hərbi hiyləyə əl atmalıdır və qeyri-məşru (şəriyyətə uyğun olmayan) işlərə əl atmalıdır.

Kapitalist ölkələrində başqa ölkələrdən daha çox əxlaqiyyata geniş şəkildə təzahür edilir. Amma orada bir əsil əxlaq sistemi yoxdyr. Orada

əxlaq adlanan şey əxlaq adı ilə cilvələnmiş istismarçılıq əhval-ruhiyyəsidir. Onların əxlaqiyyat sistemlərində Allahın rizayətini və ya öz vəzifəsinə əməl etmiş olacaq şəkildə necə əməl etmələrinə dair bir söz getmir. Bütün bəhslər, danışıqlar və təkliflər tamamilə cəmiyyətin rizayətini və xalqı rəqabətini qazanmağa həsr olunur. Həhayət buna fikir verilir ki, maddi həyatı hansı əsas üzrə qursan tam qazanc aparmaq olar və çox ləzzət əldə etmək olar.

Belə bir əxlaq mənfətpərəstliyi və materializm əks etdirir və heç vaxt cəmiyyətdə insani səciyyələri ehya edə bilməz (dirildə bilməz).

Görəsən əxlaqiyyatda olan bu pozğunluqla belə, bəşərin vəhyə arxalanmadan bir sıra insani səciyyələri və fəzilətləri dirildən və qəlblərə hökm sürən mənaviyyatı təmin edən üsula əl tapması mümkündür.

Əgər hal-hazırda dünyanın bəzi yerlərində bəzi əxlaqi dəyərlər qalmışdırsa və bəzilər əxlaqı məhz əxlaq üçün, mənəviyyatı məhz mənəviyyət üçün istəyirlərsə və əxlaqi səciyyələrlə insanın ruhunu bəzəndirmək isdəyirlərsə də, bunlar hamısı səmavi rəhbərlərin geniş mübarizələri və təbiqatları nəticəsindədir.

3) Səadət və bədbəxtlik səbəblərini tanımaq, başqa sözlə, insanın xoşbəxtliyi və bədbəxtliyi ilə bir-başa əlaqədə olan şeyləri tanımaq kamla çatmağın birinci pillələrindəndir. Dünyanın bir çox xalqlarını peyğəmbərlərin təlimləri nəticəsində bu səbəblərin bir qismi ilə tanış olmuşlar: bəzi şeyləri ictimayi vəzifə, bəziləri haram və bəzilərini də münükər kimi tanımışlar. Əgər peyğəmbərlər gəlib bir çox şeylərin pisini və yaxşısını aydınlaşdırmasaydılar, bəşər öz fikri ilə onları bilmək üçün nə qədər vaxt lazım idi? Bu sualın cavabı və o vaxtdın müəyyən edilməsi çox çətindir.

Nəzərə çox uzaq gəlmir ki, əgər peyğəmbərlər göndərilməsəydi, bəşər hələ bir çox ictimai və əxlaqi pislik və yaxşılıqları anlamaqda aciz olardı. Çünki miasal üçün, insan bu inkişafı ilə və br sıra laboratoriya dəsgahları vasitəsi ilə spirtli alkoqolun, donuz ətinin, qanın, həşaratların və s. zərər və ziyanını anlamışsa da belə, yenə həmin içkilərdən və qidalardan istifadə edir.

Görəsən insanın bir belə ağlının azlığı ilə, Allahın insanı yaradıb onun yaşayış və həyatını öz əlinə verməsi düz iş idimi və ya ondan bunu tələb edəydi ki, xalq olduğu məqsəd üçün hərəkət etsin?

## PEYĞƏMBƏRLƏRİN GÖNDƏRİLMƏSİ BARƏDƏ QURANIN VƏ HƏDİSLƏRİN NƏZƏRİ

Bununla aydınlaşır ki, peyğəmbərlərin göndərilməsinin səbəblərindən biri insanın naqis əqlini və biliyini təkmilləşdirilməsidir. Quranda və hədislərdə həmin sözə dair müxtəlif ibarətlər nəql olunmuşdur. Misal üçün, Quran peyğəmbərlərin göndərilməsi səbəbini insanlar arasından ixtilafı götürmək bilir:

فَبَعَثَ اللَّهُ النَّبِيِّينَ مُبَشِّرِينَ وَمُنْذِرِينَ وَأَنْزَلَ مَعَهُمُ الْكِتَابَ بِالْحَقِّ لِيَحْكُمَ بَيْنَ النَّاسِ فِيمَا اخْتَلَفُوا فِيهِ

***«Allah onlara müjdə verən və əzabla qorxudan peyğəmbərlər göndərdi, insanlar arasındakı ixtilafları ayırd etmək üçün O, peyğəmbərlərlə birlikdə haqq olan kitab nazil etdi».***[1]

Deməkk, nəzər və fikir ayrılığı fikrin çatışmamazlığından və biliyin azlığından irəli gəlir. Peyğəmbərlər isə vəhyin vasitəsi ilə həqiqəti aydınlaşdırırlar.

İslamın yüksək şanli peyğəmbəri bir rəvayətdə besətin məqsədini insanın ağlının təkmilləşdirilməsi bilir:

وَ لا بَعَثَ اللَّهُ نَبِيًّا وَ لا رَسُولًا حَتَّى يَستَكمِلَ العَقلُ وَ يَكُونُ عَقلُهُ اَفضَلَ مِن عُقُولِ اُمَّتِهِ

«Allah heç vaxt kamil olmayan və ağlı öz ümmətinin ağlından az olan peyğəmbəri göndərməmişdir».[2]

---

[1] «Bəqərə» surəsi, ayə 213.
[2] «Üsuli-Kafi» cild 1.

## QIRX BEŞİNCİ DƏRS

## MÖCÜZƏNİN MAHİYYƏTİ İLƏ TANIŞ OLAQ

İnsan təbii olaraq iddiaçıdan öz iddiasına dəlil istər. Heç bir kəs dəlilsiz bir iddianı qəbul edə bilməz və ya birinin böyüklüyünü və ləyaqətini bilməyənə kimi onun qarşısında boyun əyə bilməz.

Bu səbəbdəndir ki, Əbu Əli Sina deyir: «Hər kim bir başqasının iddiasını dəlilsiz olaraq qəbul etsə, o, əsil sağlam insan fitrətindən xaric olmuşdur və öz təbiətindən azmışdır».

O, «Şəfa» kitabında demişdir: «İlahi səfirlərin tanınması üçün onların bir sıra üstünlükləri və nişanələri olmalıdır. Tainki onunla xalq onları tanıyıb saxta və yalançı iddiaçılardan seçə bilsin».

Səfirlik, qubernatorluq, fərmandarlıq kimi məsuliyyəti iddia edən kimsə öz sübutunu göstərməyincə heç kim onun sözünə baxmaz. Eyni ilə də böyük Allahın nümayəndəsi olmasını iddia edən kimsə özünü dəlillə təqdim etməsə, onun nümayəndə olmasına heç kim inanmaz.

Bundan artıq nə ola bilər ki, bir şəxs Allahın nümayəndəsi və səfiri olduğunu iddia etsin və bütün xalqın ondan tabeçilik etməsini istəsin.

Bundan əlavə, tarixdə qeydə alınmışdır ki, keçmiş zamanlarda bəzi məqamtələb şəxslər maddi şəhvətlər və həvəsləri üçün peyğəmbərlik iddiaçısı olmuş və bəzi sadəlövhləri də aldarmışlar. Onlar bəzən bir sıra hoqqabazlıqla və hiyləgərliklə kiçik bir mühitin və ya məntəqənin diqqətini cəlb etmişlər.

Bu səbəbdən (yəni əvvəla insanın heç bir iddianı dəlilsiz qəbul etməməsi və həmçinin tarixdə saxta peyğəmbərlərin olması) peyğəmbərlik iddiası edən şəxs öz iddiasını dəlillə sübut etməlidir.

Bu cəhətdən maarif alimləri peyğəmbərləri tanımaq üçün bir sıra yollar göstərmiş və nişanələr müəyyən etmişlər ki, onların hər birisi peyğəmbərlik iddiası edənin haqlı olmasına bir aydın dəlildir.

Peyğəmbərlərin qeyb aləmi ilə əlaqədə və Allahın məmurları olmalarının dəlillərindən biri onların ecazlarıdır. Peyğəmbərlər həyatlarında öz ecazlarından istifadə edib onu öz haqlı olmalarına bir dəlil kimi bilmişlər. Xalq isə möcüzəni onların doğru olmalarına ən açıq dəlil bilmişdilər. Bu o qədər genişdi ki, insan «peyğəmbər» və ya «imam» sözünü eşitdikdə ecazı xatırlayır. Sanki bunların arasında tam bir əlaqə vardır ki, insan onların birisini eşidəndə o biri də nəzərdə canlanır. Burada ecazın tam şəkildə açıqlanması üçün əvvəldə ecazın qısa izahını veririk, sonra onun həqiqəti və mahiyyəti barəsində geniş bəhs açacağıq.

## ECAZ (MÖCÜZƏ) NƏDİR?

İdeoloqiya elmləri mütəxəssisləri möcüzə belə izah edirlər. Möcüzə qeyri-adi bir işdir ki, peyğəmbərlik iddiası edən şəxs öz əlaqəsini Allaha sübut etmək üçün görər və bütün dünya xalqlarından o işin mislini görməyə çağırar. Amma heç kim o işi görə bilməz.

Bu izahda möcüzənin bir sıra xüsusiyyətləri qeyd olunmuşdur ki, onları izah etməyə dəyər. O xüsusiyyətlər bunlardan ibarətdir.

1. Möcüzə qeyri-adi bir işdir.
2. Möcüzə göstərən şəxsin peyğəmbərlik iddiası vardır.
3. O işi görməyə heç kimin gücü yoxdur.

İndi həmin xüsusiyyətləri izah edirik.

## MÖCÜZƏ QEYRİ-ADİ BİR İŞDİR.

Şübhəsiz ki, dünyada heç bir şey səbəbsiz deyildir. İnsan tədricən əşyanın səbəblərini müxtəlif vasitələrlə tanımışdır. Amma möcüzə bir real olduğu üçün səbəbsiz deyildir, ama onun səbəbini başqa şeylərin səbəbi kimi elmi araşdırmaqla tapmaq olmaz və heç vaxt onu elmin müəyyən etdiyi səbəblərlə təfsir və təhlil etmək olmaz. Qeyri-adidən məqsəd budur ki, o, əşyada bizim alət etdiyimiz səbəblər və metodlarla tam fərqlidir. Onun səbəbi sadə əşyada gördüyümüz səbəblərdən başqa bir şeydir.

Misal üçün, bizim həyatımızda adət etdiyimiz və öyrəndiyimiz şeylərdən biri budur ki, balaca ilan bir müəyyən müddətdən sonra böyüyüb əfi ilana dönə bilər və ya yeraltı suları kəhriz vasitəsilə yerin üzərinə çəkmək və xəstələri dava-dərmanla sağaltmaq olar. Amma heç vaxt (nə adi və nə də elmi yolla) bir quru ağacın bir ləhzədə ilan olmasını görməmişik və ya bir çəliyin daşa vurulması nəticəsində daşdan suyun axmasını və ya bir əl çəkməklə xəstənin sağalmasını görməmişik. Bu cəhətə görə deyilir ki, «ecazkarlıq» bir qeyri-adi işdir.

## BU İZAHDAN İKİ NƏTİCƏ ALIRIQ

1. Əgər bir şeyin səbəbi adicəsinə müəyyən olarsa, o möcüzə deyildir. Çünki bu halda adi çarəyanın xilafına heç bir iş görülməmişdir. Belə bir şeyin ya hamının xəbərdar olduğu adi səbəbi və yaxud mütəxəssis alimlərin bildiyi elmi səbəbi vardır ki, hər kəs o sahədə mütaliə etsə, o səbəbdən agah olar.

2) Möcüzə adi baxımdan qeyri-mümkün bir iş kimi nəzərə kəslə də, amma əql baxımından bir mümkün və baş verə bilən bir iş olmalıdır. Yəni zatən qeyri-mümkün olmamalıdır. Bu o deməkdir ki, götürülməsi istənilən işin əql nəzərindən götürülməsi mümkün olsun. Bu səbədən onlardan bunu istəmək olmaz ki, eyni ləhzədə hava həm işıqlı olsun və

həm də qaranlıq; və ya eyni zaman və məkanda həm yağış yağsın və həm yağmasın. Çünki bu işlər zatən qeyri-mümkündür və görmək olmaz.

İndi aşağıdakı misallara diqqət edin.

a) Bir ağır şeyin bir yerdən başqa bir yerə aparılması mümkün bir işdir. Amma bu işi adi vəsilələrlə kömək olar. İndiyə kimi görünməmişdi ki, ağır bir şeyi dua ilə və ya bir nəzər salmaqla yerbəyer etmək mümkün olsun. Belə bir iş qeyri-adi olub səbəb-nəticə nizamından xaricidir. Deməli, bu iş qeyri-mümkündür. Amma həmin işin qeyri-adi vasitələrlə görülməsi zatən qeyri-mümkün deyildir. Yəni həmin iş başqa bir alimin vasitəsi ilə görülürdü. Demək, birinci mərhələrdə o işi görmək üçün adi vasitələrdən istifadə olunur. Əgər o iş zatən qeyri-mümkün olsaydı, hər iki halda görülməsi qeyri-mümkün olardı.

Bizim ikinci işi görüb eşidəndə təəccüblənməyimizin səbəbi budur ki, dünyaya göz açdığımız gündən cisimlərin hərəkətini sadəcə zahiri amillərin vasitəsi ilə müşahidə etmişik. Heç vaxt belə bir işin qeyri-adi səbəblərin ilahi və qeybi qüvvənin vasitəsi ilə görülməsini müşahidə etməmişik. Deməli belə bir iş qeyri-adi nəzərə gəlir. Amma əqlin xilafına və əqli qanun-qaydaların ziddinə deyildir.

b) Bir gün var idi ki, anadan olma korların və vərəm xəstəliyinə düçar olanların müalicəsi bəşərin qüdrətindən xaric idi, amma bu xəstəliklərin müalicəsi mümkün idi.

Bu növ xəstəliklər üçün iki yol vardır. Birisi adi səbəblərin vasitəsi ilə. Misal üçün, xəstənin gözlərini əməl edib onu müxtəlif dərmanlarla sağaldıb və xəstəliyini aradan aparmaq.

İkinci yol isə hər ləhzədə hər bir mümkün işi görə bilər: Allahın sonsuz qüdrətindən yardım diləməklə bu çətinliyə qalib gəlmək, korlara və xəstələrə duayla şəfa almaq. Hər iki işin mahiyyəti eynidir, o da bir mümkün işin görülməsidir. Amma birinci işin səbəbi zahiri və adidir, ikinci işin səbəbi isə bəşərin məlumatından xaric olan gözə görünməz səbəblərdir.

c) Fəzaya hakim olmaq və bəşərin Ay kürəsinə enməsi adi və mümkün bir işdir. Bunlar əqlin yanında da «yoxluq ilə varlığın bir yerdə yığışması» kimi zatən qeyri-mümkün deyildir. Bəşər əsrlər boyu intizar çəkəndən sonra öz arzusuna çatmışdır; texnikanın inkişafı nəticəsində və minlərcə riyaziyyat, fizika və texnika alimlərinin ardıcıl səyləri nəticəsində bəşər birinci dəfə olaraq Ayın səthinə enə bildi. Bu işin əzəmətinə baxmayaraq, möcüzə deyildir. Milyonlarla insanı təəccübləndirsə də belə, möcüzə sayılmaz. Çünki bu iş alimlərin əlində olan zahiri və aşkar səbəblərin vasitəsi ilə görülmüşdür. Hər kim bu sahədə ixtisasçı olsa, həmin işləri görə bilər.

Amma əgər insan heç bir vasitə olmadan və heç bir elmi və fikri fəaliyyət göstərmədən bir sadə iradə və təsmimin vasitəsi ilə fəzaya istila tapa bilsə və öz evindən göylərə tərəf uça bilsə, bu halda o iş möcüzə sayıla bilir. Hər iki işin mahiyyəti eynidir. Hər iki halda fəza təsxir

olunmuş və ya Ay kürəsinə addım qoyulmuşdur. Amma birində adi və elmi vasilələrdən istifadə olunmuşdur, o birisində isə, ilahi insanlardan biri bilinməyən və gözə görünməyən səbəblərdən yardım alaraq o işi görmüşdür.

## QIRX ALTINCI DƏRS

## MÖCÜZƏ GƏTİRƏN PEYĞƏMBƏRLİK İDDİASI ETMƏLİDİR

Möcüzənin ikinci üstünlüyü budur ki, onu gətirən peyğəmbərlik və Allah tərəfindən xalqın rəhbəri seçilmə iddiası etməlidir və o, möcüzəni öz iddiasını sübut etmək üçün bir dəlil kimi meydana gətirir. Yoxsa onun gördüyü iş qeyri-adi olsa da belə, möcüzə sayılmaz ki, ona «kəramət» deyərlər.

Bununla din böyüklərinin, ariflərinin və həqiqi saliklərin (ariflərin) ruhi səfaları üçün Allahın izni ilə varlıq aləmində təsərrüf etmələrinə və qeyri-adi iş görmələrinə möcüzə deyilməz. Çünki onlar nə bir vəzifə sahibi olmaqlarını iddia edirlər və nə də ki, öz vəzifələrini sübut etmək üçün ondan bir dəlil kimi istifadə edirlər.

Allah Həzrəti Məryəmi xüsusi bir kəramətlə Quranda xatırlayıb deyir:

فَتَقَبَّلَهَا رَبُّهَا بِقَبُولٍ حَسَنٍ وَأَنْبَتَهَا نَبَاتًا حَسَنًا وَكَفَّلَهَا زَكَرِيَّا ۖ كُلَّمَا دَخَلَ عَلَيْهَا زَكَرِيَّا الْمِحْرَابَ وَجَدَ عِنْدَهَا رِزْقًا ۖ قَالَ يَا مَرْيَمُ أَنَّىٰ لَكِ هَٰذَا ۖ قَالَتْ هُوَ مِنْ عِنْدِ اللَّهِ ۖ إِنَّ اللَّهَ يَرْزُقُ مَنْ يَشَاءُ بِغَيْرِ حِسَابٍ

***«Zəkəriyya hər dəfə (Məryəmin) ibadət etdiyi mehraba girdikdə, onun yanında bir ruzi olduğunu görərdi. (Zəkəriyya:) «Ya Məryəm, bunlar sənin üçün haradandır?» - dedikdə, o: «Allah tərəfindəndir!» - deyə cavab verərdi. Həqiqətən, Allah istədiyi şəxsə hədsiz ruzi verər!»***[1]

Qabaqkı ümmətlərin və həmçinin islam ümmətinin arasında bir çox şəxslər vardır ki, bəzi iradə ilə bir sıra işlər görürlər ki, heç vaxt adi ölçülərlə təfsir və təhlil oluna bilməz. Amma bir vəzifə sahibi olmaqlarını iddia etmədikləri üçün onlara sadəcə kəramət sahibləri deyilir.

## XALQ ONUN QARŞISINDA ACİZ OLSUN

Bu möcüzənin üçüncü bir üstünlüyüdür, bu üstünlüyün iki şərti vardır:

1. Möcüzə gətirən şəxs xalqı mübarizəyə çağırmalıdır.

2. Hamı onun qarşısında aciz qalmalı və heç kim onunla mübarizə apara bilməməlidir.

Əgər möcüzə gətirən onun işinə tay bir iş görmək üçün xalqı mübarizəyə çağırmasa və yaxud mübarizə məqamında məğlubiyyətə

---

[1] «Ali-İmran» surəsi, ayə 37.

uğrasa və başqaları da onun işinə oxşar bir iş görsələr, bu halda o iş möcüzəlikdən və ecazkarlıqdan xaric olur.

Başqa sözlə, möcüzə elə bir qeyri-adi və fövqəladə bir işdir ki, insan və hətta alimlər, mütəxəssislər və dahilər də o işi görməkdə aciz olsunlar. Beləliklə aydılaşır ki, onun sığınacağı yer Allahın sonsuz qüvvəsidir ki, adi insanın ixtiyarından xaricdir.

Deməli həkimlərin elmi ecazkarlıqları, iktişafatçıların və ixtiraçıların ixtiraları və asketlərin, sehrkarların və cadugərlərin əsrarəngiz işləri möcüzənin hüdudlarından xaricdir. Çünki baxmayaraq onların işlərinin nəziri olmayıb və bəzən də fövqəladə kimidir, amma insan o işi görməkdən aciz deyildir.

Doktor Barnard ilk dəfə olaraq Cəbubi Afrikada qəlbi peyvənd vuranda dünyanın mətbuat orqanları onu elmin möcüzəsi kimi təbliğ etdilər. Amma çox çəkmədi ki, o peyvəndin tayı başqa ölkələrdə də cərrahların vasitəsi ilə vuruldu.

## ONUN ƏMƏLİ İDDİASI İLƏ UYĞUN OLMALIDIR

Bəziləri möcüzəyə başqa şərtləri də artırmışlar. O da budur ki, fövqəladə iş iddiaçının iddiasını təsdiq etdiyi bir şəraitdə möcüzə sayıla bilər. Musal üçün, əgər birisi peyğəmbərlik iddiası ilə bərabər, öz möcüzəsini xəstələrə toxunmaqla və ya xəstənin bədəninə əl çəkməklə şəfa verməsini iddia etsə və lakin nəticə iddia etdiyi sözün əksinə olsa, yəni xəstənin bədəninə əl çəkdikdə xəstənin halı daha qolaylaşsa, bu halda belə bir işə möcüzə deyilməz. Çünki onun bu işi Allaha əlaqədə olmağın nişanəsi deyildir.

Bu qeydi buna görə artırmışlar ki, «Müsəyləmə» adında bir şəxs peyğəmbərlik iddiası etdi. O, möcüzə göstərmə məqamında öz ağız suyunu (tüpürcəyini) quyunun suyunu çoxaltmaq məqsədi ilə quyuya saldı, amma quyunun suyu qurudu. Əlini bərəkət artırmaq məqsədi ilə Bəni-Hüneyfə qəbiləsinin uşaqlarının başına çəkdi, amma uşaqlar keçəl oldular. Bəziləri isə başqa eybəcərliyə düçar oldular.[1]

[1] «Tarixi Kamil ibn Əsir» cild 2, səh. 138.

## QIRX YEDDİNCİ DƏRS

## MÖCÜZƏ SƏBƏBSİZ DEYİLDİR

Şübhəsizdir ki, hər bir şeyin bir səbəbi vardır ki, onu vücuda gətirmişdir. Səbəb-nəticə qanunu isə bir möhkəm və müstəsnası olmayan əqli qanundur. Bununla peyğəmbərlərin möcüzəsi də bu qaydadan xaric deyildir və bir səbəbə möhtacdır. İndi gərək peyğəmbərlərin möcüzələri nə kimi səbəblərin vasitəsi ilə əmələ gəlir.

Peyğəmbərlərin möcüzələrinin səbəbi aşağıda qeyd olunan üç səbəbdən biri ola bilər:

1) Tanınmamış təbii səbəblər.
2) Peyğəmbərin ruhları və nəfslərinin təsiri.
3) Maddədən başqa səbəblər (mələk kimi).

### 1. TANINMAMIŞ TƏBİİ SƏBƏBLƏR

Bundan məqsəd budur ki, bir şeyin vücuda gəlməsi üçün iki yol mümkündür ki, biri tanınmış və məlum olsun və digəri tanınmamış və məchul olsun. Amma peyğəmbərin Allahın namütənahi (sonsuz) elmi ilə əlaqədə olduqları üçün vəhy yolu ilə bu kimi səbəbləri tanıyıb və bir sıra şeylər yaratmaları mümkündür.

Bizim öz içimizdə həmin işə oxşar iş çoxdur. Misal üçün, əkinçilik sahəsində ixtisasçı olan alim bitki üzərində tam agahlığa malik olduğu üçün bir ağacı üç ilin ərzində bara gətirə bilir, amma bir adi bağban əkinçilik və bağbanlıq sahəsində elmi prinsiplərə riayət etmədiyi üçün həmin ağacı on il ərzində bara gətirir.

Mahir və təcrübəli müəllimlər təcrübəsiz müəllimlərin altı ildə gördükləri işi iki ildə görə bilirlər. Bununla heç bir maniə yoxdur ki, peyğəmbər «qeyb» aləmi ilə əlaqədə olduqları və vəhy adında sirli bir şüura və hissə malik olduqları üçün bir sıra tanınmamış və insan üçün gizli qalan təbii səbəblərdən agah olaraq onunla bir sıra işləri görə bilsinlər.

### 2. PEYĞƏMBƏRLƏRİN RUHLARININ VƏ NƏFƏSLƏRİNİN TƏSİRİ

Mümkündür ki, bəzi şeylər peyğəmbərlərin nəfəsləri və ruhları təsirində olsun. Çünki biz bir sıra riyazətkeşləri görürük ki, rizayət çəkib pəhrizkarlıqla adi insanın görə bilmədiyi bir sıra heyrətləndirici işlər görürlər. Elə işlər görürlər ki, onların təfsir etmək və yozmaq üçün nəfsləri nvə ruhlarının təsirindən başqa onlara bir səbəb bilmirik.

Bu kimi şəxslər barədə müxtəlif məqalələr və kitablar yazılmışdır. Onlardan mətbuatda müxtəlif fotolar və şəkillər çəkilmiş və əks etdirilmişdir. Heç kim onu inkar edə bilmir. Baxmayaraq ki, mətbuatda dərc olunan xüsusiyyətlərin və təfsilatların hamısını qəbul etmək olmaz, amma bu işin əslini və var olmasını da tamamilə inkar etmək mümkün deyildir.

Bununla, «Peyğəmbərlərin nəfsləri Allahın sonsuz inayəti və lütfü üzündən insanın qüdrətindən xaric olan bir sıra işləri görməyə qadir olurlar» - deməyimizin heç bir eybi yoxdur.

Onların bu işləri görməkdə məqsədləri şöhrət qazanmaq və güclərini nümayiş etdirmək və yaxud başqa alçaq maddi məqsədlər deyildir. Onlar «qeyb» aləmi ilə olan əlaqələrini və Allahın yer üzündə nümayəndəsi olmaqla sübut etmək üçün bu kimi işlər görürlər. Allah da onların nəfəslərini o işləri görmək üçün qüdrətli edir. İslam filosofları Allahın yaxın bəndələrinin möcüzələrini və kəramətlərini yozmaqda həmin nəzəri vermişlər. Onlar bu barədə deyirlər:

İnsan ruhu qüdrət və təsir baxımından təbiət aləmində elə mərhələyə çata bilər ki, bir iradə və istəklə şiddətli yellər və həlakedici tufanlar törətsin. Xəstələri sağaltsın, yırtıcı heyvanları öz əmrinə tabe elətdirsin. Deməli, insanın ruhu öz bədəninə istilası olduğu kimi, bir iradə və meyllə öz qüdrətini ona göstərdiyi kimi bəzən ruhun qüdrətinin əzəməti və genişliyi nəticəsində maddi aləmi onun üçün bədən kimi olub onun tam itaətində olur. Ruh isə bir iradə ilə aləmdə təsərrüf edə bilir və öz istədiyi kimi aləmdə təsir buraxıb dəyişiklik törədir.

Bizim bu nəzərimizin dünyada olan riyazətkeşlərin fövqəladə işləri təsdiq edir. Onlar öz ruhlarını gücləndirməklə və maddi ləzzətlərdən özlərini məhrum etməklə özlərində sirli bir qüvvə yaradırlar və bir sıra əsrarəngiz işlər görürlər ki, hər bir tamaşaçını heyrətə daldırır.

Bu raportların və xəbərlərin doğruluğu barədə şübhələnmək bir növ əsassız vəsvəsə və bədbinlikdir ki, bəzilərində bu vəsvəsə görünür. Bu kimi şəxslərə lazımdır ki, zəhmət çəkib dünyanın şərq və qərbinə gedib öz gözləri ilə onların möcüzəvi işlərini müşahidə etsinlər.

Onların bütün işlərinin mənşəyi maddi ləzzətlərdən çəkinməklə ruhlarında yaranan sirli bir qüvvədir. Sanki belə bir ruhi qüvvələr ilə maddi ləzzətlərə yönəlmə arasında bir növ qarşılıqlı əks təsir vardır. Yəni insan nə qədər maddi ləzzətlərdən çəkinirsə bir o qədər də ruhu qüvvələnir; və insan nə qədər maddi ləzzətlərdə çulğalanırsa bir o qədər də ruhu düşgünləşir və ruhun sirli qüvvəsi eləcə də gizli qalır və özünü göstərməyə imkan tapa bilmir.

## 3. MADDƏDƏN BAŞQA SƏBƏBLƏR

Mümkündür ki, bir şeyin tapılması üçün mələk kimi maddədən başqa səbəbi olsun. Yəni mələk Allahın tərəfindən bir kəndi dağıtmaq üçün

məmur olsun və ya peyğəmbərin tələbindən sonra onun vasitəsi ilə möcüzə zahir olsun.

Cünki mələklər Allahın qüdrəti məzhərləridir və Allahın xilqəti aləmində tədbir məmurları və haqq ordusudurlar. Bu cəhətdən Allah Quranda onlardan فَالْمُدَبِّرَاتِ أَمْرًا «Xilqət və yaradılış aləminin tədbirçiləri»[1] - deyə xatırlamışdır.

Xülasə, bir təbii fenomen adi səbəbdən əlavə, qeyri-adi səbəblərin vasitəsi ilə də yarana bilər. Heç vaxt bir şeyin səbəbi yalnız təbii səbəblərlə məhdudlaşmır ki, möcüzəni inkar edənlər belə təsəvvür etmişlər. Yuxarıda qeyd etdiyimiz amillərin hər biri bir şeyin vücuda keçməsində səbəb ola bilər. Əgər bir şeyin yaranmasında adi səbəbi görməsək, onun səbəbsiz olmasını təsəvvür etmək düzgün olmaz.

***

Peyğəmbərin möcüzələrini həmin üç yolla təfsir etməliyik. Yəni belə deməliyik ki, onlar bu işləri ya tanınmamış maddi səbəblərin vasitəsi ilə görmüşlər, ya da Allaha bəndəlik edib ondan itaət etmək yolu ilə nəfəslərində yaranan qüvvənin vasitəsi ilə bu işləri görməyə qadir olmuşlar və ya inki hamısı bir sıra qeybi səbəblərin nəticəsidir ki, Allahın əmrilə yaradılış aləminin tədbirçiləri və Allahın əsgərləri vasitəsi ilə görülür. Hər halda heç bir möcüzə səbəbsiz deyildir, sadəcə adi səbəbi yoxdur. Amma həqiqi və real səbəbi vardır.

[1] «Nazirat» surəsi, ayə 5.

## QIRX SƏKKİZİNCİ DƏRS

## MÖCÜZƏ PEYĞƏMBƏRLİK İDDİAÇISININ DOĞRULUĞUNA NECƏ DƏLİL OLA BİLƏR?

Peyğəmbərlik iddiaçisinin doğruluğunu bilmək üçün birinci yol həmən onun iddisına dair gətirdiyi möcüzədir. Onunla doğru peyğəmbərlə yalançı peyğəmbəri tanımaq mümkündür. Burada belə bir sualla rastlaşırıq:

Möcüzə peyğəmbərlik iddiaçisi edənin doğruluğuna dəlil ola bilərmi; və ümümbəşərin qüdrətindən xaric olan fövqəladə bir işi görmək o işi görənin doğruçuluğuna necə bir dəlil ola bilər? Çünki iddia (peyğəmbərlik) ilə dəlil (möcüzə) arasında bir növ əlaqə və münasibət lazımdır.

Möcüzəni peyğəmbərlərin doğruluğuna dəlil bilən şəxslər o şəxsə bənzərlər ki, doktor Barnardın qəlb peyvənd vurmasını onun fəza və ulduzlar barəsində verdiyi nəzəriyyələrinin hamısının doğruluğuna bir dəlil biləsər. Əslində ilanın və əfinin quru ağaca dönməsi və xəstələrin sağalması və s. peyğəmbərlik iddiaçısının məbdə və məad barədə sözünü doğruluğuna necə dəlil ola bilər?

*Cavab:* Bu problemi həll etmək üçün aşağıda qeyd olunan iki əsli qabaqcadan qəbul etməliyik:

1) Aləmin bir hikmətli və adil yaradıcısı vardır ki, heç vaxt öz hədəfinin xilafına bir iş görməz.

2) Allah xalqın səadətini və həqiqi ayinə, məbdə və məada sarı hidayət olunmasını istəyir və heç vaxt xalqın azğınlığını və zəlalətini istəməz.

Bu iki əsli qəbul etməklə o sualın cavabını belə verə bilərik:

Yalançı adama fövqəladə işləri görmək üçün belə bir qüdrəti vermək xalqın doğru yoldan azmasına səbəb olar, bu isə hikmətli Allahın məqsədi ilə uyğun deyildir.

Buny bir az izah edək:

Möcüzə o zaman peyğəmbərlik iddiası edən üçün dəlil ola bilər ki, heç olmazsa bu iki şərti olsun:

a) Ömründə hər hansı bir ictimai eybəcərlikdən və əxlaqi aludəlikdən təmiz olsun.

b) Xalqın dəvət olunduğu şərait və ayin fitrət, əql və insan təbiəti ilə uyğun olmalıdır.

Bu iki şərtin luzumu səbəbi aydındır. Əgər peyğəmbərlik iddiası edənin keçmişi ləkəli olsa, xalqın ona iman gətirməsinin qarşısını alar. Allah, xalqdan kənar olduğu şəxsi xalqı hidayət etmək üçün göndərməz. Çünki o, Allahın məqsədini təmin edə bilməz.

Habelə, əgər onun şəriət və ayini əqlin xilafına olsa, əql onun ayinini məhkum edib, rədd edər və rəsmən tanımaz, daha möcüzə istəməyə ehtiyac olmaz.

Amma əgər peyğəmbərlik iddiası edən və möcüzə gətirən şəxsdə hər iki şərt cəm olsa, bu surətdə məsələnin hər iki tərəfini hesablayırıq: ya öz iddiasında doğrudur və ya yalançı. Əgər doğrudursa və əgər belə bir şəraitin peyğəmbərdən başqasına üz vermədiyinə inanırsa, deməK bizim sözümüz sübut edilir. Və əgər belə təsəvvür etsək ki, o bu şəraitlə belə yalançıdır, onda bu sualla rastlaşırıq ki, bəs nə üçün hikmətli Allah belə bir qüdrəti o talancı kələkbaz şəxsə vermişdir ki, bəzilərini doğru yoldan azdırsan. Bir Allah ki, agahdır və bilir ki, möcüzə o şəxsin mənəvi böyüklüyünü artırır və şəxs həmin möcüzə ilə cəmiyyətdə öz mövqeyini möhkəmlədir və öz hesabını xalqdan ayırır və xalq istər-istəməz ona sarı çəkilir və ona tabe olur (bununla belə) bəs belə bir kəskin və ürəkləri cəlb edən vasiləni necə onun ixtiyarında qoymuşdur? Məgər o, xalqın hidayətini istəmirmi? Bu sifətlərə malik olan Allah məqsədinin xilafına bir iş görməz.

Bununla məsələnin ikinci tərəfi - yəni möcüzənin yalançının ixtiyarına verilməsi məsələsi - batildir. Təbii olaraq məsələnin birinci tərəfi - yəni hikmətin tələbinə əsasən möcüzənin ancaq saleh və doğru şəxslərin ixtiyarında qoyulması - sübut edilir. Möcüzə bir aydın dəlil kimi onun peyğəmbərliyinə və sözünün doğruluğuna dəlalət edir.

## QURANIN BU BARƏDƏ GÖSTƏRİŞİ

Bizim səmadan gələn və aydın, elmi və əqlə batan dəlilləri ilə bəşəri haqqın əsil maarifinə və prinsiplərinə hidayət edən kitabımız Quran İslam Peyğəmbəri barədə belə buyurur:

وَلَوْ تَقَوَّلَ عَلَيْنَا بَعْضَ الْأَقَاوِيلِ لَأَخَذْنَا مِنْهُ بِالْيَمِينِ ثُمَّ لَقَطَعْنَا مِنْهُ الْوَتِينَفَمَا مِنْكُمْ مِنْ أَحَدٍ عَنْهُ حَاجِزِينَ

***«Əgər o (Peyğəmbər) özündən bəzi sözlər uydurub Bizə isnad etsəydi, Biz ondan mütləq şiddətli intiqam alardıq (sağ əlini kəsərdik, yaxud boynunu vurardıq)! Sonra onun şah damarını qopardardıq! Və heç biriniz də (Bizim əzabımızı) ondan dəf edə bilməzdiniz».***[1]

Ayənin aşkar məfhumu budur ki, əgər İslam Peyğəmbəri Allaha əsassız nisbətlər versəydi, Allah onun idiasının batilliyi üçün dərhal onu öldürərdi. Görəsən bu ayə təkcə Həzrəti Mühəmmədə (s) məxsusdur yoxsa Allaha yalan satan hər hansı bir şəxsə şamildir.

Heç kim deyə bilməz ki, ayə bütün yalançılara şamildir və insan həyatının tarixində bütün yalandan ayin düzəldənlərə də şamil olur. Çünki

---

[1] «Haqqə» surəsi, ayə 44-47.

insan həyatının tarixində bir sıra adamlar gəlmiş və yalan ayinlər düzəlmişlər, amma Allah onların həyat damarlarını heç də vurmamışdır. Qeyri-mümkündür ki, peyğəmbər və ya vəhy bir söz desin, amma bidahət və zahir onun xilafına olsun.

Bununla bu ayə Həzrəti Mühəmməd (s) və onunla bəzi cəhətlərdə müştərək olanlara məxsusdur.

İslamın Peyğəmbəri uzun illər ərzində tam paklıqla xalqın arasında yaşadı. Onun maarifi, göstərişləri və əslləri əqlə uyğun idi. Üstəlik böyük möcüzə sayılan «Quran»a malik idi.

Onun möcüzəsi ilə mübarizə aparmaqda bütün dünya dahiləri, böyükləri və elm təməlçiləri acizdirlər.

Bununla belə əgər o, iddiasında yalançı olsaydı paklıq, təmizlik, müqəddəslik və xalqın rəğbətini tam qazanmaq qabiliyyətinə malik olma şəraitini özündə toplayan şəxsə belə bir qüdrəti vermək Allahın hikmətli məqsədi ilə uyğun gəlməzdi. Allahın hikmətli məqsədi bəndələrinin hidayət olunmasıdır. Allah öz hədəfini, məqsədini və bəndələrinin məsləhətini qorumaq üçün onu aradan aparar ki, bəndələri yoldan azmasınlar və yaxud o qüdrəti onun əlindən alar və xalqa nüfuz etmə qabiliyyətini aradan aparar.

Amma əgər gördük ki, o, o şəraitlə və bəşərin qüdrətindən yuxarıda göstərilən möcüzə ilə həyatına davam etdirib öz şəriətini təbliğ etdi və Allah tərəfindən ona heç bir ziyan yetişmədi, bu halda onun mütləq peyğəmbər, yəni Allahın səfir və elçisi olmasını qəti surətdə təsdiq edirik. Əgər o peyğəmbər olmasaydı, Allah öz hikmətinin tələbinə görə onu ya aradan aprardı və ya möcüzəni onun əlindən alardı.

## QIRX DOQQUZUNCU DƏRS

## MÖCÜZƏNİ QEYRİ-MÖCÜZƏDƏN NECƏ AYIRD ETMƏK OLAR?

Möcüzədən bəhs gedəndə və «möcüzə başqalarının qüdrətindən xaric olan bir fövqəladə işi görməkdir» deyəndə, dərhal bu sual zehnimizdə canlanır:

Möcüzəni başqa fövqəladə işlərdən necə ayırd etmək mümkündür? Çünki sehrkarlar və mortazlar[1] da elə heyrətləndirici işlər görürlər ki, adi qanunların dairəsindən xaricdir və başqalarını təəccübə gətirib heyrətə salır. Sehrkarlar və cadugərlər insanların şüur mərkəzinə hakimiyyət tapmaqla bir sıra qeyri-həqiqi işləri real bir şey kimi cilvələndirirlər. Bəzi hoqqabazlar özlərindən bir sıra heyrətləndirici işləri nümayiş etdirirlər. Bu surətdə biz möcüzəni sehrdən, cadudan, riyazətdən və nümayişdən necə ayırd edə bilərik? Həqiqətən bu hadisə möcüzənin ən həssas və mühüm bəhslərindəndir.

Möcüzənin başqa fövqəladə işlərindən ayırd etmək üçün bir sıra nişanələr vardır. O nişanələrlə haqqı batildən və möcüzəni sehrdən seçmək olar:

1) Mortazların, cadugərlərin və hoqqabazların malik olduqları sirli qüvvə mahir ustadların təlimləri və pərvərişləri nəticəsində olmuşdur. Onların hamısı məktəb görmüşlər və uzun illər ərzində təlim və vərdişlə bu xüsusiyyətə malik ola bilmişlər.

İti mıxlar üzərində yatan və sinəsi üzərində ağır daşlar sındırılan Hindistanlı bir mortaz və asket ilk gündə bir adi şəxs idi. O pəhrizkarlıqla və vərdişlə bir qüvvəli ruha malik olmuşdur və müasir deyişlə elə bir sirli qüvvəyə malik olmuşdur ki, öz bədəninin bu amillərin təsir buraxmasından qoruyur. Və bu amillər onun bədənində heç bir təsir buraxa bilmir. Sehrbazlar uzun müddət öz ustadlarından təlim alıb sehr öyrənəndən çoxlu lazımi vərdiş edərək öz bacarıqlarını nümayişə qoyurlar. Cadugərliyin əsası təlim görmə və vərdiş etmədir, amma peyğəmbərlərin ecazkarlığının yenilik xüsusiyyəti vardır. Onların işi təlim və vərdiş nəticəsində deyildir. Onların yaşayış tarixi bizim sözümüzün tam dəlilidir.

2) Sahirlərin və asketlərin heyrətləndirici işlərinin tayını görmək mümkündür. Onun əsası təlim və vərdiş olduğu üçün başqa bir sahir də onu öyrənməklə o işi görə bilər. Misal üçün, mortazların işlərindən biri budur ki, bir ay ərzində bir badamla keçinsin və ya uzun müddət ərzində ağzı bağlı bir qutunun içində qalsın. Bu işlərin əsası təlim və vərdiş olduğu üçün başqaları da o işləri öyrənməklə nümayiş etdirə bilərlər.

[1] Mortaz - müqəddəs insan, onlar xüsusi əməl və ibadətlərlə, mənəvi baxımdan, yayayışın axrıncı və yüksək mərhələsinə çatmaq niyyətindədirlər.

3) Mortazlar və sehrbazlar heç vaxt xalqı onların gördükləri işi görməyə çağırmırlar. Onlarda «təhəddi» adında bir şey yoxdur. Çünki onlar bilirlər ki, əgər başqalarını gördükləri işin tayını görməyə çağırsalar dərhal məğlub olarlar. Sehr aləmində onların işlərinə oxşar iş çoxdur.

Heç bir zamanda sehrbazlıq və cadugərlik bir vahid şəxsə həsr olunmamışdır. İndi də Hindistan mühitində sehr bazarı rövnəqdədir və bu işlərin oyunbazları çoxdur, amma onlar heç vaxt xalqı onlarla yarış aparmağa çağırmırlar. Amma peyğəmbərlər həmişə xalqdan onların gördükləri işin tayını görmək istəmişlər. İlk gündən elan etmişlər ki, heç kim onların gördükləri işin tayını görə bilməz. İslam peyğəmbərinin həmişəlik möcüzəsi olan Quran açıq-aşkarcasına «təhəddiyə» (yarışa) çağırır:

قُلْ لَئِنِ اجْتَمَعَتِ الْإِنْسُ وَالْجِنُّ عَلَىٰ أَنْ يَأْتُوا بِمِثْلِ هَٰذَا الْقُرْآنِ لَا يَأْتُونَ بِمِثْلِهِ وَلَوْ كَانَ بَعْضُهُمْ لِبَعْضٍ ظَهِيرًا

***«De: «Əgər insanlar və cinlər bir yerə yığışıb bu Qurana bənzər bir şey gətirmək üçün bir-birinə kömək etsələr, yenə də ona bənzərini gətirə bilməzlər».***[1]

Əgər bir gün bəziləri inad edib Quranla müqabilə edib bəhsləşməyə başlayalar, dərhal məğlubiyyətə uğrayıb geri oturarlar.

Musa ibn İmran öz möcüzələri ilə mübarizə meydanına daxil oldu, Musanın ayələrini sehrbazların sehrləri kimi güman edən bədbəxt Firon, cadugərləri müxtəlif vədələrlə öz başına topladı, amma Musa qabaqcadan onları xəbərdarlıq etdi:

مَا جِئْتُمْ بِهِ السِّحْرُ ۖ إِنَّ اللَّهَ سَيُبْطِلُهُ

***«Sizin etdiyiniz (gətirdiyiniz) hər şey sehrdir. Allah, sözsüz ki, onu batil edəcəkdir».***[2]

Çox çəkmədi ki, mübarizənin ilk səfində dayananlar ona ilk iman gətirənlər oldular. Çünki onlar özləri sehr sahəsində ustad olduqları üçün bildilər ki, Musanın ayələri sehr növündən olmayıb, ilahi ayələrdir ki, ona verilmişdir.

Sehrbazların və cadugərlərin mübarizə meydanında məğlubiyyətə uğramalarının səbəbi onların əməllərinin məhdud insani qüvvələrindən asılı olması idi.

Bu baxımdan cadugərlər hər nə etsələr də, onların işləri insan qüvvəsi çərçivəsindən təcavüz etmir. Amma peyğəmbər Allahın sonsuz qüdrətinə arxalanıb onun namütənahi qüdrətindən faydalanmışlar.

4) Möcüzə sahibləri həmişə insanları yüksək insani məqsədlərə sarı çağırmışlar. Onların ecazkarlıqdan məqsədləri xalqı məbdə və məada sarı

---

[1] «İsra» surəsi, ayə 88.
[2] «Yunus» surəsi, ayə 81.

hidayət etmək və cəmiyyəti əxlaqi üstünlük və səciyyələrlə bəzəndiməkdir. Bir halda ki, cadugərlərin hədəfi bir sıra maddi və alçaq işlərdir. Bu cəhətdən hədəf və məqsəd baxımından da bu iki dəstəni biri-birindən ayırmaq mümkündür.

Peyğəmbərlər həmişə yüksək insani məqsədlər daşıyırlar və xalqı səadətin təməli olan əxlaq üstünlüyünə və insani fəzilətlərə doğru çağırırlar. Onların məktəb və ideologiyalarının əsasını allahpərəstlik, məada inanmaq, sədaqət, şərafət, yaxşılıq, pəhrizkarlıq, iffət, ədalət, hüquqa riayət etmə, tərbiyəli olma, əxlaq və s. təşkil edir. Amma sehirkarların və cadugərlərin heç vaxt belə məqsədləri olmamış və yoxdur da.

Onlar, xalqın rəğbətini qazanmaq, pul və şəhrət qazanmaq üçün bu işləri görürlər. Bəziləri şöhrət qazanmaq üçün bir ömür özünü həbs edir və incidir. Görünməmişdir ki, bu cadugərlərdən və sehrkarlardan birisinin əxlaqi və ya ictimai bir məktəbi olsun. Onlar daim belə üstün anlayışlarla biganə olmuşlar.

Bunun səbəbi aydındır. Peyğəmbərlər Allah tərəfindən xalqı haqqa və həqiqətə sarı hidayət etməyə məbus olduqları üçün, belə yüksək məqsədlərə, dəyərli məktəb və ideyaya malik olmalıdırlar. Amma başqaları öz əlaqələrini Allahdan qırmış və öz nəfslərinin bəndəsi olmuşlar və bir sıra alçaq maddi məqsədlərə susamışlar. Belə bir şəxslərdən onların müsbət şəxs kimi olmaqlarını ummaq olmaz.

5) Peyğəmbərlər əhval-ruhiyyə, əxlaq baxımından sehrbazlar və cadugərlərlə iki müxalif cəbhədə dayanırlar. Peyğəmbərlər bəyənilməş sifətlərə və yüksək insani səciyyələrə malikdirlər və ömür səhifələrində heç bir qara nöqtə və pis iş yoxdur, amma o biri cəbhə bir sıra fasid şəxslər və insani fəzilətlərdən uzaq olanlardır. Bir neçə dəfə onlarla oturub-dursaq onların qəlbiqara olduqlarını bilib danışıqlarından və davranışlarından əhval-ruhiyyələrinin necəliyi haqda məlumat əldə edə bilərik.

# ƏLLİNCİ DƏRS

## PEYĞƏMBƏRLƏRİ TANIMAQ ÜÇÜN BAŞQA İKİ YOL

Görəsən həqiqi peyğəmbərləri tanımaq möcüzəyə həsrdirmi? Yoxsa onları tanımaq üçün başqa yol da vardır?

Bu sualın cavabı müsbətdir. Peyğəmbərləri tanımaq üçün başqa iki yol da vardır:

**a)** Qəti dəlillərlə peyğəmbərliyi sübut edilən şəxs özündən sonrakı peyğəmbəri adı və xüsusiyyətləri ilə müəyyən edir. İstər hər ikisi bir əsrdə yaşasın və ya müxtəlif əsrlərdə yaşasınlar. Hər halda qabaqkı peyğəmbərlərin təsdiqi elə aydın və açıq-aşkar olmalıdır ki, həqiqəttələb şəxslərdə itminan və yəqin törətsin. Örnək olaraq aşağıda qeyd olunan ayəyə diqqət edin:

وَإِذْ قَالَ عِيسَى ابْنُ مَرْيَمَ يَا بَنِي إِسْرَائِيلَ إِنِّي رَسُولُ اللَّهِ إِلَيْكُمْ مُصَدِّقًا لِمَا بَيْنَ يَدَيَّ مِنَ التَّوْرَاةِ وَمُبَشِّرًا بِرَسُولٍ يَأْتِي مِنْ بَعْدِي اسْمُهُ أَحْمَدُ

***«Onu da xatırla ki, bir vaxt Məryəm oğlu İsa belə demişdi: «Ey İsrail oğulları! Həqiqətən, mən özümdən əvvəl nazil olmuş Tövratı təsdiq edən və məndən sonra gələcək Əhməd adlı bir peyğəmbərlə (sizə) müjdə verən Allahın elçisiyəm!»***[1]

İsa bu xitabədə tam kamil bir bəyanla özündən sonra gələn şəxsin peyğəmbərliyinə və adının «Əhməd» olmasına şəhadət vermişdir və həqiqəttələblərin zehnlərindən «Əhməd»in peyğəmbərliyinə dair şübhəni aradan aparmışdır.

Əslində peyğəmbərlik və imamlıq kimi böyük vəzifə qəti və aydın dəlillərlə sübut edilməlidir. Gələcək şəxsin peyğəmbərliyinə dair deyilən cümlə elə aydın və rövşən olmalıdır ki, gələcək nəsl üçün qəti bir sənəd sayıla bilsin.

Həzrəti Musa tam aydıncasına Allahdan istədi ki, qardaşını təbliğ işində özünə nazir və yardımçı etsin. Bu həqiqəti bu bəyanla dedi:

وَاجْعَلْ لِي وَزِيرًا مِنْ أَهْلِي هَارُونَ أَخِي اشْدُدْ بِهِ أَزْرِي وَأَشْرِكْهُ فِي أَمْرِي

***«Mənə öz ailəmdən bir vəzir (köməkçi) ver – Qardaşım Harunu! Onunla arxamı möhkəmləndir. Onu işimə ortaq et».***[2]

Allah da aydın şəkildə onun istəyinə müsbət cavab verir və deyir:

قَالَ قَدْ أُوتِيتَ سُؤْلَكَ يَا مُوسَىٰ

***«Dilədiyin sənə verildi, ya Musa!»***[3]

---

[1] «Səff» surəsi, ayə 6.
[2] «Taha» surəsi, ayə 29-32.
[3] «Taha» surəsi, ayə 36.

Başqa bir yerdə Harunun peyğəmbərliyinə işarə edib deyir:

وَوَهَبْنَا لَهُ مِنْ رَحْمَتِنَا أَخَاهُ هَارُونَ نَبِيًّا

***«Öz mərhəmətimizdən qardaşı Harunu da bir peyğəmbər olaraq ona bəxş etdik».***[1]

Bununla Bəhailərin zorakılıqla Quranın bir sıra ayələrinin «Bab»ın peyğəmbərliyinə dair dəlil gətirmələrinin əsassızlığı aydınlaşır. Çünki onların öz iddialarına dəlil qərar verdikləri ayələr onların iddialarına əsla içarə etməyib. Onlar zorla və ayələri bir-birinə bağlamaqla «Bab» kimi şəxslərin peyğəmbərliyini sübut etmək istəyirlər. Biz «Xətamiyyət» kitabında o ayələrin barəsində geniş bəhs açdığımız üçün burada bu barədə sözümüzə son qoyuruq.

Bu yoldan islam peyğəmbərinin peyğəmbərliyini sübut etmək üçün faydalanmaq bundan acılıdır ki, qədim və yeni dövrdən qalmış xəbərlərin məcmuəsində Həzrəti Məhəməd (s)-in peyğəmbərliyinə tam aydın şəkildə istifadə olsun. İslam amiləri kitablarından bir çox xəbərlər toplamışlar və bu barədə çoxlu kitablar yazmışlar.

**b) Arayış toplama**

Peyğəmbərləri tanımaq üçün başqa bir yol bir sıra dəlillər və arayışları toplamaqdır ki, iddiaçının peyğəmbərliyini qəti edir. İnsan dəlillərin məcmuəsindən inanır ki, bu şəxs belə əhval-ruhiyyə ilə hökmən Allahın elçisidir.

Bu gün məhkəmədə hökm etmək yollarından biri bir sıra dəlillərin və arayışların toplanmasıdır ki, həqiqətin üzərindən örtüyü götürə bilir və doğruçu ilə yalançını bəlləndirə bilir.

Peyğəmbərlərin barəsində olan bu dəlillər aşağıdakılardan ibarət ola bilər:

1) İddiaçının ruhi və əxlaqi xüsusiyyətlərini araşdırmaq və dünya malına nə dərəcədə vurğun olmasını və xalq arasında hansı mövqedə olmasını bilmək.

2) Tərbiyə gördüyü mühiti araşdırmaq.

Misal üçün, diqqət etmək lazımdır ki, görəsən onun mühiti belə bir iddiaçının besətini tələb etmişdir? Əgər savadsız və mədəniyyətsiz xalqın arasında qalxıb heç bir savadı olmadan xalqı paklığa, yaxşılığa və düzgün yaşayışa doğru çağırsa, belə bir besət onun Allah tərəfindən məbus olmasına bir şahid və dəlildir.

3) Onun ayininin əhkam və marif baxımından möhtəvası.

Əgər onun sözləri maarif barəsində əql meyarları ilə uyğun gəlsə, maarifini tanıtmaqda ən doğru yolla başlada, əxlaqiyyat sahəsində cəmiyyəti yüksək nizama sarı rəhbərlik etsə, əxlaqi üstünlüyü və insani fəzilətləri öz tərəfdarları arasında inkişaf etdirsə və onları pisliklərdən

[1] «Məryəm» surəsi, ayə 53.

çəkindirsə, həmin möhtəvalar və məzmunlar onun doğruluğuna bir dəlildir.

4) Dəvət etmək istiqamətində dayanması.

Onun dəvət etməsində dayanaqlı və dözümlü olması onun doğruluğuna başqa bir dəlil ola bilər. Əgər ömründə çağırdığı işlərə və dediyi sözlərə özü əməl etsə, ömrünün axırına qədər bu yolda dayansa və dəvətindən əl çəkməsə, onun bu əməli də onun doğruluğuna bir dəlildir.

5) Öz ayininin inkişafı üçün faydalandığı vəsilələr.

Əgər peyğəmbərlik iddiası edən şəxs öz məqsədlərinə çatmaq üçün əqlin təsdiq etdiyi vəsilələrdən istifadə etsə və yalan danışmaqdan, zülm etməkdən çəkinsə və «məqsəd vəsilənin hər nə olursa olsun caiz edir» məntiqindən bezar olsa bunun özü onun ruhunun sağlamlığına dəlildir. Belə bir şəxs əsil dəvətində də yalançı olmaz.

6) Onun tərəfdarlarının vəziyyəti.

Onun tərəfdarlarının ruhi, fikri və əxlaqi vəziyyəti onun vəziyyətini aydınlaşdırar. Əgər onun yaxın adamları ona iman gətirsələr və ya onun başına yığışanlar paklıq, aqillik və zəka baxımından xalq arasında nümunə olsalar, onda onun doğruluğuna inanmaq olar.

## ƏLLİ BİRNCİ DƏRS

## VƏHY VƏ YA SİRLİ XƏBƏRLƏŞMƏ VASİTƏSİ

«Nübüvvəti-ammə» başlığı altında olan bəhsimizin üçüncü hissəsini peyğəmbərin vəhyi təşkil edir. İlahi peyğəmbərlərin maarif və bilim mərkəzi və qaynağı olan səmavi vəhy çox mürəkkəb, diqqətə layiq və tədqiq edilməli bir mövzudur.

Peyğəmbərlər bütün plan və proqramlarını vəhy yolu ilə alaraq «qeybi xəbərlər» adı ilə xalqa çatdırırmışlar. Amma görəsən bu növ idrakın mahiyyəti nədir? Onlar hansı bir sirli hissin vasitəsi ilə xəbərləri alırlar? Bunlar bir sıra məsələlərdir ki, çoxlu diqqət və fövqəladə surətdə tədqiqat aparılmanı tələb edir.

Xülasə olaraq deməliyik ki, vəhy idrakı bəşərin adi idrakı kimi deyildir. O, qeyri-adi bir idrakdır və peyğəmbərə məxsus olan xüsusi bir hissin vasitəsi ilə baş verir.

İnsan maddə aləmində olan məlumatlarının çoxunu zahiri hislərdən birinin vasitəsi ilə alır və onları təbiət, çoğrafia və tarix elmləri kimi yığır və nəşr edir.

İnsanın məlumatının başqa bir hissəsi isə onun əqlindən və düşüncəsindən qaynaqlanır. İnsan öz əqlinin vasitəsi ilə fəlsəfə və riyaziyyat sahəsində bir sıra həqiqətlərə çatır ki, onların heç də xarici və maddi vucudları yoxdur. Misal üçün, bir folosofun ilahiyyət elmlərində Allahın sifətləri, varlığı və feilləri barədə tədqiqatları və ya fəlsəfədə «ümumi prinsiplər» adı altında tədqiq olunan məsələlər və ya «vücud» barəsində bir sıra «fəlsəfə qanunları» adında qaldırılan məsələlər, tamamilə fikirdən, əqldən, düşüncədən və fəlsəfi tərz-təfəkkürdən törənmişdir. Bütün elmi fenomenlər də fikir və istidlaldan irəli gəlmişdir. Habelə, riaziyyatın çoxlu formulları da bu qəbildəndir.

İnsan idrakının üçüncü hissəsi insani fitrətin və nəfsani istəklərin şüasıdır. Aclıq və susuzluğu hiss etmək, cinsi meyllər, sərvəttələblik, şöhrətsevərlik, insani səciyyələrə və əxlaqi fəzilətlərə yönəlmək və s. hamısı fitrətdən asılıdır və onun nəfsi meyllərinin və fitrətinin şüasıdır.

İnsanın bəzi ədəbi əsərləri bir başa Allahın ona verdiyi istedaddan və zövqdən irəli gəlir. Bəziləri heç bir təlim görmədən gözəl bir ədəbi əsər yaradırlar. Həmçinin ruhu oxşayan təbiət mənzərələri və ən şirin insan sevgisini şeir və dastan şəklində yaradırlar. Bu biliklər hər nə olsalar da, ancaq təbii və bəşəri yolla kəsb edilir.

Sözünn qısası budur ki, bütün idraklar və məlumatlar bir sıra adi vəsilələrlə insanın fikrinə daxil olur, amma peyğəmbərlərin məlumatı bu idrakların heç birinə bənzəmir. Onların idrakları vəhydir və bu idraklarla tamamilə fərqlənir və qeyri-adi bir idrak olaraq xüsusi bir hissin vasitəsi ilə kəsb edilir.

İlahi peyğəmbərlər özləri dedikləri kimi, bir növ sirli hissə malikdirlər ki, heç bir zahiri vəsait olmadan qeyb aləmi ilə əlaqədar saxlayırlar. Peyğəmbər vəhyi aldıqdan sonra onu göstərilən kimi azaldıb-çoxaltmadan xalqa çatdırırlar. Onlar vəhyə bir azacığda olsun dəxalət etməzlər.

Bu əlaqənin və hissin varlığına ən aydın dəlil olmaların doğruçu olmaları, iddiaları və möcüzələrindən əlavə, onların üstün maarifləri və əsələridir ki, insan düşüncəsindən uzaq olan belə bir geniş maarif, varlığın qaynağı ilə əlaqədə olmazsa, məhdud bəşərn (peyğəmbərin şəxsən özü) ixtiyarına verilməsi mümkün olmaz.

Onların geniş, dərin və hərtərəfli hərəkətləri və ilahi pəyamları həyata keçirməkdə özlərindən göstərdikləri vəsfə sığmayan fədakarlıqları onların üstün aləmlə əlaqədə olmalarının nişanəsidir ki, bir belə bərəkətli əsərləri vardır.

## VƏHY VƏ MATERİALİST ALİMLƏR

Varlıq aləmini maddəyə məhdud hesab edən materialist bir şəxs üçün bu kimi şeyləri dərk etmək çox çətindir. Onun tərz-təfəkküründə dərin dəyişiklik törəməyincə və onun fikrində maddədən üstün bir aləmə iman yaranmayınca o, bu kimi məsələləri və mövzuları dərk edə bilməz.

Tədqiqat vəsaiti laborotoryasına və mikroskopa həsr olan bir şəxs heç vaxt baxışı çox geniş olan, varlıq aləmini maddə çərçivəsində həsr olunmuş bilməyən və vücudun şuasını mücərrədat və metafizik (mavəra-təbiə) aləminədək genişləndirilən ilahi bir şəxs ilə həmfikir və həmbəhs ola bilməz.

Bir materialistin vəhy və mələk kimi şeylərə inana bilməməsinin səbəbi budur ki, o hər bir şeyi özünün naqis maddi vasilələri ilə ölçüb və tanımaq istəyir. Bir halda ki, bu maddi vasilələrlə sadəcə maddi şeylərin bir qisminin varlığını və yoxluğunu ölçmək olar. Amma mənəvi şeylər və maddədən təcrid olunmuş və üstün olan şeylər vücud dərəcəsi baxımından bu vəsaitdən üstün mərtəbə və dərəcədə dayanırlar və maddi vəsaitin hökmranlığı dairəsində deyirlər.

Misal üçün, heç vaxt ruhu cərrahlıq bıçağı ilə, mikroskopla və ya başqa maddi vəsilələrlə müşahidə etmək olmaz və həmçinin onu sübut və ya rədd etmək də olmaz.

Biz tədqiqatlarımızda, labaratoriyalarda, «ruh» adında bir vücud və «vəhy» adında bir idrak görmədik - deyən materialist alimin cavabında deməliyik: «Siz bu maddi vəsilələrinizlə maddi şeylərdən başqa bir şey barəsində fikir söyləyə bilməzsiniz. Vücud və varlıq baxımından maddədən üstün olan şeyləri bu vəsilələrdə sınamaq olmaz. Bu kimi şeylər üçün başqa bir sübut yolu və özlərinə məxsus dəlillər vardır ki, tam bitərəfliliklə girişsəniz elə bir aləmin varlığını etiraf edəcəksiniz».

Bununla materialist bir şəxs metafizik aləmin varlığına inanmayınca onunla bu barədə mübahisə aparmağın heç bir faydası olmaz. Əvvəl yolu ona hamarlamaq və sonra adi idraklarla fərqli olan «vəhy» adlı bir idrakın varlığı barədə onunla söhbət etmək lazımdır.

## ƏLLİ İKİNCİ DƏRS

## VƏHY NƏ ÜÇÜN ÜMUMİ HİSS DEYİLDİR

Peyğəmbərlərin peyğəbərliyi o təsdiqinin əsası sayılan vəhyi etiraf etmək bizi belə bir idrakın olmasının mümkünlüyünə dair tədqiqat aparmağa vadar edir.

Mümkündür deyilsin ki, qabaqkı bəhzimizdən bu nəticəni əldə etdik ki, peyğəmbərlər bir növ sirli xəbərləşmə sisteminə malikdirlər ki, onunla xilqətin qaynağı və onun mələkləri ilə əlaqə yaradırlar. Aydın bir ibarətlə desək, bu bir növ idrak və elmi hisdir ki, onunla hər harada olsalar, heç bir maddi vəsilələrdən istifadə etmədən, qeyb alimindən xəbər verirlər və qeyb aliminin xəbər və pəyamlarını alırlar.

Bu halda bu sualla rastlaşırıq ki, görəsən belə bir hiss ola bilərmi? Əgər ola bilərsə, bəs nə üçün başqa insanlarda yoxdur?

*Cavab:* Bu hissin varlığının mümkün olması barədə bu kifayət edər ki, elm və fəlsəfə onu rədd etməmişdir. Amma o ki qaldı «Nə üçün bütün insanların belə bir hissi yoxdur?» - sualına, deməliyik ki bu sual yersizdir. Çünki bir şəxsdə bir növ hissin olması, başqalarında da onun olmasını tələb etmir.

Beş hiss insanın umumi hislərindəndir. Amma elə adam vardır ki, bu hislərdən birinə və ya bir neçəsinə malik deyillər. Görəsən bu kimi şəxslər o beş hissə malik olanları təhqid etməyə və malik olmaqları hissi rədd etməyə haqları varmı?

Dünyada bir sıra dahi şəxslər vardır ki, şüur və idrak baxımından adi şəxslərdən daha üstündürlər? Görəsən adi şəxslər onlarda belə bir idrakın və şüurun varlığını inkar etməyə haqlıdırlarmı?

Cinsi meyillər bütün insanların zatında olan bir kamaldır ki, onun çiçəklənməsi yetkinlik dövrünə aiddir, bəzən elə olur ki bəziləri bu nemətdən həmişəlik olaraq məhrum olurlar, bu kimi şəxslər o hisləri inkar edə bilərlərmi?

Klasik və müasir psixoloqlar deyirlər ki, insanın vücüdunun arxasında bir yer vardır ki, əgər ona sarı bir pəncərə açılsa çox gizli sirlər insan üçün aydınlaşar.

Bununla deməli müəyyən bir hissin bir şəxsdə və ya bir neçə məxsus şəxsdə olduğu halda, başqalarında da həmin hissin olmasını zənn etmək yersizdir. Heyvanlarda da belə, bu fərqlilik gözə dəyir.

Gecə quşu bir növ məxsus hissə malikdir. Gözü olmasa da, maniəyə toxunmazdan əvvəl tam diqqət və məharətlə onun varlığını hiss edir və yolunu dəyişir. Gecə quşunun bu hissi elə dəqiq və qüvvəlidir ki, ən dolaşıqlı yollardan keçir, amma heç vaxt bir maniəyə toxunmur.

Heyvanların çoxu yağış və qar yağmazdan əvvəl - hava ayaz olsa da belə - yığıntı olacağını hiss edirlər və yağış tutmayan bir yerə gedirlər.

Canlılardan çoxu zəlzələnin olacağını əvvəlcədən bilirlər və zəlzələdən qabaq qorxunc nərələr çəkirlər və bəzən qapıları sındırıb pəyədən eşiyə qaçırlar. Bəzi canlılar yay fəslində qışın soyuqlluğu şiddətindən xəbərdar olurlar və qışda özlərini qorumaq üçün fəaliyyətlərini sürətləndirirlər.

Sorbon universitetinin müəlimi professor Milin İdvard, «eksiklup» adlı bir həşarat barəsində belə yazır:

«Bu həşarat yalqız yaşayır. Yumurtlayandan sonra dərhal ölür. Yumurtalamaq vaxtı gələndə bir ağacı dəlir, sonra o dəliyin yan-yörəsini güllər və şirin yarpaqlarla bəzəyir və bir yumurta yumurtalayır. Sonra xəmir kimi bir maddə hazırlayıb o yumurtanın üzərinə çəkir və onu yarpaqla basırır. Yenə onun üstündə yumurtalayıb. Bu işi eləcə də yumurtası qurtara kimi davam etdirir və dərhal aradan gedir.

Balalar toxumdan çıxanda qanadsız bir qurd kimi özlərini qorumağa imkanları olmur və bir ilə kimi özlərinə qida hazırıaya bilmirlər. Bu vəziyyət tələb edir ki, bu həşaratın balaları bir il müddətində sakit və möhkəm bir yerdə yaşasınlar.

Bu əməl bunu göstərir ki, o ana həşarat balalarının çoxlu yaşayış məsələlərini bilir və dərk edirmiş. Bir halda ki, bu hiss bütün heyvanlarda və canlılarda yoxdur».

Bu misallardan məqsədimiz budur ki, heç vaxt belə güman etməyək ki, bütün insanlar və heyvanlar ehsas və idrak baxımından eyni və yeksandırlar və əgər birisi bir müəyyən hissə və ya şüura malik olsa, başqaları da həmən şüura malik olsunlar.

## ƏLLİ ÜÇÜNCÜ DƏRS

## VƏHY LÜĞƏT VƏ QURAN BAXIMINDAN

Lüğətdə «vəhy» hər hansı gizli idrak mənasındadır. Buna görə alçaqdan danışmağa da «vəhy» deyirlər ki, sözü gizlincə və başqalarının eşitməməsi üçün alçaqdan deyərlər.

Qurani-Məciddə bu söz çoxlu mənalarada işlənmişdir. Amma hamısının kökü eynidir. İndi o mənalardan bir neçəsinə işarə edək:

1) Hər bir canlını öz vəzifəsi ilə elə tanış etmək ki, hər bir canlı öz təkvini (yaradılış) vəzifəsinə əməl etsin.

فَقَضَاهُنَّ سَبْعَ سَمَاوَاتٍ فِي يَوْمَيْنِ وَأَوْحَىٰ فِي كُلِّ سَمَاءٍ أَمْرَهَا

***«Allah onları (səmaları) yeddi (qat) göy olaraq iki gündə əmələ gətirdi. O, hər bir göyün işini özünə vəhy edib bildirdi. Biz aşağı göyü qəndillərlə (ulduzlarla) bəzədik və hifz etdik».***[1]

**2) Fitri dərk etmə.** Misal üçün:

وَأَوْحَىٰ رَبُّكَ إِلَى النَّحْلِ أَنِ اتَّخِذِي مِنَ الْجِبَالِ بُيُوتًا وَمِنَ الشَّجَرِ وَمِمَّا يَعْرِشُونَ

***«Rəbbin bal arısına belə vəhy (təlqin) etdi: «Dağlarda, ağaclarda və (insanların) qurduqları çardaqlarda özünə evlər tik (pətəklər sal)»***[2]

Deməк, bu həşəratın və başqa həşəratların bütün bütün fəaliyyətləri, o cümlədən, yuva düzəlmək, şirə toplamaq, lər səpmək və s. tamamilə bir növ fikri vəhydir. Bu canlılar fitrət və qərizələrinin rəhbərliyi altında öz vəzifələri ilə tanış olurlar. Alimlər bu vəhyi «təkvini vəhy» adlandırmışlar.

3) **Qəlbi ilham.** Misal üçün:

وَأَوْحَيْنَا إِلَىٰ أُمِّ مُوسَىٰ أَنْ أَرْضِعِيهِ

***«Biz Musanın anasına qəlbinə uşağına süd verməyi ilham etdik».***[3]

4) **Gizlində bir sözü təlqin etmək:** Misal üçün:

وَإِنَّ الشَّيَاطِينَ لَيُوحُونَ إِلَىٰ أَوْلِيَائِهِمْ

***«Şeytanlar, sözləri öz dostlarına təlqin edirlər».***[4]

5) Peyğəmbərin üst aləmlə əlaqəsi və o aləmdən həqiqətləri və göstərişləri alması. Bu həmən bizim mövzu-bəhsimiz olan vəhydir.

---

[1] «Füssilət» surəsi, ayə 12.
[2] «Nəhl» surəsi, ayə 68.
[3] «Qəsəs» surəsi, ayə 7.
[4] «Ənam» surəsi, ayə 122.

Peyğəmbərlərə ona görə «nəbi» deyilir ki, onlar başqa bir aləmdən xəbər verirlər və Allahla əlaqədə olduqları üçün onun göstərişlərini xalqa çatdırırlar. Bu əlaqə müxtəlif şəkildə cilvələnir:

1. Bəzən peyğəmbərin qüvvəli və yüksək ruhu röya aləmində və yuxuda Allahın hökmlərini alır. Həzrəti İbrahim öz oğlunu qurban etmək üçün bu yolla məmur oldu. Təbiidir ki, Allah adamlarının yuxusu, adi adamların yuxusu ilə fərqlidir.

2. Bəzən Allahın göstərişləri onların ruhuna və qəlbinə təlqin olar və onların böyük ruhları səma vəhyinin düşərgəsi olar.

3. Bəzən də ola bilər ki, aləmin yaradıcısı qeybdə olmaqla və bir növ səda və səs törətməklə öz peyğəmbəri ilə danışsın.

4. Vəhy çox vaxt bir mələyin vasitəsi ilə peyğəmbərə çatdırılır. Mələk müəyyən bir şəkildə peyğəmbərin gözləri qarşısında durur.

Qurani-Məcid vəhyin dörd mərhələsinə işarə edib deyir:

وَمَا كَانَ لِبَشَرٍ أَنْ يُكَلِّمَهُ اللَّهُ إِلَّا وَحْيًا أَوْ مِنْ وَرَاءِ حِجَابٍ أَوْ يُرْسِلَ رَسُولًا فَيُوحِيَ بِإِذْنِهِ مَا يَشَاءُ ۚ إِنَّهُ عَلِيٌّ حَكِيمٌ

***«Allah bəşər övladı ilə ancaq vəhylə, yaxud (Musa kimi) pərdə arxasından danışar. Və ya bir elçi (mələk) göndərər ki, o da Allahın izni ilə Onun istədiyini vəhy edər. Həqiqətən, O ucadır, hikmət sahibidir!»***[1]

1. إِلَّا وَحْيًا – İlla vəhyən – cuməlsi vəhyin ilk iki qisminə -yəni yuxuda idrak etmə və qəlbə təlqin etmə - işarə edir.

2. أَوْ مِنْ وَرَاءِ حِجَابٍ – Əv min vərai hicabən - məqsəd budur ki, deyən şəxs örtü arxasında olsun və özü görünməsin, amma səsi eşidilsin. Bu həmən səs dalğaları ilə törənən vəhydir.

3. أَوْ يُرْسِلَ رَسُولًا - Əv yursiluhu rəsulən – cümləsindən məqsəd həmən vəhy qasididir ki, Allahın göstərişlərinin bir-başa peyğəmbərə çatdırır.

Bir çox ayələrdə, Allah özünü vəhy edən tanıtdırır. Bu sahədə olan əyələr və rəvayətləırdən məlum olur ki, peyğəmbərin vəhy yolu ilə əldə etdiyi şeylər tamamilə Allahın dəyişdirilməmiş sözü və göstərişidir və heç vaxt fikrin və ya zehnin törətdiyi şey deyildir.

[1] «Şura» surəsi, ayə 51.

## ƏLLİ DÖRDÜNCÜ DƏRS

## VƏHY ZƏKADAN TÖRƏNMİŞMİ?

Bundan əvvəl sübut etdik ki, vəhyi bir növ xas idrakdır ki, yalnız bəzi şəxslər ona malikdir. Onlar bu hissin vasitəsi ilə ilahi təlimləri azaldıb-çoxaltmadan və səhv etmədən başqa bir aləmdən alır və xalqa çatdırırlar.

Bu hissin mahiyyəti nədir?

Səma vəhyini alanda onların psixi vəziyyətləri necə olur? Bunlar bir sıra məsələlərdir ki, onların mahiyyətini dərk etmək mümkün deyildir. Bir çox qeybi məsələlər kimi (Allahın zatı və sifətləri, cəhənnəmin mahiyyəti və qiyamət günü kimi məsələlər) ona da inanmalıyıq. Əgər ki öz kiçik aglımızla onun mahiyyətini bilməsək də belə.

Bu fikirin müqabilində, bəziləri vəhyi peygəmbərlərin zəkasından törənmiş bir şey kimi qiymətləndirərək onu dəyərdən salmaq istəmişlər. Bunların fikrincə peygəmbərlər ilə başqa zəkalılar arasında heç fərq yoxdur, hər ikisinin məfkurələri onların fikrindən və zəkasından törənmişdir.

Bu fikri irəli sürənlər deyirlər ki, yaradılış sistemi xeyirxah və zəkalı şəxsləri öz ətəyində becərib tərbiyə edir. Onlar öz yüksək fikir və zəkalarına görə cəmiyyəti ictimai ədalətə riayət etməyə, yaxşı əməllərə, gözəl əxlaqiyyata və s. çagırıb bununla insanın səadəti üçün mütərəqqi addımlar atmışlar. Onların qanun və ayin adında xalqa verdikləri şey, onların yüksək fikirlərinin və zəkalarının nəticəsidir. Onlar heç vaxt başqa bir aləmlə əlaqədə olmamışlar.

Həmçinin deyirlər ki, vəhyin mənşəyi insanın əqlidir və adi bir idrakdır. Tarix boyu hər bir əsirdə insan fikrinin ən yüksək cilvələnməsinə malik olan bir sıra zəkalı şəxslər büruz etmiş və insanlıq aləminə xidmət etmişdir. Onlardan bəziləri daha bir fikir sürüb zəkanın səbəbini bir sıra psixi hadisələrin baş verməsi ilə əlaqədar bilərək səy etmişlər ki, belə bir mövhumları peyğəmbərlərin yaşayışında da axtarsınlar. Onların fikrincə zəka və istedadın inkişafına səbəb olan şeylər aşağıdakılardır:

1. EŞQ

Bu amil ən qüvvəli və enerjili fikirləri yaradır. Çünki eşq hər hansı bir şeyə və ya şəxsə, yaxud məqsədə məhəbbət, fövqəladə sevgi bəsləmək və möhkəm diqqət yetirmək deməkdir. Hər kəsdə belə bir cazibə və məhəbbət yaransa, onun bütün cismi və ruhi qüvvələrini hərəkətə gətirib həyəcanlandırır, habelə onun eşqi və sevinci ilə münasibətdə olan fikir və düşüncəsi qüvvələnir və canlanlır.

2. ƏZİYYƏT ÇƏKMƏK VƏ ZÜLM GÖRMƏK

Əziyyət çəkən düşüncəni zülmə qarşı durmaq üçün işə salır.

3. ƏQƏLİYYƏTDƏ OLMAQ

Namünasib və ağır şəraitdə olmaq fikri işə salmaqda ən mühüm amildir. Çünki bir əqəliyyət cəmiyyətdə tutduğu fasiləni doldurmaq üçün fikrini işə salır və fikirləşir. Nəhayət istədiyidə əldə edə bilir.

4. UŞAQLIQ

Uşaq bu yaşında çətinliklərlə mübarizə aparmağa hazır olmadığı üçün daima fikirdə olur və bu da uşağın fikrini aydınlaşdırır.

5. TƏNHALIQ

Dustaqda olmaq insanın düşüncəsini artırır. Çünki başqaları ilə olduqda az müddətdə olsun öz düşüncə və beynimizi başqalarının ixtiyarına verəciyik.

İşsizlik və sükut iradənin az fəaliyyət etməsinə və qeyri-iradi düşüncələrin azadlıqla cərəyan etməsinə və sürətləndirməsinə səbəb olur.

6. İLK TƏRBİYƏ

İlk tərbiyə istedadının çiçəklənməsində böyük rol ifa edir.

Bu sözlərdən sonra bu nəticəni əldə edirlər ki, bu səbəblər və həmçinin cəmiyyətin fasidliyi və qanunsuzluğu peyğəmbərin ictimai problemlər barəsində düşüncə və fikirlərinin sürətlənməsində və xalqa yaşayış və həyat üçün yeni bir yolu göstərməsinə səbəb olsun.

## BU TƏSFİRİN ÇATIŞMAMAZLIĞI

Bu kimi fikirlərə malik olanlar o şəxslərə bənzəyirlər ki, əvvəlcə iddialarını hazırlayıb sonra dəlil ardınca düşürlər. Onlar varlıq aləmində maddədən başqa bir şeyə inanmamaqları və qeyb aləmini insanın mövhumatından törənməsinə inandıqları üçün, başqa aləmlə əlaqədar olan mövzuları da elə həmin yolda şərh edirlər.

Maddi məfkurələrin əsas xüsusiyyətlərindən biri budur ki, insanın naqis biliyi və materialistliyi yetərsiz prinsipləri vasitəsi ilə bütün həqiqətləri yozmaq istəyir. Bu səbəbdən maddi tərz-təfəkkürə malik olanlar vəhy və peyğəmbərlik məsələsini də dediyimiz yolda həll etmək istəyirlər. Amma bundan qafildirlər ki, insanın səadətini təmin edən ən yüksək qanunların və fəsləfi-elmi həqiqətlərin qaynağı olan vəhyi bu şəkildə əsaslandırmaq buna bənzəyər ki, deyək dünyanın müəyyən bir nöqtəsində baş verən zəlzələ bir heyvanı şikar etmək üçün atılan güllənin və ya ətraf kəndlərin birində bir evin uçması nəticəsində olmuşdur.

Amma bu amillər insanın qeyri-iradi fikrini sürətləndirir və gizli istedadı zahir edir. Amma heç vaxt elə bir peyğəmbər yaratsın ki, onun səma kitabı on dörd əsrdən sonra bütün zəkalələr məfkurəsi arasında bir parlaq məşəl kimi işıldasın və elə bir mədəniyyət yaratsın ki, hələ bəşər

mədəniyyəti tarixi onun mislini göstərə bilməmiş və elə bir əxlaqiyyat, yaşayış tərzi, təbiət aləmi ilə əlaqədar qanunlar və fəlsəfi-əqli maarif sahəsində elə nəzəriyyələr irəli sürmüşdür ki, həmişə öz möhkəmliyini və səbatını müxtəlif sahələrdə qoruya bilsin.

## BU NƏZƏRİYYƏ ÖZ DEDİKLƏRİNİN XİLAFINADIR

Əgər vəhy məntiqi bu növ şəxslərin öz zəkaları ilə əlaqədardırsa, bəs nə üçün onlar öz maarif, bilik və qanunlarını başqa bir aləmə bağlayır və açıq-aşkarcasına özlərindən olmasını rədd edirlər və deyirlər:

إِنْ أَتَّبِعُ إِلَّا مَا يُوحَىٰ إِلَيَّ

***«Mən ancaq mənə vəhy olan şeydən tabeçilik edirəm».***[1]

Əgər ki deyirlər:

إِنْ هُوَ إِلَّا وَحْيٌ يُوحَىٰ

***«Bu, ancaq (Allah dərgahından) nazil olan bir vəhydir».***[2]

Əslində dünyada iki növ «islahatçı» vardır. Bəziləri islahat şüarlarını öz fikirlərinin və ya partiyalarının nəticəsi bilirlər.

Onların qarşısında bir dəstə də vardır ki, Allah naminə qiyam edib xalqı ona doğru çağırır və cəza verilməsindən qorxudub, mükafatla sevindirərək öz islahat proqramlarını həyata keçirirlər.

Bu halda bu fərqlə belə hər iki dəstəni vahid bir qaynaqdan bilməyimizin və hamısının zəkadan törənməsini tanırdırmağımızın mənası yoxdur.

Birinci dəstə üçün məqsəd və hədəf birinci dərəcədə şəxsin özüdür. Əgər əxlaqi fəzilətlərə malikdirsə, ikinci dərəcədə öz qohum-əqrabası, ailələri məqsəd olur. Aləmdə hər nə vardırsa özlərinə, ailələrinə, qohumlarına və yaxın adamlarına istəyirlər. Dağa, daşa, yerə, göyə, hətta elmə və əxlaqa öz ehtiyacları və onlarla necə dolanmaqları cəhətindən diqqət edirdilər. Hətta Allaha diqqət edib dua etmələri də sağlamlaşmaqları və dünya işlərində öz amal və arzularına çatmaqları üçündür. Deməl, mənəviyyatı da öz dünyaları yolunda işlətməyə çalışırdılar.

Amma ikinci qrupun məktəbi onların məktəbinin əksidir. Peyğəmbərin çağırışı Kopernikin, Bətləmiyusun nəzəriyyəsi əsasında qurulmuş astronomiya elminin yaratdığı inqilaba və dəyişikliyə bənzəyir. Kopernik Günəşə Yerin nisbi vəziyyəti barəsində olan alimlərin nəzəriyyələri sistemini tam dəyişdi. Kopernikdən qabaq, hamı Yeri dünyanın mərkəzi bilib Günəşin və bütün göy cisimrələrinin Yerin başına dolanmasını zənn edirdilər.

---

[1] «Ənam» surəsi, ayə 50.

[2] «Nəcm» surəsi, ayə 4.

Kopernik dedi: «Həqiqət bunu əksinədir; biz aləmin mərkəzi deyilik, Yer özü Günəşin ətrafına fırlanır».

Peyğəmbər olmayanların - istər avam olub özünü istəyən, istərsə də ziyanlı olub həmnövlərinin də istəyən olsun - səyrinin əsas məqsədi insanın özü və ya insanın növüdür. Hər bir şey insanın qulluğunda olmalıdır.

Amma peyğəmbərlər üçün məqsəd və əsas Allahdır. Və allahpərəstlik, əqidə və axirət üçün hazırlanmaq sayəsindədir ki, islah olunmalıdır.

## ƏLLİ BEŞİNCİ DƏRS

## BİR ŞƏXSİN GÜNAHDAN MƏSUM OLA BİLMƏSİ NECƏ MÜMKÜNDÜR?

Rəhbərlik məsuliyyətindən də mühüm və həssas bir məsuliyyət varmı? Görəsən bir şəxsin bir sıra cismi və ruhu məsuliyyətləri olmadan – həyatın hətta müəyyən bir cismində də olsun belə – cəmiyyətə rəhbərlik edə bilərmi ki, səma rəhbərlərinə məxsus olan cəmiyyəti bütün maddi və mənəvi sahələrdə rəhbərlik etsin? Sadəcə siyasi problemlər sahəsində ölkəyə rəhbərlik edən siyasi rəhbərlər və ya ölkənin büdcəsi və iqtisadiyyatı əllərində olan iqtisadi məsələlər barəsində ixtisasçı alimlər, başqalarına nisbətən bir sıra üstün sifətlərə və şəraitlərə malik olmadan, heç vaxt ölkənin iqtisadi və siyasi rəhbərliyini əllərinə ala bilməzdilər.

Bununla, cəmiyyətin bütün yaşayış sahələrində həqiqi rəhbəri olan səma peyğəmbəri də onların rəhbərlik mövqeyini möhkəmləndirən bir sıra üstün sifətlərə və yüksək məziyyətlərə malik olmalıdırlar. Əslində bu məziyyətlərə malik olduqları üçün belə bir mühüm məsuliyyət onların öhdələrinə qoyulmuşdur. Həmin məziyyətləri aşağıda qısa olaraq qeyd edirik:

1) Günahdan və Allaha üsyan etməkdən məsum olmaq.

2) Allah hökmlərini öyrənməkdə səhv etməmək və xalq arasında yaymaq.

3) Təbliğ edəcəkləri şeylər haqqında geniş və kifayət qədər məlumata malik olmaq.

4) Xalqın nifrətinə səbəb olan və təbliğin təsirini azaldan bir sıra cismi və ruhi eybəcərlikdən uzaq və pak olmaq.

Deməli, bu dörd məziyyətin hər tək-təkinin üzərində dayanmaq lazımdır.

## BİR ŞƏXSİN GÜNAHDAN MƏSUM OLAMASI NECƏ MÜMKÜNDÜR?

İsmət bir daxili qüvvə və nəfsi sifətdir ki, o sifətə malik olan şəxsi günahı fikirləşməkdən və günah iş görməkdən saxlayır. Başqa bir sözlə, batində Allahdan qorxmaqlıqdır ki, şəxsi günahdan və hətta günahı fikirləşməkdən və günah işi görmək üçün qərara gəlməkdən qoruyur.

Burada bu sualla rastlaşırıq ki, bir şəxsin bütün günahları qarşısında məsum olması necə mümkündür? Bu sualın cavabı budur ki, günahdan məsum olmaq günahın pisliyinə və fəsadına agah olmaqdan irəli gəlir. Əlbəttə, bu o demək deyilki, günahın pisliyini bilmək hamıda məsumluq və günahdan qorunma sifəti törədər. Bu barədə elm bir o qədər qüvvəli olmalıdır ki, günahın əsərlərini insanın nəzərində elə təcəssüm etdirib

aydınlaşdıra ki, insanın öz işlərinin nəticəsində bəsirət gözü ilə mövcud olmuş bilsin, bu halda onun günah iş görməsi təxminən qeyri-mümkün olur. Və heç vaxt günah işi də belə görmür. Sözümüz bir az izah edirik:

Bizim hər tək-təkimiz varlığımızı hədələyən xarici işlərə görə bir növ ismətimiz vardır. Bu ismət həmin işlərin tələbatına agah olduğumuzdan irəli gəlir.

Misal üçün: hər bir ağıllı və həyatını sevən şəxs, canını hədələyən bir zəhər qarşısında və ya lüt bir halda bir elektrik siminin qarşısında və yaxud «cüzam» və «bərəs» xəstəliyinə düçar olan xəstənin artıq qalmış qidası qarşısında bir növ ismətə malikdir. Yəni insan heç vaxt bu işi görməz, bu işləri görmək təxminən qeyri-mümkündür. Bu ismətin səbəbi həmən əməllərin öldürücü təsirlərini zehndə təcəssüm etdirməkdir. Bu təsirlər onun nəzərində elə təcəssüm edilir ki, onun nəticəsində hətta belə bir işləri görməyə əsla fikirləşmir, hələ qalsın bu işləri görməyə əl atsın.

Biz bəzi adamları görürük ki, yetim malını yeməkdən heç də çəkinmirlər, amma bəziləri də bir zərrə qədərində haram mal yeməkdən belə çəkinirlər. Nə üçün birinci dəstə haram mal yeyib çarəsizlərin əmlakını dağıdırlar, amma ikinci dəstə heç bir təcavüz etmirlər? Bunun səbəbi odur ki, birincisi bu üsyanın nəticəsində əqidəsi yoxdur və ya əgər bir azacıq da imanı və əqidəsi olmuş olsa, dünya ləzzətləri onun bəsirət gözü qarşısında elə bir örtük çəkmişdir ki, o əməlinin təsirlərindən və nəticəsindən bir şey dərk etməyir. Amma ikincisi elə bu günahın təsir və nəticəsinə agahlığı vardır ki, yetimin hər bir zərrə malı onun gözündə bir od qorası kimi görünür və bu cəhətdən ona yaxın düşməyir. Çünki o, bəsirət gözü ilə yetim malının necə oda çevrilməsini görür. Elə bu səbəbə görə belə bir günah işi görməkdən çəkinir və təxminən günahdan qorunur.

Əgər birinci şəxs də ikinci şəxs kimi elə agahlığa və dərrakəyə malik olsa, o da ikinci şəxs kimi nahaq yerə birisinin malına əl uzatmaqdan çəkinər.

Qurani-Kərimin qızılı və gümüşü xəzinədə cəm edib onun vacib hüququnu ödəməyənlər barəsində deyir:

يَوْمَ يُحْمَىٰ عَلَيْهَا فِي نَارِ جَهَنَّمَ فَتُكْوَىٰ بِهَا جِبَاهُهُمْ وَجُنُوبُهُمْ وَظُهُورُهُمْ هَٰذَا مَا كَنَزْتُمْ لِأَنْفُسِكُمْ فَذُوقُوا مَا كُنْتُمْ تَكْنِزُونَ

***«O gün (qiyamət günü) yığdıqları qızıl-gümüş cəhənnəm atəşində qızdırılıb alınlarına, böyürlərinə və kürəklərinə dağ basılacaq (və onlara): «Bu sizin özünüz üçün yığıb saxladığınız mallardır. Yığdığınız mal-dövlətin (əzabını, acısını) dadın!» - (deyiləcəkdir!)»***[1]

Əgər bəzi ehtikarçıların bu mənzərəni öz gözləri ilə müşahidə edib öz yoldaşlarının necə əməllərinin cəzasına çatmasını görsələr və sonra onların o cür cəzalandırılmalarına dair verilən xəbərdarlığı eşitsələr, onlar

---

[1] «Tövbə» surəsi, ayə 35.

dərhal özlərinin basdırdıqları və xəzinədə cəm etdikləri sərvətləri aşkara çıxardarlar.

Bəzən həmin aləmdə bəziləri ilahi cəzalarının görkəmin müşahidə etmədən bu ayənin möhtəvasına elə iman gətirirlər ki, o imanın təsiri, o günahın təsirini müşahidə etmək təsirindən az deyildir. Elə inanırlar ki, əgər bu dünyanın örtükləri aradan qaldırılarsa, onların imanlarında bir zərrə də olsun fərq törənməz. Bu halda həmin şəxslər bu günah qarşısında (qızıl və gümüşü xəzinədə cəm etmək) bir növ ismət tapılar. Yəni heç vaxt qızıl və gümüşü xəzinədə cəm və etikap etməzlər.

İndi əgər bir şəxs və ya bir qrup bütün günahlara nisbət belə bir halətə malik olsa və ilahi əzaba və cəza onlara elə qəti və hətmi olsa ki, örtüklərin və maniələrin aradan getməsi onların imanında heç təsir etməsin, bu halda o şəxs ya qrup bütün günahlar qarşısında tam ismət sifətinə malik olurlar. Onlar günah iş görmədikləri halda heç günaha da fikirləşmirlər.

Bununla məsum şəxslərdə ismət, möhkəm imanın və əməllərin cəzasına qəti surətdə agahlıq tapmağın tam bir-başa təsirindən olur. Hər şəxs bəzi şeylərdə bir növ ismətə malikdir. Amma peyğəmbərlər Allahın böyüklüyünə tam agah olduqları və əməllərin cəzasına tam yəgin etdikləri üçün bütün günahlar qarşısında tam ismətə malikdirlər; həmin elm və agahlığın nəticəsində bütün günah amilləri və insanın tüğyan edici istəkləri onlarda kontrol olunmuş və heç vaxt Allahın müəyyən etdiyi cızıqdan xaric olmurlar.

Sonda bir sözü qeyd etmək istəyirik və o da budur ki, baxmayaraq ki, peyğəmbərlər bütün günahlar və üsyançılıq qarşısında məsumdurlar, amma bu o demək deyildir ki, daha günah iş görməyə qadir olmasınlar və Allahın əmrlərini itaət etmək məcburiyyətində olsunlar.

Onlar başqa insanlar kimi hər iş görməyə azaddırlar və itaət, yaxud üsyan etməyə qadirdirlər. Amma varlıq aləmi barədə malik olduqları geniş elmin nəticəsində bəsirət gözü ilə əməllərin nəticəsini görür və şəriət dilində əməllərin cəza və mükafatı adlanan nəticəsində agahdırlar. Bu cəhətdən hər növ günahdan və üsyandan çəkinirlər.

Misal olaraq bu məsələyə diqqət edin: Bəhsə yer yoxdur ki, Allah hər bir pis işi görməyə qadirdir, amma heç vaxt Allah ədalətinin xilafına olan pis bir işi görməz. Amma onun bu növ işləri görməməsi onun qüdrətsizliyinə dəlil deyildir.

Məsum şəxslər də günaha nisbət həmin halətə malikdirlər. Onlar günah iş görməyə tam qüdrətli olduqları halda, günahın dövrəsinə belə dolanmazlar.

## ƏLLİ ALTINCI DƏRS

## NƏ ÜÇÜN PEYĞƏMBƏRLƏR MƏSUM OLMALIDIRLAR?

İndi ismətin mahiyyətindən və onun səbəblərindən agah olandan sonra lazımdır ki, ismətin üç dərəcəsi barədə izah verək. İsmətin mərhələləri bunlardan ibarətdir:

1. Məbdə və məada və digər din prinsiplərinə inam baxımından ismətli olmaq.

2. Allahın tərəfindən təbliğ edilməsinə məmur olduğu hökmləri bəyan etməkdə məsum olmaq.

Yəni peyğəmbər ilahi hökmləri bəyan etməkdə səhv etməməlidir və Allahın sözünü təhrif etməməlidir.

3. Əmal və əfal baxımından məsum olmaq, yəni peyğəmbərin danışığı və davranışı Allahın ayininə uyğun olmalıdır və üsyan etməməlidir.

Birinci bənddə dediyimiz ismətdə bütün əqidə alimləri vəhdət təşkil edirlər. Yəni hamısının buna əqidələri vardır ki, peyğəmbərlər ömürlərinin başa-başında mömin və müvəhhid olmalıdırlar. Bir an da olsun küfrə düşməməlidirlər. Onun bütün pis sifətlərdən uzaq bilməli, qiyamət gününə və əməllərin cəzasına inanmalıdırlar. Nəhayət, tam bir sağlam əqidəyə malik olmalıdırlar.

Təbliğ mərhələsində ismətin mənası budur ki, peyğəmbərlər aldıqları vəhyi azaldıb-çoxaltmadan xalqa çatdırımalıdırlar. Allaha yalan bağlamamalı və onun göstərişlərində təhrif etməməlidirlər. Bu barədə də bütün əqidə alimləri eyni fikrə malikdirlər. Hamısı birlikdə peyğəmbərləri Allaha və şəriətə yalan bağlamaqdan pak və uzaq bilirlər. Bu ismətin dəlili aydındır. Çünki peyğəmbəri yollamaqdan məqsəd xalqı ilahi səadətə rəhbərlik etməkdir və bu işi görmək üçün elə bir şəxs lazımdır ki, yalandan və təhrif etməkdən uzaq olsun, yoxsa məqsədin xilafına olar və öz məqsədini sevən şəxs belə bir işi görməz.

Amma üçüncü mərhələdə peyğəmbərlərin təbliğlə əlaqədar olmayan əmal və əfalları sahəsində məsum olmaları mövzu-bəhs olur. Bu hissədə alimlərin müxtəlif nəzəriyyələri vardır. Şiə alimlərinin nəzərlərinə əsasən, peyğəmbər ömrünün başa-başında günahdan, aludəlikdən, danışığında və davranışında azğınlıqdan uzaq olmalıdır. Onların öz iddiaları üçün möhkəm dəlilləri vardır ki, gələcək dərslərimizdə onları izah edəcəyik.

## ƏLLİ YEDDİNCİ DƏRS

## İLAHİ PEYĞƏMBƏRLƏRİN MƏSUM OLMASINA DAİR BİRİNCİ SÜBUT: ƏMƏLİ TƏRBİYƏ

Peyğəmbərlərin göndərilməsindən məqsəd insanları hidayət etmək və tərbiyə etməkdir. Tərbiyədə təsirli olan amillərdən biri budur ki, tərbiyəçi xalqı özünə cəzb etmə xüsusiyyətinə malik olsun. Misal üçün, əgər tərbiyəçi gözəl nitqə, yaxşı və şirin danışığa və aydın məntiqə malik olsa da belə, amma həyatında xalqın nifrətinə səbəb olan işlər görmüş olsa, bu surətdə xalqı öz başından dağıdıb uzaqladar. Belə olan halda, besətin məqsədi təmin olunmaz və heç bir məqsəd əldə edilməz. Buna görə də gələcəkdə deyəcəyimiz kimi ilahi peyğəmbərlər xalqın nifrətinə səbəb olan bir sıra cismi və ruhi naqislikdən uzaq olmalıdır ki, besətin əsas məqsədi təmin olunsun.

Xalqın bir rəhbərdən nifrətli olmasının ən mühüm səbəbi odur ki, xalq onun dediyi ilə əməlini eyni görməsin və onun əməli ilə dediyi arasında ziddiyyət olsun. Bu surətdə onun hidayətinin əsassız olmasından əlavə, peyğəmbərliyi də şübhəli olar.

Şiənin böyük alimi Seyyid Mürtəza bu dəlili bu şəkildə açıqlayır:

Günaha aluddə olmasını ehtimal verdiyimiz və günahdan çəkinməsinə inana bilmədiyimiz şəxsin sözlərinə könüldən qulaq asmarıq və həmçinin, öz dediyinə əməl etməyən şəxsin sözü bizdə heç vaxt təsir buraxa bilməz.

Ümümxalqın gözü önündə günah iş görməyin əks-təsiri heç də həyasız və ağılsız tərbiyəçisinin əks-təsirindən az deyildir. Ağılsızlıq və həyasızlıq xalqın tərbiyəçiyə sarı yönəlməyinin qarşısını aldığı kimi, günaha aludə olmaq və sözlə əməlin bir-birinə zidd olması da xalqın ona sarı yönəlməsinin qarşısını alar.

Spirtli içkilərin ziyanları barəsində kitab yazan bir həkim, xalqın gözü önündə həmən içkiləri içərsə, onun bütün zəhmətləri təsirsiz olub heç bir nəticə bağışlamaz.

Tutalım ki, bir partiya rəhbəri hər gün masa arxasında oturub ədalət və bərabərlik barəsində çıxış edir, amma özü əməldə xalqın əmlakını qarət edib talayır. Belə bir halda onun pis əməli öz sözlərini təsirsiz və faydasız edir.

Allah həmin məqsədi əldə etmək üçün öz göndərdiyi şəxslərə elə bir elm, iman və özünü qoruma qabiliyyəti verməlidir ki, bütün günahlardan özlərini qoruya bilsinlər.

Buna görə peyğəmbərlər məbus olduqları gündən sonra günaha yaxın olmazlar. Bundan əlavə, məbus olduqdan qabaq da həyatları hər hansı bir aludəlikdən pak və təmiz olmalıdır. Çünki öz ömrünün bir hissəsində günahkarlıqla məşğul olan şəxsin xalqın qəlbində buraxdığı mənəvi təsiri,

keçmişi aydın və hər hansı bir günahdan uzaq olan şəxsin mənəvi təsiri ilə müqayisədə çox azdır.

Allahın üstün hikməti tələb edir ki, öz göndərdiyi şəxsdə və peyğəmbərdə təsir etmə qüvvəsini yaratsın və onu hər hansı bir nifrət gətirən amildən uzaq etsin. Açıq-aşkardır ki, insanın keçmiş yaramaz və pis işləri onun sözlərinin təsirini və xalqda nüfuz etmə qabiliyyətini azaldar. Xalq ona xitabən deyər ki, sənin özün dünənə kimi bu pis işlərlə məşğul idin, xalqı bu işlərdən çəkindirməyinin səbəbi nədir? Bu sübuta diqqət edərək, peyğəmbərlərin həm besətdən qabaq bə həm də besətdən sonra məsum olmaları sübut edilir.

## ƏLLİ SƏKKİZİNCİ DƏRS

## İLAHİ PEYĞƏMBƏRLƏRİN MƏSUM OLMASINA DAİR İKİNCİ SÜBUT: RƏĞBƏT VƏ ETİMAD QAZANMAQ

Peyğəmbərlərin ən yüksək məqsədi olan təlim və tərbiyəni mühüm və əsas şərti tərbiyə olunan şəxsin öz tərbiyəçisinin sözlərinin doğru olmasına inamasıdır. Çünki insanın rəqbəti və meyli onun iman və etiqadı ilə tam bağlıdır. Əgər iqtisadi, ictiman və səhiyyə sahəsində olan bir proqram bir elmi və ali şurada təsdiq olunarsa, xalq onu yaxşı qarşılayar. Buna görə ki, alimlər şurasının nəzərinin səhv olması etimalı çox azdır. Əgər məzhəbi rəhbərlərin günah iş görmələrinə etimal versək, qəti olaraq onların həqiqəti təhrif edib yalançı olmalarına da ehtimal verərik, bu sürətdə biz onlarının dedikləri sözə inanmarıq və nəhayət peyğəmbərlərin göndərilməsindən bir fayda əldə edilməz.

Mümkündür belə deyilsin ki, xalqın etimadını qazanmaq üçün onların yalandan uzaq olmaları kifayət edər. Daha onların başqa günahlardan çəkinib-çəkinməmələrinin etimad və inamla heç bir əlaqəsi yoxdur.

Bu sualın cavabı çox aydındır. Necə ola bilər ki, bir şəxs hər nə olsa da yalan deməyə hazır olmasın, amma xəyanət və iffətsizlik kimi başqa günahlardan çəkinməsin? Müvəqqəti ləzzəttələblik üçün hər hansı bir qanun-qaydaya zidd olan işi görməyə hazır olan şəxs, hecə yalan danışmaz. Diqqət etməliyik ki, insanı hər hansı bir günahdan saxlayan şey batini qüvvə, Allahdan olan qorxu və özünü qoruma qabiliyyətinə malik olmaqdır. Necə ola bilər ki, özünü yalan danışmaqdan qoruya bilsin, amma ümumxalqın yanında daha pis olan başqa günahlardan özünü qoruya bilməsin?

Biz bunu qəbul etsək də, xalq heç vaxt belə bir şeyi qəbul etməz.

Bundan əlavə, günahlara aludə olmağın özü xalqın nifrətinə səbəb olur və bu halda yenə natiqə etimad etməyib və inanmazlar.

أُنْظُرْ اِلَى مَا قَالَ وَ لَا تَنْظُرْ اِلَى مَنْ قَالَ

«Natiqin öz şəxsiyyətinə deyil, onun danışığına diqqət et».

Bu söz isə sadəcə natqin şəxsiyyəti ilə onun sözünü ayıra bilən xalq üçün təsirlidir. Amma camaatın əksəriyyəti elə deyildir. Əksər hallarda xalqın çoxu üçün natiqin şəxsiyyəti, paklığı, təizliyi və qidasəti (müqəddəsliyi) əhəmiyyətlidir. Deməli ismət və günahdan çəkinmə sifəti peyğəmbərlik məqamına çatdıqdan sonra peyğəmbərə lazım olduğu kimi, peyğəmbərliyə çatmamışdan da həmin şəxsə lazımdır. Çünki uzun müddət ərzində ömrünü günah işlərdə, cinayətkarlıqla və xəyanətlə sovan şəxs və həmçinin, uzun müddətlər ərzində zülmlə məşğul olan adam, sonralar tövbə edib təqva, iffət, ehsan və yaxşılıq carçısı olsa da belə, xalq

onun dəvətinə bədbin olub inanmaz. Xalq belə təsəvvür edər ki, o riyakarlıqla xalqı aldatmaq istəyir. Buna görə də xalq onun dediyinə inanmaz.

***

Bundan əlavə, bir şəriətin ehkam və etiqadlarını qəbul etmək təcrübə, istidlal və sübutlar vasitəsi ilə olmur ki, peyğəmbər də bir filosof və müəllim kimi sübutlar vasitəsi ilə öz sözlərini sübut etsin. Şəriət vəhyə və səmavi təlimlərə əsaslanır. Bəşər sadəcə yüz illər ərzində onun mövcudiyyət səbəbini və sirrini açıqlaya bilir. Bu kimi mövzular sahəsində rəhbərlik etməyin şərti budur ki, o rəhbərin tərəfdarlarında elə bir etimad və inam yaransın ki, ondan eşitdikləri sözü tam real və Allah sözü kimi bilsinlər. Xalq arasında keçmişi təmiz və pak olmayan rəhbərə qarşı belə bir etimad heç vaxt yaranmaz.

## ƏLLİ DOQQUZUNCU DƏRS

## SƏHVDƏN UZAQ OLMAQ

Bu behsdən məqsəd bunu aydınlaşdırmaqdır ki, peyğəmbərlər gunahdan uzaq olmaqdan əlavə, Allahın köməyi ilə hər hansı bir səhv etməkdən də uzaq olmalıdırlar. Peyğəmbərlərin səhv etməsi üç şeydə ola bilər ki, qısaca olaraq onları izah edirik:

1) Allahın əhkamını təbliğ etməkdə səhv etmək.

2) Namaz qılmaq kimi şəxsi işlərdə və ya günahsız adamı öldürmək kimi ictimai işlərdə səhv etmədikləri kimi məzhəbi vəzifələrinə əməl etməkdə səhv etmək.

3) Gündəlik işlərdə səhv etmək.

Təbliğdə səhv etmək dediyimiz dəlillərə əsasən qeyri-mümkündür. Çünki təbliğ sahəsində səhv etmək, xalqın onun təlimatına olan inamını itirər. Tərbiyənin birinci təməli tərbiyəçiyə təlimlərinin bir hissəsində səhv etməsini ehtimal versək, özümüzdə onun təlimlərinə görə bir rəğbət hiss etmərik. Buna görə ideologiya alimləri bu barədə eyni fikirə malikdirlər.

Başqa bir ibarətlə, əgər biz peyğəmbərin təlimlərindən səhv etməsini ehtimal veririksə, bəs hansı dəlilə görə onun göstərişlərində itaət etməliyik. Siz onun bir proqramını nəzərə alın, əgər ehtimal versəniz ki, o vəhy qaynağından mətləbi almaqda səhv edibdir, bu surətdə onun sözündən itaət etməzsiniz.

Camaatın rəğbətini və etimadını qazanmaq tərbiyyəçinin əsas işidir. Buna görə lazımdır ki, onu din və məzhəb haqqında hər hansı bir səhvdə uzaq bilək. Belə olmazsa besətdən bir məqsəd əldə edilməz. Hikmətli Allah isə səhv edən peyğəmbərləri səfərbər etməz. Çünki onda məqsəd təmin olunmaz.

Məzhəbi vəzifələrə əməl etməkdə səhv etməkdə iki fikir vardır.

Böyük islam alimləri peyğəmbərlərin bu sahədə səhvdən uzaq olmalarına inanırlar. Bunun səbəbi aydındır. Çünki cəmiyyəti islah və tərbiyə etməkdə əsas rol oynayan camaatın inamını qazanmaq mövzusu bunu tələb edir ki, peyğəmbər öz dini vəzifəsinə əməl etmək məqamında da səhvdən uzaq olsun. Çünki bu sahədə səhv etmək tədrici olaraq, xalqın, onun təlimləri barəsində şübhəli olmasına səbəb olar. Xalq belə düşünər ki, «öz şəxsi işlərində səhv edən şəxs xalqın vəzifə və hökmünü bəyan etməkdə necə səhv etməyə bilər?»

Həmin səbəbə görə demək lazımdır ki, peyğəmbər öz adi işlərində də səhv etməz. Çünki, adi işlərdə də səhvə yol vermək xalqın etimad və inamını azaldar. Baxmayaraq ki, gündəlik və adi işlərdə buraxılan səhvin ilahi hökmlərin bəyanı zamanı buraxılan səhvlərıə heç bir münasibəti yoxdur. Mümkündür ki, bir şəxs ilahi hökmləri bəyan etməkdə heç də

səhv etməsin, amma səhv edilməsi heç nəyə zərər yetirməyən adi işlərdə səhv etsin. Alimlər üçün bu iki növ səhvi bir-birindən ayırd etmək mümkündür, amma adi xalq üçün bu iki mövzunu ayırd etmək çətin bir işdir. Bəzən elə olur ki, adi və cüzi işlərdə səhv edən şəxsin bütün təlimlərinin və sözlərinin səhv olması meydana çıxır və nəhayət onun sözlərinə olan inam və etimad aradan gedir.

## RƏHBƏRLƏRİN BƏYANATI

Bizim böyük rəhbərlərimiz məsum səhv etməsi məsələsinə öz danışıqlarında toxunmuş və onu rədd etmişlər. Xüsusilə peyğəmbərlərin həmişə köməyi olan «Ruhul-qudus»u nəzərə alsaq, səhv etmə ehtimalı aradan gedər. İmam Sadiq (ə) Müfəzzələ dedi:

رُوحُ الْقُدُسِ تَحمِلُ النُّبُوَّةَ وَ رُوحُ الْقُدُسِ لا يَنامُ وَ لا يَغفُلُ وَ لا يَلْهُو وَ لا يَسهُو

«Əziz peyğəmbərlər Ruhul-qudusun vasitəsi ilə yardım edilirlər. Onun yardımı ilə peyğəmbərlik məsuliyyətini daşıyırlar və peyğəmbərlər bu mənəvi qüvvənin yardımı ilə heç bir şeydən qəflət etmirlər və onlar səhv etmirlər».[1]

Səkkizinci İmam Rza (ə) «imamı» belə vəsf edir:

فَهُوَ مَعْصُومٌ مُؤَيَّدٌ مُوَفَّقٌ مُسَدَّدٌ قَدْ أَمِنَ مِنْ الْخَطَايَا وَالزَّلَلِ وَالْعِثَارِ

«İmam günahdan məsumdur və səhvdən, yanılmaqdan və günahda amandadır və yardım edilmiş və müvəffəq bir şəxsdir».[2]

[1] «Bəsairud-dərəcat» səh. 134.
[2] «Biharul-ənvar» cild 17, səh. 108.

## ALTMIŞINCI DƏRS

## GENİŞ MƏLUMAT VƏ KAMİL BİLİK

Peyğəmbərlərin başqa məziyyətlərindən biri də məbus olduqları məqsədə görə geniş məlumata malik olmaqlarıdır. Qırx üçüncü dərsdə dedik ki, peyğəmbərin göndərilməsindən məqsəd xalqı hidayət və təlim-tərbiyə etməkdir. Bu səbəbdən peyğəmbərlər bu iki məqsədə çatmaq üçün lazım olan elmlərə malik olmalıdırlar.

İslam peyğəmbəri bu iki xüsusiyyətdən əlavə, həmçinin hüquqların qoruyuçusu və beynəlxalq hakimiyyətin təməlçisi idi. Bu səbəbdən bu məqsəd üçün də lazım olan elmlərə malik idi.

## EYB VƏ NÖQSANDAN PAK OLMAQ

Peyğəmbərlərin başqa məziyyətlərindən biri də xalqın nifrətinə səbəb olan hər hansı bir cismi və ruhi eybəcərlikdən və nöqsandan uzaq və təmiz olmaqlarıdır. Misal üçün, acıqlanma, alçaqlıq, sirayət edən xəstəliklər və s. xalqın nifrətinə səbəb olan bir sıra amillərdir. Bu cəhətdən bütün ilahi rəhbərlər öz həyatlarında belə bir cismi və ruhi eybəcərlikdən təmiz olmalıdırlar.

Kəlam elmləri kitablarında ilahi rəhbər üçün başqa məziyyətləri də qeyd etmişlər ki, onların zərurəti məlum deyildir. Əgər ki bizim rəhbərlərimiz o məziyyətlərə malik idilər.

## MÜNDƏRİCAT

**ÖN SÖZ** ..... 4
**BİRİNCİ FƏSİL** ..... 6
**ALLAH VƏ YARADILIŞ ALƏMİ** ..... 6
**Birinci dərs** ..... 6
Tanrı haqqında tədqiqat aparmağımızın səbəbi ..... 6
**İkinci dərs** ..... 8
Allaha inanmağın müsbət və dəyərli təsirləri ..... 8
1. Qərizələrin normallaşdırması ..... 8
2. Əxlaqiyyatın və əxlaqi səciyyələrin pərvərişi ..... 9
3. Ədalətin yayılması və qanunların qüvvəyə minməsi amili ..... 9
**Üçüncü dərs** ..... 11
Ruhi böhranlar və nigəranlıqlar ..... 11
1. Hədiz-hesabsız materialistlik ..... 11
2. Çətinliklər və müsibətlər ..... 12
Ölüm əndişəsi ..... 12
**Dördüncü dərs** ..... 13
Allaha inanmağın psixi böhranların azalmasına təsiri ..... 13
Quranın göstərişi ..... 14
**Beşinci dərs** ..... 15
Fitrət yolu ilə Allahı tanımaq ..... 15
İnsanın ruhunun dördüncü xüsusiyyəti və yaxud məzhəb hissi ..... 15
1. Araşdırma hissi ..... 15
2. Yaxşılıq hissi ..... 15
3. Gözəllik hissi ..... 16
4. Məzhəb hissi ..... 16
Fitri şeylərlə fitri olmayanları necə ayırd etmək olar? ..... 16
1. Allahaxtarma hissi bir ümumi bəşəri hissdir ..... 17
2. Fitrət insanı Allaha sarı yönəldir ..... 18
3. Məzhəb hissi coğrafiya, siyasət və iqtisadiyyat amillərinin nəticəsi deyildir ..... 19
Ardı-arası kəsilməyən təbliğat mümkündür onun qarşısını alsın, ancaq onu kökdən aradan apara bilsin ..... 20
Bu sahədə bilicilərin sözü ..... 21
Quran və hədislərdə fitrət yolu ilə Allah tanımaq məsələsi ..... 21
**Altıncı dərs** ..... 23
İstidlal yolu ilə Allahı tanımaq ..... 23
Allahı tanımaq üçün ən sadə istidlal ..... 23
Nizam-intizam dəlili ..... 24
**Yeddinci dərs** ..... 25
Nizam-intizam dəlilinin üç təməli ..... 25
1. Yaradılış aləminin əsrarəngiz nizam-intizamı ..... 25
2. Hər hansı bir hadisə səbəbsiz deyildir ..... 25
3. Hər hansı bir vücudun nizam-intizam üzrə yaranması onu yaradan kimsənin hikmətli, qüdrətli və alim bir vücud olmasına dəlildir ..... 26

**Səkkizinci dərs** ... 27
Təsadüf və tədbirlə görülən işlərin fərqi ... 27
Digər misallar ... 27
**Doqquzuncu dərs** ... 31
Fəzada nizam-intizam ... 31
Bizim günəşin yeri sistemdə ... 32
Günəş ağırlığı ... 32
Günəşin hərarət dərəcəsi ... 32
Günəşin yaşı ... 32
Günəşin hərəkəti ... 33
1. Merkuri ... 33
2. Zöhrə ulduzu (axşam-səhər ulduzu) ... 34
3. Yer kürəsi yaşadığımız torpaq ... 34
4. Mars planeti (Mərrix) ... 34
5. Müştəri səyyarəsi ... 35
6. Saturn planeti (Zühəl) ... 35
7. Uran planeti ... 35
8. Neptun planeti ... 36
9. Pluton planeti ... 36
**Onuncu dərs** ... 38
İnsan vücudunda tövhidin açıq dəlilləri ... 38
İnsan beynilə elektronika beyninin müqayisəsi ... 40
Tövhid nişanələri başqa canlılarda ... 40
**On birinci dərs** ... 42
Bitki aləmində tövhid dəlilləri ... 42
**On ikinci dərs** ... 44
Nəzm dəlilini müvazinət və kontrol baxımından araşdırırıq ... 44
Canlının və bitkinin yaranmasında müvazinət vardır ... 44
**On üçüncü dərs** ... 46
Canlıların fitrətən yol tapmaları ... 46
**On beşinci dərs** ... 56
Bu tənqidlərə belə, Allaha necə inanmaq olar? ... 56
Təbii səbəblər kəşf olmaqla «Allaha» ehtiyac yoxdur ... 56
Onların sözləri budur: ... 56
Bu tənqidin cavabı ... 56
İlahi və maddi görüşün ortaq nöqtələri ... 58
Bu iki görüşün bir-birindən ayrıldığı nöqtə ... 59
**On altıncı dərs** ... 62
Allahı kim yaratmışdır ... 62
Bir açıq misal ... 63
Həmən tənqidin cavab başqa deyişlə ... 64
Sonsuz səbəblər və nəticələr batildir ... 64
**On yeddinci dərs** ... 67
Nə üçün bəzi alimlər materializmə yönəlmişlər ... 67
**On səkkizinci dərs** ... 69
Materializmə yönəlmənin səbəbləri ... 69
Birinci və ikinci səbəb ... 69
1. Allahı yanlışcasına təqdim etmək ... 69

2. Doğru bir fəlsəfənin olmaması ........ 70
**On doqquzuncu dərs** ........ 71
Materializmə yönəlmənin səbəbləri ........ 71
Üçüncü və dördüncü səbəb ........ 71
3. Darvinizm qalmaqalı ........ 71
İndi birinci sözün cavabı ........ 71
İkinci sözün cavabı ........ 72
4. Bir çox elmi fərziyyələrin batil olması ........ 72
**İyirminci dərs** ........ 75
Materializmə yönəlmənin səbəbləri ........ 75
Beşinci, altıncı və yeddinci səbəb ........ 75
**İKİNCİ FƏSİL** ........ 76
**ALLAHIN CƏMAL VƏ CƏLAL SİFƏTLƏRİ** ........ 76
**İyirmi birinci dərs** ........ 76
Yeganə Allah ........ 76
Allah birliyinə birinci dəlil ........ 76
İndi bu dəlilin izahı ........ 76
İkinci dəlil - aləmin tərkib hissələrinin həmahənkliyi və bağlılığı ........ 77
Həzrəti İmam Sadiq (ə)-in bu barədə bəyanatı ........ 78
**İyirmi ikinci dərs** ........ 79
Üçüncü dəlil ........ 79
İki Allahın aləmi idarə etməsi xarablıq və fəsad törədər ........ 79
Dördüncü dəlil ........ 80
Əgər başqa bir Allah olsaydı onun da əsərləri zahir və açkar olardı ........ 80
Beşinci dəlil ........ 81
İnsanın şüuru və fitrəti Allahın birliyinə şəhadət verir ........ 81
**İyirmi üçüncü dərs** ........ 83
Tövhid dərəcələri ........ 83
**İyirmi dördüncü dərs** ........ 86
Müqəddəs üç üqnüm ........ 86
Təslis məsələsi xristianlıların dini kitabxanalarında ........ 86
Həm birdir və həm də üç ........ 87
Qələtəndaz (səhvə salan) sözlər (səfsətə) ........ 88
**İyirmi beşinci dərs** ........ 89
Qadir Allah ........ 89
Allahın qüdrətin dəlilləri ........ 89
Fitrət yolu ........ 89
Namütənahi qüdrət ........ 90
**İyirmi altıncı dərs** ........ 91
Neçə sualın cavabı ........ 91
**İyirmi yeddinci dərs** ........ 93
Alim və bilən Allah ........ 93
Elmi-husuli və elmi-hüzuri ........ 94
Allah alimliyinə inanmağın təsiri ........ 95
**İyirmi səkkizinci dərs** ........ 96
Həyy və diri Allah ........ 96
Elm və qüdrət həyatı tələb edir ........ 96
**İyirmi doqquzuncu dərs** ........ 98

Eşidən və görən pərvərdigar ........ 98
**Otuzuncu dərs** ........ 100
Hikmətli tanrı ........ 100
Hikmətliyin başqa mənası ........ 101
**Otuz birinci dərs** ........ 103
Neçə sualın cavabı ........ 103
İnsaflı alimlər ........ 104
Məğrur alimlər ........ 104
**Otuz ikinci dərs** ........ 106
Möhtac olmayan və varlı Tanrı ........ 106
**Otuz üçüncü dərs** ........ 107
Səlbi sifətlər ........ 107
Allah cism deyil və məkanı yoxdur ........ 107
Bir məsələnin həlli ........ 108
**Otuz dördüncü dərs** ........ 109
Tanrı gözə görünməzdir ........ 109
Bir neçə misal ........ 109
**Otuz beşinci dərs** ........ 112
Allah adildir ........ 112
Ədalət nə üçün din və məzhəb prinsiplərdən (əsaslarından) sayılır. ........ 112
Təşrin və təkvini ədalət ........ 113
Təkvini ədalət ........ 113
**Otuz altıncı dərs** ........ 114
Dörd sualın cavabı ........ 114
Qısa cavab ........ 114
Birinci sualın cavabı: ........ 114
Bəlaların tərbiyəvi təsiri ........ 115
Xəbərdalıq siqnalı ........ 116
**Otuz yeddinci dərs** ........ 118
İkinci sualın cavabı (ölüm) ........ 118
İnsanın əbədiliyinin dəlili ........ 118
Üçüncü sualın cavabı ........ 119
Dördüncü sualın cavabı ........ 120
Yoxsulluq, bədbəxtlik, aclıq ........ 120
**Otuz səkkizinci dərs** ........ 121
Sübutiyyə və səlbiyyə sifətləri, zat və feil sifətləri ........ 121
Zat və feil sifətləri ........ 121
**Otuz doqquzuncu dərs** ........ 122
Bir şeirin izahı ........ 122
Allah «murid»dir ........ 122
Allah müdrikdir ........ 123
Allah qədim və əzəlidir ........ 123
Allah mütəkəllimdir ........ 123
Allah sadiqdir - (doğrucu)-dur ........ 123
Allah dəyişilmə məqamında deyildir ........ 123
**Qırxıncı dərs** ........ 125
Allahın sifətləri onun zati ilə eynidir ........ 125
Allahın sifətləri çoxluğu ........ 125

**ÜÇÜNCÜ FƏSİL** ... 127
**ALLAH VƏ PEYĞƏMBƏRLƏR** ... 127
**Qırx birinci dərs** ... 127
Mübüvvəti-ammə ... 127
**Qırx ikinci dərs** ... 129
Qanunvericilik baxımından peyğəmbərlərin göndərilməsinin lüzumu ... 129
Birinci dəlil ... 129
1. İnsan ictimai yaşamaq istəyir ... 129
2. İnsan sərhəd tanımaz bir mövcuddur ... 129
3. Bir sağlam cəmiyyət üçün qanunun zərurəti vardır ... 129
4. Qanunvericinin şəraiti nədir? ... 130
**Qırx üçüncü dərs** ... 132
Təlim-tərbiyə baxımından besətin lüzumu ... 132
Bağışlanılmaz azğınlıq ... 132
**Qırx dördüncü dərs** ... 135
İnsani elmlərin iqtisadiyyatda və əxlaqda çatışmamazlığı ... 135
Peyğəmbərlərin göndərilməsi barədə Quranın və hədislərin nəzəri ... 136
**Qırx beşinci dərs** ... 138
Möcüzənin mahiyyəti ilə tanış olaq ... 138
Ecaz (möcüzə) nədir? ... 139
Möcüzə qeyri-adi bir işdir ... 139
Bu izahdan iki nəticə alırıq ... 139
**Qırx altıncı dərs** ... 142
Möcüzə gətirən peyğəmbərlik iddiası etməlidir ... 142
Xalq onun qarşısında aciz olsun ... 142
Onun əməli iddiası ilə uyğun olmalıdır ... 143
**Qırx yeddinci dərs** ... 144
Möcüzə səbəbsiz deyildir ... 144
1. Tanınmamış təbii səbəblər ... 144
2. Peyğəmbərlərin ruhlarının və nəfəslərinin təsiri ... 144
3. Maddədən başqa səbəblər ... 145
**Qırx səkkizinci dərs** ... 147
Möcüzə peyğəmbərlik iddiaçısının doğruluğuna necə dəlil ola bilər? ... 147
Quranın bu barədə göstərişi ... 148
**Qırx doqquzuncu dərs** ... 150
Möcüzəni qeyri-möcüzədən necə ayırd etmək olar? ... 150
**Əllinci dərs** ... 153
Peyğəmbərləri tanımaq üçün başqa iki yol ... 153
**Əlli birnci dərs** ... 156
Vəhy və ya sirli xəbərləşmə vasitəsi ... 156
Vəhy və materialist alimlər ... 157
**Əlli ikinci dərs** ... 159
Vəhy nə üçün ümumi hiss deyildir ... 159
**Əlli üçüncü dərs** ... 161
Vəhy lüğət və Quran baxımından ... 161
**Əlli dördüncü dərs** ... 163
Vəhy zəkadan törənmişmi? ... 163
1. Eşq ... 163

2. Əziyyət çəkmək və zülm görmək ........ 163
3. Əqəliyyətdə olmaq ........ 164
4. Uşaqlıq ........ 164
5. Tənhalıq ........ 164
6. İlk tərbiyə ........ 164
Bu təsfirin çatışmamazlığı ........ 164
Bu nəzəriyyə öz dediklərinin xilafınadır ........ 165
**Əlli beşinci dərs** ........ 167
Bir şəxsin günahdan məsum ola bilməsi necə mümkündür? ........ 167
Bir şəxsin günahdan məsum olaması necə mümkündür? ........ 167
**Əlli altıncı dərs** ........ 170
Nə üçün peyğəmbərlər məsum olmalıdırlar? ........ 170
**Əlli yeddinci dərs** ........ 171
İlahi peyğəmbərlərin məsum olmasına dair birinci sübut: əməli tərbiyə ........ 171
**Əlli səkkizinci dərs** ........ 173
İlahi peyğəmbərlərin məsum olmasına dair ikinci sübut: rəğbət və etimad qazanmaq ........ 173
**Əlli doqquzuncu dərs** ........ 175
Səhvdən uzaq olmaq ........ 175
Rəhbərlərin bəyanatı ........ 176
**Altmışıncı dərs** ........ 177
Geniş məlumat və kamil bilik ........ 177
Eyb və nöqsandan pak olmaq ........ 177